# SACİ

**Şəhid Bəhmən Baqirinin həyat yoldaşı Nəsrin Baqirzadənin xatirələri**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...............................................Saci**
**Qələmə alan:.................. Bəhnaz Zərrabizadə**
**Tərcümə edən:..........................Ü. Hüseynova**
**Çap tarixi:................................................2020**
**Çap növbəsi:..........................................Birinci**
**Tiraj:.......................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 119-22-024519-10

## Mündəricat

Birinci fəsil ..........................................................4
İkinci fəsil ..........................................................13
Üçüncü fəsil ..........................................................60
Dördüncü fəsil ..........................................................63
Beşinci fəsil ..........................................................98
Altıncı fəsil ..........................................................127
Yeddinci fəsil ..........................................................156
Səkkizinci fəsil ..........................................................176
Doqquzuncu fəsil ..........................................................208
Onuncu fəsil ..........................................................241
On birinci fəsil ..........................................................259
On ikinci fəsil ..........................................................266
On üçüncü fəsil ..........................................................268
On dördüncü fəsil ..........................................................276
On beşinci fəsil ..........................................................308
On altıncı fəsil ..........................................................361
On yeddinci fəsil ..........................................................390

# Birinci fəsil

Anamla mənim həyatım bir-birinə çox oxşayır. Anam – Səkinə xanım uşaqlıq və gənclik dövrlərində çətin günlər yaşamış, başı çox müsibətlər çəkmiş, sonda xoşbəxt ailə həyatı qurmuşdu. Atam gəmidə çalışdığından çox vaxt günü dənizdə keçirdi. Sahildə olduğu zaman isə Həffar Berim[1] limanında lövbər salan xarici gəmilərin təsərrüfat işlərinə rəhbərlik edirdi.

Atam çox yaraşıqlı, mehriban və savadlı bir insan idi. Fars dilindən əlavə bir neçə xarici dildə, xüsusilə ingilis dilində yaxşı danışırdı. Anam atamı çox sevirdi, onunla qürur hissi duyurdu. Amma bu xoşbəxtlik uzun sürmədi. Atam cavan ikən bədbəxt hadisə nəticəsində dünyasını dəyişdi. Onun ölümü hamımız üçün ağrılı-acılı oldu; illərdən sonra həyat yoldaşımın ölümü kimi.

---

[1] Abadan şəhərinin qeyri-neft sənayesinə aid şirkətlərinin yerləşdiyi ərazidə dörd iri su kanalı qazılmışdı. Həffar Berim bu kanallardan biri idi ki, Berim məntəqəsini xurma bağlarından ayırırdı.

Bəhmən də atam kimi yaraşıqlı, mehriban və savadlı idi. Onu hələ uşaqlıq dövründən çox sevirdim, yeniyetməlik yaşına çatdıqda isə ona aşiq olduğumu hiss etdim. Bir neçə ildən sonra ailə həyatı qurduq. Onunla birgə xoşbəxt həyat sürürdüm. Hətta göydən başımıza yağan od yağışı və bombaların altında belə, hara gedirdisə, mən də onun arxasınca qaçırdım. Bu xoşbəxtlik də uzun sürmədi. Bəhmən də atam kimi cavan yaşında dünyasını dəyişdi.

Yazıq anam bu acı hadisələr üzündən, sağlığında yalnız mənim və balalarımın həyatını qurmaqla məşğul idi. O, eşqin nə olduğunu yaxşı bilirdi. Ailəsini, həyatını çox sevirdi. Atasının və həyat yoldaşının vurğunu idi. Sonralar isə bütün varlığını bizə, yəni, övladlarına və övladlarımıza həsr etdi.

Anam mənimlə balalarıma başqa bir gözlə baxardı. Bu üzdən bizim dərdimizi hamıdan çox çəkər, məhəbbəti ən çox bizə nəsib olardı.

O, dünyasını dəyişdikdən sonra qəlbimdə günbəgün böyüyüb dərinləşməkdə olan qəribə bir boşluq yarandı.

Sanki anama bütün məhəbbətim bu boşluğun dərinliklərində özünə yuva qurub. Onun üçün çox darıxıram. Heyhat! Anam mənim pənahgahım idi.

Hara gedirdimsə, arxamca gəlirdi; Xürrəmşəhrdən Şiraza, ordan Quma, Qumdan Mahşəhrə, daha sonra Tehrana, Abadana...

Xatirələrimi danışmaq istəyərkən xəyal dünyamda hamıdan çox anamı duyuram, məni tərk etdiyini həmişə olduğundan daha çox hiss edirəm. Hərdən düşünürəm, nə yaxşı ki, anam başıma gələn bu

bəlaları görmədən dünyasını dəyişdi. Çox sevinirəm ki, heç olmasa düçar olduğum son müsibətləri görmədi, bundan artıq dərdimi çəkmədi.

Bəzən taleyimdən narazılıq edirəm. Amma övladlarıma nəzər salanda sakitləşib, Allahıma təvəkkül edirəm. İnanıram ki, Tanrı Özü mənim həyat hekayəmi belə yazıb və baş vermiş bütün hadisələri anamla mənim həyatıma elə məharətlə həkk edib ki, bu iş Ondan başqa heç bir yazıçının əlindən gəlməzdi.

Anamın uşaqlıq dövrü indiyədək eşitdiyim ən qəmli sərgüzəştdir.

***

Anam Şirazın tanınmış xan nəsillərindən birinin nümayəndəsi olan Hüseynqulu xan Zaman Zamaninin qızı idi.

Hüseynqulu xan çox mərd, cəsur və zülmə baş əyməyən bir insan olmuşdur. Gənclik dövründə feodallara qarşı silahlı mübarizəyə başlamış və bu səbəbdən Rza şahın fərmanı ilə tutulub, Şirazın Kərim xan zindanına salınmışdı. İllər keçsə belə, ondan heç bir xəbər olmamışdı.

O illər ikinci dünya müharibəsinin alovlandığı vaxt idi. Müttəfiqlər İranı işğal edərək, ölkə əhalisini aclıq və xəstəliklərə düçar etmişdilər. 1941-ci ildə Fars əyalətində tif epidemiyası yayılmağa başladı. O zaman anamın altı yaşı vardı. O, ailənin ən böyük övladı idi. Anası və özündən kiçik iki bacısı ilə Fars əyalətinin Lamerd kəndində yaşayırdı. Tif epidemiyası bais oldu ki, kənd əhalisi xəstəliyə

yoluxmamaq üçün öz ərazilərini tərk etmək qərarına gəlsin. Beləliklə, yaxınlıqdakı kəndlərə köç başlandı.

Anam bəzi vaxtlar o illərin xatirələrini bizə danışardı. İnsanların xəstəliyin qorxusundan çox cüzi bir imkanla ətraf kəndlərə dəstə-dəstə köç etməsi haqqında, kimin at, kimin qatır, kiminsə piyada səfərindən danışardı. Bu amansız xəstəlik yolda onları yaxalayırmış. Anam xatırlayırdı ki, çoxları əl ağacına söykənmiş halda, ya da ki, səfər boğçalarını sinələrinə sıxmış vəziyyətdə dünyalarını dəyişmişdilər. O, xəstəlik qurbanlarının sayının az olması üçün cəsədlərin yüksəklikdən dərələrə atılmasının, yandırılmasının şahidi olmuşdu. Deyirdi ki, qonşu kəndə çatmazdan öncə, nənəsi, yəni Hüseynqulu xanın anası xəstəliyə yoluxdu və bir neçə gündən sonra qərib diyarda dünyasını dəyişdi. Balaca Səkinə bu mehriban nənəni yolda kəfənləyib dəfn etməkdə anasına kömək etmişdi. Xəstəliyin ətraf kəndlərə çatıb saysız-hesabsız insanları öldürmə xəbərini eşitdikdə, karvan əhli qərara gəlir ki, yollarına davam edib daha uzaq ellərə getsinlər. Anam ağlayıb deyərdi ki, kiçik bacımı da bu yollarda itirdim.

Səkinə və anası evin şirindil balasını bu yollarda torpağa tapşırdılar. Anam bu müsibətə davam gətirə bilməyib, gecə-gündüz əldən verdiyi sevimli, balaca bacısı üçün ağlayırdı. Anası isə dözümlü və güclü bir qadın olduğundan, müsibət qarşısında baş əymir, heç bir etiraz və şikayət etmədən, var gücü ilə bu dərdə dözürdü. Başlarına gələn bəlanın böyüklüyü o zaman duyuldu ki, başqa bir kəndin yaxınlığında anamın ikinci bacısı da tif xəstəliyinə yoluxub, bir neçə

gündən sonra dünyadan getdi. Səkinə və anası ailənin balaca, gözəl qızını o kənddə dəfn edib öz canlarını xilas etmək üçün yollarına davam etdilər. Amma tif xəstəliyi onları addım-addım izləyirdi. Neçə gündən sonra Səkinənin anası da xəstəliyə yoluxub, əldən düşdü. Ölümünün yaxın olduğunu duyan ana qızının balaca əllərini sıxıb deyir: "Səkinə can, mənim balaca qızım, sən mənim ümid və arzularımın çırağısan; dünyadan köçsəm, ümidini itirmə! Mən bacılarınla görüşmək üçün cənnətə gedirəm. Buna sevin və şadyanalıqla ömrünü davam et!" Sonra onu bağrına basıb deyir: "Əziz balam, gözümün işığı, bütün itirdiklərimin əvəzi, özünü qoru. Sən çox güclü və cəsur qızsan. Gərək çalışıb həyatda qalasan ki, atana qovuşa biləsən. Dözümlü ol və atanı axtarıb tap. Onu görəndə salamımı çatdırıb de ki, onu çox sevirdim, daim yolunu gözləyirdim. Ümid edirəm ki, ata-bala birgə xoşbəxt ömür sürəcəksiniz”. Sonra yaxınlıqdakı qadınlardan birini çağırıb, sevimli Səkinəsinin əlini onun əlləri arasına qoyub deyir: "Bircə balamı sizin yanınızda əmanət qoyub gedirəm. Qızımdan muğayat olun, ona kömək edin ki, atasını tapsın”.

Bu sözlərdən sonra ana bir qaya parçasına söykənib deyir: "Mənim üçün namaz qılıb, bir müsəlman kimi dəfn edin”. Kəlmeyi-şəhadətini söyləyir. Başını daşa dayayıb, gözləri ilə ucsuz-bucaqsız mavi səmanı süzür, ah çəkib dünyadan köçür. Onu elə həmin qaya parçasının yanında, qəm-qüssə içində, böyük ehtiramla torpağa tapşırdılar. Səkinə həmin qayanın yanında oturub, saatlarla ağlayır, ətrafdakılar qızcığazı sakitləşdirməyə

çalışsalar da, o, öz uşaq ağlı ilə bu dünyada kimsəsiz qaldığını dərk edir.

Nəhayət, Səkinəni anasından əmanət kimi qəbul edən qadın yaxınlaşıb, onu mehribanlıqla qucaqlayır və özü ilə birgə yaşadığı kəndə aparır. O kənddə tif xəstəliyindən heç bir xəbər yox idi. Camaat sakit və asudə həyat sürürdü. Bununla belə, Səkinə xəstələnib, yatağa düşdü. O, tifə yoluxmamışdı. Bir tərəfdən qəribçilik, bir tərəfdən də əzizlərinin dünyadan köçməsi qızcığazı üzmüşdü. Heç nə yemir, heç kəslə söhbət etmirdi. Kənd əhalisi bu tənha uşaq üçün əllərindən gələn heç bir köməyi əsirgəmirdilər. Onların qulluğu və zəhməti sayəsində Səkinə sağalıb, yataqdan qalxdı. Amma, o vaxtdan bəri nə bir söz deyər, nə də biri ilə danışardı. Sakit və başıaşağı olmuşdu. Vəziyyət bir neçə il bu minvalla, Hüseynqulu xanın zindandan azad olmasına qədər davam etdi. O, zindandan çıxan kimi, şad-xürrəm halda yurd-yuvasını görmək ümidi ilə atını sürətlə çapır, kəndləri və obaları bir-birinin ardınca arxada qoyurdu. Amma hansı kənddə istirahət etmək üçün dayanırdısa, əzizlərindən birinin ölüm xəbərini eşidirdi. Qaya parçasının yaxınlığındakı kənddə cavan həyat yoldaşının ölüm xəbəri Hüseynqulu xanı qəm dəryasına qərq etdi. O biri kəndin torpağında gözəl qızı əbədi yuxuya getmişdi. İki qəsəbə arasında isə ikinci şirindil balasını əldən vermişdi. Kəndlər və yollar bir-birinin ardınca xana əzizlərinin, ata-anasının ölüm xəbərini çatdırırdı. Nəhayət, doğma Lamerd kəndinə çatıb anlayır ki, burada onun yolunu gözləyəcək kimsə qalmayıb. Amansız xəstəlik

qohumlarının bir hissəsini dünyadan aparmış, o biri hissəsini isə evindən didərgin salmışdı. Hüseynqulu xan tez bir zamanda yenidən səfərə çıxır. Bu dəfə o, ailəsinin sağ qalmış yeganə üzvünü, səkkiz yaşlı qızı Səkinəni axtarmağa yola düşür. Bir neçə həftədən sonra eşitdiyinə görə, qızının yaşadığı kəndə çatır. Zindanda keçirdiyi illər gözlərinin nurunu əlindən almışdı. Torpağın üstündə oturmuş balaca qızı çətinliklə görür. Ondan soruşur ki, qızım, sən Səkinəni, mənim qızımı tanımırsan? Tif xəstəliyi onun bütün qohumlarını əlindən alıb. Özü də bu kənddə qalıb, atasının zindandan azad olmasını gözləyir. Səkinə başını yuxarı qaldırır və illər boyu susduqdan sonra ilk dəfə olaraq, qırıq-qırıq səslə söyləyir: "Mən Hüseynqulu xanın qızıyam. Adım da Səkinədir”. Atası onu qucaqlayıb deyir: "Doğrudanmı sən mənim balaca qızım Səkinəsən?!" Beləliklə, bütün bu acı hadisələrdən sonra ilk dəfə olaraq, ata balanın dodağına təbəssüm qonur, çəkdikləri əzab və çətinliklər arxada qalır. Həmin il müharibə sona çatır, işğalçı rus və ingilis silahlı qüvvələri İranı tərk edir.

Hüseynqulu xan Abadana sürgün olunur. Ali savadlı və bacarıqlı olduğundan, Abadanın neft şirkətlərinin birində neft və yük daşıma gəmilərinin kapitanı vəzifəsində işə düzəlir. O, qohumlarının axtarışına davam edir və sağ qalanları bir-birinin ardınca tapır. Hüseynqulu xan bir müddətdən sonra yenidən ailə qurur. Bir neçə il keçdikdən sonra isə on üç yaşlı Səkinəni öz qaynına ərə verir, toy mərasimi keçirib, kəbinlərini kəsdirir və Xürrəmşəhrə gəlin köçürür. Beləliklə, başı bəlalı Səkinə dönüb olur

Səkinə xanım Baqiri, yəni, cənab Qulamhüseyn Baqirinin həyat yoldaşı.

Səkinənin həyat yoldaşı çox xeyirxah, mömin və dürüst bir insan idi. Dörd illik ailə həyatı müddətində Allah onlara iki qız övladı bəxş etmişdi. Bu balaca qızlar, analarının ögey qardaşları, yəni, dayılarından yaşca çox az fərqlənirdilər. Səkinənin ikinci qızının dünyaya gəlməsinə bir neçə gün qalmış, gözlənilmədən, həyat yoldaşı xəstələnir. Onu Xürrəmşəhrin Xombe və ya "əllinəfərlik" adlanan xəstəxanasına yerləşdirirlər. İkinci qız dünyaya göz açır, amma uşağın atasının halı yaxşılaşmır. Xəstəliyi bir az da ağırlaşıb sonda böyrək çatışmazlığı ilə nəticələnir. Beləliklə, ikinci qızın dünyaya gəlişindən iyirmi gün sonra, ata həmin xəstəxanada dünyasını dəyişir. Yenidən Səkinənin çətin günləri başlayır.

Bir müddətdən sonra iki yaşlı Füruzan və bir neçə aylıq Sağər xəstələnirlər. Səkinə xanım evin xərclərini ödəmək və övladlarını müalicə etdirmək üçün qulaqlarındakı sırğaları satıb, uşaqları həkimə aparır. Həkim Dirani Səkinə xanımın uzaq qohumu olduğundan, onu tanıyıb, pərişanlığının səbəbini soruşur. O, həyat yoldaşının dünyadan köçməsi və uşaqlarının xəstəliyi ucbatından əzab çəkdiyini bildirdiyi zaman, iyirmi yaşlı, uca boy bir gənc otağa daxil olur. Bu gənc həkim Diraninin kiçik qardaşı idi. O, Səkinənin bütün sözlərini eşidir və çox narahat olur. Həkimin göstərişinə görə tif xəstəliyinə tutulan Sağəri Xombe xəstəxanasına yerləşdirirlər.

Həkimin cavan qardaşı Füruzanı qucağına alıb, Səkinə xanımla birgə uşaq üçün quru süd və dərman

almağa gedir. Həmin axşam, Diraninin ata evində ailə yığıncağında həkimin cavan qardaşı Səkinə xanımın tənhalığı, vəziyyətinin çətinliyi və Sağərin xəstəliyi haqqında danışıb, bu məsələ ilə əlaqədar, öz qərarını ailəsinə çatdırır. Ailə üzvləri onun bu fikrini alqışlayırlar. Bir neçə həftədən sonra Sağər xəstəxanadan evə qayıdan zaman, həkim Dirani ailə üzvləri ilə birgə Hüseynqulu xanın evinə Səkinə üçün elçiliyə gəlir. Hüseynqulu xan Səkinə xanımın həkimin qardaşı ilə evlənməsinə bir şərtlə razı olur ki, cavanlar toydan sonra onun ailəsi ilə birgə yaşasınlar. Beləliklə, kəbin kəsilir və mənim başı bəlalı anam dönüb olur Səkinə xanım Baqiri. Yəni, atamın – cənab Əli Baqirinin həyat yoldaşı.

# İkinci fəsil

Mən, 1966-cı ildə, Xürrəmşəhrin Milanian xiyabanında yerləşən evimizdə dünyaya göz açdım. Adımı Nəsrin qoydular. Məndən dörd il öncə bacım Nəğmə, məndən sonra isə qardaşlarım Səid və Həmid dünyaya gəlmişdilər. Böyük bacım Füruzan on dörd yaş, ortancıl bacım Sağər isə on iki yaş məndən böyük idilər. Altı yaşım tamam olanda, Füruzan ailə qurub, həyat yoldaşı ilə birgə Şiraza köçdü. Füruzan və Sağər mənimlə Nəğmə üçün analıq etmişdi, boynumuzda unudulmaz haqları vardı. Həyat elə gətirdi ki, biz də Nəğmə ilə birgə kiçik qardaşlarımız Səid və Həmidin nəzarətini üstümüzə götürməli olduq.

İndiki kimi yadımdadır ki, anam babamı çox sevərdi. Babam ailə qurub, həyat yoldaşı ilə birgə üç oğul və bir qız övladına sahib olmasına baxmayaraq, anama görə Xürrəmşəhrə köçmüşdü. Anam hər gün bizim bibi adlandırdığımız analığına kömək etmək bəhanəsi ilə evimizlə bir qədər fasiləsi olan ata evinə, atasına baş çəkməyə gedirdi. Bibi sonuncu övladını dünyaya gətirdikdən sonra ağır ruh düşkünlüyünə

düçar olmuşdu. Bu minvalla, anam hər gün atasının ailəsi üçün nahar və şam hazırlayıb, gündəlik işlərini yerinə yetirdikdən sonra öz evinə qayıdardı. Eyni halda, babam da anamı çox sevirdi. Onların bir-birinə olan bu bağlılığı atamı vadar etdi ki, Herisçi küçəsində ev alıb, babamla divar qonşusu olsun.

Yeni evə köçdükdən bir neçə gün sonra, atam evə fəhlə gətirdi və babamın həyəti ilə bizim həyət arasında olan hasarın bir hissəsini sökdürüb yerinə cəftəsi olan taxta qapı qoydurdu. Aramızdakı bu qapı heç vaxt bağlanmadı, cəftəsi isə uşaqların oyuncağına döndü.

Babamın evinin giriş qapısı arxa küçədən, bizim evimizin giriş qapısı isə dalandan idi. Atam həyətlərimizin arasında taxta qapı qoyduran gündən, babamın evinin arxa küçəyə açılan qapısı həmişəlik bağlandı və hər iki ailə bu taxta qapıdan get-gəl etməyə başladılar.

Evimizin yerləşdiyi dalanda dörd ailə yaşayırdı. Bizim evimiz dalanın girəcəyində idi. Bir az kənarda Füruzəndə xanım, daha sonra cənab İnanlu və nəhayət, dalanın sonunda cənab Xəlili yaşayırdı. Biz adətən həyətdə cənab Xəlilinin uşaqları Azər və Məhəmmədlə birgə oynayardıq. Xanım Füruzəndənin Məhəmməd, Mənsur və Məsud adlı üç oğlu vardı. Onun həyat yoldaşı neçə il öncə dünyasını dəyişmişdi. Bu ailənin böyük oğlu Məhəmməd dayım İsmayılın dostu idi. Qonşularımız da bizim kimi çox qohumcanlı və qonaqpərvər idilər. Amma babam hamıdan fərqli idi. Onu Xürrəmşəhrdə yetimlərə və kimsəsizlərə əl tutan bir şəxs kimi tanıyırdılar.

Xürrəmşəhrdəki evimiz böyük, ikimərtəbəli və qədim bir ev idi. Həyətimiz babamın evində olduğu kimi daş piltələrlə döşənmişdi. Evin ikinci mərtəbəsində doqquz otaq və böyük bir mətbəx yerləşirdi. Bura köçdüyümüz ilk günlər mətbəxdə odunla yanan, səki şəklində hörülmüş bir soba var idi. Sobada odun qoyub alışdırmağı çox xoşlayırdım. Amma anam bizə mətbəxdə qalmağa icazə verməzdi. Çünki, mətbəxdə olduğumuz zaman ocağın tüstüsü ciyərlərimizə dolur və bizi öskürdürdü. Anam bu mətbəxdən yalnız qış fəslində istifadə edirdi.

O zamanlar evlərdə xörək bişirmək üçün nasoslu primusdan istifadə edərdilər. Primusun nasosu, onun dəyirmi və bürünc rəngli yanacaq qabına birləşərdi. Nasosu var gücünlə çəkib, yanacaq qabına hava üfürəndə, ağ neft lülə ilə yuxarıya doğru hərəkət edərək, ocaq kasasına tökülürdü. Bu zaman kibriti alışdırıb, ocağı yandırırdılar. Ocaqdakı od açıq mavi rəngə çalana qədər nasosu işlətməyi davam etdirirdilər. Bu növ primus bizim bu günlər işlətdiyimiz piknik ocağına bənzəyirdi.

Həmişə ürəyim istəyirdi ki, nasosu özüm çəkib üfürüm. Gücüm az olduğundan, nasosu bir-iki dəfədən artıq işə sala bilmirdim. Bu səbəbdən, kənarda durub həvəslə anamla bacım Sağərin işinə tamaşa edirdim. Primusun odunun alışıb, tədricən mavi rəngə çalmasından zövq alırdım.

Anam səhərdən axşama qədər bizim və babamızın evini yığışdırıb, xörək bişirməklə məşğul idi. Həyətin dörd bir tərəfinə taxta oturacaqlar qoyub, üstünə xalı döşəmişdi. Yaz və yay aylarında bu taxtlarda yatar,

qış fəsli çatan kimi isə onları yığışdırardıq. Qış fəslini sel kimi yağan yağışlardan tanıyardıq. Yağış o qədər yağardı ki, şəhərin kanalizasiya suları daşar və bu suların üfunəti ilə Karun çayının lehmə iyi şəhəri bürüyərdi. Sel gələndə çox sevinirdik. Abadan radiosuna qulaq asardıq ki, məktəblərdə neçə gün tətil olacağını öyrənək.

Babamın ikinci dəfə evlənməsi ilə anamın ailə qurması təqribən bir zamana təsadüf etdiyindən, dayılarımız və xalamız bizimlə həmyaşıd idilər. Çox vaxt nahar və şam yeməyini birgə yeyərdik. Siddiqə xalamızı özümüzə bacı bilirdik. Babamıza və onun, bibi, deyə çağırdığımız həyat yoldaşına ehtiram göstərmək isə hamımızın ən ümdə vəzifəsi idi.

Maddi vəziyyətimizin yaxşı olmasına baxmayaraq, mən böyük bacılarımın, ələlxüsus Nəğmənin köhnə paltarlarını geyinərdim. Onun ayaqqabıları, paltar və şalvarları əyninə dar olan kimi mənim ixtiyarıma keçərdi. İldə bir dəfə novruz bayramı ərəfəsində bütün uşaqlara təzə paltar və ayaqqabı alınardı. O zaman bu da milli adətimizə çevrilmişdi və cəmiyyətin əksər təbəqələri ona riayət edirdi. Evimiz həmişə qonaq-qaralı, küçə-qapımız isə gələnlərin üzünə açıq olardı. Bəzən, külək qapını bağlayanda, atamla babam ona görə bizi danlayardılar. Çoxları küçə qapısının bağlı olmasını ev sahiblərinə eyib sayardılar.

Babamın qohumları şirazlı olsalar da, Abadanda neft şirkəti təsisindən sonra çoxları ora köçmüşdü. Hətta Şirazda qalan qohumlarımız çox vaxt öz yaxınlarına baş çəkmək, ya da neft şirkətinin xəstəxanasında müalicə üçün Abadana gəlirdilər.

Şirkətin xəstəxanası müasir tibbi avadanlıq və cihazlarla təchiz olunmuşdu. Xürrəmşəhrlə Abadan arasındakı məsafə maşınla cəmi yarım saata qət olunduğundan şirazlı qohumlarımız bizə də baş çəkərdilər.

Anam həmişə neçə otağı qonaqlar üçün hazır saxlayardı. Otaqlar təmiz dolablar, ağ mələfələr, naftalin iyi verən balışlarla dolu olar, bir küncündə tavanadək yorğan-döşək yığılardı. Qapıları da daim bağlı olardı. Evimizdən get-gəl kəsilməzdi və anam da gələn qonaqlara həvəslə qulluq edərdi. Bu hallar yay gecələrində daha çox olardı. Evlənmək istəyən, maddi çətinliyə düşən, ev almaq fikri və ya hər hansı bir dərdi olan həyətdəki xalı döşənən taxtların üstündə əyləşib, atam və babamla məsləhətləşərdilər. Anam qarpız doğranmış iri kasaları, büllur su parçlarını və meyvə sinilərini mənimlə bacım Nəğməyə verərdi ki, süfrəyə qoyaq. Xülasə, yay gecələri, qonaq qəbulunda bizim də rolumuz olardı. Yatmaq vaxtı uşaqlar bir otağa doluşar, pəncərələri açıb, tavandakı sərinkeşi işə salardıq. Hərdən gecə yarısı məndən beş yaş kiçik qardaşım Həmid mızıldanıb su istəyər, ailənin kiçik qızı olduğumdan bu qəbil qayğı işləri mənim öhdəmə düşərdi. Atam hər otağın qarşısına taburetkanın üstünə su içmək üçün bir saxsı kuzə qoymuşdu. Yanında uşaqlar üçün başqa bir taburet də var idi ki, üstünə çıxıb, kuzədən su götürə bilsinlər. Bir dəfə kuzənin qapağını qaldıranda, özümün də susuz olduğunu hiss etdim. Saxsı kasanı su ilə doldurub o tərəf-bu tərəfə göz gəzdirdim. Suyu stəkana tökmədən bir nəfəsə içdim. Necə də dadlı gəldi! Bulaq və ya

kəhriz suyu kimi sərin və içməli idi. Birdən, Həmid şirin uşaq dili ilə dilləndi: "Ahay, Nənin axsı qabban su içir! Sağər bacıya diyəcəm!"[1] Qorxudan çeçəyib, öskürməyə başladım. Kasanı qapağın üstünə qoyub, taburetkadan aşağı endim və onu qucaqlayıb öpdüm. İstəmirdim ki, suyu stəkana tökməyib, birbaşa kasadan içdiyimi bacım Sağərə xəbər versin. Amma o isə inadından əl çəkmirdi. Artıq çarəm qalmadı və ona su verərək dedim: "Bax, əgər bir söz desən, özüm Sağər bacıya sənin nə etdiyini danışacağam!" Yazığın daha cınqırığı çıxmadı. Cəmi iki yaşı vardı və sözümdən qorxub, yatmağa getdi.

Atam təzəlikcə aldığı böyük bir radionu taxçanın üstünə qoymuşdu. Bacılarım Sağər və Nəğmə Siddiqə xalamla birgə bütün günü taxçanın altında uzanıb, maraqla radioya qulaq asırdılar. Çox vaxt gecələr qəmli və yanıqlı xalq mahnıları səsləndirilirdi. Demək olar, radionun bütün proqramlarını əzbərləmişdik. Məsələn, səhərlər bizə maraqlı olan hekayə və nağıllar aləmindəki veriliş idi. Gündüz saat ikidə "Radionun gülləri" adlı rubrikası başlayırdı. Bu verilişdə ürəyəyatan poetik şer və parçalar oxunur, həzin musiqi və nəğmələr səslənirdi. Saat üçün yarısı günün xəbərləri başladığından istər-istəməz radionun taxçası kənarından aralanırdıq. Atam hökmən, hələ işə getməmişdirsə, gəlib, taxçanın altında oturar və xəbərləri dinləyərdi. Xəbərlərdən sonra "radionun gülləri "verilişi davam edirdi. Əmilərim və bibilərim bizə qonaq gələndə, efirdə verilən bütün nəğmələri

---

[1] "Nəsrin saxsı qabdan su içir! Sağər bacıya deyəcəyəm!"

diktorla birgə oxuyardılar. Ümumiyyətlə, nəslimizdə gözəl səsi olanlar çox idi. Ələlxüsus musiqimizin "dəşti" dəsgahını yaxşı ifa edirdilər. Bəzən atam birbaşa radiodan səslənən Hafizin qəzəlləri üzündən bizim falımıza baxardı. [1]

O gecə radiodan dəşti əvəzinə bəndəri dəsgahı verilirdi. Ondan sonra axşam nağılı başladı. Gecə özüm Sağərdən öncə qalxıb, işığı söndürdüm. Otağı qaranlıq bürüdü. Belə vaxtlarda gözlərimizi yumub, diqqətlə verilən hekayə və nağıla qulaq asardıq. Demək olar, mən veriliş bitənədək xəyallarımda bütün hadisələri canlandırırdım. Hadisə detektiv janrında idi. Mən qatili, əhvalatın digər iştirakçılarını, qatilin yaşadığı evi, hətta qətlə yetirdiyi gözəl qadın barədə düşünə-düşünə haçan yuxuya getdiyimi bilmədim.

Adətən, sübhlər anam başımızın üstündə həzin səslə namaz qılardı. Onun səsini və salavat deməyini çox xoşlayırdım. Səhər anamın səsinə yuxudan ayıldım. Radio sönmüşdü. Yuxuya getdiyimdən hadisənin nə yerdə qaldığından xəbərim olmamışdı. Sağər də yatağında yox idi ki, ondan soruşum. Yəqin dəstəmaz almağa getmişdi. İstəyirdim oyaq qalıb, gələndə ardını ondan soruşum. Amma nə qədər gözləsəm də gəlib çıxmadı. Anamın namazı başa çatdı və çadrasını büküb, canamazının içinə qoydu. Evimizin neçə otağı olmasına baxmayaraq, onun

---

[1] Hafiz Şirazinin qəzəllər toplusu iranlıların ən çox sevdiyi əsərlərdəndir. Xalq arasında Hafizin qeyb aləmindən xəbərdar olduğu fikrinə əsasən, onun qəzəllərinin açması gündəlik həyatda yaxşı-pisə yozulma kimi istifadə edilir.

məhz bizim başımız üstdə namaz qılması həmişə mənə bir müəmma idi və bu barədə çox düşünürdüm. Bilirdim ki, onun özünəməxsus adət və qaydaları var. Misal üçün, evimizdə bütün otaqların tavanında sərinkeş olmasına baxmayaraq, yalnız bir otaqda işlədib, hamımızı ora yığardı. Hətta soyuq qış günlərində də anam yalnız bir otaqda çıraq yandırar, biz də o otaqda dərslərimizi oxuyub, yatardıq.

Yay fəsli hamımıza maraqlı keçərdi. Məsələn, axşamüstü günün qızmar istisi azalanda özümdən üç yaş kiçik qardaşım Səidlə ətrafdan çır-çırpı yığıb, həyətin küncündəki daş sobaya tökərdik. Sobadan qalxan tüstünü görən qonşu qadınlar hərəsi özü ilə evdən soğan, pomidor və s. götürüb bizə gələr, anamla birgə sobanın başına toplaşaraq onları soyub doğrayar, deyib-gülərdilər. Biz də ardıcıl olaraq əlimizə keçəni yığıb, ocağa tökürdük ki, sönməsin. Anam soğanları iri tavaya töküb, qızardandan sonra ona doğranmış pomidor və çörək qırıntıları əlavə edib, bir qədər də qovurardı. Bu zaman çörək qırıntıları pomidor-soğana qarışaraq islanar, ona gözəl tam verərdi. Buna pomidor işgənəsi deyilirdi. Xörək bişəndən sonra anam tavanı gətirib, oturduğumuz taxtın üstünə qoyar, hamımız süfrə ətrafında bardaş qurub oturar, doyana qədər yeyərdik. Deyim ki, hər dəfə bu işgənənin dadı damağımda qalardı.

Atamın səfərlə bağlı tapşırıq və işləri başından aşardı. Xürrəmşəhrdə olanda isə evdə bizimlə daim əylənər, günümüz o qədər şən və səs-küylü keçərdi ki, gedəndə də o qızğın mühitdən əsər-əlamət qalmazdı. Sonrakı neçə günü hamımız hövsələsiz olar, evdə

pərişan halda gəzişib, əl-ayağa dolaşardıq. Səidin dəcəlliyi və tərsliyi artar, mən də nıqqıldayaraq hər yerdə anamın dalınca düşərdim. Nədənsə, anam da hamıdan çox mənim fikrimdə olardı.

Bir gün səhər anam çadrasını başına ataraq, əlinə həsir zənbili götürüb, çay sahilinə tərəf getdi. Mən də çadrasının ucundan tutub arxasınca düşdüm. Anam heç vaxt bizim balıq bazarına getməyimizi istəməzdi. Həmişə deyərdi ki, bazarda hay-küy, qarışıqlıq var və yeri də sürüşkən və çirkli olur. Amma o qədər israr elədim ki, naçar qalıb, məni də özü ilə apardı. Yayın isti və boğanaq günlərindən biri idi. Balıqçılar çayın kənarına yığışıb, satdıqları balıqları yerə tökmüşdülər. Qan və balıq tullantılarının, axarı olmayan lehməli suyun və ürəkbulandırıcı iyi hər tərəfi bürümüşdü. Bununla belə, sanki camaat buna öyrəşmişdi. Hər yeri milçək basmışdı. Hündür, dolu bədənli və qarabuğdayı balıqçıların qışqır-bağırtılarından adamın baş-qulağı gedirdi: "Gəl, ay müştəri, gəl! Həsun balığı, halva balığı, xaru, şeri, təzə duza qoyulmuş balıq, şah krevetkası, hər nə istəsəniz, var!” Anam əlimdən tutub, məni balıqçıların üstüörtülü bazarına apardı. Burada on-on iki balıq dükanı vardı. Divarları ağ kafelli bu təmiz dükanlarda soyuducu və su kranı olsa da burada da milçəklər hər tərəfdə və piştaxtadakı balıqların ətrafında uçuşurdu. Balıqlar səliqə ilə piştaxtaların üzərinə düzülmüşdü. Dükanların metlax piltələr döşənmiş yeri yaş və sürüşkən idi. Axan sulardan xoşagəlməz qoxu gəlirdi. Anam heç vaxt sahildəki balıqçılardan balıq almazdı. Çünki onlar balıqları torpağa tökür və təmizliyinə

əhəmiyyət vermirdilər. Anam həmişə balığı Əli Bələmçinin dükanından alardı. Onun dükanı örtülü bazarın əvvəlində yerləşirdi. Buradakı kiçik dükanlar bir-birindən şüşə ilə ayrılırdı. Anam dükançı ilə salamlaşıb, hal-əhval edərkən mən də ətrafıma göz gəzdirirdim. Ayağında ağ çəkmələr və sinəsinə balıq pulcuqları yapışan dəri önlüklü qoca balıqçı bir səbət balığı dükana gətirdi. Balıqlardan neçəsi hələ də diri olduğundan səbətin içində atılıb-düşürdü. Onlara ürəyim yandı. Bazardan çıxıb, çayın kənarında dayandım. Hava yaman isti idi. Gördüm ki, neçə balıqçı torunu sudan çıxarır. Tora düşən balıqlar o tərəf-bu tərəfə tullanırdı. Rezin çəkmələri dizlərinə çatan bu balıqçılar toru sudan çəkib çıxardandan sonra torpağa atdılar. Balıqlar azad olandan sonra nəfəs almaq üçün özlərini hər tərəfə çırpırdılar. Daha çırpınaraq can verən balıqlara baxmağa ürəyim gəlmədi.

Məndən bir az kənarda qoca balıqçı bir qadına balıq satırdı: "Ay zirə, bir səbəti iki rialadır". Burada ərəb dilli əhali qadına zirə, kişiyə isə zair (yəni ziyarət edən) deyirdi.

Qadın qoca balıqçının günəşdən qaralmış iri, qabarlı əllərinin içinə iki rial qoydu, o da onun səbətini təzə balıqla doldurdu. Balıqlardan bəzisi hələ də diri olduğundan səbətdə çapalayırdı. Ürəyim istəyirdi ki, onları götürüb, çaya atım. Bir azdan anam da bir səbət balıqla örtülü bazardan çölə çıxdı. Onların can verdiyini güman edərək baxmağa ürəyim gəlmədi. Küçənin o biri tərəfində balıq bazarı ilə üzbəüz meyvə-tərəvəz satılan "Səfa" bazarı yerləşirdi.

Burada da arabaçıların və satıcıların səsindən ağız deyəni qulaq eşitmirdi. Anam bir qədər göyərti, keşniş və sarımsaq alıb, zənbildəki balıqların üstünə qoydu.

Evə çatanda Sağərlə Nəğmə anamdan göyərtini alıb, sidr ağacının kölgəsində onu arıtlamağa başladılar. Anam da hovuzun kənarında əyləşərək balıqları yuyub, təmizlədi. Sonra onların içini sarımsaq, keşniş və cürbəcür ətirli göyərtilərlə doldurub, qarınlarını iynə-sapla tikdi. Günortaya yaxın təndirə od salıb, balıqları qızartdı. O gün ilk dəfə idi ki, həyəti bürüyən balıq kababının iyindən xoşum gəlmədi.

Evimiz qonaq-qaralı olduğundan xəbərsiz gələnlər çox olardı. Ona görə də anam həmişə xörəyi bir qədər artıq bişirərdi. Həmin gün Xürrəmşəhrə müalicəyə gələn bir neçə kişi ilə qadın came məscidinin xidmətçisinə müraciət edərək bu şəhərdə qərib olduqlarını və gecələməyə yer axtardıqlarını bildirərkən, xidmətçi onlara "Hüseynqulu xanın evinin qapısı həmişə qonaqların üzünə açıqdır" – deyərək bizim ünvanı vermişdi.

Onlar bizə gələndə babam evdə idi. Süfrə salınandan sonra babam qonaqlara süfrənin yuxarı başında yer verdi. Anam qonaqlara əllərini yumaq üçün aftafa-ləyən gətirdi və məni də yuxarı mərtəbədəki sandıqdan təzə dəsmal gətirməyə göndərdi. Çini buluddakı qızarmış balıqları görəndə məni ağlamaq tutdu. Həyətə qaçıb, taxta oturacaqların birində əyləşdim. Hamının başı bir işə qarışmışdı və

evimizdə o qədər qonaq var idi ki, o gün mənim nahar yemədiyimi heç kim anlamadı.

Bacılarımın arıtladığı göyərtinin tullantıları hələ də süfrədə idi. Onu yığıb dəstələdim. Məndən beş-altı yaş böyük olan Mahmud dayım naharı yeyəndən sonra həyətə düşdü. Ondan soruşdum: "Oynamaq istəyirsən?" O, satıcıları çox yaxşı yamsılayırdı. Beləliklə, dayım göyərti satanın, mən də anamın rolunu oynamağa başladım. O, göyərti tullantılarının üstünə su çiləməyə başladı və mən də anamın çadrasını başıma atıb, əlimə də onun bazarlıq zənbilini götürdüm. Mahmud bazardakı ərəblər kimi qışqırırdı: "Bamya[1], bamya! Gəl ay müştəri! Yüz dənəsi on şahıya!" Mən də irəli gələrək dişimlə çadramın kənarını tutub, soruşdum: "A kişi, qəlyə bişirmək üçün göyərtiniz var? Neçəyədir?" Dayım qışqırdı: "Ay zirə, bir qırana!" "Bütün göyərtiləri alıb, zənbilə doldurdum. Yenə qışqıraraq dedi: "Yox, ay zirə, belə olmaz, satmıram! Bütün göyərtini sənə sata bilmərəm!" Mənə elə gəldi ki, dayım oyunu pozmaq istəyir. Tez onları zənbildən çıxarıb, taxtın üstünə qoydum. O da yenidən göyərtiləri dəstələyib, taxtın üstünə yığdı. Sonra hovuzdan bir ovuc su götürüb, onların üstünə səpdi. Bu dəfə anamın hündür dabanlı ayaqqabılarını ayağıma keçirərək bir az həyətdə gəzişəndən sonra ondan soruşdum: "A kişi, bamya neçəyədir?" Mahmud qışqıraraq dedi: "İki yüz dənəsi bir qırana!" Axır, onları o qədər götürüb-qoyduq ki, əzilib, soldular.

---

[1] Tərəvəz bitkisi.

Adətən, axşamlar yeməyimiz sadə olurdu. Çox vaxt hava qaralanda anam mətbəxə keçib, tez bir zamanda halva, kotletə bənzər şami, kükü, südlü aş, firni və bu qəbil xörəklər bişirərdi. Ona görə də axşamlar mətbəxdə anamdan başqa heç kim olmazdı.

Bir gün anam evdə deyildi. Biz də qonşu uşaqlarla dalanda oynayırdıq. İkinci mərtəbədəki mətbəxə getdim. Təzəlikcə o, qaz sobası ilə üzbəüz pəncərəyə ağ tül pərdə asmışdı. Taburetkanın üstünə çıxaraq min bir əziyyətlə pərdəni karnizdən açıb çıxardım. Tülün büzülmüş yuxarı hissəsinin ipini sancaqla saçıma vurub, özümü gəlinə bənzətdim. Uzun tül parça yerlə sürünürdü. Gəlin olmaq və gəlinlik paltarını geyinmək ən böyük arzum idi. Nazlana-nazlana qürurla küçəyə çıxdım. Uşaqlar məni görən kimi başıma toplaşdılar. Hamı əl çalıb, toya məxsus şadyanalığa başladı. Füruzəndənin bizimlə yaşıd baldızı dalanda rəqs etməyə başladı. Uşaqlardan neçəsi evlərindən qənd, konfet və noğul gətirdilər. Onlar başıma saldığım tülün ətəyindən tutub, gəlin-gəlin oynamağa başladılar. Mahmudla xalam Siddiqə də gəldi. Mahmud bəy, xalam da baldız oldu. Mahmudla əl-ələ verərək dalanın başına qədər gedib qayıtdıq. Uşaqlar fatanın ətəyini tutmaq üçün bir-biri ilə dava edirdilər. Dalanı dəfələrlə o baş-bu başa gedib qayıtdıq. Uşaqların əl çalıb, şadyanalıq səs-küyləri bütün küçəni bürüdü. Yorulduqdan sonra gəlib, həyətdəki taxtın üstündə oturduq. Uşaqlar toy adətinə uyğun başımızın üzərində qənd tikələrini bir-birinə sürtür, üstümüzə noğul-konfet atırdılar. Oyunlarımız növbəli idi və məndən sonra başqa qızlar

da gəlin olmalı idilər. Biz də onlar üçün yenidən toy mərasimi keçirməli idik. Tülü başımdan çıxarıb, Füruzəndənin baldızına verdim. Noğul və qəndləri yerdən yığıb, onun başına tökdük. Fatanın ətəyindən tutub şadyanalıq edərək, gəlini dalana apardıq. O gün aramızda başqa oğlan olmadığından, təkcə Mahmud növbə ilə bütün gəlinlər üçün bəy oldu. Həmişə istəyirdim ki, əmim oğlu Bəhmən bəy olub, əlimdən tutsun. Amma onun bu oyundan xoşu gəlməzdi.

Axşam düşdü və hamımız yorğun halda bir-birimizlə sağollaşıb ayrıldıq. Artıq, anam və ailə üzvlərimiz evə qayıtmışdılar. Mən isə qaralmış pərdəni əlimdə tutub, nə edəcəyimi bilmirdim. Axır, gizlicə mətbəxə keçdim. Taburetkaya çıxıb, pərdəni asmaq istəyəndə anam gəldi. Çirkli və qaralmış pərdəni görən kimi məsələni anladı. Üstümə qışqırıb, dedi: "Səni görüm cavan öləsən, qız!" Sonra bir əli ilə qulağımı burub, o biri əli ilə də ayağımı möhkəm çimdiklədi. Anamın əlinin altından sabun kimi sürüşüb qaçdım. Ardımca qışqırdı: "Ay qız! Mətbəxin pərdəsi ilə nə işin vardı?! Səni görüm cavan öləsən!" Sonra ardımca gəldi. Evimizdə irili-xırdalı yer çox idi və ən azı iki-üç saat gizlənə bilərdim. Pillələrin altındakı görünməyən qaranlıq yerdə oturdum. Ayağımdakı çimdik yeri bərk ağrıyırdı. Hələ də toy mərasimi, uzun gəlinlik fatası, qənd tozu, şabaş, noğul və konfet haqda fikirləşirdim. Həmişə təklikdə və oyunlarımda özümü anam kimi aparır, həyat yoldaşımın dəniz səfərindən qayıtmasını gözləyirdim. Amma çox vaxt gəlməzdi, ya da gec qayıdardı. O

gecə də, hamının gözündən gizlənib, özümə qapandım.

Pillələrin altını təmizləyib, həyat yoldaşımın yolunu gözlədim. Xəyallarımda od qaladım. Manqal gətirib közərən kömürləri samovarın içinə tökdüm. Çay dəmləyib çaydanı manqalın kənarına qoydum. Şam hazırladım. Yorulanda anam kimi mən də "uf" – deyirdim. Xəyallarımdakı həyat yoldaşım gəlib çatdı. Əslində, gəlib çatmalı idi, yoxsa pillələrin altında, tənhalıqdan ölərdim. Anam kimi həyat yoldaşımla mehriban və sakit səslə danışırdım. O, mənə baxıb gülümsəyir, mən də yavaş-yavaş olub keçənləri danışırdım.

Ertəsi gün səhər tezdən yuxudan ayılanda öz yatağımda idim. Kimin nə vaxt məni tapıb, yatağıma gətirdiyindən xəbərim olmamışdı. Səhər yeməyi zamanı anam sanki heç nə şey baş verməmiş kimi şirin çayı qarşıma qoydu. Başımı aşağı salaraq əlimdəki çörəyi xırdalayıb, çayıma tökməyə başladım.

Yeməkdən sonra anam adəti üzrə bazarlığa getdi. Qayıdanda, hovuzun kənarındakı taxtda əyləşib, aldıqlarını zənbildən çıxarmağa başladı. Mən də Sağər və Siddiqə ilə birgə taxtın üstündə əyləşdim. Gördüm mətbəx üçün təzə pərdəlik parça alıb. Ağ rəngli tüldən başqa neçə dəst güllü parça da var idi. Mənə də plastik gəlincik almışdı. Axşamüstü tikiş maşınını gətirib, sidr ağacının kölgəsindəki taxtın üstünə qoyaraq oturub, pərdə tikməyə başladı. Sonra güllü çit parçadan Nəğmə üçün uzun don tikdi. Anamın bizə tikdiyi donlar qısaqol, sinədən kəsik və qırçınlı olardı. O, hətta köynək və şalvar da tikə

bilirdi. Çox vaxt mənə kombinezon tikərdi. Bu, qısaqol, beli rezinli bir-birinə tikilmiş rahat köynək-şalvar forması idi. Mən də anamın kənarında əyləşib, artıq parçalardan gəlinciyimə don tikdim. Əvvəl geyimin qolunu kökləyib, qollarına keçirdim və sonra donu tikib, əynindəki qollarla caladım.

Atam evdə olmayanda adətən günortadan sonra evimiz cansıxıcı olurdu və çarəsiz hərə başını bir işə qatırdı. O gün anamla birgə axşamadək dərziliklə məşğul olarkən birdən həyət qapısının qalın pərdəsi kənara çəkildi və əmim Əli həyat yoldaşı ilə həyətə daxil oldu. Əli əmi anamın dünyasını dəyişən əvvəlki həyat yoldaşının qardaşı idi və əslində, Füruzanla Sağərin doğma əmisi idi. Bizə qarşı mehriban olduğundan hamımız onu çox sevirdik. Hər dəfə onu görəndə nədənsə içimdə bir həyəcan baş qaldırır, gah nəfəsim dayanır, gah da ürəyim şiddətlə döyünməyə başlayırdı. Yavaşca həyət qapısının pərdəsinə tərəf boylandım. Ürəyimdən keçdi ki, pərdə kənara çəkiləndə Bəhmən də həyətə daxil olsun. Amma bu dəfə onların ikisi bizə qonaq gəlmişdi. Əli əmi Abadan neft şirkətinin elektrik şəbəkəsində işləyirdi. O da hərdən ailəsi ilə birgə cümə axşamları Xürrəmşəhrə gələr, ertəsi gün yenidən Abadana qayıdardı. Onlar yayda atamın iş növbəsində olmadığı vaxtlar bir neçə həftə evimizdə qonaq qalardılar. Son vaxtlar nədənsə daha çox biz onların qonağı olardıq.

Əmim məni görən kimi dedi: "Qızım, tez ol hazırlaş, səni Röyanın yanına aparmağa gəlmişəm". Cavab verməyə macal tapmadım və yoldaşı da anamla salamlaşaraq dedi: "Səkinə xanım, uşaqları

yığ, bizə qonaq gəlirsiz!" Əmim sözünə – "Niyə dayanmısız, tez olun! Əmi uşaqlarınız sizin üçün yaman darıxıblar!" davam edərək evdəkiləri çağırdı: "Sağər, qızım, Nəğmə, Səid, Həmid hardasız, ay uşaqlar? Tələsin!" Mən isə anamın cavabını gözləmədən əynimi dəyişməyə qaçdım.

Əmimin yaşıl rəngli "volksvagen" markalı alman maşını vardı. Hamımızın ona yerləşməyi elə də asan deyildi. Əmim də bizi sanki çanta kimi üst-üstə qalayaraq hövsələ ilə maşında yerbəyer elədi. Bu vəziyyətdə Abadana çatanadək canımız çıxardı. Maşından düşəndə isə qurumuş əl-ayağımız və belimizin keyi açılınca bir az günün altında gözləyərdik.

Əmimgilin evi Piruzabad məntəqəsinin 3-cü Bəhmənşir dayanacağında yerləşirdi. Onların bir mərtəbəli və iki yataq otağı olan balaca qəşəng evi vardı. Mən bu evi çox sevirdim. Abadan neft şirkətinin tikdiyi evlər bizim evimizdən fərqlənirdi. Bu evlər ingilissayağı memarlıq üslubu üzrə tikildiyindən bizə çox qeyri-adi və gözəl görünürdü. Əslində, hər dəfə Abadana gəlişimiz xarici ölkəyə səfərə bənzəyirdi, məxsusən Abadan neftayırma zavodunun yüksək vəzifəli müdir və mühəndislərinin yaşadıqları Berim və Bəvardeh məntəqəsi daha səfalı idi. Həyətyanı sahələrin hasarı ağaclardan və evləri isə bir-birindən dekorativ gül kollarından ibarət yaşıl çəpərlərlə ayrılırdı. Hər birinin içərisində gül-çiçəkli bağça, göy-göyərti əkilən dirrik var idi və yaşıllığa bürünən bu məntəqədə mənə ən çox xoş gələn neçə nəfərin otura biləcəyi böyük, ağ rəngli yelləncəklər və

bağ evlərinə məxsus həsir masa və stullar idi. Neft şirkətinin evləri Berimin evləri qədər yaraşıqlı olmasa da əmim uşaqları, ələlxüsus məndən dörd yaş böyük olan Bəhmənə görə, onların evi öz evimizdən daha çox ürəyimə yatırdı. Əmim qızı Röya yaşca məndən iki il böyük olduğu halda aramızda səmimi münasibət vardı və ürək sözlərimi onunla rahat bölüşə bilirdim. Hərdən hamı yuxuya gedəndə, uşaq sirlərimizi bir-birimizin qulağına deyər, səhərədək pıçıldaşardıq. Röya mənim Bəhmənə olan məhəbbətimi bilirdi. Əmimin ortancıl qızı Mitra məndən bir yaş, balaca Rəna isə üç yaş kiçik idi. Bəhməndən başqa onun Əlirza ilə Rəhmət adlı böyük qardaşları yaşca bizdən on il böyük idilər və sonralar Rəhmət təhsili ilə bağlı Amerikaya getdi. Bəhmən on-on iki yaşınadək ortaboy, toppuş və nadinc uşaq idi və mənə çox sataşardı. Onu sevdiyimə baxmayaraq, onun da məni sevib-sevmədiyindən xəbərim yox idi.

Neftayırma zavodunun borularını və onlardan səmaya qalxan tüstü və alov şölələrini görəndə, bilirdik ki, Abadana çatmışıq. Burnumuza qaz, benzin iyi dolan kimi zavodun yaxınlığındakı Berim məntəqəsinin yaraşıqlı evlərini görmək üçün maşının pəncərəsindən boylanırdıq.

Nəhayət, günorta Abadana çatdıq. Zavoddan siqnal səsi eşidildi. Əmim dedi ki, nahar vaxtıdır. Bir neçə prospekti sovuşandan sonra əmimgilin yaşadığı küçəyə çatdıq. Bəhmən evin qarşısındakı gül-çiçək əkilən geniş küçədə qonşu uşaqlarla futbol oynayırdı. Biz isə hələ də üst-üstə yıxılıb qalmışdıq. Əmim bizi maşına yığdığı kimi eləcə də düşürməli idi. Bəhmən

bizi qarşılamağa gəldi. Onun girdə və tərli üzü günün istisindən qaralmışdı. Qara badamı gözləri ilə bizi süzməyə başladı. Mən yuxudan yenicə ayılan ev pişikləri kimi gərnəşirdim. Bəhmən məni görəndə gülə-gülə "Necəsən, kifirciyəz?" – deyib, yenidən futbol oynamağa getdi.

Şirkət evlərinin həyətyanı sahələri də bir-birindən bitki-ağac hasarla ayrılırdı. Həyətə onların arasındakı balaca dəmir zolaqlı darvazadan daxil olduq. Həyətdən daha çox evin giriş dəhlizi kimi istifadə edirdilər. Qapının zəngini vuranda Mitra onu açdı. Hələ qapının önündə ikən arxa həyətdən Röyanın səsi gəldi: "Nəsrin, tez bura gəl!" Evi dadlı yemək qoxusu bürümüşdü. Buranı sevməyimin səbəblərindən biri də evdə həmişə dadlı yemək bişirilməyi, şən mühit və güzəranın şadlıqla keçməsi idi. Tələsik qonaq otağı və koridordan keçərək evin arxasındakı böyük bağçaya qaçdım. Röya ilə görüşüb, bərk-bərk qucaqlaşdıq. Əlindəki su şlanqı yerə düşdü. Hal-əhval tuta-tuta şlanqı götürüb, fəvvarə vuran su ilə həyətin sement döşənən yerini yudum. Mənim bu işdən nə qədər xoşum gəldiyini bilirdi. İri qənbər daşları ilə döşənən həyətimizdən acığım gəlirdi. Bu da əmimgilin evinə olan başqa rəğbətim idi. Həyətdə böyük su kranı vardı. Kranın bürüncdən düzələn böyük ventilini çox bəyənirdim. Burada su mənbəyi Ərvənd çayı idi. Həyətdəki su içməli deyildi və yalnız paltar yumaq, həyət-bacanı sulamaq üçün istifadə olunurdu. Odur ki, bu suya qənaət etmirdik.

Abadan neft şirkətinə məxsus bütün evlərin suyu və elektrik enerjisi pulsuz idi. Ona görə, mənzillər

bütün məişət avadanlığı ilə təmin olunmuşdu. Evdə xarici su qızdırıcı və istilik sistemləri, soyuducu, qaz sobası, hətta yapon markalı "Hitaçi" televizoru vardı.

Əmimin yoldaşı da bizim kimi, arxa bağçaya taxt oturacaqlar düzmüşdü. Axşamüstü qonşu qadınlar bura yığışaraq deyib-danışardılar. Hərdən axşamlar qonşu Həvva nənə də dolu bədənini çəkə-çəkə özünü taxta çatdırar, şirin dilini işə salardı. Yaman zarafatcıl idi və sözə başlayanda, hamımız gülməkdən uğunardıq.

Həyəti yuyandan sonra Röya ilə birgə içəri keçdik. Əmimgilin evinin girəcəyində yerləşən ilk otaq qonaq otağı idi. Onun yaşıl rəngli mebel dəsti evə girən hər kəsdə xoş hiss yaradırdı. Evin iki yataq otağı vardı ki, biri qızların, digəri isə Rəhmətlə Bəhmənin ixtiyarında idi. Səidlə Həmid elə əvvəldə onların otağını alt-üst etdilər. Televizorun yerləşdiyi yemək otağının qapısı arxa bağçaya açılırdı. Mart ayının əvvəlindən mayadək qərənfil kollarının çəhrayı rəngli gülləri bağçanı başdan-başa al-əlvan edərdi. Oleandr kollarının gülləri isə ağ və çəhrayı rəngə çalırdı. Əmim bağ-bostana həvəsi olduğundan payız və qışda burada göy-göyərti, yayda da qarpız, qovun, badımcan, kələm və s. tərəvəz əkib-becərərdi.

Anam, əmimin yoldaşı və Sağər mətbəxdə şama hazırlıq görürdülər. Mətbəxin ortasında betondan hündür səki vardı. Əmimin yoldaşı onun üzərinə süfrə atıb, həm mətbəx, həm də yemək masası kimi istifadə edirdi. Səkinin altı cürbəcür qab-qacaqla dolu olardı. Bir küncdə ağ rəngli böyük soyuducu vardı və həmişə par-par parlayırdı. Mətbəxin yalnız qara rəngli sement

döşəməsi xoşuma gəlmirdi. Əmimin yoldaşı dadlı yeməklər bişirirdi. Bişirdiyi xörəklər yağlı, dadlı və duzlu olardı. Süfrə səriləndən sonra hamının boşqabına xörək çəkərək deyərdi: "Yeyin, ana sizə qurban, nuş olsun! Yeyin, canınız sağlam olsun”. Bizim iştahla yeməyimizdən zövq aldığını bilirdik.

Əmim həyat yoldaşı və övladları ilə çox mehriban davranırdı. O, dindar olduğundan həmişə əməllərinə həssas yanaşırdı. Zavoddan iş növbəsinin bitdiyini bildirən ikinci fit səsi şəhərə yayılandan yarım saat sonra əmim evə qayıtdı. Adətən, işdən evə qayıdandan sonra dəstəmaz alıb, şam yeməyi hazır olanadək Quran oxuyardı. Hava qaralanda əmim qalxıb, namazını qıldı. Uşaqları kiçik yaşlarından namaz qılır, bizdən fərqli olaraq məhrəm və naməhrəmi ayırd edirdilər. Əmim yoldaşının dini savadı da yaxşı idi. Həmçinin o, savadsızlığın ləğvi ilə bağlı həyata keçirilən ölkə miqyaslı proqrama əsasən, axşam məktəbində təhsil almışdı. O da övladlarının dindar boya-başa çatmaları üçün zəhmət çəkirdi.

Axşam şam yeməyindən sonra əmimlə birgə həyətdəki taxtın üstündə əyləşdik. Hava mülayim və ürəyəyatan idi və çay tərəfdən sərin meh gəlirdi. Əmim bizə namazın əhəmiyyəti barədə danışaraq sübh namazını qılmağımızı tapşırdı. O, namazda yol verə biləcəyimiz səhvlər barədə izah verdi. Mən namaz qıla bilmədiyim üçün onların yanında xəcalətli idim. Anam şamdan sonra yığılan zibili atmağa gedirdi. Ona kömək bəhanəsi ilə qalxıb, zibil vedrəsini əlindən aldım. Onları həyətin divarındakı

açılıb-bağlanan zibil qutusuna tökməkdən xoşum gəlirdi. Neft şirkətinin bütün evlərində belə zibil qutuları quraşdırılmışdı. Divardan qutunu çəkib, zibili içinə tökürdülər. Səhərlər isə bələdiyyə idarəsinin süpürgəçiləri qutuları küçə tərəfdən açıb, onu xüsusi qurğu ilə zibil maşınına boşaldırdılar. Bu əlverişli mexanizm yalnız Abadanın neft şirkətinə məxsus evlərdə idi. Hələ Berim və Bəvardeh məntəqəsinin evlərindəki şərait isə bundan qat-qat üstün idi.

Küçədən qurbağaların səsi gəlirdi. Zibilləri qutuya tökəndən sonra küçə qapısını açdım. Qapının önündən su arxı keçirdi. Arx boyu, göz işlədikcə, küçənin axırına doğru ağaclar əkilmişdi. Sakinlər bunları "arsız ağac" adlandırırdılar. Onların akasiya ağacına bənzər topa şəklində yaşıl yarpaqları vardı. Uşaqlar da öz aralarında onlara maraqlı ad qoymuşdular. Arxın kənarında əyləşib, qurbağaların səsinə qulaq asaraq tətillərin başlandığı zaman onların yarpaqları ilə necə bəxtimi yoxladığım günləri yada saldım. Yarpaqları bir-bir dərib, deyərdik: "Keçmək, növbəti imtahana qalmaq, ya da kəsilmək”. Beləcə, öz bəxtimizi yoxlayırdıq. Birdən arxadan kimsə saçlarımı dartıb, məni arxın içinə itələdi. Bəhmənin işi idi. Arxa düşməmək üçün necə çapaladığıma baxıb, gülürdü. Qışqırdığımı görərkən özünü itirərək əlini ağzıma tutub, dedi: "Kifircə!" Təngnəfəsliklə dedim: "Əmimə xəbər verəcəyəm, bu axmaq zarafatlarından əl çək!" Bəhmən yenə dilləndi: "Hər nə desəm, gərək baş üstə deyəsən!" Əli ilə ağzımı tutduğundan, səsim güclə eşidilsə də ona cavab verə bildim: "Baş üstə, deməyəcəyəm! Hamıya deyəcəyəm ki, məni arxa

itələdin!" Onda məni hədələməyə başladı: "Əgər bir kəlmə danışsan, səni öldürərəm və saçlarını da yolaram! Tez ol, "baş üstə" – de görüm!" Axır, ayağa qalxıb, həyətə qaçdım.

***

Abadanda keçirdiyimiz bütün günlər yaddaqalan idi. Səhərlər neftayırma zavodunun fit səsinə yuxudan ayılardıq. Siqnallardan biri əmimgilin evinin yaxınlığından eşidilərdi. Sübh tezdən üç dəfə, bir az keçmiş iki dəfə və nəhayət, bir dəfə fit çalınardı ki, işçilər özlərini iş yerlərinə çatdırsınlar və zavodun darvazası bağlansın. Gündüzlər birinci iş növbəsi bitərkən verilən siqnal zamanı sanki bütün Abadan sakinləri üçün də nahar və istirahət vaxtını bildirirdi. Axşam siqnalının səsi küçəni bürüyəndə də əmimin yoldaşı tələsik çay süfrəsini hazırlayardı. Bu hallar bizim Abadanla bağlı maraqlı təəssüratımız idi.

Hər dəfə Bəhmən məni incidəndə, saçlarımı dartıb qışqırdanda, ondan küsür və öz bacılarım və onun bacıları Röya, Rəna və Mitranı götürüb, yaxınlıqdakı çayın sahilinə gedirdim. Oynamaq üçün sahildən eyni ölçülü daşları axtarıb tapardıq. Babamın bu daşlardan acığı gələrdi. Bizi danlayaraq deyərdi: "Sizə deməmişəm ki, yeddidaş oynamayın?!" Şirazlılar və xuzistanlıların bir qismi bu oyunun düşər-düşməzliyinə inanırdılar. Amma biz babamın gözündən yayınaraq bütün deyilənləri qulaqardına vuraraq yenə də oynayardıq. Bu arada Bəhmən də bizi rahat buraxmaz, ya daşlarımızı oğurlayar, ya da mopedlə bir kənarda durardı. Ondan xahiş edərdik ki,

bizi də mopedə mindirsin. O isə pis xasiyyətindən əl çəkməz və deyərdi: "Gəlin, icazə verirəm!" Amma ayağımızı qaldırıb, mopedin pedalına qoyarkən qaz verib, sürətlə uzaqlaşaraq bizim yıxılmağımıza gülərdi. Bəzən köynəyimizin, ya da donumuzun bel kəmərini velosipedinə bağlayıb, sürətlə hərəkət edər, qışqıraraq birini köməyə çağırsaq da əhəmiyyət verməz, naçar qalıb, ixtiyarsız ardınca qaçardıq. Rənanın buruq saçları vardı və Bəhmən ona "quzu" deyərdi. Gündüzlər uşaqlar yatanda, əlinə bir ovuc çör-çöp yığıb, Rənanın başının üstünü kəsdirər və gizlicə hövsələ ilə onları bacısının saçları arasına salardı. Hərdən oyaq olub, onu görərkən deyirdi: "Səsin çıxmasın! Hər nə desəm, cavabın "baş üstə" olsun!" Mən də cavab verərdim: "Hər şeyi Rənaya danışacağam!" O da acıqla dillənərdi: "Əgər bir söz desən, səni öldürərəm! Sadəcə "baş üstə" – de, kifircə!" Bilirdim ki, sözünə qulaq asmasam, məndən acıq çıxacaq; ya saçlarımı yolacaq, ya suyun içinə itələyəcək, ya da ki, qızmar günün altında asfalt üzərində ayaqyalın bir ayağım üstə hoppanmağa məcbur edəcək. Qaşqabaqlı və ciddi olanda, ondan qorxurdum. Rəna yuxudan ayılanda, çör-çöplər onun sıx saçları arasında ilişib, qalardı. Hətta yeriyəndə də tökülməzdi. Bəhmən də onun ardınca düşərək gülməkdən uğunub, qoyun kimi mələyərdi.

***

Atam işlə bağlı səfərdə olsa da əmim bizi darıxmağa qoymazdı. Əli əmidən başqa bizim doğma əmimiz də vardı və adı Hüseyn Dirani idi. Əvvəllər

onun soyadının fərqli olması mənə bir az qəribə görünürdü. Əmim Hüseyn çox cəsur və mərd insan idi. Rza şahın dövründə əsgərlik xidmətindən yayınmışdı. Xuzistan əhalisinin əksəriyyəti şah ordusunda xidmətin düzgün olmadığını hesab edirdi. Deyilənlərə görə, xidmətdən yayınmaq çox vaxt qarşıdurmaya bais olurdu. Hüseyn əmim əsgərlikdən yayındıqdan sonra Baqirzadə soyadını Dirani ilə dəyişmişdi. O, ali təhsilli həkim idi. Ailəvi qonaqlıqlarda iştirak etməyə fürsət tapmaz, əksər vaxtı xəstələrin müalicəsi ilə keçərdi. Əmimdən başqa iki bibim də vardı. Məryəm bibi Xürrəmşəhrdə, Bilqeyis bibi isə Abadanda yaşayırdı. Əli əmidən fərqli olaraq bibilərimizlə münasibətimiz o qədər də yaxşı deyildi. Amma çox vaxt birlikdə Xürrəmşəhr yaxınlığındakı Mənix kəndinin xurma bağlarına gəzməyə çıxardıq. Maşınları yolun kənarında saxlayar, sonra zənbilləri və qab-qazanları çəkə-çəkə gölün sahilinə aparıb, orada qayığa minərək xurma bağlarına gedərdik.

Bayramı ərəfəsi hamı kimi biz də novruzun on üçüncü gününü təbiətin qoynunda keçirərdik. Ailəliklə istirahət etdiyimiz məkan Abadanla Xürrəmşəhr arasında "Minu" adasının yaxınlığında yerləşən "Deyri-Farəm" adlanan səfalı bir məntəqə idi. Deyri-Farəm başdan-başa tarlalar, xurma bağları və yaşıllığa bürünmüş geniş düzənlik idi. İlin yaz aylarında buranın yüngül, təravətli və mülayim havası olardı. Havanın xəfif rütubəti dərini yumşaldır, həm də rahat nəfəs almaq olurdu. Bir sözlə, ruhu oxşayan cənnət havası və xəyalları canlandıran təravətli mehi

adamı valeh edirdi. Deyri-Farəmin ətrafında ilk dəfə olaraq İranda qolf və çovqan oyunları üçün meydançalar, atçılıq klubu və qayıq yarışları üçün idman kompleksləri tikilməyə başlamışdı. Çoxları istirahət üçün məhz bu məkanı seçirdilər. Deyri-Farəm Ərvəndin bir qolu olan "Kiçik Ərvənd"in sahilində yerləşdiyindən çox münbit torpağa və maldarlıq üçün əlverişli şəraitə malik idi. Deyirdilər ki, bu məntəqədə aqrar sənaye kompleksi və maldarlıq təsərrüfatının inkişafı ilə ölkə özünü kənd təsərrüfatı və süd məhsulları ilə tam təmin etməklə bərabər onları Ərvənd çayı vasitəsilə ərəb ölkələrinə də ixrac etməyə qadirdir".Təbiət günü[1]" qohumlarımızdan ailəsi ilə birgə Deyri-Farəmə daha tez çatanlar xalça-palazları sərib, ocaq qalayar və çay süfrəsi hazırlayardılar. Günortaya qədər qohumlardan hər hansı biri gəlib çıxmasaydı, böyüklərimiz bu məsələnin üstündən rahat keçməyib, içimizdən birini könüllü olaraq birbaşa həmin ailənin evinə yollayardılar. Onların hansısa bir çətinliklə üzləşdiklərini – xəstələndiklərini, ya narahat olduqlarını, ya kimdənsə incidiklərini və sairi araşdırmadan razı olmazdılar və hökmən o ailəni tapıb, gətirərdilər. Bəzən sayımız əlli nəfərə çatardı. O vaxt hər şey biz uşaqların ürəyincə idi. Gah xurma ağaclarına dırmaşar, gah çayın sahilindən xırda daşlar yığar, ya da tikintisi başa çatmayan qolf və çovqan meydançalarına gedib, qayığa minərdik. Böyüklər isə Minu adasının yerli əhalisindən süd, pendir və yağlı

[1] 13 fərvərdin (hicri-şəmsi ilinin 1-ci ayı)

camış qatığı alardılar. Bu qatıq olduqca dadlı idi. Hərdən biz də böyüklərə qoşularaq qatıq almağa gedərdik. Camışlar sudan çıxan kimi onları daşla vurub, qaçardıq. Əgər sahibi daş atmağımızı görsəydi, arxamızca qaçaraq ərəb dilində ağzından çıxanı deyərdi. Qaş qaralanda da əldən düşərək gətirdiyimiz xalça-palaz, qab-qacaq və s. vəsaiti yük maşınının arxasına yükləyib, yorğun-arğın halda evə qayıdardıq.

Xürrəmşəhr və Abadanın ətraf kəndlərinin əhalisi çətin həyat şəraitində yaşayır, yoxsulluq və antisanitariyadan əziyyət çəkirdilər. Buna görə də bəzən anamla Əli əmimin həyat yoldaşı Deyri-Farəmə gedəndə, kəndlilər üçün bir qədər də geyim və ərzaq aparardılar.

Əmimin Amerikada təhsil alan böyük oğlu Əlirza hər il novruz bayramında İrana qayıdardı. O, xırda uşaqlarla çox mehriban davranar, onları çiynində gəzdirər və maraqlı şerlər oxuyardı:

*Bacarıram, bacarıram, amma deyim bacarmıram!*
*Ayağıma tikan batıb, çıxartmağı bacarmıram!*
*Ahay, çıxart bu tikanı, görürsən ki, bacarmıram!*

Biz də yerli adət üzrə əl çalardıq və o da başqa birini deyərdi:

*Eşşəyimin çubuğundan yaxşı qaval düzəldərəm,*
*Sonra özüm mütrüb olub, eşşəyimi əzizlərəm!*

Hamımız əl çalıb, oxuyardıq:

*Eşşəyim üç gündür yonca yeməyib,*
*Bəs, niyə eşşəyim hələ ölməyib?!*
*Əlirza da oxumağa davam edərdi:*
*Eşşəyimin ayağından həvəngdəstə düzəldərəm,*
*Sonra özüm misgər olub, eşşəyimi əzizlərəm!*

Hamımız əl çalıb, oxuyardıq:

*Eşşəyim üç gündür yonca yeməyib,*
*Bəs, niyə eşşəyim hələ ölməyib?!*

O qədər oyunbazlıq edər və çiynində növbə ilə uşaqları gəzdirərdi ki, biz də gülməkdən uğunardıq. Qayıdanda da yük maşınının arxasında başqa bir oyun oynayardıq. Oyunda çox vaxt Bəhmən qalib gələrdi. Nəfəsini uzun müddət saxlaya bilirdi. Nə qədər çalışsaq da, onun kimi nəfəsimizi saxlaya bilməzdik. Oyunun yarısında nəfəsimiz kəsilər və uduzardıq. Bu oyunda heç kim Bəhmənə rəqib ola bilməzdi. Başqa oyunlarda kələkbazlıq və hay-küylə qalib gəlirdisə, bu oyununda heç bir kələksiz hamını udardı.

Yük maşını kələ-kötür yollardan sürətlə keçərkən biz də közün üstündəki üzərlik dənələri kimi yuxarı-aşağı atılıb düşər, xurma ağaclarının ardından günəşin qürubuna tamaşa edirdik. Torpaq yollardan keçəndə, toz-torpaq boğazımıza dolar, o ki var, öskürərdik. Bununla belə, maşından düşüb, əmimiz, bibilərimiz, ya da başqa ailə üzvlərimizin maşınına minməyə razı olmazdıq. Yük maşınının arxasında getmək bizə ən yaxşı səyahət idi. Səidlə Həmid dəmir oturacaqların üstündə ayaqlarını maşından çölə sallayaraq

yatmışdılar. Qəfildən Səidin çimərlik rezin çəkələyini bir tayı ayağından yerə düşdü. Nə qədər qışqırıb, səs-küy salsaq da sürücü bizi eşitmədi. Səid maşından düşəndə onun bir tayı ilə evə qayıtdı.

Həmin illərin birində təbiət günündən yorğun-əzgin halda əmimgilə çatdıq. Yoldaşı tapşırdı ki, əynimizdə toz-torpaqlı və çirkli nə varsa çıxarıb, paltaryuyan maşına yığaq. Mən də hamı kimi əynimi dəyişib, mətbəxə keçdim və toz-torpağa batmış paltarlarımı maşına atdım. Bəhmən mənə göz vurub, dedi: "Nəsrin, maşını işə salmaq istəyirsən?" Bilmədim, ağlına yenə nə gəlmişdi. Amma onun mənimlə danışmağı, başqa sözlə, yetkin bir insan kimi davranması xoş idi. Dedim: "Hə!" Mənə bir qutu camaşır tozu verdi. Ondan bir qədər paltaryuyan maşına tökdüm. Bəhmənin anası maşını işə saldı. Biz də hər şeydən xəbərsiz halda yatmağa getdik. Bir az keçmiş, əmimin yoldaşının qışqırıq səsinə yuxudan ayıldıq. Məlum oldu ki, Bəhmən bu dəfə başımıza hansı oyunu açıb. O, mənə yuyucu toz əvəzinə əl yumaq üçün istifadə olunan dərman tozu veribmiş. Deməli, bu dərman o qədər köpüklənmişdi ki, köpüklü su maşından daşıb, mətbəxin döşəməsinə tökülmüşdü. Mən isə əmimin yoldaşının üzünə baxmağa xəcalət çəkdiyimdən ağlamağa başladım. Narahat halda üzümü anama tutub, dedim: "Ana, gəl gedək öz evimizə! Elə bu dəqiqə dur, gedək evimizə!" Bəhmən də çaşqın və yazıq hala düşərək bizə baxırdı. Daha gözlərindəki nadinclikdən bir əsər qalmamışdı. Şalvarının balağını qatlayıb, mətbəxə girdi. Əlindəki şlanqla döşəməni yuya-yuya mənə dil tökürdü:

"Nəsrin, səhv eləmişəm! Allaha and olsun, mənim təqsirimdir! Mənim xətrimə ağlama!" Sonra anama yalvarmağa başladı: "Xala, sizi and verirəm Allaha, getməyin! Mənim təqsirimdir və onun günahı yoxdur! Mənəm müqəssir!"

***

Mən "Fərəhnaz" məktəbində dərs oxuyurdum və dördüncü sinif şagirdi idim. Amma bədən quruluşu və boy-buxun cəhətdən yaşımdan böyük görünürdüm. Gücümü və bacarığımı hamıya nümayiş etdirməyi xoşladığımdan bəzən tənəffüsdə sinif yoldaşlarımla qaçış müsabiqəsi keçirərkən, demək olar, həmişə qalib olurdum. Bir gün məktəbin həyətində uşaqlarla yarış keçirirdik. Finiş xəttinə çatmağıma az qalmış qəfildən huşumu itirib, yerə yıxıldım. Arxadan gələn yoldaşlarımla aramızdakı fasilə az olduğundan onların neçəsi üstümə yıxılmışdı. Məni hərəkətsiz görən uşaqlar qışqırıq salaraq köməyə məktəbin direktoru və təlim-tərbiyə üzrə müavinini çağırmışdılar. Direktorun müavini məktəbin yaxınlığındakı xəstəxanaya zəng vurmuşdu. Əmimin həmin xəstəxanada işlədiyini bilirdilər. O, xəstəxanaya həkim Diraninin qardaşı qızının yıxıldığını xəbər verərək təcili yardım çağırmışdı. Xəbər çatan kimi əmimə özünü tez məktəbə çatdırmış, məni müayinə edib, sağ olduğumu biləndən sonra onunla birgə gələn tibb bacılarına məni xərəkdə xəstəxanaya çatdırmalarını istəmişdi. Orada məndən analizlər götürüb, başımı, sinəmi və əl-ayağımı rentgenə salan zaman əmim kənarımda idi. Sinə nahiyəsindən

aldığım şiddətli zərbə nəticəsində təngnəfəsliyə düçar olmuşdum. Əmim rentgen şəkilləri və analizlərin cavabına baxandan sonra məni Abadanın "Pəhləvi" xəstəxanasına köçürülməyi göstəriş verdi. Əmimin Xürrəmşəhrdə çalışdığı Karun çayının sahilindəki "Şir və günəş" xəstəxanası korpus və təchizat baxımından məhdud, "Pəhləvi" xəstəxanası isə böyük və tam təchizatlı tibbi mərkəz idi. Əmim epikrizində məndə epilepsiyanın olduğunu qeyd etmişdi. Atam-anam və ailə üzvlərim vəziyyətimdən xəbərdar olan kimi özlərini Abadana çatdırdılar. Anam durmadan ağlayır, atam isə əllərimdən tutub, iri və qara gözlərinin mehriban ifadəsi ilə mənə baxaraq deyirdi: "Qəşəng qızım, bu nə işdi başına gəldi, əziz balam!" Tez bir zamanda bibilər, dayılar, əmilər, bacılar, qardaşlar, əmilərimin həyat yoldaşları, babam və Siddiqə xalayadək bütün qohum-əqrəbamız başıma yığışdı. Gələnlərin sayı o qədər çox idi ki, özüm də mat qalmışdım. Əmim Diraniyə qohumlarımız vaxtlı-vaxtsız əllərində kompot, oyuncaq, şirniyyat və xarici şokolad qutuları ilə məni görməyə gəlir, axşama qədər yanımda qalırdılar. Amma gecələr heç kimə xəstə yanında qalmağa icazə verilmirdi və bu işdə hətta Dirani əmi də bir iş görə bilməzdi. Səhərdən axşamadək yaxınlarımın ətrafımda olması mənə gecələri darıxdırıcı və cansıxıcı edirdi. Odur ki, mən də gətirilən oyuncaq və şirniyyatı götürüb, xəstəxananın uşaqlar üçün ayrılan bölməsinə gedirdim. Balaca uşaqlara qulluğu anamdan və bacılarım Füruzanla Sağərdən öyrənmişdim. Körpələri qucaqlayıb, ayaqlarımda yatırdırdım.

Onlara nağıl danışır, şer oxuyur, qızların saçını darayıb, hörür, gətirdiyim oyuncaqları və şirniyyatı onların arasında paylayırdım.

Bir həftədən sonra evimiz, dostlarım və oxuduğum məktəb üçün darıxmağa başladım. Səhhətim yaxşılaşdıqda, xəstəxanadan evə buraxıldım. Əmim mənə özümdən muğayat olub, dərmanlarımı vaxtında qəbul etməyi tapşırdı və atamla anama da mənə həddən artıq yorğunluq və əsəb sarsıntısının zərərli olduğunu dedi. Uşaqlarla vidalaşmaq üçün körpələr bölməsinə getdim. Onlar da arxamca qaçışaraq ağlayırdılar.

Evimizin yaxınlığında Nəqdi və Milanian dördyolundan sonra imamzadə seyid Mətufun ziyarətgahı vardı. Hərdən məndən dörd yaş böyük Siddiqə xalamla birgə məktəbə gedərkən bu müqəddəs məkanın kənarından keçirdik. Bu kiçik ziyarətgahı çox sevirdim. Anam sağalmağım üçün dörd həftə hər cümə axşamı məni ora aparmağı nəzir etmişdi. Hər həftə cümə axşamı gəlib çatanda, həmişə başı ev işlərinə qarışan anamı səsləyərək deyərdim: "Axşam oldu daha, ziyarətgaha getmirik?" Ziyarətgahın daş döşənmiş balaca həyəti vardı. Orada xurma və sidr ağaclarının kənarından ensiz arx keçirdi. Qapının ağzında həmin "arsız ağac" növü də bitmişdi. Bu ağac ziyarətgahın günbəzi ilə yanaşı ona gözoxşayan bir yaraşıq verirdi. Adətən, qadınlar ziyarətdən sonra ağacların kölgəsində əyləşib, zəvvarlara pendir çörək, göyərti, xurma və çay paylayırdılar. Mənim ziyarətgahın daxilindən daha çox xoşum gəlirdi. Əllərimlə imamzadənin taxta

zərihindən yapışıb, içəridəki qəbrin üstünə düşən yaşıl işığa göz dikirdim. Gülab və kündürün taxta zərihə qarışan ətri mənə xoş təsir bağışlayırdı. Zərihin daxilindəki qəbrin yaşıl örtüyünün üstünə və ətrafa səpələnən kağız və xırda pullara gözümü dikərək fikirləşirdim ki, əgər onlar mənim olsaydı, özümə nələr ala bilərdim. Anam namaz qılır, mən də bir küncdə əyləşərək namaz qılan, yaxud Quran oxuyan qadınlara baxırdım. Ziyarətgahın divarına söykənib, özümü sərinkeşdən yayılan sərin havaya verirdim. Amma axşam piyada evə qayıdanda isə rütubətli isti havadan əziyyət çəkirdim. Ona görə həmişə ziyarətgahın sərin və ətirli havası üçün darıxardım.

Atam işlə əlaqədar xarici səfərdən təzə qayıtmışdı. Xaricdən termos və suyu sərin saxlayan məxsus qab gətirmişdi. O vaxt bizə termos çox qəribə gəlirdi və ən çox təəccüb doğuranı da daxilindəki şüşəsi idi. Anam onu qorumaq üçün həmişə bizə ehtiyatlı olmağımızı tapşırardı. Termosdan bir müddət istifadə etdikdən sonra tıxacını çıxarıb, içindəki çayı iyləməyə öyrəşdim. Tıxacın iyinə qarışan köhnə çayın ətri xoşuma gəlirdi. Atam dolabda yerləşən "Vestinq Haus" markalı televizor da almışdı. Televizorun yerləşdiyi dolabın dörd taylı açılıb-bağlanan qəşəng taxta qapısı vardı. Daha televizor bizim üçün bir möcüzə idi. Bundan əvvəl onu yalnız neft şirkətinin idman kompleksi və əmilərimin evində görmüşdüm. Amma öz evimizdə televizorun olmağı tamam başqa aləm idi. Televizorla əməlli-başlı qürurlanırdıq. Lakin babamın xoşuna gəlməz və ona "şeytan qutusu" deyərdi. Atam bundan qabaqkı səfərlərindən birində

Amerika istehsalı olan böyük bir soyuducu almışdı. Bəlkə də atam gəmidə çalışdığından, mənə elə gəlirdi ki, onun qapısı gəminin sükanı kimidir. Çox ağır olduğundan onu çətinliklə açardıq. Uşaqlıq arzularımdan biri də tez böyüyüb, onu rahat açmağı bacarmaq idi.

Atam səfərdən qayıdandan sonra sevinc və həyəcanımızın həddi-hüdudu olmazdı. Hündürboy, yaraşıqlı atamı dünyalar qədər sevir, dostlarımın yanında onunla öyünürdüm. Hətta məktəb müəllimələrimdən neçəsinin, ələlxüsus cavanların atamı bəyəndiklərini hiss edirdim. Atam məktəbə gələndə hamı ətrafına yığışardı. Ondan həmişə ətir iyi gələrdi, əyninə son dəbə uyğun şıq və ütülənmiş köynək, kostyum, ayağına isə qara rəngli ayaqqabı geyinərdi. Son səfərində özünə yeni maqnitofon da almışdı. O, maqnitofona kaset qoyaraq eyni vaxtda iki barmağı ilə iki düyməni sıxıb, bizə deyərdi ki, söhbət edək. Neçə dəqiqədən sonra öz səsimizi maqnitofondan eşidəndə, sevincdən yerə-göyə sığmazdıq. Çox keçməmiş səs yazmaq bizim axşam əyləncəmizdən birinə çevrildi. Hərdən qohumlarımızın evinə gedəndə onu da çantaya qoyub apardıq və gecəyədək oyaq qalıb, səslərimizi yazar, sonra da hər birimizin səsinə gülərdik. Özüm həmişə səsimin başqaları tərəfindən dinlənilməsindən utanardım.

Atam gəmi ilə dəniz səfərində olmayan ərəfələrdə elə öz məntəqəmizdə bir kapitan vəzifəsində Ərvənd çayında aparılan qazma işlərinə göndərilirdi.

1976-cı ilin yanvar ayında Şirazdan Sağərin ata tərəfdən olan cavan bir qohumu – özü də tək – bacıma elçi gəldi. Atamla anam onun ailəsini yaxşı tanıdıqları üçün razılaşaraq hətta toy gününü belə təyin etdilər. Toy sözünü eşidəndə sevincimiz aşıb-daşdı. Keçirdiyimiz son toy mərasimindən iki il ötürdü. Onda Məhəmməd dayımla həyat yoldaşı Şahnazın toyu olmuşdu. Bu mərasimdən yadımızda qalan şirin xatirələr vardı. Ailə böyükləri yığışıb, toya hazırlıq görməyə başladılar. Biri şirniyyata, o biri kirayə qab-qacağa, digəri masa, stol-stula, xülasə, hərə bir işin tədarükünə baxırdı. Həyət rəngli çıraqlarla bəzədildikdən sonra toy mərasimi də başladı. Dayılarım, xalalarım, babamla bibim son bir həftəni evimizdə keçirdilər. Füruzan həyat yoldaşı ilə Şirazdan gəlmişdi. Əmi Dirani, bibilərim və Əli əmim də həyat yoldaşı və uşaqları ilə birgə mərasimin təşkilində bizə bacardığı köməyi etdilər. Maqnitofon işə düşəndə cavanlar oynamağa başlayırdılar. Yerli "bəndəri rəqsi"ni seyr etməyi çox sevirdim. Boy-buxunlu, enlikürək cavanların çiyin-çiyinə dayanaraq bir-birinin belindən tutub, yallı getmələrini görəndə, uşaq kimi sevinirdim. Əmimin həyat yoldaşı Şirazdan Röya ilə mənə iki dəst milli geyim almışdı. Libasları geyinib, biz də xəlvət guşələrdə rəqs etsək də, oğlanlar kimi ənənəvi qaydalara riayət edə bilmirdik. Bəhmən arxadan saçımızı dartır, qışqırığımızı eşidəndə bizdən qaça-qaça uzaqlaşaraq deyirdi: "Kifircələr. . . Necə də gülüncsüz!" Sonra istehza ilə gülərək bizi yamsılayırdı. İstəyirdim ki, onu tutub, hamar saçlarını yaxşıca dartım.

Toy cümə axşamına düşdü. Elə həmin gün Sağərgilin kəbini kəsildi. Gələn qonaqlar stullarda əyləşmişdilər. Onların çoxu əyinlərində milli geyim və baş örtüyü olan hicablı qadınlar idi. Həyətdə şirni, noğul, konfet və meyvə ilə dolu xonçalar yan-yana düzülmüşdü. Gəlinlə bəy də həyətin yuxarı başında yanaşı qoyulmuş stullarda əyləşmişdilər. Onların arxasındakı divardan xalça asılmışdı. Xalçanın üstü və ətrafı cürbəcür bərbəzək, şarlar və rəngli çıraqlarla bəzədilmişdi. Şirazlı qohumlarımız "vasunək"[1] oxuyur, xorla onun müxtəlif bəndlərini təkrar edirdilər:

*Uca boyuna qurban, sən ki, qılırsan namaz,*
*Başına tirməşal sal, mən gətirim canamaz,*
*Toyun mübarək olsun, gəlin mübarək olsun!*

***

*Gəlinimizin evindən bol sulu bir arx keçər,*
*Gül gətirin, körpü salın, gəlin üstündən keçər,*
*Yarım mübarək olsun, gəlin mübarək olsun!*

***

*Bu həyəti təmizləyin, xalça salıb, gül bəzəyin,*
*Evinizə bir gül gəlir, onu gül tək əzizləyin,*
Toyun mübarək olsun, gəlin mübarək olsun!

[1] Gəlinin şəninə oxunan ənənəvi həzin və şad nəğmə parçaları. Fars əyalətində, ən çox da köçərilərin toy və şadlıq məclislərində bunlar ifa edilir. Vasunəklər hər iki tərəf arasında nigah bağlarının möhkəmlənməyi naminə oxunan səmimi nəğmələrdir. Çox vaxt bir beytdən ibarət olub, səkkiz-altı ritmi ilə şüştər muğamında ifa olunur.

Füruzan Şiraza köçəndən sonra özü də mahir vasunək ifaçısı olmuşdu. Biz ətrafına yığışardıq, o da oxuyardı:

*Uzaqdan atlı gəlir, məncə, Şirazdan gəlir,*
Gəlin qızım qəm yemə, nişanlın nazla gəlir!

Cavanlar gəlinlə bəyin qarşısında rəqs edirdilər. Sağər gözəllik salonundan qayıdandan sonra o qədər gözəlləşmişdi ki, yanından tərpənmək istəmirdim. Onun yaşıl rəngli, uzun ətəkli donu ilə ağ və yaşıl qönçələrlə bəzədilən baş örtüyü və fatası çox gözəl idi. Röya ilə gəlinlik paltarının uzun ətəyini tutarkən gözümə Sağərin yaşıl rəngli dikdaban ayaqqabıları dəydi. Mənim də ürəyimdən bir gün gəlin olub, belə gözəl dikdaban ayaqqabı geyinməyim keçdi. Sağər əlində yaşıl rəngli qısa qulpu dördkünc çanta tutmuşdu. Öz-özümə deyirdim ki, Sağər necə də bəxtəvərdir. Bəy Sağərin əlindən tutub, qulağına astaca nəsə deyir, o da başqalarının eşidə bilməyəcəyi tərzdə cavab verirdi. Bacımın bu qədər ədəbli davranışından xüsusi həzz alırdım. Hava səhər açılandan belə buludlu idi. Qəfildən ildırım çaxdı və yağış yağmağa başladı. Qadınlar bəzək-düzəklərini qorumaq üçün hay-küylü gülüşlə əllərini başlarına tutub, evə tərəf qaçdılar. Yağışın şiddətindən rəngli çıraqların neçəsi sıradan çıxdı. Göyün üzü qapqara qaralmışdı. Sayğac işdən düşdü və ətraf qaranlığa qərq oldu. Elektrikdən başı çıxan cavanlardan bir neçəsi onu yoxlamağa getdi. Çox keçməmiş işıqlar yandı, amma həyətdəki rəngli çıraqları şəbəkədən

ayırdılar. Atam milli musiqini sevdiyindən xalq mahnılarını ifa etmək üçün toya çalğıçı dəvət etmişdi. Bir uşaq kimi bəylə gəlinin yanında oturmağı xoşlayırdım. Hərdən Sağərin qucağında otururdum. Anam isə mənə uzaqdan göz ağardıb, him-cimlə Sağərin qucağından düşməyimi istəyirdi. Ətrafındakılara tapşırırdı ki, qucağında oğlan uşağı otursun ki, ilk övladı oğlan olsun. Sağərin həyat yoldaşı Əhməd Əhmədi elektrik mühəndisi idi. O, Fransanın İrandakı divar kağızı, parket və döşəmə örtüyünün satışı ilə məşğul olan "Mekalium" şirkətinin şöbəsində çalışırdı. Füruzanın həyat yoldaşının adı Məhəmmədrza Məhəmmədi idi. Biz ona ağa Rza deyirdik. O, da Şirazda həmin şirkətdə dizayner idi. Ona görə, hamı zarafatla edərək deyirdi ki, yəqin, Nəğmənin də gələcək yoldaşının adı Hüseyn Hüseyni, Nəsrininki də Həsən Həsəni olacaq və hər ikisi də həmin şirkətdə çalışacaq.

Valideynlərin razılığı ilə anam toyun sabahısı bəy adamları ilə birgə Sağərin cehizini Şiraza aparıb, neçə gün orada qonaq qalmalı idi. Mən o qədər oynayıb, şuluq salaraq yorulmuşdum ki, otaqların birində üstümə bir ədyal atıb yuxuya getdim və bir də səhər atamın səsinə ayıldım. Otaqda atamdan başqa neçə nəfər də var idi. Ədyalın altından çıxmadım. Atam Faizin[1] şerlərindən bir neçə beyt söyləyəndən sonra Sağərin yoldaşına dedi: "Oğlum, qızımdan muğayat ol! Evimin çırağı və əmanətimi sənə tapşırıram! Sağəri öz canın kimi qoru!" Səsindən hiss elədim ki,

[1] İranın cənubunda yaşayıb-yaradan şair Faiz Dəştestani

atam qəhərlənib. Onun ağladığını düşünərək özümü də ağlamaq tutdu və ədyalın altında Sağərin bizi tərk etdiyinə için-için ağladım.

***

Toy günü cümə axşamından başlayaraq növbəti cümə axşamınadək şiddətli yağış yağdı. Küçə və yolları sel-su basmışdı. Məktəblər tətil edildi. Biz uşaqlar isə yağışın tez kəsilməməyi üçün dua edirdik. O gecə sanki asimanda dava gedirdi. Göyün gurultusu adamın tükünü ürpədirdi. Elə bil, yuxarıdan başımıza vedrə ilə su tökürdülər. Buna baxmayaraq, Abadanda yaşayan uzaq qohumlarımızdan neçəsi evimizə qonaq gəldi. Çox keçməmiş başqa neçə nəfər də həyətə daxil oldu. Gələnlərin əynindəki islanmış qara "panço"lar[1] həyətin zəif işığında bərq vururdu. Onların bizim gözümüzdən kənarda yavaşca babam və dayılarımla söhbəti xoşuma gəlmədi. Bir azdan onlardan birinin işarəsilə Siddiqə xala mənimlə Səid və Həmidin əlindən tutaraq otağa aparıb, dərslərimizi oxumağı tapşırdı. O anda hansısa bir hadisənin baş verdiyini hiss etdim. Pəncərəyə yaxınlaşıb, həyətə boylandım. Təəccüblü baxışlarımla həyətin taxta oturacaqlarına, daş səkiyə və ağacların üstünə yağan yağışa tamaşa edərkən babam, bibim və dayılarım pançolu adamlarla birgə küçəyə çıxdılar. Siddiqə xala otağa daxil oldu və məni qucaqlayaraq dedi: "Nəsrin can, uzan yat! Mən də sənin yanında yatıram”. Sonra pəncərənin qarşısına keçib, bacaları bağladı. Ondan

[1] Düyməsiz açıq üst geyim növü.

babamla bibinin hara getdiklərini soruşdum. Onların uzağa getməyib, tezliklə qayıdacaqlarını söylədi. Ürəyimə dammışdı ki, kiminsə başına iş gəlib. Amma özümdən onun ata-anam olma fikrini qovurdum. Xalam əvvəlcə məni bərk-bərk qucaqlayaraq öpdü və sonra da Həmidlə Səidin yanına getdi. Nəğmə də otağın bir küncündə büzüşüb oturmuşdu.

Ertəsi gün məktəbdə müəllimlərin mənə maraqla baxdıqlarını hiss etdim. Xüsusilə də ingilis dili müəlliməsi Minu Nikrəvanın davranışında qəribə qayğı hiss olunurdu. Bilirdim ki, o, atamın xətrini çox istəyir. Atam məktəbə gələndə, onunla ingilis dilində danışardı. Müəlliməm həmişə mənə deyərdi: "Nəsrin, atanın qədrini bil! İngilis dilini yaxşı öyrənmək istəyirsənsə, evdə onunla ingilis dilində danış”. Amma həmin gün məni görəndə gözləri doldu, dodağını dişləyib, üzünü çevirdi və yavaşca digər müəllimələrə nəsə dedi. Bu pıçıldaşmalar, get-gəllər və ara-sıra söhbətlər bir həftə davam etdi. Bir həftədən sonra anam, Füruzan, Sağər, hər ikisinin həyat yoldaşları və qohumları ilə birgə Şirazdan qayıtdılar. Onların hamısının bir yerdə qayıtdığını görəndə çox təəccübləndim. Atamın başına bir iş gəldiyindən şübhələnsəm də, büruzə verməməyə çalışdım.

Bir gün məktəbin həyətində tək-tənha divara söykənərək dərin fikrə getmişdim. Hamı tənəffüsə çıxmışdı. Uşaqlar məktəbin bufetindən şirni və s. alırdılar. Hərə öz rəfiqəsi ilə dayanıb söhbət edir, bəziləri də məktəbin geniş həyətində o tərəf-bu tərəfə gəzişərək dərsini oxuyurdu. Birdən Məhəmməd

dayımın məktəbin qapısından həyətə daxil olaraq uşaqların arasından keçib, məktəbin binasına tərəf getdiyini gördüm. Əlində sendviç var idi. Ona tərəf yaxınlaşıb, bura gəlməyinin səbəbini soruşmaq istəyərkən tələsik binadan çıxdı və iti addımlarla məktəbi tərk elədi. Arxasınca qaçarkən təlim-tərbiyə üzrə direktor müavininin mikrofondan eşidilən səsi həyəti bürüdü: "Baqirzadə Nəsrin, müəllimlər otağına! Dördüncü sinif şagirdi Baqirzadə Nəsrin, tez müəllimlər otağına gəlsin!"

Müəllimlər otağının adı gələndə həmişə qorxurdum. Çünki bu otağa ya nalayiq hərəkəti olan, ya da dərs oxumayan şagirdlər çağırılırdılar. Bir anlıq bütün vücudum əsdi. Özümə bir nəzər yetirdim. Məktəbli formam ütülü idi, ağ rəngli boyun lentimi təzə dəyişmişdim və dırnaqlarımı da tutmuşdum. Fikirləşdim ki, bəlkə də bir müddət narahatçılıq üzündən dərs oxumadığıma görə tənbeh etmək istəyirlər. Bu fikirlərlə müəllimlər otağına yaxınlaşdım. Təlim-tərbiyə üzrə direktor müavini dəhlizdə dayanmışdı. Boynundan asılmış fiti çalmaq istəyərkən yaxınlaşdığımı görüb, təbəssümlə saçımı sığallayaraq dedi: "Baqirzadə, keç içəri. Sənin üçün sendiviç saxlamışam. Otağa girməyə utandığımdan dedim: "Çox sağ olun, ac deyiləm”. Yenə gülümsər halda dedi: "Utanırsan? İndi özüm gətirərəm”. Sonra özü müəllimlər otağına girib, sendviçi gətirdi. Məncə, bu elə dayımın gətirdiyi sendviç idi və niyə onun özünün mənə gətirib vermədiyini anlamadım. Bu vaxtadək hətta atam və ya anam belə, mənə evdən

yemək gətirməmişdi. Sendviçi alıb çalışdım ki, daha bu haqda düşünmədən qəlyanaltımı edim.

Cümə günü səhər hava buludlu olsa da yağış yağmırdı. Hamımız evdə idik. Qəfildən həyətdən fəryad səsləri eşidildi:

– Səkinə xanım, gözün aydın! Həyat yoldaşın dənizdən tapıldı!

Tələsik həyətə qaçdım. Abadandan olan qadın qohumlarımız başlarında qara ərəb örpəyi və çadralarda həyətdə oturub ah-nalə edir, üzlərini cırmaqlayırdılar. Anamı görəndə, fəryadları göyə yüksəldi. Onlardan biri ağlaya-ağlaya anama dedi: "Allah sənə səbir versin, ay Səkinə! Allah özü köməyin olsun! Gördün ki, su yoldaşını qaytardı!"

Bu matəm səhnəsini görəndə, istər-istəməz mən də birküncə çəkilib, ağlamağa başladım. Səidlə Həmid də başımın üstündə dayanmışdı və qəhərlənsələr də ağlamırdılar. Anamla bacılarımın fəryadını eşidən qonşular bizə axışdılar. Anam saçlarını biləklərinə dolayıb yolur, ah-nalə edirdi. Bir azdan üz-gözləri qan içində bibilərim də gəlib çıxdılar. Anamın ağı deyib, nalə çəkməyi ürəyimi parçalayırdı. İstəyirdim ki, əlindən tutub, üz-gözünü cırmaqlamağa imkan verməyim. Sağər, Füruzan, Nəğmə, Siddiqə xala və bibi anamın başına yığışmışdılar. Anam qara saçlarını yolur, xalam üz-gözünü cırmaqlayır, qonşular da rəhmli baxışları ilə dərdimizə şərik olurlar. O anlarda elə hiss edirdim ki, daha heç vaxt dodaqlarıma təbəssüm qonmayacaq, evimizdən heç vaxt gülüş və şadlıq səsi eşidilməyəcək və biz dünyanın sonuna qədər ağlayacağıq.

Həyətin bir küncündə dayanaraq üzlərini əlləri ilə örtüb ağlayan qara geyimli kişilərin sayı get-gedə artırdı. Gələnlərin pıçıltılarından başa düşdüm ki, yaxın zamanda atam dəfn ediləcək. Söhbətlərdən məlum oldu ki, atamın çalışdığı gəmi bir həftə yağan şiddətli yağışlar nəticəsində aşıb-daşan Ərvənd çayında qərq olur və onun cəsədi bir müddət sonra çayın dibindən tapılır. Cənazə suda qalıb, o qədər şişmişdi ki, hər an parçalana bilərdi və Dirani əmimin dediyinə görə, təcili surətdə dəfn edilməli idi. Bu sözləri eşitdikcə halım pisləşirdi. Atamı çox sevməyimə baxmayaraq, bu sözlərdən sonra onun tezliklə dəfni üçün dua etməyə başladım. Bir qədər sonra bir avtobus, neçə mikroavtobus və maşın küçəmizdə dayandı. Avtobusdakı qadınlardan eşitdim ki, atamın barmaqları şişdiyinə görə nişan üzüyünü çıxarmaq mümkün olmayıb. Qohumlarımızdan neçəsi atamla babamın həmişə namaz qıldığı "Sahib Zaman (əc)" məscidinə gedib, imam cüməmiz hacı Məhəmmədidən bu məsələnin şəri qaydasını soruşdular. Hacı dedi: "Suda boğulma ən çətin ölümlərdən biridir və kapitan Baqirzadə şəhid hökmünü daşıyır. Odur ki, qüsl və kəfənə ehtiyac yoxdur. Onu əynindəki hər nəyi ilə birgə torpağa tapşıra bilərsiniz. İnşallah yeri cənnətlik olsun!"

Xürrəmşəhrin qəbristanlığı matəm içində olan qara geyimli əhali ilə dolu idi. Onlar atamla bərabər şəhid olan neçə dənizçinin dəfni üçün gəlmişdilər. Artıq məndə anamın nalələrini eşitməyə taqət qalmamışdı. Əli və Dirani əmimin "ya Hüseyn" sədaları, qadınların, ələlxüsus, Məryəm bibinin və Bilqeys

xanımın üz-gözlərini cırmaları, anamın saçlarını yolması və Füruzanla Nəğmənin ağlamalarına dözmək olmurdu. Hamıdan çox təzəcə gəlin olan Sağərin zərif simasına baxa bilmirdim. O da bir qərib kimi hönkür-hönkür göz yaşı tökürdü.

O günədək heç vaxt yaxından ölüm hadisəsi ilə qarşılaşmamışdım və ilk dəfə idi ki, qəbristanlığa ayaq basırdım. Zənnimcə, o gün hər yer qara rəngə boyanıb, qaranlığa bürünmüşdü. Məzarlıqdan acığım gəldi. Eşitdiyim yeganə səs ah-nalə, fəryad və ağlaşma sədaları idi. Olduqca yaraşıqlı və mehriban bir insan olan atamın darısqal və qaranlıq bir quyuya qoyulub, torpaqla örtülməsini təsəvvür edə bilmirdim. Bilmirəm, qorxuya, yoxsa başqa səbəbə görə bütün bədənim əsirdi. Bu ağır itkinin dərki mənə çox çətin idi. O gün bütün şadlıq və nadincliyimi atamın qəbri kənarında dəfn elədim. Bundan sonra artıq həmişəlik oynamaq, dəcəllik və şənliyin üzünü görə bilməyəcəyimi düşünürdüm.

Dirani əmi Əlirzaya tapşırdı ki, məni bu fəzadan uzaqlaşdırsın və o da məni evimizə apardı. Siddiqə xala Səid və Həmidlə birgə evdə qalmışdı. Daha sonra Əlirza bizi maşına mindirib Dirani əmigilə apardı. Əmimgilə çatanda artıq qonşu qadınlar yas məclisi üçün lazımı tədarükü görmüşdülər. Hələ eşitdik ki, Dirani əmi ürək tutması keçirdiyinə görə xəstəxanaya aparılıb. Yas məclisi atamın yeganə qardaşı olan əmimgildə keçirildi. Məclisdə qəm-kədərə bataraq bir küncdə oturub, heç kimlə danışmadım. O gündən sonra tamam başqa şəxsə çevrildim. Az danışar, qəm-qüssəm tükənməz, çox vaxt tənhalığa çəkilərdim.

Neçə gündən sonra Əli əmi məni qucaqlayıb nəvaziş edəndə, ilk dəfə "yetim" kəlməsi də qulağıma dəydi. Atamızı itirməklə ailəmizə hakim olan ağır sarsıntıya görə əmilərimiz, bibilərimiz bizə xüsusi qayğı və məhəbbət göstərir, onun boş qalan yerini doldurmağa çalışırdılar. Əli əmim həqiqətən də bizə qarşı çox qayğıkeş idi. O, hər gün axşamüstü neft şirkətindən evə qayıdanda, aldığı təzə "peykan" maşını ilə bizə baş çəkərdi. Babamla dayılarımın daimi himayədarımız olmalarına baxmayaraq, o, bizə görə həmişə nigaran idi. Atamın ölümü hamıdan çox məni sarsıtdığından, əlinə fürsət düşən kimi məni, Səidi, Həmidi və Nəğməni maşına mindirib, limanın kənarındakı xarici malların satıldığı meydana aparardı. Əmim Nəğmə ilə mənə rezin çəkələk, cins şalvar və yubka, rəngli dırnaq boyaları, əl kremi, üz səpgilərinə qarşı sabun və Həmidlə Səidə də bəyəndikləri hər şeyi alardı. Amma bunların heç biri mənim yaralı qəlbimə təskinlik vermirdi və günü-gündən həyatdan, onun bəxş etdiyi bütün şövq və çılğınlıqdan uzaqlaşmışdım. Dayılarım evdə hər dəqiqə məni şad edib, könlümü almağa çalışsalar da, atamdan sonra daha şadlığa bir səbəb olmadığını düşünürdüm. Təkcə Allah bilirdi ki, atam üçün nə qədər darıxmışdım. Son vaxtlaradək onun uca qamətini, evə qayıdarkən divara düşən kölgəsini görmək üçün hamının gözündən yayınaraq, axşamlar küçə qapısı qarşısında həsrətlə qayıtmağını gözləyər, atamdan başqa hamının valideylərinin qayıtdığını görəndə, məyus olub özümə qapanardım.

Artıq İsmayıl dayımın da hansı səbəbə görə bizə gəlmədiyi mənim üçün maraqlı deyildi. O da yalnız hərdən gecə yarısı gizlicə anamla babamı görməyə gələr, neçə dəqiqə qorxu və təşviş içində otaqda əyləşər, getmək istəyərkən də öncə anam çölə çıxıb, diqqətlə ətrafa göz gəzdirərək küçənin xəlvət olduğuna əmin olandan sonra onu qaranlıqda yola salardı. Dayım gedəndən sonra da anam göz yaşı tökərək Qurani-məcidin "qul" kəlməsi ilə başlayan dörd surəsini oxuyub, nigarançılıqla qapıya tərəf üfürərdi. Mənim üçün bu dünyada təsəlli verən yeganə istək Bəhməni hərdən görə bilməyim idi. O da qısa bir zamanda boy ataraq Abadanın yaraşıqlı cavanlarından birinə çevrilmişdi. Elə bilirdim ki, dünyada mənə miras qalan yeganə ümid ürəyimdə ona bəslədiyim məhəbbətdir. Hələ də onu görəndə, əvvəlki kimi nəfəsim təngiyər, qəlbim sürətlə döyünməyə başlayardı. Bəhmən vaxtaşırı Röya, Mitra və Rəna ilə birgə əmimin volksvageni ilə bizə gələr, məni, Nəğməni, Səidi və Həmidi də maşına mindirib, Abadanın "ANX" mədəniyyət mərkəzinə[1] şam yeməyinə apardı. Bəzən də "Neft" kinoteatrında filmə tamaşa edər, çayın kənarında "felafel" və "səmbusə" yeyərdik. Bəhmən yetkinlik yaşına çatan bir cavan olduğundan, artıq məni uşaqlıq illərindəki kimi incitməsə də, mənimlə ciddi rəftarından xoşum gəlməzdi. Onun mənə qarşı bu qədər biganə və

---

[1] II pəhləvi dövründə neftayırma zavodunun Ərvənd çayı kənarında tikilən ANX mədəniyyət-istirahət kompleksidir.

soyuqqanlı davranışı qəm-qüssə və ruh düşkünlüyümü bir az da artırardı.

# Üçüncü fəsil

Atamın dünyanı tərk etdiyi gündən bir il gəlib keçdi. Anam vəfatın ildönümü münasibətilə hazırlıq işləri görürdü. Bu arada İsmayıl dayıdan bir xəbər çıxmadığı üçün nigarançılıq ona aman vermirdi. Dayımla əlaqəsi ola bilən hər kəsi görən kimi təşvişlə tapşırırdı: "Allah xətrinə, İsmayıla çatdırın ki, onu and verirəm əzizlərinin canına, ehtiyat üçün mərhum Əlinin ildönümünə gəlməsin! Mənim dözməyə taqətim yoxdur! Ürəyimə damıb ki, başına bir iş gələ bilər". Amma o isə anamın məsləhətinə qulaq asmayıb, gecə məclisdən geri qayıdarkən neçə vaxtdan bəri hamımızın qorxduğu hadisə baş verir. Deməli, dayım mərasimdən sonra gizlicə Xürrəmşəhr körpüsünün altından keçəndə, bir nəfər qarşısını kəsərək soruşur: "Qardaş, saat neçədir?" O da saatına baxanda, körpünün ətrafında pusquda duran neçə SAVAK məmuru onu mühasirəyə alaraq əllərini qandallayıb maşına mindirir və özləri ilə aparırlar. Dayım neçə vaxt idi ki, siyasi fəaliyyətlərə görə axtarışda idi. Həmin gecə onu ötürməyə gedən qohumlarımızdan neçəsi kənardan hadisəni müşahidə

edib evimizə qayıdırlar. Hadisəni danışaraq dedilər: "Cinayət işi ağırlaşdı. Kaş, silahsız olaydı!" Anam üzünü cırmaqlayaraq ah-naləyə başladı: "Ah, ürəyim kabab oldu! Daha taqətim qalmayıb! Axı, dəfələrlə demədimmi ki, İsmayıl yasa gəlməsin?!"

O ərəfədə cümə axşamı Əli əmi, onun həyat yoldaşı və digər ailə üzvlərimizlə atamın qəbri üstünə getdik. Həmin gün bütün vücudumu qəm-kədər bürümüşdü. Özümü qəbrin üstünə atıb, o qədər ağladım ki, az qala huşumu itirim. Əmimin həyat yoldaşı və qızları məni bir təhər qəbrin üstündən qaldırıb, əl-üzümü sərin su ilə yuduqdan sonra bir stəkan su verdilər. Mənsə dayanmadan zarıyıb, ağlayırdım: "Atam üçün darıxmışam! Atacan, Allah xətrinə qayıt! Daha sənsizliyə dözə bilmirəm!" Nalələrimi eşidənlər də hönkürtü ilə ağlayırdılar. Əli əmi məni bağrına basıb, bərk-bərk qucaqladı və yavaşca qulağıma pıçıldayaraq dedi: "Nəsrin can, sən də mənim qızımsan! Atan dünyasını dəyişsə də, əmin sağdır! Mənə ata deməyə utanma! Bu gündən mən sənin atan, sən də mənim dördüncü qızımsan! Nəsrin can, Allaha and olsun, sən mənə doğma balam qədər əzizsən! Vallah, bundan sonra özüm qulluğunda durub, bütün qayğını çəkəcəyəm!" Əmim mənə o qədər nəvaziş göstərib nazımla oynadı ki, bir qədər təskinlik tapdım. Bütün bunlarla yanaşı fikrim həm də Bəhməndə idi. O da qəhərləndiyindən bir kənara çəkilib, sükuta qərq olmuşdu.

Evə qayıdarkən ikimiz də hamıdan geri qaldıq. Ailə üzvləri ilə aramızda fasilə artarkən Bəhmən mənə yaxınlaşaraq bir-birimizin kənarında yolumuza

davam etdik. O, ailə üzvlərimizin gözündən yayına bilməyimiz üçün addımlarını asta-asta ataraq sakitcə dedi: "Nəsrin xanım!" O zaman həyatımda ilk dəfə idi ki, mənə "xanım" deyə müraciət edilirdi. İstər-istəməz ürəyim döyünməyə başladı. Yaralı qəlbim elə sürətlə döyünməyə başladı ki, Bəhmənin də eşidə biləcəyini düşünəndə, xəcalət çəkdim. Bəhmən söhbətə davam edərək dedi: "Nəsrin, niyə məni bu qədər incidirsən? Niyə özünə bu qədər əzab verib ağlayırsan? Heç bilirsən ki, sənin ağlamağını görəndə, mən nə hisslər keçirirəm? Sən özünü qəbrin üstünə atıb ağlayanda, az qaldı ki, ürəyim partlasın! Allah xətrinə, bəsdir, daha ağlama! Sənə xüsusi rəğbətim olduğundan, ağladığını görəndə, özümdən asılı olmayaraq bərk narahat oluram!" Bu sözlərdən sonra yol boyu susduğumuza baxmayaraq, Bəhmən məndən ayrılmadı. Beləcə, addımlayaraq maşını saxladığımız yerə çatdıq. Son bir il ərzində ilk dəfə idi ki, əhval-ruhiyyəmin yaxşılaşdığını, həyatımın əvvəlki axarına qayıtdığını hiss edirdim. Əmimlə ailə üzvlərim getsələr də, Nəğmə ilə Mitra maşının kənarında dayanmışdılar. Bəhmən maşını işə salandan sonra yola düşdük. Əhvalım yaxşılaşırdı və əldən verdiyim sevinc hissi yenidən qəlbimə yol tapırdı. Bəhmən ayağını qaza basıb, maşını sürətlə sürürdü. Şüşədən ətrafı seyr etsəm də onun maşının ön güzgüsündən mənə göz yetirdiyinə əmin idim. Odur ki, xəyallara dalaraq buludların üstündə qanad çalırdım.

# Dördüncü fəsil

On altı yaşlı Siddiqə xalam orta məktəb şagirdi idi. İsmayıl dayımın şah məmurları tərəfindən həbsindən sonra xalam da onun üzv olduğu "Mənsurun"[1] mübarizə qrupuna qoşuldu. Bu gizli cəmiyyət dindar gənclər tərəfindən yaradılmışdı. Bəzən dayım şübhə yaranmasın deyə, Siddiqəni də özü ilə iclas və görüşlərə aparardı. Onun həbsindən sonra 1978-ci ildən etibarən xalamın inqilabi fəaliyyəti gün-gündən artmağa başladı. Artıq yığıncaqlarda dini-siyasi kitablar paylanılır, daha çox cəmiyyətə cavanların cəlbi, şah rejiminə qarşı aşkar mübarizələrin təşkili kimi mühüm tədbirlər irəli sürülürdü. Xalam vaxtının əksəriyyətini evimizdə keçirir, axşamadək kitab

---

[1] Xuzistan əyalətinin bir neçə şəhərində gizli fəaliyyət göstərən cəmiyyət. "Mənsurun" 1976-cı ildə Əhvaz, Xürrəmşəhr, Əndimeşk və Dezful şəhərlərində inqilabçı qruplar tərəfindən fəaliyyətə başlamış və ona "Əlif" rəmzi adı ilə tanınan Hüseyn Hürmüzi rəhbərlik edirdi. Bu qruplar dini ideologiyanı əsas tutaraq şah rejiminə qarşı silahlı mübarizəyə başlamışdılar. Onların arasında Möhsün Rzayi, Məhəmmədbaqir Zülqədr, Əli Şəmxani, seyid Əli Cahanara və İsmayıl Zamani kimi şəxsləri qeyd etmək olar.

oxuyurdu. Bir axşam o, divar qəzeti hazırlayarkən Nəğmə də dərsləri ilə məşğul idi. Onun siyasi və inqilabi fəaliyyətlərdən xoşu gəlməzdi və arzusu ali məktəbi bitirib, müəllimə olmaq idi. Amma mən, Səid və Həmid xalamın yanında əyləşib, maraqla onun işinə tamaşa edirdik. Xalam kağızın üzərində çəkdiyi kəllə şəklinin ortasında "istismar" sözünü yazıb, ətrafında insaniyyətə zidd və şah rejimi tərəfindən xalqa edilən zülmlərə dair simvolik rəmzləri həkk edirdi. O, kəllədən asılan zəncirin ucundakı böyük dairənin içində qırmızı və göy karandaşla ABŞ-ın bayrağını çəkmişdi. Qəzetdə həmçinin bir sıra məqalələr də yer almışdı. Kəllənin altında isə qara və iri şriftlərlə "Mübarizə, Azadlıq, İstismar edilən xalqın hüquqlarının müdafiəsi!" sözləri yazılmışdı. Xalam işini bitirəndən sonra üzünü bizə tutub soruşdu: "Sizcə, yaxşı alınıb?" Qəzetdə ABŞ-ın bayrağından başqa hər nə vardısa qara qələm və flomasterlə qeyd edilmişdi. Biz də maraqla qəzetə baxaraq bir ağızdan dedik: "Çox gözəl alınıb, Siddiqə xala! Vallah, əladır!" Xalam qəzeti lülə şəklində bураraq rezinlə bağlayıb, dolabın üstünə qoydu və daha sonra hamımıza yorğan-döşək sərib, yatızdırdı.

Gündüz məktəbdən evə qayıdanda anam, babam, bibim və Mahmud dayının qanı qaralmış halda həyətdə oturduqlarını gördük. Bildim ki, xoşagəlməz hadisə baş verib. Salam verib nə baş verdiyini soruşarkən anam dodaqaltı dedi: "Sus ay qız, dinməsən yaxşıdır! Daha evimiz yıxıldı! İndi haranın külünü töküm başıma?! Siddiqəni həbs ediblər!" İsmayıl dayının həbsi və haqqında edam hökmü

verilәndәn sonra hamımız "SAVAK"-ın adı gәlәndә qorxurduq. Hәmişә özünü pis hiss edәn vә yatağından çәtinliklә qalxan bibi dedi: "Bizә onun hәbs edildiyini sinif yoldaşı xәbәr gәtirdi. Deyәsәn, dünәn düzәltdiyi o zәhrimarın ucbatından hәbs olunub!" Anam da әlavә etdi: "Bәli, o zәhrimarı divara vurarkәn özünü işә salıb! Mәktәbin direktoru müәllimlәr otağında üzünә bir şillә vuraraq deyib: "Mәnim mәktәbimdә bir dә belә qәlәt etsәn, vay halına! Bu axmaq qız da düşünmәdәn qayıdıb direktorun üzünә bir şillә vurub!" Sonra ah çәkәrәk qışqırdı: "Ay Allah, hara gedim? Dәrdimi kimә deyim? Siddiqә can, hardasan?"

Yadıma düşdü ki, Siddiqә xalanın mәktәbin direktorundan xoşu gәlmәzdi. Onu hicaba riayәt etmәyәn, mәğrur vә kobud bir qadın hesab edirdi. Mahmud dayım dedi: "Bacımın sözünә qüvvәt, hamınız Siddiqәni yaxşı tanıyırsız. Elә yerindәcә direktora möhkәm bir şillә vuraraq deyib ki, can de, can eşit!" Bibi dayının sözünü kәsәrәk "Çox nahaq edib!" – dedi. Babam da dillәndi: "Özünüzü boş yerә narahat etmәyin. Siddiqәni hamı yaxşı tanıyır, uşaqlıqdan sözü kәsәrli, qәtiyyәtli bir qız olub". Anam dedi: "Yәqin, sorğu-sual zamanı izahat vermәkdәn boyun qaçırıb. Ona şillә dәyәndә, o da vurub. Vay ay canım, o qadının üzündәki әnlik-kirşanda hökmәn Siddiqәnin barmaq izlәri qalıb!" Mahmud dayım da zarafatla mәktәb direktorunu yamsılayaraq dedi: "Sәnin başına bir oyun açım ki, gәl görәsәn! Elә indi "SAVAK"-a zәng edәrәm, alarsan payını!" Babam yenә dillәndi: "Danışmaqdan

bir şey çıxmaz. Durun, evdə olan bütün inqilabi çağırış, kitab və sairi yığıb elə itirin ki, izi-tozu qalmasın! Hər an "SAVAK"-n məmurları evimizə axtarışa gələ bilərlər!"

Anamla dayım tələsik babamın tapşırığını yerinə yetirməyə başladılar. Evdə olan bütün dini kitab və inqilabi çağırışları yığıb bir neçə boş yağ qutusunda yerləşdirəndən sonra onları qonşumuz Cəlili nənənin evinə apardılar. Cəlili nənənin ailəsi milliyətcə ərəb olduğundan heç kim onlardan şübhələnməzdi. İş başa çatdıqdan sonra anam yenə ah-nalə edərək ağlamağa başladı: "Ah, ürəyimə bacı dağı çəkdilər! Bu günədək İsmayıl, İsmayıl deyirdimsə, indidən belə Siddiqə, Siddiqə deyib, yanmalıyam! Bacı qurban, hardasan?"

Artıq axşama yaxın anamda taqət qalmamışdı. Əli əmimlə həyat yoldaşı, Dirani əmi və digər qohumlarımız da əhvalatdan xəbər tutub, bir-bir evimizə gəldilər. Sanki xalam dünyasını dəyişmişdi. Anamla bibi xalamı oxşayıb, ağlayırdılar. Anam deyirdi: "İlahi, özün kömək ol! İsmayılın edamına razıyam, amma Siddiqə mənim namusumdur! Başına bir iş gəlsə, daha bu diyarda qala bilmərəm! Gedib, özümü öldürəcəyəm! Vay, ay Allah! Siddiqə can, əsil-nəcabətinə qurban olum!" Bibi də ona qoşularaq ah-nalə edirdi: "İlahi! Nə vaxtdan bəri dua edirdim ki, bu qapı açılaraq İsmayıl içəri girsin! Ayaqları altındakı torpağı öpəcəyimə söz vermişdim! İndi isə qızımın xilası arzusundayam! Nəcabətli, başıaşağı və həyalı qızım bu gecə bir yığın canavarın əlində əsirdir!" Sonra ikisi birgə elə şivən qopardılar ki, hamımızı ağlamaq tutdu. Əmilərim və dayılarım

vəziyyəti belə görəndə qeyrətləri tab gətirmədi. Elə gecə ikən qohumlarımızdan "SAVAK"-la rabitəsi olan bir şəxsin evinə getdilər və çox çəkmədi ki, Siddiqə xalam azad edildi.

O hadisədən sonra xalam daha məktəbə getmədi və təhsili buraxaraq "Mənsurun" cəmiyyətində siyasi fəaliyyətlərini artırmağa başladı. Həmişə hicaba riayət edərək uzun və enli manto geyinirdi. O zaman yalnız hamilə qadınlar belə geyindiyindən anam xalamı məzəmmət edərək deyərdi: "A bala, belə geyinmə! Kaş, dilim quruyardı bunu deyəndə, amma camaat elə bilər ki, hamiləsən!"

Xalam cəmiyyətdə tibb universitetinin tələbəsi olan seyid Rza Musəvi adlı bir cavanla daha çox həmkarlıq edirdi. Onlar başqa neçə üzvlə birgə Abadanda "Fəth" ictimai mərkəzini də təsis etmişdilər. Mərkəzdə dini-siyasi baxımdan səviyyəsi aşağı olan əhalini daxildə baş qaldıran ateizm ideyaları ilə mübarizəyə hazırlamaq üçün müvafiq dərnəklər təşkil edilirdi. Mənə də Bəhməni görə bilməyim üçün Abadana getmək yaxşı bəhanə idi. Odur ki, xalam "Fəth" mərkəzinə dərnəyə gedərkən mən də hərdən ona qoşularaq qayıqla Abadana səfər edərdim. Anam mənim üçün güllü çadra tikmişdi. Onu başımda çətinliklə saxlamağıma baxmayaraq geyinməyi xoşlayardım. Hətta əmimin icazəsi ilə Siddiqə xala ilə seyid Rza bəzən onların evində silahla tanışlığa dair təlim dərsləri də təşkil edirdilər.

***

1977-ci ildə artıq on üç yaşına dolmuşdum. Hündür boyuma baxmayaraq, hələ də mənə uşaq gözü ilə baxırdılar. Bəzən anamla bir otaqda yatardım. Gecə yarısı Məhəmməd dayı, Mahmud dayı və Siddiqə xalam anamın otağına gəlib, onunla İsmayıl dayı barədə söhbət edərdilər. Onların dediyinə görə, dayım edam cəzasına məhkum edilibmiş. Hətta bəzən babamla anamın bizi neçə günlük tək qoyub, guya şirazlı qohumlarına baş çəkmək üçün səfərə yollanarkən, əslində, Tehrana "Evin" zindanında cəza çəkən İsmayıl dayımı görməyə getdiklərindən xəbərim vardı. Onlar gedə bilmədikdə də dayılarım Tehrana gedərdilər. Qayıdanda isə yolüstü Qum şəhərini ziyarət edəndən sonra oradan ayaqqabı və corablarının içində inqilabi çağırışları necə gizlədib, Xürrəmşəhrə gətirdikləri barədə söz açardılar. Mahmud dayımın dediyinə görə, dayımla kamera yoldaşı olan Əli Cahanara işgəncələr nəticəsində şəhid olmuşdu. Özümü yuxuluğa vursam da Cahanaranın dırnaqlarının çəkilib çıxarılan səhnələri beynimdə canlandırarkən ürəyim parçalanır, gözlərimi bərk-bərk yumub, dodaqlarımı dişləyirdim. Dayım deyirdi: "Allah eləsin, İsmayıl bu işgəncələrə tab gətirə bilsin!" Bu zaman anamın səsi ucalaraq "Tab gətirəcək! Mütləq tab gətirəcək! İsmayıl güclüdür!" – deyə cavab verirdi. Dayım deyirdi: "Evin zindanındakı məmurlar daşürəklidirlər və deyilənlərə görə, məhbuslara elektrik stulunda elektroşokla işgəncə verirlər!"

Ertəsi gün səhər məktəbə gedəndə, fəxrlə sinif yoldaşlarımdan neçəsini ətrafıma yığıb, ehtiyatla

onlara bu mühüm sirrin üstünü açaraq dayımın siyasi məhbus olduğundan danışdım. Dedim ki, dayım neçə illər bundan öncə, bəlkə də lap cavan yaşından inqilabi hərəkata qoşulmuş və hal-hazırda Tehranın "Evin" zindanında həbsdədir. Dayılarımın dediklərinə görə, məşhur din xadimi Taliqani ağa dayımla bir divar arası qonşu kamerada olduğundan onun gecələr hansı şövqlə Quran oxuduğunu eşidirmiş. Rəfiqələrimdən Cahanaranın ailəsini tanıyanlar var idi və deyirdilər ki, Xürrəmşəhrin hörmətli və dindar ailələrindən biridir. Sözümə davam edərək dedim: "Dayımın fikrincə, Əli Cahanara amansız işgəncələr nəticəsində şəhid olub”. Sonra özüm də sanki bir şahid kimi, onun dırnaqlarının necə bir-bir çıxarıldığını danışdım. Uşaqlar bunları eşidəndə, qışqıraraq gözlərini yumurdular. Mən isə fərəhlə deyirdim: "Bəlkə indiyədək dayımın da dırnaqlarını çəkib çıxarıblar. Axı, İsmayıl dayım da "Mənsurun" cəmiyyətinin üzvüdür. Amma indiyə qədər heç kimin adını çəkməyib. O da daim işgəncə altındadır, bəlkə də edam olunub!"

1977-ci ilin yayı idi. On üç yaşında artıq məndə də gözəl geyinib-keçinmək fikirləri baş qaldırırdı və bu dövrdə bəzənmək, yeni modla cürbəcür pal-paltar alıb, zahiri gözəlliyə əhəmiyyət vermək təbii hisslər idi. Avqust ayının iyirmisi səhər saat 9-10 arası olardı. Əynimə təzə cins şalvar geyinmişdim və ayaqlarımda da bu yay dəbdə olan üstü tünd qırmızı tül parçadan tikilmiş platformalı ayaqqabılar vardı. Nəğmə ilə ikimiz hava qızmamış qonşu qızları da özümüzlə götürüb, çayın kənarına dondurma yeməyə getmək

istəyirdik. Ondan sonra sahildəki xarici mallar bazarına baş çəkib, Nəğməyə də cins şalvar almalı idik. O zaman keyfiyyət və davamlılıq baxımından sərfəli olan xarici mallar gənclər tərəfindən çox bəyənilirdi. Əynimdəki cins şalvarı mənə Dirani əmim almışdı. Sinif yoldaşlarımdan birinin məsləhəti ilə daban daşı ilə şalvarımı o qədər sürtmüşdüm ki, rəngi açılmışdı. Buna baxmayaraq nə süzülmüş, nə də keyfiyyətini itirmişdi. Satıcılar deyirdilər ki, cins şalvarları on-on iki il də geyinsəniz, nə cırılar, nə də köhnələr.

Hələ evdən çıxmamış həyətdən anamın ağlamaq səsi gəldi. Yenə şivən salaraq ağı deməyə başladı. Atam dünyadan köçəndən sonra anamın ilk dəfə belə yanıqlı oxşayıb-ağlamağını görəndə, eşitdiklərim məni şoka saldı. Dilim-dodağım quruyaraq bədənim bumbuz oldu. Sanki ayaqlarım yerə mıxlandı və addım ata bilmədim. Yerə çöküb dedim: "Ya imam Hüseyn!" Əli əmimin həyat yoldaşının qapı ağzında dayanıb hönkür-hönkür ağladığını görəndə, hökmən başlarına bir iş gəldiyini güman elədim. Hətta ürəyimdən, olmaya əmimin, yoxsa Mitranın, ya da Röyanın ölümü fikirləri keçərkən, Bəhmənin də başına bir iş gəldiyini fikirləşdim. Ola bilsin, Bəhmən dostları ilə çayda çimərkən boğulub ölüb. Hər halda məndə ayaq üstə durmağa taqət yox idi. Oturduğum yerdə bir anlıq nəfəsimin kəsildiyini hiss etdim. Elə bil, dünya başıma fırlanırdı. Birdən Nəğmənin fəryadı həyəti bürüdü: "Ana! Ana! Nəsrin... Nəsrin öldü!" Daha qulağımda yalnız anamın "Ay ürəyim! Nəsrin! Nəsrin can! İlahi, haranın külünü başıma töküm!

Anan sənə qurban, axı, nə oldu sənə?!" – naləlırinin cingiltiləri qaldı.

Üzümə bir qədər soyuq su səpdilər. Əmim yoldaşının nazik barmaqları ilə yanaqlarıma üç-dörd şillə vuraraq üstümə bir qab suyu boşaldanda, yavaş-yavaş özümə gəlməyə başladım. Anam nigaran halda mənə baxırdı. Artıq özümə gəldiyimi görüb, soruşdu: "Nəsrin, başına dönüm, qızım, sənə nə oldu?" Bərkdən qışqırdım: "Anacan, Bəhmənmi ölüb?" Əmimin yoldaşı əsəbiləşərək dilləndi: "Dilini dişlə, ay qız! Allah eləməsin!" Halım yenə pisləşdi. Söylədiyim sözə görə məni xəcalət təri basdı. Hiss elədim ki, qəlbimin dərinliklərindəki sirrin üstü açıldı və həmişə qorxduğum məsələ başıma gəldi. Anam bir növ, könlümü almaq üçün dedi: "Yox, ay bala! Dünən axşam Abadanın "Reks" kinoteatrında yanğın baş verib. Atanın uzaq qohumlarından neçəsi də orada imiş. Hələ heç nə məlum deyil”. Əmimin həyat yoldaşı da əlimi möhkəm sıxaraq "Elədir, qorxma! Hələ ki, dəqiq məlumatımız yoxdur. Allahın köməyi ilə başlarına bir iş gəlməz. Yəqin ki, sağ-salamatdırlar”. Ağladığım yerdə gülməyim gəldi və üzümü onlara tutub dedim: "Əgər heç nə məlum deyilsə, onda xeyir ola, matəm keçirirsiniz?! Həqiqətən bir hadisə baş versəydi, Allah bilir, onda nə edərdiz!"

Hər ikisi qalxıb həyətdəki taxtda əyləşdilər. Anama ürəyim yanırdı. Üzünün rəngi qaçmışdı, solğun və pərişan görünürdü. Nəfəsi daralmışdı. Nəğmə ilə evə keçib, əynimizi dəyişdik. Daha gəzintiyə heç bir həvəs qalmadı. Bir azdan babam da gəldi və pis

xəbərlə qayıtmışdı. Bizə dedi: "Ay qızlar, radionu yandırın!" Abadan radiosu gündəlik verlişlərin yayımını dayandırıb, yalnız hüznlü musiqilər səsləndirir, xəbərlər zamanı da aparıcı qəhərli tonla son hadisələrlə bağlı məlumat verirdi. Nəhayət, babamgil Abadana gedib, bir də gecə yarısı qayıtdılar. Anamın yeməyə iştahası yox idi. Sadəcə susur, hərdən də o tərəf-bu tərəfə gedərək öz-özünə ağı deyirdi. Radio açıq idi və verilən son xəbərə görə, o axşam Abadanın "Reks" kinoteatrında Məsud Kimyayinin çəkdiyi "Marallar" filminə tamaşa zamanı baş vermiş yanğın nəticəsində altı yüz nəfərin həlak olduğu ehtimalı vardı. Həmin gecədən sonra Xürrəmşəhrdən şadlıq yığışdı və bütün şəhər matəmə qərq oldu.

Hadisənin ertəsi günü narahatçılıq və sıxıntımı boğa bilməyib, axır, Dirani əminin evinə getdim. Onun qızı Müjdə mənimlə həmyaşıd idi. Müjdənin təklifi ilə Abadana getməyə hazırlaşdıq. Əyin-başımıza əl gəzdirərkən əmimin yoldaşı Behcət xala otağa girib dedi: "Xeyir ola, toyamı hazırlaşırsız?! Utanın! Görün, yanğında nə qədər cavan həlak olub! Elə bil ziyafətə gedirlər!?"

Abadana çatanda gördük ki, vəziyyət biz təsəvvür etdiyimizdən də ağırdır. Sanki yer-göy ağlayırdı. Demək olar, Abadanda baş verən bu faciədə əzizini və ya dostunun, yaxud doğmasını itirməyən bir ailə yox idi. Oradan birbaşa Bilqeys bibimin evinə yollandıq. Axşamüstü bibim, həyat yoldaşı, cənab Əminzadə, Məryəm bibimin qızı Südabə və digər qohumlarımla birgə qəbristana getdik. Camaatın

"Torpaqxana" adlandırdıqları təzə qəbiristanda misli görünməyən izdiham vardı. Kinoteatrda həlak olan bütün şəhidlərin ailə üzvləri bura toplaşmışdı. Onlar ürəkparçalayan sədalar altında əzadarlıq edib, yanıqlı növhə deyirdilər. Qəbiristanda nə bir ağac, nə də kölgəlik vardı. Hər tərəf od tutub yanırdı. Torpaqdan qalxan isti havanın hərarətini adi gözlə görmək mümkün idi. Çoxları nəzir və ehsan məqsədilə camaata sərin su və cürbəcür şərbətlər paylayırdılar. Dəfn üçün qəbirlərin yerinə buldozerlər iri çalalar qazırdılar. Orada eşitdik ki, yanğından sonra tapılan əzaların şəxsiyyətini müəyyənləşdirmək qeyri-mümkün olduğu üçün hamısını bir yerdə həmin çalalarda dəfn edirlər. Bunları eşidəndən sonra halımız lap pisləşdi. Bu arada biri özünü ağ parçaya dolayaraq torpağın üstünə atılıb-yıxılır, durmadan özünü vuraraq başına torpaq töküb deyirdi: "Camaat, məni də burda dəfn edin! Mənim canım qurban gedən bizim ana-bala, bacı-qardaşlarımızın canından artıq deyil ki! Onlardan sonra bu cəhənnəmdə qalmaq istəmirəm! Bundan sonra həyatın mənə heç bir dəyəri yoxdur!..". Onun özünü tələf edəcəyini görən camaat yazığı sakitləşdirmək üçün əllərindən gələni əsirgəməsələr də, sakitləşmək bilmirdi. Ona təsəlli olsun deyə çoxsaylı izdiham da xorla belə deyirdi: "Bizə də kəfən verin! Biz də kəfən istəyirik!"

Həyatda ilk dəfə idi ki, belə bir böyük toplanışda iştirak edirdim. Qəbirlərin üzərindəki çərçivəyə alınmış fotoşəkilləri görəndə, adamın ürəyi od tutub yanırdı. Demək olar, hər nəsildən – gənc qız və oğlanlar, az yaşlı uşaqlar, yaşlı kişi və qadınlar, bəy

və gəlinədək istənilən fərdi görə bilərdin. Bu ağır səhnələri müşahidə edənlərin qəlbi od tutub yanmaya bilməzdi. Hələ qadınların saçlarını yolub, üz-gözlərini cırmaları özü bir qiyamət idi. Bir kişi fəryad edərək deyirdi: "Ay namərd dünya! Bütün əzizlərim burdadır! Bu torpaq altda dörd balam, atam, həyat yoldaşım yatır... İlahi, bu nə müsibət idi başımıza gəldi! Balalarım diri-diri yandılar! Bənövşə can, hardasan? Ay Əli balam, film xoşuna gəldi?! Nərgiz can, yaxşı əylənə bildinmi?! Atan qurban, sərinləndin?!" Camaat da onu dövrəyə alaraq ağlaşırdı. Ətrafındakılar onu sakitləşdirməyə çalışır, üzünə sərin su ilə gülab səpirdilər. Onu görəndə atamı xatırladım. Elə bil, mənə də atamın ölüm xəbəri verilirdi. Sanki onu da torpağa tapşırırdılar. Bir anlıq özümü torpağın üstünə ataraq "Ata! Ata! Ata!" – deyib, hönkür-hönkür ağlamağa başladım. Südabə əlimdən tutsa da o da ağlayırdı. Məni qucaqlayıb, həmişəkindən fərqli olaraq dedi: "Ağla, Nəsrin can, ağla! Allah dayıma rəhmət etsin!"

Həmin gün yerli əhali ilə yanaşı başqa şəhərlərdən də şəhid ailələrinin dərdinə şərik çıxıb, onlarla birgə əzadarlıq etmək üçün Abadana gələnlərin sayı çox idi. Dəfn günü Abadanda əhalinin sayı nəzərə çarpacaq həddə – demək olar, iki-üç dəfə – artmışdı. Bəzən illərlə görüşmədiyimiz doğmalarımız və ya dost-tanışlarımızla Torpaqxanada görüşürdük. Çoxları əyinləri üstündən kəfənə bürünərək ayaqyalın qaynar torpaq üstdə dayanıb, sinə vururdular. Onlar bu faciəyə bais olub, məsuliyyətdən boyun qaçıran şah rejiminə qarşı etiraz olaraq, belə şüar verirdilər: "Biz

də kəfən istəyirik! Biz də kəfən istəyirik! Biz də kəfən istəyirik!"

Havanın boğanaq və istisi münasib şəraiti olmayan Torpaqxanada daha yaxşı hiss olunurdu. Əzadarlıq edənlər özlərini istidən od tutub yanan qaynar torpağın üstünə atıb, fəryad edirdilər. Onların vay-şivən sədaları az qalırdı daşları əritsin. Bəziləri huşunu itirərək özündən getdikdə, başqaları soyuq su və gülabla onların üzünü yuyurdular. Deyirdilər ki, yanğında bütün ailə üzvlərini itirən bir nəfər onların məzarı üstündə ürəktutması nəticəsində yerindəcə keçinmişdi. Hətta dərd və kədərin şiddətindən, az qala, havalananlar da var idi.

Arada bu münasibətlə qəzet paylanılırdı. Bəziləri onun birinci səhifəsini cırıb, geyimlərinə yapışdırırdılar. Qəzetin başlığı belə idi: "Altı yüz nəfəri diri-diri odda yandırdılar!" Başlığın altında isə yanğına məruz qalan "Reks" kinoteatrının fotoşəkilləri dərc edilmişdi.

Xeyriyyə məqsədilə bir sıra ticarət sahibləri şəhidlərin kəfənlənməyi üçün ağ pambıq parça topları gətirib, camaata paylayırdılar. Həlak olanların əksəriyyəti tanınmaz hala düşmüşdü. Bununla belə, bəziləri üzük, qol saatı və ya zinət əşyaları ilə müəyyən edilirdi. Bu hadisə ilə bağlı son xəbərlər ölkəyə də sürətlə yayılır, mətbuatda həyəcanlı titrlər yer alırdı: "Ölkə üzrə bütün kinoteatrlar şəhid ailələri ilə həmdərd olduqlarını bildirmək üçün hökumətə qarşı etiraz olaraq tətil elan ediblər", "Ölkədə ümumi matəm elan olunub", "Xürrəmşəhr və Abadan sakinləri icra hakimiyyətinin qarşısında etiraz aksiyası

keçirərək bu cinayətdə təqsiri olanların tezliklə müəyyənləşib, cəzalanmalarını hökumətdən tələb ediblər..."

Bəzi ailələrin on-on iki nəfər üzvünün həlak olduğu qeyd edilirdi. Onların ah-nalələrinə ürək tab gətirə bilmirdi. Getdikcə camaat tərəfindən daha sərt şüarlar səslənirdi: "Kerman şəhərində məscidə, müqəddəs Quran kitablarına və Abadanın "Reks" kinoteatrına od vurub, yandıran şahdır!" Artıq hamı çəkinmədən şah və ölkənin digər məsul şəxslərinə qarşı istənilən təhqiramiz sözü elan edirdi. Mərasim zamanı kimin sözü və ya şüarı vardısa, təşkilatçı qrupun icazəsi ilə mikrofonun ardına keçərək ürəyindən keçən hissləri ifadə edirdi. Əksəriyyət yığışanlara başsağlığı verib, bu ağır hadisə ilə bağlı ürək sözlərini bölüşürdülər.

Bu hadisə Abadanın ən isti vaxtına təsadüf etdiyindən mənə elə gəlirdi ki, istidən bütün bədənim əriyib, içim yanacaq. Odur ki, neçə stəkan sərin su və şərbət içdim ki, bədənimin hərarəti azalsın. Həm də matəmin təsiri altında bütün əhvalım dəyişmişdi. Heç cür hisslərimə qalib gələ bilmirdim və ardı kəsilmədən ağlayırdım. Daha dünyadan acığım gəlirdi və şaha nifrət edirdim. Ürəyimdə yanğının səbəbkarlarına və onu qəsdən törədənlərə qarşı od püskürürdüm. Elə bir qüdrətə sahib olub, bu cinayət və qətliamın günahkarlarından qisas almaq istəyirdim.

Çadır boyunca masa və stullar düzülmüşdü. Mikrofonun kənarındakı əynində qara köynək olan bığıburma cavana yaxınlaşıb, dedim: "Mənə də bir söz deməyə icazə verirsizmi?" O zamanlar hələ çadra

örtməzdim. Məscidə, ya da qəbristana gedəndə, başıma örpək atıb, əynimə uzun köynək və şalvar geyinərdim. O, məni başdan-ayağa süzəndən sonra dedi: "Buyur!" Özümü itirmədən mikrofonun ardına keçdim. Üz-gözüm yaşdan islanmışdı. Qəhərdən əmələ gələn boğuq bir səslə hamıya belə müraciət elədim: "Ey İran xalqı! Bu gün hamımız Abadanda həlak olan altı yüz günahsız şəhidə matəm keçiririk! Baş verən hadisədə diri-diri yanıb, həlak olan bu günahsız insanlar nə şaha qarşı şüar vermiş, nə də etiraz aksiyası keçirmişlər! Onların yeganə təqsiri yayın qızmar istisindən qorunmaq üçün sərin bir yerə sığınaraq filmə baxıb, asudə vaxtını xoş keçirmək olub! Onlar günahsız olduqlarına görə, indi cənnətdə, məsum imamların hüzurunda, imam Hüseynin (ə) kənarında Allah-taaladan mükafatlarını alırlar! Doğrusu, onlara görə narahat olub, əza saxlasaq da, mən əminəm ki, zülmə məruz qalaraq həlak olduqları üçün yerləri cənnətdir! Mehriban və bağışlayan Allah onlara layiq olduqları böyük mükafatı verəcək! Biz də öz növbəmizdə zalımlardan onların intiqamını almağa söz veririk!" Sözümü "Şəhidlərin ruhunun şad olması üçün salavat deyin!" – deyərək başa vurdum.

O ərəfələrdə Abadanda ateizmə və sosializmə meyilli fikirlərin yayılmasından xəbərim yox idi. Lopabığ cavan birdən-birə qəzəblə mikrofonu əlimdən alıb dedi: "Qurtar daha! Bəsdir çərənlədin! Deyirdin ki, ürəyindən keçən hissləri bildirmək istəyirsən!" Bibim qızı onun pis rəftarını görüb, irəli gələrək dedi: "Bu uşaq da öz əzizini əldən verib, qəlbi sınıqdır! Bu necə danışıq tərzidir?! Sizin rəftarınız

heç də düzgün deyil, üstəlik, ədəb qaydalarından da uzaqdır!" Cənab Əmirzadə də əsəbləşib onunla mübahisə etməyə başladı. O günədək belə təfəkkürlü adamlarla rastlaşmamışdım. Pis davranış tərzinə görə, onlardan xoşum gəlmədi. Cənab Əmirzadə elə çox narahat oldu ki, daha hamımızı bir yerə toplayıb, oranı tərk elədik.

Abadanda "Reks" kinoteatrında baş verən yanğından sonra camaatın hökumətə və şah rejiminə qarşı nifrəti bir az da artdı. Vəziyyət elə həddə çatdı ki, xalq artıq çəkinmədən etiraz aksiyaları təşkil edir, şahla hökumət əleyhinə istənilən şüarı deyirdi. Məsul vəzifədə çalışan dövlət məmurlarının susub, cinayətdə təqsiri olanların həbsindən boyun qaçırmaları hamının qəzəbinə bais olmuşdu. Belə ki, xalq artıq hətta üsyana belə hazır idi. Getdikcə qəzəb alovu şölələnərək şaha qarşı ümumi mübarizə formasını alırdı.

O faciə zamanı müşahidə etdiyim ürəkağrıdıcı səhnələr yenidən ruh düşkünlüyü və depressiyalarımın baş qaldırmağına bais oldu. Qəbristanda gördüklərim gözlərimin önündən çəkilmirdi və ağı deyib, ağlayanların nalələrini unuda bilmirdim. Radmehr soyadını daşıyan bütün ailə üzvlərinin torpağa sancılmış karton üzərində yazılan adlarının siyahısı yaddaşımdan silinmirdi: Bijən, Əlirza, Turan, Zöhrə, Məsumə, Nahid, Kuruş, Möhsün. Həmçinin bütün üzvləri "N" hərfi ilə başlayan ailənin adları və şəkilləri həmişəlik zehnimə həkk olmuşdu: Nasir, Nahid, Nirə, Nazənin, Nadir, Nilufər. Hətta onların özü və şəkilləri səhərə qədər

yuxularıma girərdi. Bəzən qorxu içində yuxudan ayılar, hirsimdən ağlayardım. Bu münasibətlə hətta mərsiyə tipli kaset hazırlanaraq satışa buraxılmışdı. Mərsiyədə "Reks" kinoteatrının qurbanları xüsusi dramatizmlə ifa olunurdu. Əvvəlində müxtəlif fərdlərin – kişi, qadın və uşaqların qışqırıq və imdad fəryadları ilə yanaşı şiddətli yanğın səsi eşidilirdi. Bir nəfər bərkdən qışqırırdı: "Yanğın! Yanğın! Aman Allah, Aman! Yanğın!" Ardınca belə deyilirdi:

*Klubda baş verən ağır faciəni əsla unutmaq olmaz,*
*Yalnız vicdansız insan kədərlənməz, sarsılmaz!*
*Yalqız qıvrılan ana "Qızım!" – deyib, haray salar,*
*Yara qovuşmayan gülü ürəyinə nisgil qalar!*[1]
*– Ay aman Allah, dirəyim yıxıldı!*
– Nakam olan oğul-qızım qırıldı!

Maraqlı orasıdır ki, yanğın faciəsi inqilabi hərəkata bir az da təkan verdi. Nümayişlər gün-gündən artaraq etirazlar güclənməyə başladı. Dəfn və matəm mərasimlərindən sonra içimdə qəribə hisslər baş qaldırırdı. Artıq böyüdüyümü hiss edirdim və daha ətrafa başqa gözlə baxırdım. O gündən başlayaraq uşaqlıq aləmi ilə vidalaşırdım. Hələ bu yaxınlara qədər başıma örpək belə atmadığım halda anamdan mənə qara çadra tikməyini xahiş etmişdim. Ürəyimdə rəhbərimiz imam Xomeyniyə (r) xüsusi məhəbbət yaranmışdı. Siddiqə xaladan xahiş edirdim ki, mənə imamın gizli yayılan inqilabi çağırışlarını gətirsin. Hərdən onunla əməkdaşlarının Abadanda keçirdiyi

[1] Qalaqlayar

mitinqlərdə iştirak edirdim. Bəhmən də bu hərəkata qoşulmuşdu və özünü böyüklər kimi aparırdı. Məsələn, evimizə gələrkən "ya Allah", "ya Allah" – deyərək bizi gəlişi ilə xəbərdar edirdi ki, çadramızı geyinə bilək. O da Tehran və Quma səfər edərək inqilabi çağırış vərəqləri gətirirdi. Siddiqə xala onu da "Mənsurun" cəmiyyətinə cəlb etmişdi və o, ateist-marksist cərəyanı ilə mübarizə aparmaq üçün dini yığıncaqlarda iştirak edirdi.

Sentyabr ayının gəlişi ilə yeni təhsil ili başlandı. Artıq bir müddət idi ki, məktəb yolunun üstündəki avtomobil hissələri satılan mağaza sahibinin oğlu ardımca düşərək mənimlə danışmağa can atırdı. Məndən evimizin telefon nömrəsini ona verməyimi, ya da onun telefon nömrəsini yadda saxlamağımı istəyirdi. Rəqəmləri ardıcıl təkrar edərək deyirdi: "Bu axşam zəngini gözləyirəm!" Axır, bir gün bezərək anama dedim: "Mən daha sabahdan məktəbə getmirəm!" Anam təəccüblə soruşdu: "Xeyir ola?!" Narahat halda dedim: "Qonşudakı çilingərin oğlu hər gün arxamca düşür, küçədə abrımı aparır!" Anam özündən çıxaraq dedi: "Qələt eləyir! Vicdansızın biri! Məgər öz ana-bacısı yoxdur?! Sabah özüm də arxanca gələcəyəm, əgər dediyin düz olsa, onu bu şəhərdən qovaram!"

Neçə gün idi ki, Füruzan bizə gəlmişdi. Axşamüstü qızı Fərzanəni dostlarıma göstərmək üçün küçəyə çıxdım. Çox qəşəng və nazlı bir uşaq idi. Birdən Bəhmən maşınla bizim küçəyə döndü. Məni görən kimi, maşının pəncərəsindən boylanıb dedi: "Nəsrin, tez ol get evə!" Sonra ucadan belə qışqırdı: "Heç

kimin haqqı yoxdur əmim qızına başqa gözlə baxsın! Bu çilingərin dükanı hardadır?" Daha yubanmadan həyətə qaçıb, anamı çağırmağa başladım: "Anacan! Ana!" Elə həyəcanlanmışdım ki, yazıq anam da qorxdu. Ondan soruşdum: "Sən çilingərin oğlu barədə Bəhmənə nə isə demisən?" Anam təəccüblə mənə baxdıqda, dedim: "Bəhmən onun cavabını verməyə getdi! Özü də çox qəzəbli idi!" Anam da dərhal çadrasını başına atıb Bəhmənin ardınca yollandı. Qayıdandan sonra ondan soruşdum: "Nə baş verdi? Bir-birlərini vurub öldürdülər?" Anam dərindən nəfəs alıb dedi: "Bəhmən gedib ona dedi ki, bilirsən nə var, bir də əmim qızına başqa gözlə baxsan, dostlarımla gəlib bu mağazanı başına uçuracağam!" Sözünü bitirəndən sonra çadrasını çıxarıb, həyətdəki taxtın üstünə atdı. Daha sonra gülümsəyərək dedi: "Yazığın qorxudan az qaldı nəfəsi kəsilsin. Bəhmənə dedi ki, daha bir də belə qələt etmərəm. Sənin namusun mənim namusumdur".

O axşam Bəhmən bizə gəldi. Anam məhəbbət və şəfqət dolu baxışlarını bizə dikmişdi. Bəhməni görəndə, onun necə tez böyüyərək kişiləşdiyini hiss edirdim. Artıq indidən düzgün həyat yolunu seçirdi. Amma rəftarları hələ də müəmmalı idi, bilmirdim ki, o da mənə könül salıb, ya yox...

***

Bütün İran xalqının yekdil mübarizəsi və həmrəyliyi sayəsində inqilabın qələbəsi yaxınlaşırdı. 1979-cu il yanvarın 30-da xəbər yayıldı ki, camaat həbsxanalara axışaraq qapıları sındırıb, siyasi

məhbusları azad edib. İsmayıl dayımın azadlığı xəbəri hamımız üçün gözlənilməz oldu. Çünki onun edam hökmü bu yaxınlarda icra olunmalı idi. Evimizi sevinc və şadlıq bürümüşdü. Əmim oğlu, Rəhmət, seyid Rza Musəvi, Məhəmməd və qardaşı Möhsün Cahanara dayımı gətirmək üçün Tehrana getdilər. O gün bizim ən əlamətdar günlərimizdən biri idi və sanki bayrama hazırlaşırdıq.

Ertəsi gün yuxudan lap tez ayıldıq. Səhər yeməyindən sonra təzə paltarlarımızı geyinib həyətə düşdük. Babamla bibi çoxdan hazırlaşaraq həyətdəki taxtda oturub bizi gözləyirdilər. Bibim sevincindən ağlayırdı və babamın da rəngi-ruhu dəyişmişdi. Siddiqə xala bizi görən kimi dedi: "Tez olun, yubanmayın!" Böyüklərdən qabağa keçərək tez qapıya tərəf qaçdıq. Əli əmi ilə Bəhmən maşınla gəlib, bizi aparmalı idilər. Onlar əvvəlcə əmim yoldaşının və başqa qohumlarımızı yol polisi məntəqəsinə çatdırmışdılar. Xürrəmşəhrin girəcəyinə çatdıqda, yol polisi məntəqəsi qarşısında qurbanlıq mal-qara ilə yığışan böyük izdihamla qarşılaşdıq. Orada neçə saat intizardan sonra birdən uca səslə belə deyildi: "Başımızı ucaldan alnıaçıq mücahid, öz evinə xoş gəlmisən!" Bir-birinin ardınca deyilən şüarlardan İsmayıl dayımla yoldaşlarının gəlib çatdıqlarını anladıq. Camaat əllərindəki gül çələngləri ilə onları qarşılamağa çıxdı. İzdihama görə, anam əlimizdən tutub bizi kənara çəkdi. Divarın kənarında dayanıb, camaatın necə böyük sevinclə məhbusların ayaqları altında qurban kəsdiklərinə tamaşa etməyə başladıq. Qəfildən Səid qışqıraraq dedi: "Ora baxın! Ağa

Rzadı!" Sonra özünü də gülmək tutdu. Dönüb ora baxanda, gördük ki, camaat səhvən gül çələnglərini Füruzanın həyat yoldaşı Rzanın boynuna salaraq onu çiyinlərində irəli aparır. Hamı bir ağızdan deyirdi: "Mənim əziz qardaşım, şəhid qardaşın hanı!" Elə bil, Rza da o qədər narazı nəzərə çarpmırdı. Əvvəl aşağı düşməyə çalışsa da daha enməyə imkan vermədilər. Həmin gün sevincimizin həddi-hüdudu yox idi. Əvvəl dayımın həbsi, sonra edam hökmü, daha sonra xalam Siddiqənin həbsi zamanı keçirdiyimiz bütün ağrı-acı və iztirablar... Nəhayət ağrı-acılar sona çatdı və bir daha evimizə şən dövran qayıtdı.

Sonrakı neçə gün ərzində evimiz lap şadlıq sarayına dönmüşdü. Mer-meyvə və şirniyyat yığılmış sinilər dayanmadan dolub-boşalırdı. Camaat dəstə-dəstə İsmayıl dayını görməyə gəlir, ondan SAVAK-ın zindanlarında baş verənləri danışmağı xahiş edirdilər. Şəhid Cahanaranın ailəsi də bizim qonağımız idi. Anam hərdən gizli-gizli ağlayaraq deyirdi: "Sənə qurban olum, ilahi! Sanki İsmayıldan oğulları Əlinin iyini alırlar!" Füruzan, Sağər, Siddiqə xala, Nəğmə və mənim də bütün günü işimiz ya sini və boşqablara meyvə yığmaq, ya qab-qacağı yumaq, ya da süfrə salmaq idi. Anam da başqa qadınlarla birgə ocağın başında biş-düşə nəzarət edirdi. Məndə maraq doğuran məsələ dayımın barmaqlarını görmək idi. Doğrudan da dırnaqlarının çıxarılıb-çıxarılmadığını bilmək istəyirdim. Nəhayət, ətrafındakı adamlar bir qədər seyrələndən sonra ona yaxınlaşdım. Həqiqətən çıxan dırnaqlarının yeri şişib, qızarmışdı. Halım

dəyişilərək təzyiqim düşdüyünə görə, neçə gün dilimə bir şey vura bilmədim.

Neçə gündən sonra evimizdə şərait adi hala qayıtdı. Dayım artıq müxtəlif şirkət və idarələr tərəfindən oranın işçiləri qarşısında çıxış etməyə dəvət olunurdu. Hətta bir dəfə dayım belə görüşlərin birində camaatın uca səslə "İstiqlal, Azadlıq, İslam cümhuriyyəti!" kimi şüarlarını eşidərkən huşdan gedib, yıxılmışdı. Sonralar özü bu halı bizə belə nəql edərək deyirdi: "Sözün əsl mənasında şok keçirdim! İnana bilmirdim ki, xalqda bu qədər cəsarət və qətiyyət hissi yüksəlib! İnqilabın qələbəsinə, o cümlədən, onların həmin bir-iki il qabaqkı camaat olduğuna inanmaq doğrudan da çətin idi!"

Evimiz qonaqla dolu olan axşamların birində Abadanda yaşayan Məhəmməd dayım İsmayıl dayımı görmək üçün bir-iki yaşlı oğlu Rzanı da özü ilə bizə gətirmişdi. Onların inqilab və ümumxalq referendumu barədə söhbəti zamanı Rza da sakitləşmək bilmirdi. Axır, Məhəmməd dayı üzünü Bəhmənə tutub, dedi: "Dayı qurban, Rzanı Abadana anasının yanına apara bilərsən? Deyəsən, acıb. Həm yuxusu gəlir, həm də altını isladıb. Sözün açığı, məni əldən salır”. Dayım Abadanın "Şapur" limanında işləyirdi. Onun "Ford" markalı mavi maşını vardı. Maşının açarlarını Bəhmənə uzadıb dedi: "Şahnaza da de ki, elə gecəyarısı buradan birbaşa limana gedəcəyəm”. Rza da ağlayır və dayının qucağından düşmək istəmirdi. Bəhmən dedi: "Mən bu uşaqla necə maşın sürə bilərəm?" Bu zaman dayıma yaxınlaşıb Rzanı qucağıma aldım. Dayım anamı səsləyərək dedi: "Bacı

can, icazə verərsənmi Nəsrin Bəhmənlə birgə Abadana gedib, Rzanı Şahnaza çatdırsınlar?" Anamın başı qarışıq olduğundan uzaqdan-uzağa "Getsinlər!" – deyə cavab verdi.

Gecə idi. Mən də qabaqda sağ tərəfdə əyləşmişdim. Rza məni bərk-bərk qucaqlamışdı. Bəhmən maşını aşağı sürətlə sürürdü. Yol boyu heç birimiz danışmırdıq və maşına ağır sükut çökmüşdü. Xürrəmşəhrlə Abadan arasındakı yolun yarısını qət edərkən Bəhmənin qəfil "Nəsrin, həqiqətən səni çox sevirəm!" – sözü mənə gözlənilməz oldu. Bu sözlərin mənasına vardıqca uşağı bərk-bərk bağrıma basırdım. Doğrusu, ona cavab verə bilmədim. Sözünə davam edərək dedi: "Bu sevgi hətta uşaqlıq dövründən başlayıb! Düşünürəm ki, artıq bunu söyləməyin vaxtı çatıb! Həqiqətən səninlə ailə qurmaq istəyirəm!" Nədənsə, məni üşütmə tutdu. Özümü maşının qapısına söykədim. Hətta dişlərim bir-birinə dəyirdi. Bir qədər irəlidə neçə dondurma bufeti vardı. Bəhmən maşını yolun kənarında saxladı və oradan hərəmizə bir dondurma alıb gətirdi. Hələ son vaxtlaradək xəcalət çəkmədən çox rahat Bəhmənin motosikletinin tərkində oturmağıma baxmayaraq, indi ondan utanırdım. Heç bilmədim, dondurmanı necə yedim. Söyüd kimi əsirdim. Bəhmən vəziyyətimi hiss edib dedi: "Rzanı mənə ver”. Rzanı ona verərkən bir-birimizə toxunmağımızdan qorxub, uşağı bir az da bərk sıxaraq dedim: "Lazım deyil, rahatam”. Bəhmən dedi: "Heç olmasa, icazə ver pəncərənin şüşəsini yuxarı qaldırım”. Çəkinə-çəkinə dedim: "Özüm qaldıraram”.

Dayımgilə çatanda hər ikimizin ürəyində eyni sirr vardı. Şahnaz xanımda şübhə doğurmamaq üçün özümüzü çox sakit və başıaşağı aparırdıq. Qorxudan, birbaşa gözlərinə baxmırdıq ki, yolda aramızda keçənləri başa düşməsin. Qısası, gecəni dayımgildə qalmalı olduq. Bəhmən Abadanın incəsənət məktəbində təhsil alırdı. O, səhər dərsə getdi, mənsə dərsdən qaldım. Günortaya qədər qayıtmağını gözlədim. Yavaş-yavaş onun üçün darıxdığımı hiss edirdim. Buna baxmayaraq, gündüz dərsdən qayıdanda, utandığımdan gözünə görünməməyə çalışdım. Nəhayət, axşamüstü yenidən dayımın maşını ilə Xürrəmşəhrə qayıtdıq. Yolda Bəhmən bir daha mənə qarşı sevgisindən söz açıb, eşq və məhəbbətini, ürək sirlərini bölüşməyə başladı. Dünən gecəki kimi, yenə yolüstü bufetdən dondurma aldı. Xürrəmşəhrə çatarkən məndən xahiş etdi ki, yerimi dəyişib, arxa oturacaqda əyləşim.

Bu hadisənin üstündən neçə ay gəlib keçdi. Bir gün şiddətli yağış yağırdı. Səidlə Həmid yatmışdılar. Nəğmə kollecdə, anamla mən də evdə idik. Özüm üçün rəsm çəkirdim. Nə qədər çalışsam da istədiyim kimi alınmırdı. Otağın küncündəki balaca zibil qutusunu əlimin altına qoymuşdum və hər dəfə xoşuma gəlməyəndə, hirslə vərəqi cırıb, qutuya atırdım. Sanki, həyatdan bezmiş kimi, içimdə qəribə sıxıntı, ruh düşkünlüyü hiss edirdim. Yağışlı havadan xoşum gəlməzdi. Həmişə mənə atamın həlak olduğu tufanlı gecəni xatırladardı. Kaş, o gecə mən də atamla birgə ölərdim. Özümdən asılı olmayaraq ağlamağa başladım. Anam tələsik içəri girib, soruşdu: "Nəsrin!

A bala, nə oldu sənə? Niyə ağlayırsan?" Şübhələnməsin deyə, belə cavab verdim: "Hər nə edirəmsə, tapşırığı yerinə yetirə bilmirəm”. Adətən, rəsm tapşırıqlarımda mənə ya Mahmud dayım, ya Məhəmməd dayım, ya da Siddiqə xalam kömək edərdi. Amma bu gecə bəxtimdən onların heç biri bizdə deyildi.

Anam dedi: "İstəyirsən, cənab Xəlilidən xahiş edim ki, Azərin gəlib sənə kömək etməsinə icazə versin? Bəlkə Məhəmmədi çağırım gəlsin?" Ağlaya-ağlaya dedim: "Yox, istəyirsən Azərin sabah məktəbdə danışsın ki, Nəsrin rəsm çəkə bilmədiyinə görə ağlayırdı, mən də gedib onun tapşırıqlarına kömək etdim?!” Anam dedi: "İstəyirsən gedim cənab Rudbarigilə; xahiş edim ki, uşaqlardan biri gəlib sənə kömək etsin?"

Cənab Rudbari arxa küçədə yaşayan qonşumuzdur. Onun qızlarının biri mənimlə sinif yoldaşı idi. O, imladan aşağı qiymətlər alsa da, riyaziyyat və rəsm dərslərində məndən istedadlı idi. İmla dərslərində mən ona gizlincə kömək edirdim. O, çox mehriban və gözəl xasiyyətli bir qız idi. Amma bu şəraitdə anam onların evinə necə gedə bilərdi; yağış yağdığından, həyəti dizə qədər su basmışdı. Anam hətta axşamüstü gedib, babamgilin sobasına neft də tökə bilməmişdi.

Qəfildən ikimiz də birinci mərtəbədəki giriş qapısının açıldığını eşitdik. Anam otaqdan çıxdı. Gələn qonağın səsi Bəhmənin səsinə bənzəyirdi. Anam onu görcək dedi: "Bibin qurban olsun sənə! Bu neçə vaxtı hardaydın?" Gələn, doğrudan da Bəhmən idi. Anamla salamlaşaraq deyirdi: "Bibi can, babaya

baş çəkməyə gəlmişəm. Onun üçün yaman darıxmışam. Gəldim soruşum ki, bəlkə bir çətinliyi, ya da görüləsi işi var? Mən sizin qulluğunuzda hazıram”.

Bir anın içində qəlbimdə toy-büsat quruldu. Sevincimdən uçurdum. Bilirdim ki, Bəhmən babama baş çəkmək bəhanəsi ilə, əslində məni görməyə gəlmişdi. Bununla belə, yerimdən tərpənmədim. Görüləsi başqa işlərin əvəzinə, bir göz qırpımında özümü səliqəyə salıb, göz yaşlarımı sildim.

Anamın səsi daha yaxından eşidilməyə başladı: "Bibin sənə qurban, buyur keç içəri. Nəsrin otaqda ağlayır. Rəsm tapşırığını çəkə bilmir. Gəl, sənə qurban! Bax gör, bəlkə sən ona kömək edə bilərsən.

Bir qədər keçmiş Bəhmən otağa daxil olub, yanımda əyləşdi. Nəfəsim kəsilmişdi. Mən çox axmaq və gülünc bir vəziyyətdə idim. Onunla danışmağa başlasaydım, səsim titrəyə bilər və qəlbimdən keçənlər hamıya aydın olardı.

Anam Bəhməndən ailə üzvlərini bir-bir xəbər aldıqdan sonra, bizim üçün çay gətirməyə getdi. Bəhmənin şalvarı dizə qədər yaş idi. Amma özü ilə çətir götürdüyündən, saçları ilə köynəyi islanmamışdı. Anamın otaqdan çıxdığını görən Bəhmən dedi: "Ay qız, nə yaman dəymədüşərsən! Bircə rəsm tapşırığına görə, bu qədər ağlayırsan?"

Başımı aşağı salmışdım. Bəhmənin üzünə baxmaqdan çəkinirdim. Qorxurdum ki, onu görməyimə nə qədər şad olduğumu baxışlarımdan anlayar. Onu nə dərəcədə sevdiyimi gözlərimdən oxuya bilərdi.

Bəhmən yenə soruşdu: "De görüm, hansı tapşırıqlarda çətinlik çəkirsən? Üzünə baxmadan kitabı vərəqlədim və barmağımla tapşırıqlara işarə edərək dedim: "Bu, bu və bu”.

Bəhmən dərsi mənə izah etməyə başladı. Qorxudan başımı yuxarı qaldırmırdım. Ürəyimdən keçirdi ki, Bəhmən səhərə qədər yanımda oturub, bax beləcə tapşırıq həll etsin. Saçlarım üzümə tökülmüşdü. Karandaşın ucu ilə saçımı üzümdən çəkib dedi: "Ay axmaq, bunlara görə ağlayırsan?"

Bu zaman anam əlində çay sinisi otağa daxil oldu. Bəzən o, kefinin yaxşı olduğu vaxtlarda, bizi sevindirmək üçün armudu stəkanlara iki rəngli çay süzərdi. Belə ki, öncə stəkana qaynar su süzüb şəkərlə qarışdırar, sonra üzərinə çay əlavə edərdi. Rəngli çaylı şirin su bir-birinə qarışmırdı, biz isə çayın bu şəkildə olmasını çox xoşlayardıq. Anam çayları süfrəyə düzüb, yenidən otaqdan çıxdı.

Bəhmən gülə-gülə dedi: "Heç bilirsən ki, şimal əyalətlərinin sakinləri bu çaya" gəlin və bəy çayı" deyirlər? Sözləri məni utandırdı. Qəlbimin sinəmdən qopub, aşağı yuvarlandığını düşündüm. Bir qədər sonra anam əlində bir boşqab paxlava və portağalla içəri keçdi və mən rahat nəfəs ala bildim.

Portağallar o qədər iri idi ki, heç birini təkbaşına yemək olmurdu. Bəhmən rəsm çəkir, mənsə ona tamaşa edirdim. Anam də həvəslə bizim üçün portağal soyurdu.

***

Bu günlər İranı görünməmiş bir sevinc və həyəcan hissi bürümüşdü. Neçə gün idi ki, getdiyimiz hər yerdə, yalnız ümumxalq referendumu, seçici rəyləri və islam respublikası barədə söhbətlər eşidirdik. Həmin il on beş yaşım tamam olduğundan, hələ ki, səs vermək üçün yetkinlik həddinə çatmamışdım. Anam səhər tezdən həyətdəki gül-çiçək bağçasını səliqəyə salaraq, əlindəki balaca bellə alaq otlarını təmizləyirdi. Oleandrın çəhrayı rəngli gülləri həyəti sanki cənnət bağına çevirmişdi. Anamın əlinin altında işləyib, ona kömək etdiyimə görə, onun ehtiyacı olan hər bir şeyi anında gətirirdim. Bəhmənin "Ya Allah...Ya Allah" səsini eşitcək, başımı qaldırıb küçə qapısının qarşısındakı qalın pərdəyə göz dikdim. Anam mehribanlıqla "buyurun" dedi. Bəhmən yenidən "Ya Allah" deyəndə, anam işarə etdi ki, örpəyimi bağlayım. Taxtın üstündən anamın çadrasını götürüb başıma atdım. Anam səsləndi: "Bəhmən can, buyur keç içəri”.

Bəhmən həyətə daxil oldu. O, saqqal saxlamış və köynəyini şalvarın üstünə salmışdı. Başını qaldırıb üzümüzə baxmadı. Həyətin daş döşəməsindəki qənbər daşlara göz dikərək, bizimlə salamlaşıb, hal-əhval tutdu və dedi: "Bibi can, pasportunuzu götürün gedək səs verməyə”. Anam əlindəki balaca beli yerə qoymadan soruşdu: "Səsvermə saat neçəyə qədər davam edəcək?" Bəhmən başını qaldırmadan cavab verdi: "Axşama qədər". Anam mənə nəzər salıb dedi: "Bibin qurban, narahat olma, gecikmərik. Sən Nəğmə və Nəsrinlə birgə səsverməyə get. Mən günortadan sonra gedərəm”.

Cümə axşamları kollecdən qayıdan Nəğmənin başı işlərinə o qədər qarışırdı ki, bizimlə danışmağa belə, fürsət tapmırdı. Onu çağırmağa getdim, cavab verdi ki, işim çoxdur siz gedin, mən sonra gələrəm. Hələlik isə. Öz-özümə fikirləşdim ki, əgər özüm səsvermədə iştirak edə bilmərəmsə, yaxşısı budur ki, Nəğmənin əvəzinə gedim. Bəhməndən soruşdum: "Mən Nəğmənin əvəzinə səs verə bilərəm?" Bəhmən baxışlarını həyətin daşlarından ayıraraq mənim üzümə dikdi. Sonra gülümsəyərək dedi: "Xeyr, olmaz". Cavab verdim: "Gəl gedək, kim bilir, bəlkə də alındı!"

Bilirdim ki, Bəhmənin də ürəyindən birgə məscidə gedib, yolda söhbət etmək keçir. Əslində, onun evimizə gəlişinin səbəbi də elə bu idi. Məscidə yola düşüb küçədə çiyin-çiyinə addımladığımız zaman, içimdə xoş hisslər keçirirdim; sanki, hər ikimiz buludların üzərində idik. Bəhmən məndən soruşdu ki, ümumxalq referendumunda iştirak edə bilsəydim, nəyi seçərdim? Qürurla cavab verdim: "Sözsüz ki, "bəli" vərəqəsini seçərdim. Mən imam Xomeyniyə və İslam Respublikasına səs verərdim". Gülümsəyib dedi: "Bəli?!" Cavab verdim: "Bəli..."

"Sahib əz-Zaman" məscidinə çatana qədər xoş əhval-ruhiyyə ilə addımladıq. Hər ikimiz yaxşı bilirdik ki, mən Nəğmənin pasportu ilə səsvermədə iştirak edə bilmərəm. Amma birlikdə vaxt keçirə bilmək üçün, belə bir fürsəti əldən verməyə ürəyimiz gəlmirdi. Səsvermə məntəqəsində uzun bir növbə var idi. O növbədə bütün qohum-qonşularımıza rast gəlmək olardı. Bəhmən əyilib yavaşca qulağıma pıçıldayırdı:

-Nəsrin, istəyirəm ata-anamla ciddi söhbət edim, amma bir qədər qorxuram.

Hava çox mülayim idi. Bugenvelleya kollarının çəhrayı çiçəkləri həyətlərin divarlarından küçələrə tökülmüşdü. Əsən sərin meh gah çayın, gah da lehmənin iyini havada yayırdı. Bir ucu küçəyə qədər uzanan növbənin sonunda dayanmışdıq. Bəhmən söhbətini davam etdirdi: "Arzularım barədə baba və qardaşım Əlirzayla danışmışam. Hər ikisi bu işdən narazıdır, ələlxüsus Əlirza". Bu məsələdən xəbərdar idim. Bununla belə, ona heç nə demədim. Eşitdiyimə görə, babam demişdi ki, istər Bəhmən, istərsə də Nəsrin, hər ikisi yeniyetmə gənc olduqlarından, həyat yoluna bələd deyillər. Bəhmənin iyirmi yaşı tamam olmuşdu. O, elektrik peşəsinə yiyələnmiş və İslam İnqilabı Keşikçiləri Korpusuna qəbul olunmuşdu. Heç özüm də bilmirəm nəyə görə hamı elə bilirdi ki, evlənməyimiz üçün hələ tezdir.

İki saat növbədə dayandıq. Mən Nəğmənin pasportu ilə səsvermədə iştirak edə bilməsəm də, Bəhmən İslam Respublikası yaradılmasının lehinə verdiyi "bəli" rəyini seçki qutusuna atdı. Geri qayıdanda, Bəhmən səsvermə zamanı göy mürəkkəbə bulaşmış işarə barmağını mənə nümayiş etdirirdi. Bunu görcək dedim: "Elə buna görə baba hələ də uşaq olduğumuzu düşünür. Sən də ki, özünü öyüb mənə acıq verməyə davam et”.

Evimizin yaxınlığında, həyətin pərdəsinin arxasından özü üçün küçəyə yol tapmış balıq qəlyəsinin ətrini hiss etdik. Bəhmənə dedim: "Gəl gedək bizə. Deyəsən, anam nahar hazırlayıb”.

Gəlmədi və üzünü mənə tutub dedi: "Kaş ki, maşınla gələydim. Birlikdə Abadana gedib dondurma yeyərdik”. Ürəyimdə onunla razılaşaraq dedim: "Ey kaş!" Vidalaşaraq bir-birimizdən ayrıldıq.

İçəri daxil olanda öz-özümə düşündüm ki, həyətimizin xarici görünüşü bir neçə saat bundan öncəki vəziyyətindən nə qədər fərqlənir! Anam həyəti süpürüb, su ilə yuyandan sonra, xalıları taxtların üstünə sərmişdi. Gül-çiçək bağçaları suvarılmış və güllərin dibi bellənmişdi. Nəm torpaq qoxusuna qarışmış balıq qəlyəsinin ətri ilə həyətə döşənmiş qənbər daşlarının sərinliyi mənə uşaqlıq illərimi xatırlatdı. Sinə dolusu rahat nəfəs alaraq, öz-özümə düşündüm ki, nəhayət, uzun sürən hicran və ayrılıq qəmi sona çatdı.

Bahar idi. Şiddətli yağış yağırdı. Evimiz inqilabın qələbəsindən sonra tənha və səssiz olmuşdu. Siddiqə xalamla dayılarım öz iş yerlərində çalışmaqla yanaşı, inqilabi fəaliyyətlə də məşğul idilər. Bəzi vaxtlar ayaqüstü evə baş çəkər, bizimlə hal-əhval tutandan sonra, tez bir zamanda gedərdilər. Bizim böyük evimiz mənim, anamın, Səid və Həmidin ixtiyarında qalmışdı.

Anam hər axşam Səidlə Həmidin corablarını, yağışın altında islanmış məktəb formalarını və yaxalarına tikilmiş xüsusi ağ yaxalığı yuyub, otağın bir küncündə yerləşən neft sobasının üstündən asılmış paltar ipinə sərərdi ki, səhərə qədər qurusun.

Nəğmə dərs oxumaq üçün internat tipli kollecə gedəndən sonra, milliyyətcə kürd olan dostum Nəsrin Rezayi axşamlar evimizə gələrdi. Çətinliklərimizi

bölüşər və dərslərimizi birgə hazırlayardıq. Mən öz tənhalığım barədə ona danışar, bəzən də birgə şam yeməyi yeyərdik. Yuxarı mərtəbədəki otaqlardan biri mənim ixtiyarımda idi. Anam otağın isti qalması üçün yarım qapıları bağlamış, giriş qapısının qarşısına isə pərdə asmışdı.

Bir dəfə axşam dostumla birgə şam yeməyi yedikdən sonra sinini aşağı mərtəbəyə aparanda Bəhməni gördüm. O, bizə qonaq gəlmişdi və aşağı mərtəbədə anamla birgə şam yeməyi yeyirdi. Ürəyim çox istəyirdi ki, Nəsrini tezliklə evlərinə yola salım getsin. Bu səbəbdən, yarım qapıları açaraq dedim: "Deyəsən yağış bir az səngiyib”. Bunu eşidən Nəsrin dedi: "Nə qədər ki, yağış səngiyib, mən evimizə getsəm yaxşıdır”.

Nəsrin əşyalarını yığmağa başladı, mənsə anamı səslədim. Nəsringilin evi bizdən bir qədər uzaqda, "darvaza" dairəsində yerləşirdi. Adətən, hava qaralanda anam Nəsrini tək buraxmayıb, onu yola salardı. Bir neçə küçə aralıda yerləşən mağazalara və səs-küylü bazara çatandan sonra anam geri dönər, Nəsrin isə yolun yarısını özü tək gedərdi. Anam çadrasını başına örtdü, mən də aşağı mərtəbədəki giriş qapısına qədər onları yola saldım. Sonra çətirlərini açıb həyətdən çıxana qədər qapının önündə dayandım.

Evimizin ikinci mərtəbəsinin dəhlizində ayaqyolu vardı. Biz yalnız qışda, ya da bu gün olduğu kimi, yağış yağanda ondan istifadə edirdik. Həmişə istifadə etdiyimiz əsl ayaqyolu isə həyətdə yerləşirdi. Bəhməni axtarırdım ki, qəfildən ikinci mərtəbədəki ayaqyolunun qapısı açıldı və Bəhmən dəhlizə çıxdı.

Səidlə Həmid yatmışdılar və biz evdə tənha qalmışdıq. Tez özümü otağın qapısına çatdırdım. Bəhmən yaxınlaşıb dedi: "Nəsrin, mən daha bu vəziyyətə davam gətirə bilmirəm. Neçə vaxt bundan öncə, ürəyimi sənə açandan sonra yalnız səni görə bilmək üçün bu evə gəlirəm. Bibiyə sirrimizi açıb demədiyimizə görə vicdan əzabı çəkirəm. Mənə elə gəlir ki, səhv bir iş tutmuşam. Sanki, oğruyam, ya da ki, ailəmizə xəyanət edirəm. Düzdür, məsələnin nə yerdə olduğunu anamla atama açıqlamışam, amma bu dəfə onlarla daha ciddi söhbət etmək istəyirəm".

Bəhmən bir az da yaxına gəldi. Otağımın pərdəsini kənara çəkdim. Ürəyimə vəlvələ düşmüşdü. Anamın tezliklə qayıtması üçün dua edirdim. Heç olmasa, Həmidlə Səid yuxudan ayılardılar. Düşünürdüm ki, elə indicə qəlbim heçliyə yuvarlanacaq, mən isə öləcəyəm. Bəhmən deyirdi: "Vicdan əzabı məni öldürür, baxışlarımın məni ələ verəcəyindən qorxuram. Amma inan ki, səni çox sevirəm. Bununla belə, yaranan vəziyyətdə daha bu evə ayaq basa bilmərəm. Mən hər şeyi Röyaya danışmışam və bundan belə, sənə olan duyğularımı aşkara çıxarmaq istəyirəm. Sən də baş verənləri Röyadan xəbər alarsan".

Bəhmən mənimlə vidalaşıb sürətlə uzaqlaşdı və pilləkanın başına çatanda geri dönüb dedi: "Elə isə Nəsrin, böyüklərə deyim ki, biz ailə həyatı qurmaq istəyirik?" Artıq tükənmişdim, bütün bədənim soyumuşdu. Yavaş-yavaş buz heykələ dönürdüm. Dodağımı dişlədim. Bəhmən bir də soruşdu: "Gedib onlara deyim ki, biz ailə həyatı qurmaq istəyirik?"

Susduğumu görüb pillələrdən yuxarı qalxdı. Təhlükə hiss edirdim, ürəyim dəlicəsinə döyünürdü. Bəhmənin bundan da artıq yaxınlaşmaması üçün cavab verdim: "Bəli, de. Anam elə indicə qayıdacaq!"

Bəhmən gülümsədi. Onun badamı gözləri parlayırdı. Sonra çıxıb getdi. Asudə bir nəfəs alıb otağımın pərdəsini kənara çəkdim. Otaq necə də isti və rahat, hava isə mülayim və ürəkaçan idi! Balışı başımın altına qoyub gözlərimi yumdum və bir neçə dəqiqə bundan öncə Bəhmənlə aramızda baş tutan söhbəti xatırlayaraq, yadda saxlamağa çalışdım.

Bu əhvalatın üstündən bir neçə gün keçdi. Hər şey Bəhmənin söylədiyi kimi oldu. O, daha evimizə gəlmədi. Mən onsuz tək qalıb darıxdığımdan, az qala öləcəkdim. Artıq, gecə ilə gündüzün mənim üçün heç bir fərqi yox idi.

Bir gün Bəhmənin nənəsi evimizə gəldi. O, illər öncə, anamın qaynanası olmaqla yanaşı, babamın da qaynanası olduğundan, evimizə tez-tez gələrdi. Biz ona da bibi deyərdik. Bu dəfə bibi bizə ən son xəbərləri gətirmişdi. Onun dediyinə görə Bəhmən, onunla Nəsrin arasında olan ülvi hisslər barədə qardaşı Əlirzaya danışmışdı. Bu arada, evdə dava düşmüşdü. Bibinin sözlərinə görə, Əli müəllim (mənim Əli əmim) Bəhmənə demişdi ki, başından böyük qələt etmisən. Böyük səhvə yol verib qardaşımın namusuna göz dikmisən. Camaat bizə nə deyər?! Deməzlər ki, uzun müddət yetimlərin başına sığal çəkmək adı ilə o evə qədəm qoyandan sonra, oğlunuz əmanətə xəyanət etmək fikrinə düşüb?

Beləliklə, o gündən etibarən, nə Bəhmən bizim evimizə gəldi, nə də anam mənə əmimgilə getməyə icazə verdi. Göz yaşı töküb anama yalvarırdım ki, anacan, Mitra ilə Röya üçün çox darıxmışam. Anam isə mənə acıqlanırdı: "Çox nahaq yerə, ağzını yum, otur yerində! Sabah da əminin həyat yoldaşı desin ki, bu arsız qız qaça-qaça gəlib oğlumuzu qamarladı”.

Hadisələrin gedişatı bais oldu ki, mən yenidən tənhalığa qapanıb, atamı əldən verdiyim ilk günlərdə olduğum kimi, ruh düşkünlüyünə düçar olmuş gözüyaşlı Nəsrinə dönüm.

# Beşinci fəsil

Abadanın neft şirkəti hər iki ildən bir, öz işçilərinə ya torpaq sahələri ayırar, ya da əlverişli şərtlərlə bank kreditləri təqdim edərdi. Əli əmi çox ağıllı və uzaqgörən bir insan olmaqla yanaşı, güclü iqtisadi düşüncəyə də malik idi. Şirkət vasitəsi ilə bankdan götürdüyü kreditlərlə Şirazda özünə iki ev ala bilmişdi. Evlərdən biri Astana xiyabanında, digəri isə Hacı bazarının arxasındakı Şahçıraq məscidinin yaxınlığında yerləşirdi. Əli əmi evlərdən birini kirayə vermiş, digərini isə yayda, Xürrəmşəhrin havasının dözülməz dərəcədə isti olduğu vaxtlarda ailəsinin oraya köçə bilməsi üçün səliqəyə salmışdı. Bundan əlavə, əmi Xürrəmşəhrin 40 metr xiyabanında da torpaq sahəsi alaraq, şirkətdən götürdüyü kredit vasitəsilə bu sahədə də özünə bir ev tikmişdi. Bu ev çox böyük, altı otaqlı və yaraşıqlı idi. Evin həyəti geniş və ürəkaçan idi. Əli əmi bağçada çəhrayi çiçəkləri olan gül kolları ilə yanaşı, sarı, qırmızı və ağ güllü pionlar da əkmişdi.

Həyətin bir tərəfində damdakı terasa aparan dəmir pilləkan düzəldilmişdi. Həyətə mozaik piltələr

döşənmişdi. Əmi həmçinin, xüsusi mətbəx mebeli, bufet və taxta dolablar da sifariş vermişdi. O, mətbəx və qonaq otağı arasındakı divarda bir pəncərə açdırmışdı. Hamımız bu pəncərəni çox bəyənirdik. Evin hamamında unitaz, vanna və duş quraşdırmışdı. Mətbəxin arxasında balaca iç həyət yerləşirdi. Hamamın və mətbəxin pəncərələri həmin iç həyətə açılırdı. Əmi evin bütün otaqlarına kondisioner quraşdıraraq, kovrolit döşətdirmişdi. Bu ev Əli əminin xüsusi imarətinə çevrilmişdi. Bizim ən çox sevdiyimiz məşğuliyyət Əli əminin imarətinə qonaq getmək idi. Füruzanla Sağər həyat yoldaşları və övladları ilə birgə bizə qonaq gəldikləri zaman, hamımız birlikdə Əli əminin evində yığışanda, yerə sərdiyimiz süfrə, qonaq otağından evin giriş qapısına qədər uzanardı. İçimdəki bir hiss mənə deyir ki, Əli əminin evi hələ də dünyada ən şad və ən qəşəng ev olaraq qalır. Həmin il İsmayıl dayım Məhəmməd Cahanaranın xalası ilə ailə həyatı qurdu. Bəhmənin qardaşı Əlirza isə Amerikada aero-kosmik mühəndislik fakültəsindəki təhsilini yarıda buraxaraq, İrana qayıtdı və Qum şəhərinə köçüb, dini hövzənin tələbəsi oldu. Bir müddətdən sonra isə ailə həyatı qurdu. Sanki, bütün qohumlarımızın övladları üçün ailə qurmaq zamanı yetişmişdi. İsmayıl dayımın azadlığa çıxmasından sonra yaxşı xəbərlər bir-birinin ardınca gəlib çatırdı. Amma xəbərlərdən biri tam fərqli tərzdə hamı üçün çox gözlənilməz və sevindirici oldu. Siddiqə xalam anama demişdi ki, cənab Seyid Rza Musəvi onun üçün elçi gəlmək istəyir. Anam isə öz növbəsində, yarım saatın içində

bu xəbəri bütün qohumlara çatdırmışdı. Bu xoş xəbərin yayılma sürətinə bərabər bir sürətlə, Seyid Rza Musəvi xalamın elçiliyinə gələrək, toyla əlaqədar digər işləri də yoluna qoydu. Hər şey bir göz qırpımında baş verdi. Bir də ayıldıq ki, bizim evimizdə Siddiqə xalamın kəbinkəsmə mərasimi keçirilir. Biz həmişəki kimi, mərasimə uyğun geyim, çanta və ayaqqabı alaraq, bir neçə gün öncədən gözəllik salonuna növbəyə yazılmaq fikrində idik. Elə bu ərəfədə eşitdik ki, Siddiqə xalam kəbinkəsmə mərasimi üçün gözəllik salonuna getməyəcək. O, nə makiyajdan istifadə edəcək, nə də gəlin paltarı geyinəcəkdi. Həmişə xalamın qayğısına qalan anam xahiş edib dil tökdü ki, o, azca da olsa, üzünə əl gəzdirməyə icazə versin. Amma xalam razılaşmadı və özü kəbin süfrəsi sərərək onu sadə tərzdə bəzədi. Sonra əynində olan sadə qara manto və məqnə ilə kəbin süfrəsinin kənarında əyləşdi. Anam yaranmış vəziyyətdən kədərlənərək, hey dodaqaltı narazılığını bildirirdi. Bununla belə, ağ rəngli təzə çadra gətirərək xalamın başına örtdü. Bir qədər keçmiş, əynində İslam Keşikçiləri Korpusunun xüsusi geyim forması olan bəy məclisə daxil olaraq, Siddiqə xalamın kənarında əyləşdi. Bu, bizim evimizdə keçirilən ilk sadə və təmtəraqsız kəbin mərasimi idi. Xalam çox ciddi, cənab Musəvi isə zəhimli bir insan olduğundan onların hər ikisindən çəkinərdik. İş o yerə çatmışdı ki, biz cavan qızlar olduğumuz üçün, məclisə uyğun geyim alıb saçlarımızı xüsusi modeldə düzəltdiyimizə baxmayaraq, səssiz şəkildə bir kənarda əyləşərək, xalamın kəbinini kəsən ruhaniyə tamaşa etməyə

başladıq. O, xalam və cənab Musəvinin kəbinini kəsərək bu iki nəfəri bir birinə qovuşdurdu. Bir müddətdən sonra Röyanın nişan mərasimini keçirdik. Bir neçə aydan sonra ilk dəfə olaraq əmimgilə gedə bildiyimə görə çox sevinirdim. Axırıncı dəfə əmimin evində keçirdiyim iki gün həyatımın ən gözəl günlərindən idi. Röyanın nişanlısı əslən Minu adasından olsa da, Abadanda yaşayırdı. Onun atası Abadan şəhərinin təhsil şöbəsində çalışırdı. Röyanın nişanlısının adı Fazil Hesami idi və Qum şəhərinin dini hövzəsində təhsil aldığından, ona Şeyx Fazil deyə müraciət edirdilər. Nişan günündə Bəhmən bir neçə dəqiqəlik mənim olduğum otağa gəldi.  Mənə baxıb gülümsədi və heç nə demədən çıxıb getdi. Buna baxmayaraq, onun baxışlarının sirrini anladım. Onun gözləri məni sevdiyini və sözünün üstündə dayandığını söyləyirdi. Bir həftə keçəndən sonra eşitdik ki, Rəhmət, Şeyx Fazilin bacısı Həlimənin elçiliyinə gedib. Cavab müsbət olduğundan qərara alınıb ki, kəbinkəsmə mərasimi ilə toy bir gündə keçirilsin. 1981-ci il mart ayının 27-si, həm Rəhmətlə Həlimənin, həm də Röya ilə Şeyx Fazilin kəbinkəsmə mərasimi keçirildi. Mən əynimə ağ rəngli, dördbucaq formada yaxası olan, qolları klyoş şəkildə tikilmiş don geyinmişdim. Ayağımda isə ağ rəngli dikdaban ayaqqabılar vardı. O zaman dizə qədər corablar dəbdə idi. Qızlar bu corabları geyinəndə özlərini gözəl və dəbli hiss edirdilər. Röyadan ayrılmağıma görə çox narahat idim. Röya və həyat yoldaşı qərara gəlmişdilər ki, yayın axırı Quma köçsünlər. Həmin gecəni əmimgildə qaldıq. Səhər tezdən əmimin həyat

yoldaşı ilə Füruzan yuxudan ayılıb kəbin süfrəsini yığmağa başladılar. Mən, Mitra və Rəna isə hələ də yatmışdıq. Əmimin həyat yoldaşı xürrəmşəhrlilərin adəti üzrə, kəbin süfrəsinə tökülmüş qənd tozunu mənim başıma səpərək, toya xas şadyanalıq etdi. Yuxudan ayıldım. O, təbəssümlə dedi: "İnşallah yaxın günlərdə Nəsrinin də bəxti bu evdə açılsın. İnşallah bizim evin gəlini olsun". Bəhmən "ya Allah" deyərək otağa daxil oldu. Ədyalı başıma çəkdim. Bəhmən soruşdu: "Kim yatıb?" Dedilər: "Nəsrindi". Bəhmən bunu eşidib güldü və otaqdan çıxdı.

Bir neçə gündən sonra Röya xoş xəbərlərlə evimizə gələrək dedi: "Neçə gün öncə Bəhmən evinizin qarşısından keçərkən, kəbinkəsən ruhanini katibi ilə birgə küçənizdə görüb. Onların əlində iri ölçülü kəbin dəftəri olub. Bəhmən narahat və qanı qara halda evə qayıdıb anama dedi ki, bibigilin küçəsində kiminsə toyudur. Qorxuram ki, Nəsrini ərə vermiş olalar? Nəsrin başqası ilə ailə həyatı qursa, mən məhv olmuş bir halda Xürrəmşəhrdən çıxıb gedərəm". Anam qorxdu. Axşam atam evə qayıdanda, anam onunla birgə otağa keçdi və ikilikdə söhbət etməyə başladılar. Sonra Əlirza gəlib çıxdı və onu da bu iclasa çağırdılar, daha sonra Rəhməti və nəhayət, sonuncu olaraq, Bəhməni. Yarım saatdan sonra iclas bitdi və müzakirə mövzusu hamı üçün açıqlandı: Sabah, ya birisi gün Nəsrini Bəhmən üçün istəməyə gedirik. Röya bu sözləri deyəndən sonra qəlbimdə toy büsatı quruldu. Bir neçə gündən sonra əmimin həyat yoldaşı səhər tezdən evimizə gəlib anama dedi: "Bu axşam Nəsrinin elçiliyinə gələcəyik. Babaya da çatdırın".

Əmim yoldaşı gedəndən bir neçə saat sonra iztirabdan sancılandım. Axşam yaxınlaşdıqca, halım get-gedə pisləşirdi. Tez-tez ayaq yoluna gedirdim. Nəhayət, həyətdə əyləşməyə məcbur oldum ki, həmin yolu tez-tez gedib gəlməyim. Halım bir cür olmuşdu, özümü heç yaxşı hiss etmirdim.

Həmin axşam əmim, əmimin həyat yoldaşı, Bəhmən və ailəmizin digər üzvləri salam verərək evimizə daxil oldular. Yersiz qorxu və iztiraba düçar olmuşdum. Özümü yaxşı hiss etmirdim. Anam şam yeməyinə plov və balıq kababı hazırlamışdı. Uşaqlıq illərimdə bişirilən balıq kababını, anamla birgə balıq bazarına getdiyimizi və həmin bazarda satılan balıqların sağ qala bilməkləri üçün necə çapaladıqlarını xatırladım. Bu xatirələrdən sonra dilimə heç nə vurmadım. Yuxarı mərtəbədəki otaqların birinə qalxıb, uşaq kimi özümü yuxuluğa vurdum. Sonradan eşitdim ki, babam, mənim Bəhmənə qarşı olan hisslərimdən xəbərdar olduğu üçün elçilərə belə cavab vermişdi: "Mən yenə də öz sözümü təkrar edirəm, Nəsrin hələ uşaqdır, bununla belə mən daha müxalifətçilik etmirəm. İstədiyiz kimi hərəkət edə bilərsiz. Bu meydan, bu da şeytan. Amma gərək hamınız köməkləşib, bu iki gəncə həyat yolunu başa salasınız". Böyüklərin söhbəti sona çatana qədər özümü yuxuluğa vurdum. Hamı gedəndən sonra anam otağıma daxil olub dedi: "Nəsrin can, çox mübarəkdir, qızım! Bəs niyə aşağı düşmədin? Qərara gəldik ki, ayın 29-u nişan mərasiminizi keçirək. Mehriyəni də 520 tümən məbləğində təyin etdik". Anam yatağımın kənarında əyləşərək, sevinə-sevinə

danışırdı: "Bəhmənin anası dünən Dirani əminin klinikasına gedərək, ona deyib ki, siz gəlinin atası yerindəsiz. Sizin buyruğunuza uyğun əməl edəcəyik. Dirani əmi də ondan soruşmuşdu ki, Röya üçün nə qədər mehriyə təyin etmisiz? Bəhmənin anası 270 tümən deyə, cavab verəndən sonra, Dirani əmi yenidən sözə başlayıb: "Belə olan halda, Nəsrinin də öz qızınız olduğunu düşünün. Onun da mehriyəsi Röya üçün təyin etdiyiniz məbləğdə olsun. Əminin həyat yoldaşı da ona cavab vermişdi ki, əgər təklif edirsiz ki, Nəsrinin öz qızımız olduğunu düşünək, biz də öz növbəmizdə Nəsrin üçün Röyaya təyin etdiyimiz mehriyənin iki bərabəri qədər təyin edirik". Deyilənləri eşidəndən sonra qəfildən halım düzəldi. O andan etibarən, qəlbimdəki iztirab və narahatçılıq, sevinc və xoşhallıq hissi ilə əvəz olundu. Düşündüm ki, tezliklə bu evdən ayrılacağam.

Artıq, nə atamın boş qalmış yeri, nə də Füruzanla Sağər üçün darıxmağım məni narahat etməyəcək. Bundan sonra, heç vaxt dava etmək üçün kifayət qədər cəsarət toplaya bilmədiyim iki dəcəl qardaşım Səid və Həmidin də əlindən rahat olacaqdım. Hətta Nəğmənin də əlindən xilas olacağam ki, həmişə dərs oxuyar və məni danlayardı ki, sən çox istedadlısan, daha yaxşı dərs oxuya bilərsən, ailə qurmaq üçü hələ çox cavansan. Artıq bu evdən gedəcəyəm. Bu ev mənim üçün acı xatirələrlə doludur. Atamın acı ölüm xəbəri, bibinin xəstəliyi, İsmayıl dayımın həbs olunub barəsində edam hökmü çıxarılması, Siddiqə xalamın məktəbdən çıxarılaraq, həbs edilmə xəbəri, anamın ağlayaraq, ağı deməsi... Beləliklə, həmişə dadlı xörək

ətri gələn bir evə köçəcəkdim; şən qəhqəhələrin və şadyanalıq səslərinin heç vaxt kəsilmədiyi bir evə. Ayın 20-i evimizdə başqa ab-hava vardı. Biri gəlir, digəri gedirdi. Kişilər alıb gətirdiklərini tələsik həyətin bir küncünə qoyub gedirdilər. Ailəmizin toy adətlərini çox bəyənirdim. Yaxın qohumlar görüləcək işlərin və çəkiləcək xərclərin bir hissəsini öz öhdələrinə götürürdülər ki, gəlinlə bəyin ailəsi çox çətinlik çəkməsin. Mahmud dayım limonad qutularını maşının arxasından boşaldaraq, həyətə yığırdı. İsmayıl dayım meyvə yeşiklərini ağacın altındakı kölgəliyə düzürdü. Əlirza isə gətirdiyi şirini qutularını anama təhvil verirdi. Rəhmət otaqda və küçə qapısının önündə rəngli çıraqları bərkidirdi. Musiqi əvəzinə, səhər tezdən maqintofonumuzdan inqilab təranələrinin sədaları ətrafa yayılırdı. Siddiqə xalamın həyat yoldaşı nişan mərasiminin təşkilatçısı idi. Bir qədər sonra Bəhmən də gəlib çıxdı. O, İslam Keşikçilərin Korpusunun xüsusi geyimində həmişəkindən də ucaboy və yaraşıqlı nəzərə çarpırdı. Mən əynimə noxud rəngində bir don geyinmişdim. Saçlarımı isə özüm saç ütüsü ilə ütüləmişdim. Makiyajdan istifadə etməmişdim.

Əmimin həyat yoldaşı əlində bir neçə hədiyyə qutusu ilə otağa daxil oldu. Məni görəndə şadyanalıq etdi. Onun səsini eşidən bütün xanımlar mənim otağıma yığışdılar. Həyətdən Bəhmənin səsi eşidildi: “Ana, bəsdir. Bilirsən inqilabda nə qədər şəhid vermişik?”

Mitra ilə Röya Bəhmənin sözünə fikir vermədən əl çalmağa davam etdilər, mənimlə əmim yoldaşının

qarşısına keçib rəqs etməyə başladılar. Həyətdən yenidən Bəhmənin səsi ucaldı: “Orada nə xəbərdir? Bu qədər səs-küy salmayın. Belə bir iş tutmağa necə razı ola bilərsiz? Bir görün inqilabda nə qədər adam şəhid olub”. İnqilab qələbə çaldıqdan sonra əmimin həyat yoldaşı hamıdan çox dindar olub, diqqətlə hicaba riayət edirdi. Bununla belə, bizə göz vuraraq dedi: “Heç nə olmaz. Siz davam edin, amma yavaşca”. Mitra ilə Röya ətrafımda rəqs edərək, ədabazlıq edirdilər. Əmim yoldaşı dedi: “Eybi yoxdur, bu gün toy günüdür”. Siddiqə xalam bizə tərs-tərs baxaraq dedi: “Gərək beşinci sütunu yaddan çıxarmayıb, ehtiyat saxlayaq”. Təəccüblə xalama baxıb soruşdum: “Beşinci sütun nədir?” Qohumlarımız yavaş-yavaş toya uyğun tər-təmiz və rəngarəng geyimlərdə evimizə yığışmağa başlayırdılar. İnqilabi mahnıların səsi kəsilmirdi. Bu arada “Azadlıq fəryadı” mahnısı hamını vəcdə gətirdi. Bu inqilabi əsərin musiqisinin müəllifi Əhməd Əli Rağebdir. Əsər 1980-cı ildə Məhəmməd Qolriz tərəfindən ifa olunub. Əsərin bir hissəsi belədir:

*Allahu əkbər, Xomeyni rəhbər*
*Bu azadlıq fəryadıdır şərqdən qalxan*
*İnsanların fəryadıdır candan qalxan*
*Bu tufandır hər sahildən baş qaldıran*
*Zülmə düşmüş insanların fəryadının yanğınıdır*
*Ürəklərdə yığılıb qalmış arzuların toplumudur.*

Sinif yoldaşlarımın da bir neçəsini nişan mərasiminə dəvət etmişdim. Onlar yeniyetmə

olduqlarından, inqilab və şəhidlər haqqında olan söhbətləri qəbul etmirdilər. Özləri ilə gətirdikləri bəndər və ərəb rəqsləri kasetini maqintofona salıb rəqs etməyə başladılar. Rəqs etməyib kənarda dayananlar isə, əl çalaraq şadyanalıq edirdilər. Yığıncağımız təzəcə toy mərasimini xatırlatmağa başlamışdı ki, həyətdən Bəhmənin səsi eşidildi: “Ana, bibi... mən sizdən nə xahiş etdim? Sakit olun. Vallah, maqintofonu söndürməsəniz, çıxıb gedəcəyəm”. Bəhmənin hay-küy salmasına görə sinif yoldaşlarım sakit olub bir kənarda əyləşdilər. Babam Bəhmənlə mənim üçün məhrəmiyyət siğəsini oxudu. Sinif yoldaşlarım qaşqabaqlı halda, boşqabları, bıçaq və çəngəlləri süfrəyə düzür, buludlara yığılmış meyvə və şirniləri qonaqlara paylayırdılar. Bir müddətdən sonra əmimin yoldaşı dedi: “Bəhmən dostlarıyla birgə İslam inqilabı Keşikçilərin Korpusunun komitəsinə getdi”. Bu xəbər sinif yoldaşlarımın ürəyincə oldu. Onlar yenidən ərəb mahnıları kasetini maqintafona saldılar. Mən bu haldan çox nigaran idim. Onların rəqs edib-etməyəcəkləri mənim üçün o qədər də mühüm deyildi. Qorxurdum ki, Bəhmən qayıdıb gələrkən bu vəziyyətdən narahat olub bizi məzəmmət edər və dediyi sözlərdən hamımız dilxor olarıq. Bu səbəbdən ürəyimdə dua edirdim ki, qonaqlar tez dağılışsınlar. Axşamüstü uzaq qohumlarımız və sinif yoldaşlarım getdilər. Əmimin ailəsi və yaxın qohumlarımız şam yeməyinə qaldılar. Axır ki, rahat nəfəs ala bildim. Sevincimdən bütün boşqabları, çəngəl-qaşıqları yığaraq, hovuzun kənarında əyləşib yumağa başladım. Ailə üzvlərim şam yeməyini hazırlamaqla məşğul

idilər. Ağa Rza Musəvi məni hovuzun kənarında görüb, gülümsəyərək dedi: "Gəlinbacı, siz bu gün qab yumalı deyilsiz". Sonra mənim yanımda əyləşdi. Mən qabları yuyaraq cənab Musəviyə verirdim, o isə dəstamaz aldığımız su kranının altında boşqabları suya çəkirdi. Bu zaman kanalizasiyadan iri bir böcək çıxdı. Böcəyi görəndə qışqırıb ayağa qalxdım. Cənab Musəvi təəccüblə baxaraq dedi: "Maşallah olsun bizim cəsarətli gəlinimizə! Həyat yoldaşına da belə qulluq etmək istəyirsən?" Nişanlandığım gündən sonra, anam tədricən mənim üçün cehiz yığmağa başladı. O, səhərlər bazara gedərək mənim üçün kəfgir, çömçə, boşqab, aşsüzən və bu kimi mətbəx avadanlığı alaraq evə gətirir, gündüzlər isə həyətə döşədiyi xalçanın üstündə oturub, yorğan-döşək sırımaqla məşğul olardı.

Bir gün orta məktəb müəlliməsi olan Nəğmə öz əmək haqqından mənim üçün son dərəcə dəbli ətək və bluz dəsti aldı. Sabahısı gün Röya mənə bir dəst ev geyimi hədiyyə etdi. Üst-üstə yığılmış çini və melamin qab-qacaq dəstlərinin qutuları gün-gündən mətbəxin tavanına yaxınlaşırdı. Bu günlərdə Sağər də Şirazdan gəlib çıxdı. Onun yeniliklərə meyilli gözəl zövqü vardı. Cehizim üçün elektrik ət maşınını Sağərin məsləhəti ilə aldıq. Onun özü isə mənim üçün satışa yeni çıxarılmış mikser və mətbəx kombaynı almışdı. Dirani əminin aldığı televizor isə hamını mat-məəttəl qoydu. Bəhmənin İngiltərədən yenicə qayıtmış əmisi bizə teflon qazan dəsti gətirmişdi. Əli əminin özü bizə on iki metrlik xalça hədiyyə etmişdi.

Məryəm bibimin oğlu isə bizim üçün iki dəst altı metrlik əl xalçası gətirmişdi.

Məhəmməd dayımın sifarişi ilə mənim üçün xaricdən "Vestinghaus" markalı qaz sobası gətirmişdilər. Bu, qaz kapsulunun salınması üçün məxsus yeri, duxovkası, qrili və açılıb bağlanan qapıları olan qəhvəyi rəngli qaz sobası idi. Əmimin həyat yoldaşı hər gün israrla Bəhmənə deyirdi: "Bəhmən can, bir gün Nəsrinlə birgə bazara gedib ürəyindən keçən hər bir şeyi onun üçün al".

Bəhmən bu kimi işlərə meyilli olmadığından deyirdi: "Əvvəl ölkənin vəziyyəti düzəlsin, sonra özüm onun üçün ürəyi istəyən hər şeyi alaram". O, görəndə ki, Bəhmən bazara getməkdən boyun qaçırır, özü "Seyf" bazarından mənim üçün qəşəng bir çamadan, müxtəlif makiyaj vasitələri, fen, məclis geyimləri və cürbəcür bəzək əşyaları aldı və hamısını hövsələ ilə səliqəli şəkildə həmin çamadana yığdı.

Növbə dolab və yataq dəsti almaqa gəlib çatdı. Əmimlə həyat yoldaşı maşınla bizə gəldilər və hamımız birgə Abadana gedib oradan yataq dəsti aldıq. Əmim çarpayı ilə dolabın pulunu vermək istəsə də anam razılaşmadı.

Bu arada əmim 40 metr xiyabanında yerləşən evini sataraq, üzbəüz meydanda, Keyhan küçəsində, Milaniyan yaxınlığında yerləşən böyük, iki mərtəbəli bir ev aldı ki, oğulları və gəlinləri ilə birgə asudə yaşaya bilsin. Əmimin həyat yoldaşı ikinci mərtəbədəki otaqlardan birini səliqəyə saldı. O, otağa kondinsioner quraşdıraraq, pəncərələrə pərdə tikib, döşəməyə xalça saldı. Sonra Röyanın gəlinlik

güzgüsünə bənzər güzgü ilə bir cüt şamdan da alıb otağa qoydu. O, bir gün bizə gəlib məni özü ilə birgə qızıl mağazalarının yerləşdiyi "Seyf" bazarına apardı və mənim üçün öz zövqünə uyğun, qiymətli daşlarla bəzədilmiş bir nişan üzüyü aldı. O dövrdə, 500 tümənlik əskinaslar yenicə dövriyyəyə buraxılmışdı. Əmimin yoldaşı zərgərə iki ədəd 500 tümənlik əskinas verib, bu puldan artıq qalmış 200 tümənə cənub bölgəsi sakinlərinin adətinə görə anam üçün bir üzük aldı.

Zərgər yaşlı və zarafatcıl bir kişi idi. Üzüyü mənə verəndə dedi: "Gəlin qızım, say görüm üzüyün neçə dənə daş-qaşı var".

Əmimin təzə aldığı evdə onlarla birgə, subay qızları olan Mitra ilə Rənadan başqa Röya ilə həyat yoldaşı, Rəhmətlə həyat yoldaşı və Əlirza ilə həyat yoldaşı Fatimə də yaşayırdılar. Hər bir ailənin özünəməxsus ayrı otağı vardı, amma yemək vaxtı hamı bir süfrə başına yığışaraq, nahar və şam yeməyini birgə yeyirdi.

Anam cehizlərimi balaca yük maşınına yığıb göndərəndə, əmimin həyat yoldaşı gileylənərək demişdi: "Ay Səkinə, vallah mən razı deyildim ki, sən bu yetimlərin haqqını yığıb evimizə gətirəsən. Nə üçün özünü bu qədər xərcə salmısan? Evdə ürəyin istəyən qədər qab-qacaq var! Uşaqlar da toydan sonra bizimlə birgə yaşayacaqlar deyə, bu qədər ev əşyasına ehtiyacları yox idi".

Artıq neçə gün idi ki, evimizi toy əhval-ruhiyyəsi bürümüşdü. Bibilərim, əmilərimin həyat yoldaşları, hətta Abadanda yaşayan uzaq qohumlarımız belə,

gəlib anamla hal-əhval tuturdular ki, anamın köməyə ehtiyacı olan halda ona kömək edə bilsinlər.

1981-ci il may ayının iyirmi yeddisi Xürrəmşəhrin havası get-gedə istiləşməkdə idi. Evlərin kondinsionerləri işə düşmüş, kişilər isə neçə vaxtdan bəri, qısaqol köynəklər geyinməyə başlamışdılar.

Evimizin ikinci mərtəbəsindəki otaqların birində, pəncərənin qarşısında əyləşib dərs oxumağa çalışırdım. Amma fikrim-zikrim həyətdə idi. Hər nə edirdimsə dərs oxuya bilmirdim, heç nə yadımda qalmırdı. İsmayıl dayım Məhəmməd dayımla birgə həyətin bir küncündə kərpicdən soba tikirdilər. Səidlə Həmid isə onların əl-ayağına dolaşırdılar. Qaçıb küçədən kərpic gətirib, əllərini gilin içinə salaraq, sobanın kərpiclərinə çəkmək onların xoşuna gəlirdi. Çiynində bir neçə düyü kisəsi gətirən Mahmud dayım həyətə daxil oldu. Cənab Füruzəndənin həyat yoldaşı başına rəngli, çit çadra salıb həyətimizdəki taxtda əyləşmişdi. Anam meyvə sinisini taxtın üstünə qoyaraq, xanım Füruzəndə ilə söhbət etməyə başladı. Yəqin ki, onların evində keçiriləcək kişi məclisi barədə danışırdılar. Mən divara söykənərək ayaqlarımı uzadıb, həyətin gözəl mənzərəsinə tamaşa edirdim. Bu zaman həyətin pərdəsi yenidən kənara çəkildi və bir neçə cavan oğlan əllərindəki rəngli çıraqlarla dolu olan qutuları küçə qapısı ilə üzbəüz yerləşən taxtın üstünə qoyaraq, dayılarımın yanına getdilər. İsmayıl dayım cibindən bir neçə əskinas çıxarıb cavanlardan birinin ovcuna qoydu. Ürəyimdən keçirdi ki, həyətə düşüb, çıraqları qutudan çıxarım və elektrik cərəyanına qoşum. Amma yerimdə oturub

dərs oxumağa məcbur idim. Sabah sonuncu imtahandan sonra dərs oxumaqdan xilas olacaqdım.

Mən şəhid "Aladpuş" məktəbinin onuncu sinif şagirdi idim. İnqilabdan bir il öncə "Came" məktəbində təhsil alırdım. Bu yeni açılmış məktəbdə qızlarla oğlanlar birgə təhsil alırdılar. Yeni tədris ilinin başlanmasından beş ay keçməmiş inqilab qələbə çaldı. Məktəbimiz bağlandı, bizi isə başqa məktəbə keçirdilər.

Səhər tezdən məktəbə gedəndə imtahandan başqa hər şey haqqında düşünürdüm. Sinif yoldaşlarım əllərində dərs kitabı tutaraq ya həyətdə gəzişir, ya da bir tərəfdə əyləşib son günlərdə öyrənə bilmədiklərini yadda saxlamağa çalışırdılar. Söhbət etmək istədiyim hər bir kəs ya başını aşağı salıb dərs oxuyur, ya da öyrənə bilmədiklərini sinif yoldaşlarından xəbər alırdı. Dostlarımdan biri məni görcək soruşdu: “Nəsrin, dərsləri neçə dəfə təkrar edə bilmisən?" Ona bu cavabı verdim: “Bu gün imtahandan sonra gözəllik salonuna getməliyəm. Sabah mənim nikah mərasimim keçiriləcək. Həmin qız təəccüblə mənə baxıb soruşdu: “Yəni heç nə oxumamısan?" Bunu deyib başını aşağı saldı və kitab oxuya-oxuya məndən uzaqlaşdı. Dostlarımın qarşısında ailə həyatı quracağım və bu gün gözəllik salonuna gedərək üz-gözümə əl gəzdirəcəyimlə öyünmək istəyirdim. Heyif ki, hamı kitaba baxıb dərs oxuyurdu.

İmtahandan çıxanda özümü qəfəsdən azad olmuş bir quş kimi hiss edirdim. İmtahan suallarının çətinliyi, cavabları bilməməyim, bildiklərimi də hövsələsiz və tələsik şəkildə yazmağımın mənim üçün

heç bir əhəmiyyəti yox idi. Mühüm olan Röya ilə Mitra idi ki, əllərində bir qutu şirini tutub məktəbin həyətində yolumu gözləyirdilər.

Gündüz Röya və Mitra ilə birgə gözəllik salonundan qayıtdım. Anam, əmimin yoldaşı, Rəna, Füruzan və Sağər həyətdə əyləşərək yolumuzu gözləyirdilər. Anam içində üzərlik yandırılan balaca manqalı taxtın üstündən götürərək, odun üstünə bir ovuc üzərlik atdı. Baxışlarından sevinc yağan bir halda dedi: “Səni istəməyənin gözü çıxsın. Maşallah! Qızım sanki nur parçasıdır. Səni bəzəyənin əllərinə sağlıq. Qaşlarını necə də gözəl kaman formasına salıb! Xoşbəxt olasan, ay qızım!" Əmimin həyat yoldaşı əl-üzümü yumaq üçün gülab gətirmişdi. Əyilib onunla anamın üzündən öpdüm. Bu zaman Nəğmə məktəbdən qayıtdı. O, yeni görkəmimi, rəngli və alınmış qaşlarımı görəndə, məni qucaqlayıb bağrına basdı və qulağıma pıçıldadı: “Çox mübarəkdir! Nə gözəl olmusan! Amma heyif səndən, kaş ailə həyatı qurmaq əvəzinə təhsilini davam etdirərdin. Sözlərimdən narahat olma. Sadəcə olaraq, sənin üçün ürəyim yanır, çünki sən çox ağıllısan”. Anam Nəğmənin sözlərini eşitməsə belə, qulağıma nə dediyini yaxşı bilirdi. Bu səbəbdən Nəğməyə dedi: “Nəğmə müəllimə, bu sözlərin əvəzinə, get gülabqabı ilə şirini gətir”.

Pərdənin arxasından kiminsə "Ya Allah" sədası eşidildi. Gələn Dirani əminin oğlu Şəhriyar idi. Üst-üstə yığılaraq çənəsinə çatan şirini qutuları ilə birgə içəri keçdi. İki metrdən çox boyu olan Şəhriyar əmim oğlanları arasında ən yaraşıqlı və ucaboylusu idi.

Onun arxasınca həyətimizə daxil olan iki yükdaşıyan fəhlə əllərindəki qarpızları, xiyar və alma ilə dolu yeşikləri həyətin bir küncünə yığdılar. Anam dedi: “Çox sağ ol, Şəhriyar. Sənə qurban, nə qədər qarpız almısan? Niyə bu qədər zəhmət çəkmisən?" Qutuların arxasından Şəhriyarın səsi eşidildi: “Borcumuzdur, bibi can”.

Əmi oğlanlarımla əmi qızlarım anamı çox istədiklərindən, ona "bibi" deyərdilər. Anam yenə dilləndi: “Olmaya, bir maşın qarpız almısan? Axı, bu nə işdir görürsən?" Şəhriyar cavab verdi: “Bibican, gərək Nəsrinin nikah mərasimində heç bir əyri-əskiklik olmasın”. Sözünün axırında qəhərləndi. Artıq bir neçə ay idi ki, Şəhriyar Xürrəmşəhrin "Mehr" xəstəxanasında çalışmağa başlamışdı. Yayın axırında, sinif yoldaşı olan bir qızla evlənəcəkdi. Onun həyat yoldaşı Mənsurə Tehran sakini və ailənin yeganə övladı idi.

Bu vaxt "ya Allah" deyərək, həyətə daxil olan bir neçə cavan oğlan rəngli çıraqları qoşmağa başladılar. Səidlə Həmid onların ətrafında fırlanaraq, çıraqları qutudan çıxarırdılar. Cavanlardan birinin səsi ucaldı: “Ehtiyatlı ol! Lampaları yerə salarsan. Ay uşaq, ehtiyatlı ol”. Biz otağa getdik. Nəğmə hamıya şərbət gətirdi. Əmimin həyat yoldaşı çantasından bir boğça çıxararaq, Röyaya verib dedi: “Kim Nəsrinin kəbin süfrəsini bəzəmək istəyir?" Bu süfrəni Məkkədən gətirmişəm. Allah evinin ətrafına onunla təvaf etmişəm. Sonra, kəbinləri kəsilən cavanların başları üstündə qənd tozu səpmək üçün istifadə olunan süfrəni də Mitraya verərək dedi: “Bu da mənim toy

süfrəmdir. Röya üçün qənd süfrəsi kimi istifadə etdiyimiz süfrədir. İnşallah, ikiniz də xoşbəxt olarsız. Bu, ağ rəngli, satin süfrə idi ki, ətrafı naxışlar və dekorativ daşlarla işlənmişdi. Siddiqə xala cavab verdi: "Mən kəbin süfrəsini bəzəyərəm". Əmimin həyat yoldaşı dedi: "Oğlanları göndərmişəm ki, xonçaları gətirsinlər. İndi gəlib çıxarlar". Mitra, Rəna və digərləri kəbin süfrəsini bəzəməkdə Siddiqə xalama kömək etmək üçün ayağa qalxdılar.

Həyətdən qoyunların mələşmək səsi eşidilirdi. Pəncərədən boylanıb gördüm ki, Şəhriyarın qardaşı Əhməd qoyunlardan birini ipindən çəkə-çəkə gətirir. Səidlə Həmid isə ikinci qoyunu sobaya tərəf itələyirlər. Onların ardınca Dirani əminin həyat yoldaşı Behcət xanım gəldi. Şəhriyar havar çəkdi.[1] O, bu işi yaxşı bacarırdı. Adətimizə uyğun olaraq, başqa cavanlar onun səsinə səs verməli idilər. Əhmədlə birgə rəngli çıraqları qoşan cavanlar da onun səsinə səs verdilər. Səidlə Həmid qoyunun boynunu tutan halda rəqs etməyə başladılar.

Qapıda Behcət xala ilə toqquşduq. O, anama bir neçə qutu "Kvayliti stret" konfeti verərək dedi: "Bunu sizin üçün gətirmişəm". Əli əmimin yoldaşı həyətə gedəndə, Behcət xala anama bir neçə pul bağlaması verib dedi: "Bağlamadakı on min tümən mənim öz pulumdur. Bu puldan heç kimin xəbəri yoxdur. Nəsrinin ürəyi nə istəsə onun üşün alarsan".

Şəhriyar yenidən havar çəkdi, Əhmədlə birgə digər qohumlar da onun səsinə səs verdilər. Əli əminin

---

[1] Şadyanalıq bildirən li li li li səsi.

həyat yoldaşı havar çəkəndə mən həyətə qaçdım. Bir neçə nəfər kəbin süfrəsinin xonçalarını gətirmişdi. Səidlə Həmid rəqs edirdilər. Anam yenidən üzərlik üçün olan balaca manqalı gətirdi. Nişan güzgüsünü birinci xonçaya qoymuşdular. Həlimə Röyanın nişan şamdanlarına bənzəyən şamdanları əlində rəqs etdirirdi. Bu, üzərində qabarıq qırmızı gülləri olan ağ rəngli, çini şamdanlar idi. Xonça gətirənlər bir qədər həyətdə dövrə vurdular. Qonşular həyətimizə yığışdılar. Bibi ilə babam xonça gətirən iki nəfər orta yaşlı kişiyə şabaş verdilər. Onlar xonçaları həyətdəki taxtın üstündə qoyub getdilər. Röya Mitra və Siddiqə xala ilə birgə xonçaları otağa apardı ki, kəbin süfrəsini bəzəyə bilsin. Bir müddətdən sonra Siddiqə xalam qayıdıb narahat halda dedi: “Nə üçün kəbin süfrəsində badam yoxdur?" Səsinin tonundan indicə ağlayacağını düşünmək olardı. Anam dodağını dişləyib onu sakitləşdirməyə çalışdı: “Heç eybi yoxdur”. Anamın sözləri "daha danışma" mənasını daşıyırdı. Eşitdiklərimə təəccübləndim. Siddiqə xalam öz toyunda gəlinlik belə geyinmədiyi halda, mənim süfrəmdə badam olmadığına görə bu qədər narahat olurdu.

Rəhmət getdi və bir qədər sonra bir kilo badamla qayıtdı. Siddiqə xalam yenə etiraz etdi ki, badamları bəzəmək üçün gümüşü rəng lazımdır. Anam yenidən Siddiqə xalama acıqlanıb dedi: “Sən ki, deyirdin toyum nə qədər sadə olsa, bir o qədər yaxşıdır. Necə oldu ki, indi bu qədər cah-cəlal tərəfdarı oldun?" Siddiqə xalam ağlayaraq dedi: “Mənimlə işin olmasın. Nəsrinin atası sağ olsaydı, onun bütün

arzularını həyata keçirərdi. Mən bu işləri bəyənmirəm, amma Nəsrin çox sevir. Atası olmadığına görə, heç nədən korluq çəkməli deyil”.Siddiqə xalamın bu sözlərindən sonra hamı atamı yada salıb, ağlamağa başladı. Rəhmət də qəhərlənmişdi. O, gedib gümüşü rəng spreyi alaraq qayıtdı.

Anam məhləmizdəki səngək çörəyi bişirən çörəkçiyə - üzərində küncütlə “Toyunuz mübarək” yazılmış iki ədəd bir metrlik səngək sifariş vermişdi. Axşamüstü evimizin görünüşü tamamilə dəyişildi. Qohumlarımız, anamın köməyə ehtiyacı olduğunu düşünürək bir-bir evimizə yığışmışdılar. Bir nəfər bir sandıq çay gətirmişdi, o birisi qazlı içkilərlə dolu qutuları divarın kənarına düzürdü. Bir başqası isə iri buz parçalarını kətan kisələrə bürüyərək kölgədə yerləşdirirdi.

Həmin axşam qonaqlar bir-bir evimizə yığışmağa başladılar. Anamla əmimin həyat yoldaşı sanki bütün Xürrəmşəhr və Abadan sakinlərini mənim nikah mərasimimə dəvət etmişdilər. Sabahısı gün mayın 29-u, İslam təqvimi ilə şaban ayının 15-i, İmam Zaman (ə) ağanın dünyaya gəldiyi gün idi. Bu səbəbdən, artıq neçə gecə idi ki, küçələr rəngli çıraqlarla işaqlandırılmış, camaat isə keçidlərə stul düzüb həyətlərinin divarlarını balaca xalçalarla bəzəmişdilər. Bəzi dükan sahibləri müştəriləri ilə küçədən keçənləri dondurmaya qonaq edirdilər. Cavanlar küçədə qurduqları çadırlardan camaata şirini və konfet paylayırdılar. Bəhmən öz toyunda kiminsə musiqi təranələri yayıb, rəqs etməsinə qadağa qoymuşdu. Bir

başqa tərəfdən isə qaynanam, əməlli-başlı inqilabi cərəyana qoşulub iclaslarda iştirak etdiyindən, hamı ondan çəkinirdi.

Məni səhər tezdən "Nəğmə" gözəllik salonuna apardılar. Gəlinliyimi də həmin salondan kirayəyə götürdüm. Bu gəlinliyin beldən yuxarı hissəsi dar, aşağı hissəsi isə qat-qat olub, zərif qırçınlarla bəzənmişdi".Nəğmə" salonu Xürrəmşəhrin ən yaxşı gözəllik salonu hesab olunurdu. Uzun fatanı saçıma bərkidəndə uşaqlıq oyunlarımı və mətbəxin tül pərdəsini xatırladım. Dedilər: "Necə də gözəl fatadır! Gəlinliyin də çox gözəl və dəblidir". Sonra başqa bir xanım əlavə etdi: "Necə də nazlı gəlindir". Füruzanın qızları Əfsanə ilə Fərzanə və Sağərin qızı Əfifə fatamın ucundan tutdular və birlikdə gözəllik salonundan çıxdıq. Bəhmən əyninə ağ köynək, qara kostyum geyinərək, pencəyinin cibinə al-qırmızı qızıl gül qoymuş halda gözəllik salonunun önündə məni gözləyirdi. Onu görəndə məni gülmək tutdu. Anam bu kostyumu alarkən Bəhmən demişdi ki, mən bəylik geyinməyəcəyəm. Onun bu sözlərindən çox narahat olmuşdum. O zaman anam mənə göz vuraraq demişdi: "Heç narahat olma, vaxtı çatanda geyinəcək. Özü də çox həvəslə geyinəcək". Kəbinimizi kəsən Kəraməti ağa böyük qızı ilə birgə gəlib çıxdı. Kəraməti ağanın qızı kəbin mərasimlərini çox xoşladığı üçün, bəzi vaxtlar atası ilə birgə belə mərasimlərdə iştirak edirdi. Kəraməti ağa zarafatla Bəhmənə dedi: "Bura bax, peşman olmusansa, çıx get. Mən sənin tərəfini saxlayaram". Sonra üzünü mənə tutaraq dedi: "Bir stəkan su gətirmək bəhanəilə

qaç canını qurtar. Axı, sabahdan qab yuyub, xörək bişirməklə yanaşı, qaynananın söz- söhbətləri də başlayacaq. Tez ol, qaç canını qurtar". O, bu şəkildə zarafat edərək, deyib-gülməklə mənimlə Bəhmənin kəbinini kəsdi. Əmimin yoldaşı mənim üçün zümrüd qaşları ilə bəzədilmiş qızıl dəsti almışdı. O, hövsələ ilə dəstin üzüyünü barmağıma, qolbağını biləyimə, sırğalarını qulaqlarıma, boyunbağını isə boynuma saldı. Bəhmənlə birgə kəbin süfrəsinin kənarında əyləşdiyim anlar, zənnimcə, ömrümün ən gözəl anları idi. Ürəyimdə nə nigarançılıq hissi, nə də qəm-qüssə vardı. Gözlərimin qarşısında bizə təbəssümlə tamaşa edən atamı görürdüm. Bir neçə il bundan öncə qəbristanlıqda baş vermiş səhnəni xatırladım. Atamın ölümünün ildönümü idi. Bəhmən, atamın boş qalmış yerini mənim üçün dolduracağına söz vermişdi. Mənim dünyam olub, məni qoruyacağına and içmişdi. Neçə il məhəbbətlə yolumu gözlədi, fikri-zikri təkcə mən oldum. Həmin axşam məni əmimin evinə gəlin köçürdülər. Sabahısı gündən əmimin həyat yoldaşı qaynanam, əmim qızları baldızlarım, əmim oğlanları isə qayınlarım oldular. Amma nə etdimsə, Əli əmimə qaynata deyə bilmədim. O, mənim üçün əmi olaraq qaldı. Artıq, illər boyu ürəkdən sevdiyim bu evin və ailənin üzvü olmuşdum. Bu ev öz sahibləri ilə birgə həmişə mənə xoş təsir bağışlayırdı. Qaynanam, Rəna, Mitra və Röya ilə həyat yoldaşı aşağı mərtəbədə yerləşmişdilər. Üç gəlinin hər biri və Siddiqə xalam üçün isə ikinci mərtəbədəki otaqları ayırmışdılar. Biz yalnız axşamlar otaqlarımıza gedərdik. Siddiqə xalamla mən ev kirayələmişdik və bir neçə həftədən

sonra yeni evimizə köçməli idik. Həftənin axırı Röya da Quma getməli idi. Amma xalamın digər iki gəlini Həlimə ilə Fatimə onunla birgə qalacaqdı. Qaynanam evin komandiri, biz gəlinlər isə onun əsgərləri idik. O, hər şeyi planlaşdırır, idarə edir və evin daxili mühitini tənzimləyirdi. Xörəyi növbə ilə bişirirdik. Həmçinin qab yuyub, ev süpürmək və tozları silmək kimi vəzifələr də növbə ilə həyata keçirilirdi. Bununla belə, qaynanamın xörək bişirmə qabiliyyətinə söz ola bilməzdi. Bişirdiyi ən sadə xörəyin ətri belə evi bürüyərdi. Xörəklərinin dadından və rəngindən doymaq olmurdu. Hətta suda bişmiş kartofla qayğanaq bişirsəydi belə, neçə növ ləziz yemək bişirdiyini düşünərdik. Hazırladığı xörəklərin ətri hamını qazanın başına yığardı. Həm bişirdiyi dadlı yeməklərin, həm də ürəklə "Nuş olsun" deməsinin vurğunu idim. Qaynanamla baldızlarımın kənarında özümü çox xoşbəxt hiss edirdim. Süfrə başında əyləşənlərin sayının çoxluğu, evimizin get-gəlli olması, səsli-küylü qonaqlıqlar və şən zarafatlar bu evi mənim üçün xəyallarımın evinə çevirmişdi.

Evləndiyimiz gündən bir neçə həftə keçmişdi. Həyatımız çox xoş, günlərimiz bir-birindən maraqlı idi. Bəhmən İslam Keşikçiləri Korpusunun telefon şəbəkəsində çalışırdı. O, səhər işə gedib, günortadan sonra qayıdırdı. Həmin günlərdən birində, axşamüstü baldızlarım və qayınarvadlarımla birgə əyləşib, deyib-gülərək meyvə yeyirdik ki, Bəhmən pərişan və qanıqara halda evə döndü. Əmimlə qaynanam evdə deyildilər. Bəhmən o tərəf bu tərəfə göz gəzdirib soruşdu: “Atam hardadır?” Onların hara getdiklərini

bilmədiyimizdən, cavab verdim ki, evdə yoxdular. O, iti addımlarla pillərlərdən yaxarı qalxdı ki, otağımıza getsin. Özü də barmağı ilə işarə etdi ki, arxasınca gedim. Bəhmənin bu rəftarı hamımızı nigaran etdi. Baldızlarım bir-birinə baxaraq dedilər: "Nəsrin, qalx gör Bəhmənə nə olub". Bəhmənin arxasınca otağa qaçdım. O, pəncərənin qarşısında dayanıb, həyətə baxırdı. Məni görən kimi dedi: "Qapını bağla". Qapını bağladım. Sözünə davam etdi: "Əyləş". Sonra yaxınlaşaraq üzbəüz dayanıb dedi: "Nəsrin, deyəsən müharibə başlayır. Sərhəddin o biri tərəfində yaman qarışıqlıq düşüb. Qarşıdurmalar get-gedə şiddətlənir. Dostlarımdan bir neçəsi şəhid olub. Bu an canıma qorxu düşdü. Əlimi üzümə vurub soruşdum. Hansı dostların? Kim şəhid olub? Bəhmən əlimdən tutub dedi: "Qorxma, qardaşlarımın həyat yoldaşlarına heç nə demə, narahat olarlar. Fatimənin yanında heç nə danışmaq istəmədim". Yenidən soruşdum: "Hansı dostların şəhid olub? Kimlərdir axı?" Bəhmən narahat olsa belə, həddən artıq qəmgin olduğunu gizlətməyə çalışırdı. Amma bununla belə sualıma cavab verdi: "Abbas Fərhan". Abbas Fərhanı tanıyırdım. Çox yaxşı insan idi. Həyat şəraiti çətin, maddi imkanı isə zəif idi. Kasıblıq ucbatından hətta orta məktəbi belə bitirə bilməyib, vaxtından əvvəl işləməyə başlamışdı. O, dərzi şagirdi olsa da, o qədər istedadlı idi ki, iki ildən sonra ustasından ayrılaraq, balaca bir dərzi emalatxanası aça bilmişdi. Hətta, bir neçə aylıq Tehrana gedib xüsusi dərzilik kurslarında iştirak edərək mahir bir dərziyə çevrilmişdi. Çox vaxt qohumlarımız şalvar və pencək dəstlərini ona sifariş

edirdilər. Bütün bunları Bəhməndən və başqa qohumlarımızdan eşitmişdim. Abbas Fərhan da inqilabdan sonra İslam Keşikçiləri Korpusuna üzv olmuşdu. Bununla belə, hələ də dərziliklə məşğul olub, bütün qazancını ailəsinə verirdi.

Abbasın şəhadət xəbərini eşidib dedim: “Vay! Bəs anası ilə bacı-qardaşının bundan xəbəri var?" Bəhmən onların xəbərdar olduqlarını təsdiqləmək üçün əfsusla başını yellədi. Yenidən soruşdum: “Daha kim şəhid olub?" Ağladığına görə çətinliklə cavab verə bildi: “Musa Bəxtavər”.[1]

Bu sözlərdən sonra o, köksünü ötürüb pəncərəyə tərəf qayıtdı. Səsi titrəyirdi. Həmin titrək səslə dedi: “İraq rejimi insaniyyətdən uzaq diktaturadır”. Yenidən köksünü ötürüb, bir qədər sonra dedi: “Sərhəddə yaşayan ərəb vətəndaşlarımızdan bəziləri də iraqlılardan silah alıblar. İrandan ayrılmaq istəyi, millətçilik, müstəqillik və bu kimi fitnələrə aldanıblar. İraqlılar da onların tərəfini saxlayır. Düşmən getdikcə irəliləyir”. Təəccüblə soruşdum: “Axı nə səbəbdən? Bizimlə nə düşmənçilikləri var?" Bəhmən yenidən

---

[1] Musa Bəxtəvər 1961-ci ildə Xürrəmşəhrdə dünyaya göz açmışdı. O, inqilabdan sonra Xürrəmşəhrdə yaranan İslam İnqilabı Keşikçilər Korpusunun formasını rəsmi olaraq əyninə geyinib, şəhid Cahanaranın dostları sırasına daxil olaraq onlarla birgə çalışmağa başladı. O, 1981-ci il iyun ayının 11-i şəhid Abbas Fərhan Əsədi ilə birgə, İran-İraq müharibəsinin rəsmən başlanmasından öncə, Şələmçə sərhəddində İraq BƏƏS rejiminin döyüşçüləri ilə qarşdurma zamanı şəhid olmuşdu. Şəhid Musa Bəxtavər, vəsiyyətnaməsinə əsasən Abadan şəhərinin "Xızır peyğəmbər" qəbristanlığında atasının qəbrinin kənarında torpağa tapşırılmışdı.

mənə tərəf çevrilib dedi: “Zənnimcə, onlar ölkəmizdə yaranmış vəziyyətdən sui-istifadə etmək istəyirlər. İraqlılar həmişə Xürrəmşəhr və Abadanı ələ keçirmək iddiasında olublar. Bu torpağın altında nə qədər neft olduğunu yaxşı bilirlər. Ordumuzun zəifləyib, parçalandığını düşünürlər. Daha xəbərləri yoxdur ki, biz heç kimə torpağımızı ələ keçirməyə icazə verməik”. Sonra tələsik otağın qapısına tərəf gedərək dedi: “Nəsrin can, mən bu gecə getməliyəm. Hamımız döyüşə hazır vəziyyətdə olmalıyıq. Bəlkə, bir neçə gün evə gələ bilmədim. Sözlərimi ilk növbədə atama, sonra isə yavaş-yavaş evdəkilərə çatdır. Gecələr çox səs-küy ola bilər, qorxmayın. Fikriniz Fatimədə olsun”. Fatimə yeddi aylıq hamilə idi. Bəhmənin nə demək istədiyini başa düşürdüm. O, vidalaşıb gedəndən sonra, ağlıma gələn müxtəlif bəhanələrlə evdəkiləri sakitləşdirdim. Amma məsələnin əslində nə yerdə olduğunu axşam qaynatamla qaynanama danışdım. Bəhmən bir neçə gecə evə gəlmədi. Bir gün həyəti yuyurduq ki, kimsə qapını döydü. Qapıya yaxınlaşıb soruşdum: “Kimdir?” Qapının arxasında dayanan adam dedi: “Bacı, zəhmət olmasa qapını aç”. Qaynanam hər şeyə fikir verirdi. Eyvandan məni səslədi: “Nəsrin can!" Sonra işarə ilə bildirdi ki, çadramı geyinim.

Çadramı başıma ataraq, tələsik qapını açdım. Gələn, Bəhmənə bənzəyən, ucaboy, qıvrımsaç və qarabuğdayi bir gənc idi. Yaşı iyirmidən artıq olmazdı. Mənə bir məktub uzatdı. Başını aşağı salıb həyətin mozaik döşəməsinə baxırdı.

Bu məktubu Bəhmən göndərib. Həyat yoldaşına çatdırmağımı tapşırıb. Məktubu alıb soruşdum: “Bəhmən necədir? Mən onun həyat yoldaşıyam”.

Başını qaldırmadan, gülümsəyərək dedi: “Şükür Allaha, yaxşıdır. Sizə salam çatdırdı. Sabah gəlib məktubun cavabını alacağam”.

Bu vaxt motosikletdə əyləşib dostunu gözləyən ikinci cavan oğlanı gördüm. Hər şeyə görə təşəkkür edib sağollaşdım. Qapını bağlayan kimi, qaz verib sürətlə uzaqlaşan motosikletin səsi həyəti bürüdü.

Məktubu qapının ağzında açdım. Qaynanam soruşdu: “Nəsrin can, kim gəlmişdi?" Cavab verdim: “Bəhmənin dostu məktub gətirmişdi”. Qaynanam heç nə demədən, ipdəki paltarları yığıb otağa getdi. Hava isti və rütubətli idi. Adamın nəfəsi kəsilirdi. Birdən yadıma düşdü ki, su şlanqı əlimdən yerə düşüb və içindən fəvvarə kimi axan su axıb gedirdi. Kranı bağlayıb yuxarı qaçdım.

Bəhmən məktubunda salam-duadan sonra mənim üçün darıxdığını yazmışdı. Əlavə etmişdi ki, səbirli ol, müharibə yaxın günlərdə sona çatacaq. Evdəkilərlə mehriban rəftar et, əmmarə nəfsinə hakim ol. Vaxtını boş yerə keçirmə. Mənim və İsmayıl dayının gətirdiyi kitabları oxu”.

Məktubu oxuyandan sonra əmmarə nəfsin nə olduğunu və ona necə olacağım barədə düşünməyə başladım. Nəhayət, kağız-qələm götürüb, Bəhmənə eşq məktubu yazdım. Sonda əlavə etdim ki, əmmarə nəfsinin nə olduğunu bilmirəm. Mümkünsə, bu kəlmələrin mənasını mənim üçün açıqlasın.

Bəhmən bir neçə gündən sonra qayıtdı. Mənim üçün hədiyyə olaraq, bir kitab gətirmişdi. Bu, Əli Şəriətinin yazdığı "Fatimə Fatimədir" kitabı idi. O, mənə bir şüşə "Viver" ətri uzadaraq, dedi: “Peyğəmbərdən (s) bir hədis var. O həzrət hədisdə buyurur ki, sizin dünyanızdan bəyəndiyim yalnız üç şeydir: “Qadın, ətir və namaz”. Bunu deyib gülən zaman ağzındakı səliqəli ağ dişləri göründü. Doyunca güləndən sonra əlavə etdi: “Vallah, mən də bu üç şeyə aşıq olmuşam: Nəsrin xanıma, ətirə və namaza”.

Öz otağımızda əyləşmişdik. Neçə gündən sonra ilk dəfə idi ki, bir-birimizi görürdük.

Onu görmədiyim bir neçə gün ərzində qayınarvadlarımla sözləşdiyimdən, çox dilxor idim. Aramızda baş vermiş söz-söhbəti Bəhmənə danışmağa başladım. Eşitdiyim bütün acı sözləri, bacardığım qədər xatırlamağa çalışıb ona danışdım. Etinasız halda baxıb dedi: "Sənə tapşırdığım kitabları oxumusan?" Tərsliyim tutdu. Dedim: "Bəhmən, bir gör mən sənə nə deyirəm, sənsə mənə nə cavab verirsən". Bəhmən çox ciddi halda, qətiyyətlə dedi: "Sözümə qulaq asmamısan. Bu müddət ərzində hansı kitabları oxumusan?" Kitab oxumamışdım. Bəhmən yenə dilləndi: "Sənə tapşırmışdım ki, Əlirzadan, ya da Röyadan "Hilyət-əl-mottəqin" kitabını alıb oxuyasan. O kitabı oxusaydın, heç vaxt qeybət etməzdin. Eybi yoxdur, hələ irəlidə çox vaxtımız var. Həmin kitabı mütləq oxu. Bir vaxt kiminsə arxasınca danışmaq istəsən, onun öldüyünü düşün, sən isə bu zaman əlində bıçaq tutub, onun başının üstündə oturmusan və ətini qoparıb yeyirsən".

Dediklərindən çimçəşdim. Üzümü Bəhmənə tutub dedim: “Vay! Bu nə sözdür danışıran?! Ürəyim bulandı”. Bəhmən bu mübahisədə qalib gəldiyinə görə dedi: “Qeybətin həqiqi mənası budur. Vilayətə etiqadı olan insan heç vaxt qeybət etmir".

Məni gülmək tutdu. Çünki, "Vilayət" kəlməsinin nə demək olduğunu da bilmirdim. Bu kəlməni eşidəndə həzrət Əli (ə) və Qədir-Xum hadisəsini xatırlayırdım. Bəhmən yanımda əyləşib, bu barədə bilməli olduğum hər şeyi səbr və hövsələ ilə mənə izah etdi.

# Altıncı fəsil

Axşamüstü idi. Damın üstündə dayanıb, ətrafa tamaşa edərək, evlərin arasında anamın evini tapmağa çalışırdım. Havadan iztirab və vəhşət qoxusu gəlirdi. Axşam düşdüyünə baxmayaraq, hələ də boğucu bürkü vardı. Uzaqda atışma səsləri eşidilirdi. Şələmçəyə tərəf döndüm. Bəhmənin söylədiyinə görə, Şələmçə ən qızğın döyüşlərin getdiyi bir yer idi. Süpürgəni götürdüm və əlimdəki aftafanın suyu ilə damı süpürüb yudum. Heç bir dəqiqə keçməmiş, aftafanın suyu ilə damın üstündə çəkdiyim yaş ziqzaqlar gözdən itdi və nəmişlik iyi çayla lehmənin iyinə qarışdı. Palazları yerə sərib yorğan- döşəkləri saldım ki, sərinləsin. Döşəklərdən birinin üstünə uzanıb, hələ də işıqlı olan mavi səmaya göz dikdim.

Fatimə bir neçə gün bundan öncə bir oğlan uşağı dünyaya gətirmişdi. Adı İman olan bu uşaq səhərdən axşama qədər ağlayırdı. Artıq neçə gecə idi ki, onun səsindən yata bilmirdik. Bu axşam qaynanamın tapşırığına uyğun olaraq, hamımız damda yatmalı idik ki, səhər tezdən şən və qıvraq halda yuxudan ayılıb işlərimizi görə bilək. Qaynanamın özü isə Fatimə ilə

birgə evdə qalacaqdı. O, ziyafət vermək fikrinə düşmüşdü. Gözləyirdi ki, vəziyyət bir qədər sakitləşsin. Hələ ki, heç kim o qarışıqlıqda Fatimənin halını soruşmağa gəlməmişdi. Dünən axşam Şəhriyarın toyu olduğuna baxmayaraq, Fatiməyə görə heç birimiz getmədik. Amma anam, bibi və kişilərdən bir neçəsi toyda iştirak etmişdi. Toy sahibləri atışma və partlayış səslərinin qorxusundan, mərasimi sadə keçirəcəklərini demişdilər.

Bir neçə güclü partlayış səsi məni yerimdən qaldırdı. Tez ətrafıma nəzər saldım ki, bəlkə tüstünün haradan qalxdığını görə bilim. Amma heç nə məlum deyildi. Birinci mərtəbədəki eyvandan qaynanamın səsi gəldi:

-Nəsrin... hardasan? Düş aşağı.

Tələsik birinci mərtəbədəki terasa qədər uzanan dəmir pillələrlə aşağı düşdüm. Qaynanam qorxu içində durmadan təkrar edirdi: “Pillələrin məhəccərindən tut. Ehtiyatlı ol. Yavaş, yıxılarsan!" Terasa qədəm basan kimi, qaynanam məndən tez otağa qaçıb, dedi: “Gir içəri!"

Uzaqda eşidilən partlayış səsləri evi bir daha silkələdi. Hamı Fatimənin yatağının ətrafında dövrə vurub əyləşmişdi. Biri şərbət dolu stəkanı Fatimənin dodaqlarına yaxınlaşdırmış, o biri isə çiyinlərini ovuşdururdu. Mitra İmanı qucağında tutub, otaq boyu gəzdirirdi. Kişilərdən heç biri evdə deyildi. Fatimə məni görcək qorxa-qorxa soruşdu: “Nəsrin, nə baş verir? Bu gurultu nəyin səsi idi?" Çiyinlərimi çəkib dedim: “Bilmirəm. Dəqiq heç nə məlum deyil”.

Qaynanam mətbəxə keçib mənə işarə etdi ki, arxasınca gəlim. Stəkana bir neçə tikə qənd salıb, üzərinə çaydandan qaynar su əlavə edib qarışdırdı. Stəkanı mənə uzadıb dedi:

-Al iç ki, cana gələsən, qızım. Üzünün rəngi qaçıb.

Mənə heç nə olmamışdı. Amma bununla belə, stəkanı aldım. Qaynanam boş yerə mətbəxdə gəzib dolanırdı. Gah boşqabı qab yuyanın içinə qoyur, gah da soyuducunun qapısını açaraq, öz-özünə dodaqaltı deyirdi:

-Sabah səhər tezdən Fatiməni gərək Abadana, anasının evinə göndərim. Orada əmin amanlıqdır.

Səs-küy hələ də azalmamışdı. Şam yeməyini yedik. Kişiləri nə qədər gözlədiksə, kimsə gəlib çıxmadı. Yavaşca, bir-bir yerimizdən qalxaraq, dama çıxdıq. Kondisionerin altında yatmaq istəyimiz yox idi. Hamımız yataqda uzanmışdıq. Bir-birimizlə danışmırdıq. Sabahısı gün sentyabrın on beşi idi. Səidlə Həmidi düşünürdüm. Onlara ürəyim yanırdı. Şükürlər olsun ki, babamla Mahmud dayım evdə idi. Anamı düşünürdüm. Öz-özümə deyirdim ki, kaş bu axşam evimizə gedərdim. Yuxum gəlmirdi. Nəğmə heç nədən qorxmurdu, amma Səidlə Həmiddən nigaran idim.

Gecə saat 12-ni keçmişdi. Qulağımıza qəribə səslər gəlməyə başladı. Bu səslər müharibə filmlərində gördüyüm tank təkərlərinin səsinə bənzəyirdi. Yataqdan qalxıb oturdum.

Şəhər sakitlik və qaranlıq içində uyuyurdu. Həmişəki gecələrdən fərqli olaraq, bu gecə limanı və çayı nurlandıran çıraqların rəngli işıqları gözə

dəymirdi. Röya hamıdan əvvəl qalxıb, ayaq üstə dayanaraq dedi: “Canım üçün, iraqlılar hücuma keçiblər. Bu, tankların səsidir. Orda... Qulaq asın... Səs Şələmçə tərəfdən gəlir”. Sonra ayağa qalxıb pillələrə tərəf qaçdı. Mən, Siddiqə xala, Mitra, Rəna və bir neçə aylıq hamilə olan Həlimə də onun ardınca qaçdıq. Biz pillələrdən düşüb terasa çatana qədər bir neçə şiddətli partlayış şəhəri sarsıtdı. Sonra isə hava hücumundan müdafiə qüvvələri yaylım atəşinə başladı və bu atışmanın işığı həyətimizi işıqlandırdı. Qorxu içində otağa qaçdım. Qaynanam məni qucaqladı. Hamımız qorxmuş halda onun kənarında əyləşdik.

Fatimə ilə İman yuxudan ayılmışdılar. Qaynanam dedi: “Vay, ay Allah özün kömək ol!" Sonra qalxıb pərdələri çəkərək iztirabla dedi: “Bəs bu kişilər harda qaldılar? Bizi heç düşünmürlər?" Heç kim dillənmədi. Bu dəfə də özü sözə başladı: “İnşallah, bir şey baş verməz. Sabah səhər hər şey yoluna düşəcək”. Sonra mətbəxə keçib əlində çay sinisi ilə qayıtdı.

İşıqlar söndü. Qaranlıqda heç birimiz çay stəkanlarına əl uzatmadıq. Ardıcıl olaraq, partlayış səsləri eşidilirdi, biz isə nə baş verdiyindən xəbərsiz idik. Anamla ailə üzvlərimin fikri məni rahat buraxmırdı.

Səhər açılan kimi, çadramı başıma atıb evimizə qaçdım. Yaxşı ki, anamın evi yaxınlıqda yerləşirdi. Küçə və xiyabanlar başqa bir görkəm almışdı. Camaat qorxu içində o tərəf-bu tərəfə qaçışırdı. Sübhün təmiz havasında barıtla torpaq qoxusu hiss olunurdu. Xiyabanda bir neçə maşın sürətlə şütüyüb keçdi.

Sentyabrın on beşi olmasına baxmayaraq, bayıra bir nəfər də olsun məktəb şagirdi gözə dəymirdi. Həyətə daxil olan kimi, yaxınlıqda baş verən bir neçə şiddətli partlayışın dalğası məni hovuza tərəf atdı. Həyətdən isti külək keçdi, sonra isə hər yer tüstü və toz-torpağa büründü. "Ana" - qışqırdım və birinci mərtəbədə yerləşən otaqlara tərəf qaçdım. Anamla Nəğmə, Səid və Həmid sıxlaşıb, bir-birinə yaxın oturmuşdular. Məni görcək, sevinib bir-birlərindən ayrıldılar. Anam əlimdən tutdu. Heç birimiz nə baş verdiyini bilmirdik. Ağzım sanki qıfıllanmışdı. Hələ də şüşələri silkələyən partlayış səslərinin eşidildiyi bir vaxtda, birdən gözüm bibiyə sataşdı. O, bir küncdə büzüşüb oturmuş və əlindəki təsbehi çevirərək, dənələrinin sayı qədər salavat göndərirdi. Səidlə Həmidin hər ikisinin üzü solğun idi. Səhər yeməyi yeməmişdik. Partlayışların ardı-arası kəsilmirdi. Buna baxmayaraq, onlara çay dəmləmək üçün ayağa qalxdım.

Çaydanı kranın altına qoyub suyu açdım. Krandan xırıltı səsi gəldi, borulardan su əvəzinə hava püskürməyə başladı. Anam təəccüblə baxıb dedi: "Su də kəsilib?!

Anamdan babamın və Mahmud dayımın halını soruşanda belə cavab verdi: "Hər ikisi dünəndən came məscidinə gediblər". Anama demişdilər ki, kişilər, ələlxüsus cavanlar əsgər geyimi geyinərək, məsciddə müxtəlif silah növlərindən istifadə qaydalarını öyrənirlər. Gün ortaya yaxın səs-küy bir az yatdı. Özümüzdə cəsarət tapıb küçəyə çıxa bildik. Qonşularımızın əksəriyyəti bir neçə gündən sonra vəziyyətin dəyişəcəyi, özlərininsə qayıda biləcəkləri

ümidilə, evlərinin qapısını qıfıllayıb getmişdilər. Məktəbim və sinif yoldaşlarım üçün çox darıxmışdım. Səhərlər bir-birimizi küçə qapısının qarşısında gözləyərdik. Yol boyu hərəkət etdikcə, sayımız get-gedə artar, nəhayət, qızlardan ibarət bir alay təşkil edərək məktəbə çatardıq.

Qonşularımızdan biri ilə söhbət etməyə başladıq. Xəbər verib, xəbər alırdıq. O, deyirdi ki, bu allahsızlar səhər tezdən Fərhadın anasının evini topla vurublar.

Fərhadın anasının adını eşidəndə, küçə başıma fırlandı. Evlərinə tərəf qaçdım. Onun dörd qarabuğdayı qızı vardı. Yeganə oğlu olan Fərhad isə Hindistana getmişdi. Tibb universitetinin tələbəsi idi. Oradan anası üçün hind geyimləri göndərirdi; al-əlvan rəngli uzun, yüngül pambıq köynəklər, kətan şalvarlar, makiyaj vasitələri və s. Fərhadın anası səhər tezdən boğçasını başına qoyub, Səfa bazarına gedərdi. Gətirdiyi malları xiyabanın kənarında satıb bu yolla ailəsi üçün çörək pulu qazanardı. Onların evi məktəb yolunun üstündə yerləşdiyindən, o dörd bacı da bizim "məktəb alayı"nın üzvləri idilər.

Küçə adamla dolu idi. Fərhadgilin evi dükanlardan birinin üstündə yerləşən bir otaqdan ibarət idi. Evi uzaqdan görə bilmədim, yeri boş idi, ağızda çəkilən dişlərdən birinin boş qalmış yeri kimi. Ev də, dükan da yerlə yeksan olmuşdu. Camaat xarabalığın kənarında dayanmışdı. Fərhadın anası torpağın üstünə sərilmişdi. O, saçlarını yolur, qışqırıb, fəryad edirdi. Bir-bir qızlarının adını çəkirdi. Qonşular onun ətrafına yığılmışdılar. O isə dayanmadan ah-nalə edirdi: “Axı mən qardaşınıza nə deyəcəyəm? İlahi!

Fərhada kim cavab verəcək? Nə deyim? Deyim ki, bacıların uçmuş evin dağıntıları altında qalıblar? Ay Allah! Mən bu müsibətə necə davam gətirim? Nə biri, nə ikisi, nə üçü, dördü də birdən! İlahi! Bu dörd balanın ölümü ilə sinəmə dağ çəkdin!"

Özümdən asılı olmayaraq, gözlərimdən yaş axmağa başladı. Zavallı qadın şüvən qopararaq, üz-gözünü cırmaqlayırdı. Bu arıq və qarabuğdayı qızların görüntüsü hələ də gözlərimin önündə idi. Qonşular onun əllərini tutdular ki, özünü bundan artıq vurmasın. Amma o, başını torpaq yığınlarına vurmağa başladı. Qadınlardan biri irəli gəlib dedi: "Ay ana, başını yerə vurmağın əvəzinə, qalx xəstəxanaya gedək. Qızlarının dördünün də dağıntılar altından necə çıxarıldıqlarını öz gözlərimlə görmüşəm. Allah eləməmiş, kim dedi ki, həlak olublar? Bəlkə sağdırlar!"

Qonşuların köməyi ilə o qadını maşına əyləşdirib xəstəxanaya apardılar. Onun satdıq mallarla dolu olan qırmızı dama-dama boğçası torpağın üstündə düşüb qalmışdı.

Həmin gün axşamüstü, Bəhməni görmək ümidi ilə evə qayıtdım. Qaynanam Fatiməni Abadana göndərmişdi. Həlimə tez-tez ögüyürdü. Qaynanam əsəbi halda dedi: "Əvvəl öz qızıma tapşırıram, sonra sizə; hələlik uşaq-muşaq sahibi olmaq fikrindən daşının. Görək başımıza nə gəlir! Bu qarışıqlıqda özümüz sağ qalsaq, böyük işdir". Bunları deyib mənə baxdı. Gözlərinin dərinliklərində mənə verdiyi sualı aydın oxumaq olurdu: "Bəs sən necə, yəqin ki, sən də hamiləsən". Ona göz-qaşla cavab verdim ki, yox!

Rahat nəfəs alaraq Həliməyə dedi: “Həlimə can, diklərimdən narahat olma, hansı vəziyyətdə olduğumuzu özün də yaxşı görürsən".

Siddiqə xalam həmin gün came məscidinə getmişdi. Axşamüstü evə qayıdarkən, bizim üçün yeni xəbərlər gətirmişdi. Deyirdi ki, səmimi rəfiqəsi, Müjdə Ombaşının[1] döyüşçü qardaşların köməyinə getdiyini görüb. Xalam həmçinin əlavə etdi ki, hələlik bir neçə nəfərdən başqa, heç kimdə silah olmadığından, onlar "Molotov kokteyli"[2] hazırlayırdılar. Müjdə də bu işlə məşğuldur, amma suyun və elektrik enerjisinin olmaması işi çətinləşdirir.

Bir həftə bundan öncə, Siddiqə xalamla birgə icarə etdiyimiz evi xatırladım. İki mərtəbəli həyət evi idi. Onlar aşağı mərtəbədə, biz isə yuxarı mərtəbədə yerləşəcəkdik. Bazara gedib bəzi çatışmayan ev əşyalarını almaq istəyirdik. Necə də gözəl arzularımız vardı! Mətbəxin pərdəsi istədiyimiz kimi olmalı, qonaq otaqlarına isə eyni tərzdə pərdə tikdirəcəkdik. Həyətimiz üçün Berim və Bəvardəh məntəqəsinin evlərində olduğu kimi, mənim bəyəndiyim ağ rəngli, metal mebel dəsti almaq istəyirdik.

---

[1] Müjdə Ombaşı oktyabrın on altısında üçü yaralı olmaqla, yeddi sərnişinlə birgə mavi rəngli "Simurğ" markalı maşına əyləşərək, Xürrəmşəhrin "Mehr" xəstəxanasına tərəf hərəkət edən zaman iraqlı döyüşçülərin hücumuna məruz qalmışdı. Sürücü Məhəmməd Mübariz hadisə yerində şəhid olmuşdu. Bir qədər sonra düşmən maşını qumbara ilə vuranda, Müjdə yaralanaraq huşunu itirmişdi. Amma iki saatdan sonra özünə gələrək, sərnişinlərdən beşi şəhid olduğu halda, möcüzəli şəkildə xilas ola bilmişdi.

[2] Kustar üsulla hazırlanması mümükün olan, partlayıcı yanar şüşə.

Həmin gecə də elektrik enerjisi kəsilmişdi, ardı-arası kəsilməyən partlayışlar isə evi silkələyirdi. Sanki, bizdən başqa ətrafdakı bütün evləri dağıtmışdılar. Səhərə qədər heç birimizin gözünə yuxu getmədi. Ailə üzvlərimi düşünürdüm. Yatağımda uzanıb fikirləşirdim ki, Allah eləməsin bu atılan mərmilərdən, toplardan, ya da qumbaralardan biri evimizə dəyib, anamla Nəğməni, Səid və Həmidi dağıntıların altında qoymaya! O qədər nigaran idim ki, səhər açılan kimi, çadranı başıma ataraq, əynimdəki ev paltarı ilə evimizə qaçdım. Şəhəri vahimə bürümüşdü. Hər tərəfdən atışma səsləri gəlirdi. Havada barıtla torpaq qoxusu hiss olunurdu. Sürətlə qaçmağa davam edirdim, yeganə arzum tez bir zamanda evimizə çatmaq idi. Düşünürdüm ki, evimiz Fərhadın anasının evi kimi dağılsa, haranın külünü başıma töküm?! Bu fikirlərdən sonra, qorxudan ürəyim əsirdi. Belə davam etsəydi, qəlbim daha bu sürətlə döyünməyə davam gətirməyəcəkdi. Xiyaban tamamilə bomboş idi. Üzbəüzdə motosikletə minmiş iki cavan gördüm. Sürücünün arxasında əyləşmiş gəncin əlində silah var idi. Qaçsaydım, çadra başımdan sürüşə bilərdi. Əlində silah olan cavan mənə yaxınlaşanda əsəbi halda qışqırdı: "Bacı, hara gedirsən? İraqlılar artıq şəhərin girəcəyindədirlər. Bu yolla qayıdıb, necə olursa-olsun, özünü Abadana çatdır".

Qorxudan az qala öləcəkdim. Bu sözləri eşidəndən sonra sanki ayaqlarımın gücü min bərabər artdı. Uşaqlıq illərində keçirdiyimiz qaçış müsabiqələrini xatırladım. Sanki, motosikletin sürətindən də yüksək

sürətlə qaçırdım. Nəhayət, uzaqdan anamın evi göründü. Yerində idi, dağılmamışdı. Rahat nəfəs ala bildim. Küçə qapısı açıq idi, həyətin pərdəsini kənara çəkdim. Artıq, gücüm tükənmişdi. Təngənəfəs halda qışqırırdım: "Ana!"

Nəğmə otağın qapısını açdı. Qarışıqlıq düşəndən bəri onlar aşağı mərtəbəyə köçmüşdülər. Nəğmədən soruşdum: “Anam hardadır?"

Anamın bir adəti vardı: Hər gün səhər yeməyi üçün özlərinə və babamgilə təzə çörəklə camış südü alardı. Nəğmə, anamızın bir saatdır ki, getdiyi barədə söhbət edərkən, gözlənilmədən partlayış səsi evi silkələdi. Sanki, bomba evin damına düşmüşdü. Həyət tüstü və toz-torpaqla doldu. Göz-gözü görmürdü. Ayılanda gördüm ki, bir an bundan öncə qapıda dayandığıma baxmayaraq, indi hovuzun kənarındakı daşların üstünə üzüqoylu sərilmişəm. Səidlə Həmidin səsi qulağımda cingildəyirdi: “Nənin... Nənin..."

Həmid kiçik olanda, məni "Nəsrin" deyə çağıra bilmirdi. O, artıq böyümüşdü, amma mənim adım eləcə "Nənin" olaraq, qalırdı.

Ana - deyə nalə çəkdim. Qalxmağa taqətim yox idi. Küçədən qışqırıq səslər və "Ya Hüseyn... ya Hüseyn...” nidaları ucalırdı. Bir müddətdən sonra qalxıb yerimdə əyləşdim. Ətrafım hələ də toz-torpaqla dolu idi. Heç yeri görə bilmirdim. Barıt qoxusu boğazımı yandırırdı. Nə Nəğmənin, nə də babayla bibinin səsi eşidilmirdi. Hər nə edirdimsə, nə öz evimizi, nə də babamın evini görə bilmirdim. Bir neçə dəqiqə keçdi. Hava isti idi. Boğazıma toz-torpaq dolmuşdu. Arxadan səs eşitdim. Yenidən qalxıb

yerimdə əyləşdim. Toz-torpağa bulaşmış, çadralı bir qadın əlində çörək tutaraq, səndəliyə-səndəliyə irəli gəlirdi. Mənim yanıma çatanda, yerə yıxıldı. Bu, anam idi. Aldığı çörək əlindən yerə düşdü. Onu bağrıma basıb yalvarmağa başladım: “Ana, anacan, sənə qurban olum, yaxşısan? Salamatsan?" Ağlaya ağlaya danışmağa başladı: “Ana qurban, çörək alandan sonra Hacı ağanın[1] dükanına getmək istəyirdim ki, bir də gördüm göydən yerə od yağır. Axırda da bomba dükanın üstünə düşdü. Hər şey yerlə yeksan oldu. Dost-doğmalarımızın cansız bədənləri yerə sərilmişdi. Gözlərimə toz-torpaq dolmuşdu. Heç yeri görmürdüm. Elə bu vəziyyətdə yavaş-yavaş evə gəlib çatdım. Anan qurban , yanmış bədənlərin qoxusu hələ də burnumdan getməyib”.

Başım gicəllənirdi. Yerimdən qalxa bilmirdim. Partlayış dalğası məni vurmuşdu. Hətta danışmağa belə taqətim yox idi. Nəğmə başımızın üstündə dayanmışdı. Onun halı bizim ikimizdən də yaxşı idi. Çətinliklə dedim: “Nəğmə, anaya su gətir”.

İki-üç saat keçdi. Halımız bir qədər yaxşılaşmışdı ki, yenidən səs-küy qopdu. Həyətdə olan Səidin arxasınca qaçdıq. Qorxudan qışqırırdım: “Səid!" Damın üstündən səs gəldi: “Qorxmayın, burada bizimlədir”.

Həyətə çıxdıq. Babam, Mahmud dayımın binoklunu əlində tutaraq damda dayanmışdı. Şəhərin hansı məntəqəsinin bombardman edildiyinə baxırdı. Səid də onun kənarında dayanıb, köynəyini dartaraq

---

[1] Şəhid Cahanaranın qayınatası

binoklu babamdan almağa çalışırdı. Anam bu səhnəni görəndə, əli ilə başına dizinə vuraraq qışqırdı: “Vay! Düşün aşağı, tez olun! Səni and verirəm İsmayılın canına, bütün əzizlərinin canına, düşün aşağı. İndi top-tüfənglə vurub, tikə-tikə edərlər sizi”. Babam etinasız şəkildə dedi: "Qorxma, heç nə olmaz”. Anam çadrasını belinə bağlayıb sürətlə nərdivanla yuxarı qalxdı. O, əvvəl Səidi, sonra isə babamı aşağı göndərdi.

Səhərdən, həmin hadisə baş verən andan bəri şoka düşmüşdüm və özümdən asılı olmayaraq, yersiz ağlayırdım. Nəğmə isə nə ağlayır, nə nigarançılıq çəkir, nə də qorxurdu. Sanki, kino-teatrda əyləşib maraqlı bir filmə baxırdı. Bəzən də tam soyuqqanlıqla "artıq müharibə başlandı" – deyə hamının bağrını yarırdı. Növbəti dəfə anam bu cümləni eşidəndə ona acıqlandı: “Ay qız, səsini kəs, lal ol! Allah eləməsin. Dilin qurusun. Sentyabr ayının iyirmisi başımıza nə müsibət gəldiyini bilmirsən! Mən orada idim, baş verənləri də görmüşdüm. Allah eləməsin ki, yenidən müharibə başlasın. Vay, anan qurban! Müharibə özü ilə qıtlıq və xəstəlik gətirir”.

Həyətdəki taxtda əyləşib həyatım və Bəhmən üçün narahat olduğumdan ağlayırdım. Anam səhərdən bəri məni sakitləşdirməyə çalışsa da, istədiyinə nail olmadığını görüb acıqlandı: "Nə olub sənə? Niyə səhər tezdən oturub gözünün qorasını tökürsən? Əzizlərimizin bədənləri, şux qamətləri od-alov altında qalıb, sənsə burda əyləşib güzgü-şamdanların, cehizin və zümrüdlərlə bəzənmiş qızıl dəstin üçün ağlayırsan! Qalx ayağa, özünü ələ al”. Sonra qəzəblə üzünü

çevirib otağa getdi. Qəlbim qırıldı. Atamın ölüm xəbərini gətirdikləri anda keçirdiyim üzücü hisslərimə qayıtdım. Bu dəfə hönkürtü ilə ağlamağa başladım. Anam əlində kəfgir, geri qayıtdı. O biri əlini isə belinə dayamışdı. Mənimlə üzbəüz dayanıb, kəfgiri üzümün qarşısında, havada yellədə-yellədə dedi: "Nədir, yoxsa, geyimlərin, dəbdəbəli qaz sobası, ya da soyuducun üçün ürəyin darıxıb? Daha bəsdir, baş beynim getdi. Qalx ayağa, pisniyyət... Ağlamaq istəyirsənsə, get öz evində ağla. Hələlik gərək bu vəziyyətə dözəsən. Həyat belədir, enişli-yoxuşludur. Kişilərimiz od-alov altında qalıb. Bayquş kimi vay-vay etmə.

Sonra mənim yanımdan keçib gedərək, həyətin pərdəsini qəzəblə kənara çəkdi, darvazanı taybatay açdı və bir neçə qadınla uşağı küçədən içəri gətirərək, həyətdəki taxtlarda yerləşdirdi. Bir qədər mülayimləşərək üzünü mənə tutub dedi: “Ana qurban, qalx ayağa. Bu Allah bəndələri əzizlərini axtarmağa gəliblər. Səhər yeməyi yeməyiblər. Qalx, samovara od sal. Bir loğma çörək gətir yesinlər”. Anam bütün əşyalarımızı bir otağa yığmışdı; qaz sobası, bir neçə boşqab, qaşıq, çaydan və qazan.

Çaydanın altını yandırdım. Nəğmə telefonla Füruzanla danışırdı. Səhər yeməyini hazırlaya-hazırlaya ona qulaq asırdım. Füruzan üçüncü uşağını dünyaya gətirməkdən ötrü novruzda Xürrəmşəhrə gəlmiş, artıq bir ay idi Şiraza qayıtmışdı. Bizə görə narahat idi. Nəğmə özünəməxsus laqeydliklə deyirdi: "Yox, buralarda vəziyyət yaxşıdır. Hamımız yaxşıyıq.

Şiraza nə üçün gələk ki?! Sabah-birigün məktəblər açılacaq. Mənim işim var, gərək məktəbə gedim".

Səhər yeməyini çarpayının üstünə qoydum. Ərəb qadının yanındakı iki uşaq cumub çörəkləri sinidən götürdülər. Yenə otağa qayıtdım. Kondisioner yanmasa da, otağın havası bayırdan sərin idi. Yenə telefon çaldı. Qaçıb Nəğmədən tez dəstəyi götürdüm. Yenə Füruzan idi, ağlayırdı.

- Nəsrin, deyirlər ki, Xürrəmşəhr yerlə-yeksan olunub. Sən Allah, qalxın gəlin Şiraza. Niyə bombanın altında oturmusuz?! Biz narahatlıqdan ölürük. Niyə zəng vurmursuz?

- Kişilər sərhədə, Şələmçənin yaxınlığına gediblər. İraqlılar şəhərə girmək istəyirlər. Deyirlər ki, Həmid zastavasını tutmuş, Süsəngirdə çatmışlar. Bizi gətirməyə heç kim yoxdur. Bilmirik ki, nə edək. Gəlməyə maşın da yoxdur.

Füruzan xəttin o tərəfində ağlayırdı, mən bu tərəfində.

– Ağa Rza ilə Əhməd ağa axşam sizdən ötrü oraya yola düşüblər. Sən Allah, qalxın, gedin Abadana. Deyirlər ki, Xürrəmşəhrdə qalmaq təhlükəlidir. İndiyə Abadana çatmış olarlar.

Sağollaşandan sonra Füruzanın dediklərini anama söyləmək üçün həyətə çıxdım. Siddiqə xala gəlmişdi. Anam ona qulluq edirdi. Soruşdum ki, harada idin? Üz-başı tozlu idi.

– Came məscidində.

– Vəziyyət necədir?

– Pisdir.

– Füruzan Zəng vurmuşdu. Deyir ki, Abadana gedin.

– Hə, düz deyir. Mən də bunu deməyə gəlmişəm. Gərək nə olursa-olsun, elə indicə Abadana gedəsiz.

– Maşınımız yoxdur.

– Piyada gedin... Ancaq gedin.

Anamın qanı qara idi.

– Necə yəni gedin-gedin?! Mən buradan tərpənən deyiləm.

Siddiqə xala sakit idi. Dodağını dişlədi.

– Hə, mən də getmirəm, amma çarə yoxdur. Hər tərəfdən mühasirədəyik. Bəlli deyil ki, indi çatacaqlar, yoxsa bir saatdan sonra. Bu qızlar, uşaqlar yazıqdırlar. Qalmağın mənası yoxdur. Əsirlik var, ölüm var...

Anam başını yellədi.

– Vay-vay! Yəni şəhərimizi beləcə bu kafirlərə verək?!

Siddiqə xala yenə dodağını dişlədi.

– Yox! Yaxşı, biz qalarıq, vuruşarıq, qarşılarını alarıq. Onları şəhərə girməyə qoymarıq, amma qadınlar, uşaqlar yazıqdırlar. Deyirlər ki, Şələmçənin bir neçə kəndinə hücum edib qadınları əsir tutublar, uşaqlarını öldürüblər, kişilərin başlarını kəsiblər, hər yerə od vurublar. Xürrəmşəhrin özündə son bir neçə gündə bilirsizmi nə qədər adam öldürüblər?

Anam sanki razılaşmaq istəyirdi.

– Bəs sən nə etmək istəyirsən?

– Hələlik Rza ilə qalıram.

Anam hirsləndi.

– Vay! Yəni biz göydən düşmüşük, sən yox?! Bu zəhrimar əsirlik sənə aid deyil?!

– Kişilər məni göndərdilər ki, sizə bunları deyim. Tez hazırlaşın. Gərək gedəsiz. Kişiləri və bizi gözləməyin. Lazım olsa, piyada gedəcəksiz. Hərçənd Abadanın vəziyyəti də buradan yaxşı deyil. Orada hər an bombardman olur. Elə dünən günorta çağı mədəniyyət evi bombalandı, iyirmi beş müəllim şəhid oldu. Yazıqlar gələn ilin proqramlarından ötrü iclas keçirirdilər.

Anam bunu eşidib Siddiqə xalanın qolundan tutub və dedi: "Mən belə şeylər anlamıram. Sən də əşyalarını topla, birlikdə gedirik". Siddiqə xala çətinliklə anamın əlindən çıxıb küçəyə qaçdı. Anam ardınca qaçıb onu içəri gətirdi və dedi: "Yaxşı, get, amma belə yox". Anam Siddiqə xalanı otağa apardı. Mən də arxalarınca getdim. Ona pambıq şalvarlarından birini və bir cüt qalın qara corab verib dedi: "Yubkanın altından geyin. Əgər Allah eləməmiş, bir hadisə baş versə, bədənin çılpaq qalmasın". Siddiqə xala şalvarı geyinib corabları üstündən çəkdi. Anam güllü çit çadralarından birini də onun başına atıb belinin ətrafında möhkəm bağladı. Özü həmişə həyəti süpürəndə belə edirdi. Sellofan torbaya bir qədər çörək, pendir və xurma qoyub belinə doladığı çadranın içinə keçirdi. Sonra xalamın alnından öpüb dedi: "Get, Allaha ümidlə!" Siddiqə xala gözüyaşlı bizə baxdı. Anam dedi: "Yox, gözlə". Üzünü mənə tutub dedi ki, get, Quran gətir. Quranı anama verdim. Nəğmə, Səid, Həmid və mən Siddiqə xalanı öpdük. Anam xalamı Quranın altından keçirdi, arxasınca bir kasa su töküb dedi: "İndi get. Allah amanında!"

Siddiqə xala gedəndə hamımızın gözü yaşardı. Anam heç nə olmamış kimi soyuqqanlılıqla dedi: "Gəlin. Gəlin, ağamı çağırın". Getdiyi yerdə dönüb mənə baxdı və dedi: "Qız, qaç, əmin yoldaşına de, gəlsin. De ki, nənəm dedi Abadana Məhəmmədgilə gedirik".

Allah bilir ki, evə qədər yolu necə qorxu və həyəcanla qaçdım. Səkilərin yerinə, kanalların içinə baxmadan qaçırdım. Qorxurdum ki, birdən kəsilmiş bir əl, ayaq, yaxud qanlı bir cəsəd görərəm, nəfəsim kəsilər. Bununla yanaşı, şəhərin necə dəyişdiyini görürdüm. Sanki zəlzələ olmuşdu. Divarlar qəlpə dolu idi. Mağazaların dəmir jalüzləri şişmiş, deşilmişdi. Küçələr toz-torpaq, kərpic qırıqları, elektrik kabelləri, kiçik və böyük qəlpələrlə dolu idi. Mağazalar bağlanmışdı. Küçədə kim vardısa, ya təşvişlə qaçırdı, ya da sürətlə maşınla keçirdi.

Qayınanamgilə çatıb anamın sözlərini çatdırdım, paltarlarımı da dəyişdirdim. Qayınanam ucadan qışqırdı: "Bir dəst ev paltarı, diş pastası və fırça bəsdir. Yükünüzü ağırlaşdırmayın. İnşallah bir-iki günə qayıdırıq".

Bilmirdim ki, Bəhmənə də ev paltarı götürüm, yoxsa yox. Pijama, qısaqol köynək və corab götürdüm. Paltarları tez çantaya yığdım. Sonra fikirləşdim ki, Bəhmən bizimlə gəlmir, bəlkə burada paltarlara daha çox ehtiyacı olar. Onları çantadan çıxardım. Çox sevdiyi ağ qısaqol köynəyini üzümə yaxınlaşdırdım. Onu yalnız bircə dəfə geyinmişdi. Ətrini duyub çox kövrəldim.

Otağa baxdım. Cehizim hələ kiçik və böyük karton qutularda yan-yana düzülmüşdü, qaz sobası hələ açılmamışdı. Yataq dəstini anam çox həvəslə almışdı. Öz-özümə dedim ki, İlahi, yəni bu evə bir də qayıdacağam?!"

Partlayış səsi evi titrətdi. Sanki evin damına eyni vaxtda bir neçə çəllək düşdü və kimsə ağır bir topu divara vurdu".Ya İmam Hüseyn!" – qışqırıb qapıya doğru qaçdım. Fikirləşirdim ki, dam və divarlar başıma uçacaq. Əlimi başıma qoydum. Tavanın suvağı qopub önümə töküldü. Qayınanam qışqırdı: "Nəsrin, qaç!" Pillələri iki-iki qaçaraq aşağı endim.

Qayınanamın rəngi qaçmışdı. Digərləri başlarında çadra həyətdə dayanmışdılar. Başımız üstə uçan təyyarənin səsini eşidirdim. Yaxında idi. Qorxmayıb başımızı qaldırsaydıq, pilotunu da görərdik. Birtəhər küçəyə çıxdıq. Mitra, Rəna, Röya və Həlimənin qışqırtıları və qayınanamın "ya İmam Hüseyn" səsi məni qorxudurdu. Evdən bir qədər uzaqlaşandan sonra bir neçə partlayış səsi yeri titrətdi. Dayanıb baxmadıq. Bütün gücümüzü ayaqlarımızda toplamışdıq. Boğazım qurumuşdu, nəfəs ala bilmirdim. Uzaqdan anamı, babanı, bibini, Nəğməni, Səidi və Həmidi gördüm. Qapının önündə dayanmışdılar. Səidlə Həmid uzaqdan mənə əl yelləyib qışqırdılar: "Nənin... Nənin..." Hələ onlara çatmamış bizə doğru qaçmağa başladılar.

Tüstü, alov və toz-torpaq şəhəri bürümüşdü. Came məscidi tərəfdən atışma səsləri gəlirdi. Prospektdəki xurma ağacının gövdəsinə böyük bir qəlpə dəymişdi. Təzə xurma ağacının yanıq iyi gəlirdi. Qəlpə

gövdəsində qalmışdı. Şəhəri bəzəyən xurma ağaclarının yaşıl yarpaqları qopub əzalı qadınların saçı kimi yolun ortasındakı çəmənliyə tökülmüşdü. Sahil prospekti və çay uzaqdan görünürdü. Anam bibinin əlindən tutub qaçırdı. Ucadan dedi: "Hara qədər bacarırıqsa, piyada gedəcəyik". Qayınanam ləhləyirdi.

- Ağa zəng vurmuşdu. Dedi ki, benzin yoxdur, dua edin, benzin tapım.

Küçə və döngələrlə qaçırdıq, çayın iyi də arxamızca gəlirdi. Bəzi günlər yadıma düşdü; suyun kənarında qələbəlik yaranar, səhərə qədər qarğıdalı, qəhvə, ərəb çayı, falafel, samosa və şirin pambıq bazarı olardı. İndi isə küçənin ortası qarğıdalı qıcaları əvəzinə yanmış xurma yarpaqları ilə dolu idi. Yay gecələrindən ötrü darıxdım; uzun qayıq növbələri, barkas və gəmilərin suya düşən rəngli işıqları, çayın sərinliyi, camaatın şənliyi... Gecənin yarısına qədər estakadanın sement səkiləri üzərində oturub ayaqlarımızı sallayır, günəbaxan tumu çırtlayır, ətrafdan gələn musiqi səslərini dinləyirdik. İndi isə çayın sahilində müsibət idi.

Came məscidinə çatmamış anamın bibisi oğlunu bir maşında gördük. Anamın bibisi, dayısı və dayısı qızı da maşında idi, Abadana gedirdilər. Cəmi bir nəfərə yer vardı, bizsə babanı, bibini, anamı və Səidlə Həmidi mindirdik. Anam çətinliklə minə-minə mənə baxdı, əlimdən tutub məni və Nəğməni öpdü. Qayınanama dedi: "Bu uşaqlar sənə əmanət!" Maşın yola düşəndən sonra pəncərənin şüşəsini aşağı salıb oradan bizə baxmağa başladı. Fikirləşdim ki, birdən

bu, son görüşümüz olar. Uşaqlıqda başına gələnlərə görə anam güclü və möhkəm idi. Öz-özümə dedim ki, bəs nə üçün ağlayıb bizdən nigaran qaldı?

Came məscidində tufan idi. Sanki bütün Xürrəmşəhr əhalisi oraya toplaşmışdı. Gənc oğlanlar hərbi geyimlərdə və ya köynəklərini şalvarlarının üstünə salaraq silahlı və silahsız şəkildə, motosikletlə və piyada halda tələsirdilər. Məscidin önündə çoxlu qadın dayanmışdı. Onların arasında Siddiqə xalanı axtarmağa başladım. Dayanmağa imkan yox idi. Məscidin arxasındakı küçələrdən keçib Xürrəmşəhr körpüsünə çıxmalı, oradan da Abadan magistralına getməli idik.

Bu qarışıqlıqda yenidən başımız üstə təyyarələr peyda oldu. Cavanlar qışqırırdılar: "Uzanın! Sığınacaq tapın!" Ərəb qadınlar uşaqlarını çadra ilə bellərinə bağlamışdılar və bizdən öndə ayaqyalın qaçırdılar. Bəziləri başlarında boğça elə qaçırdılar ki, boğçalar hər an düşə bilərdi. Bir neçə ərəb qadın kiçik və arıq bir qarını xurma budaqlarının üstünə qoyub yerlə sürüyürdülər.

Gözlərim Bəhməni axtarırdı. Sanki bütün gənclər ona bənzəyirdi: arıq bədənlər, uzun boylar, qara cod saçlar, enli kürəklər və şalvar üstünə salınmış köynəklər.

Həlimə ləhləyə-ləhləyə qaçırdı. Birdən prospektin başında bir neçə qrad partladı. Əvvəlcə üzümüzə isti hava dəydi, sonra barıt qoxusu və toz-torpaq boğazımızı göynətdi. Qadın, kişi və uşaqların qışqırtısı bir an da dayanmırdı. Hamımız şok içində, qorxa-qorxa qaçırdıq. Qayınanam öndə gedir və

qışqırırdı: "Bu tərəfdən... Uşaqlar, diqqətiniz bir-birinizdə olsun!"

Kəsə yollarla getdik. Bir neçə qadın və kişi bir uşağın başı üstə oturub ağlayırdılar. Uşağın bütün bədəni dəlinmiş, qırmızı qana boyanmışdı. Gözləri göyə dikilmiş, ağzı açıq qalmışdı. Dörd-beş yaşı olardı. Yerindəcə şəhadətə qovuşmuşdu. Bu səhnəni görüb pis oldum. Divarın kənarında dayanıb uşağa baxır və ağlayırdım. Qayınanam yaxınlaşıb əlimdən tutdu.

- Gözlərini bağla, qız, əlini də mənə ver.

Qaçır və heç bir şey görmürdüm. Yalnız camaatın ah-naləsini və yanımızdan keçən təcili yardım maşınlarının səsini eşidirdim. Xürrəmşəhr körpüsünə çatanda gözlərimi açdım. Suya bir neçə cəsəd düşmüşdü. Gözəl metal nərdələr və dekorativ elektrik dirəkləri sınıb körpüyə və çaya tökülmüşdü. Asfalt topa-topa qopmuşdu, körpünün üstü qışqıraraq qaçan adamlarla dolu idi.

Körpünün üstündə maşın çox deyildi. Buna görə ağa Rzanın maşınını tez gördüm. Sanki bir adaya düşmüş, uzaqdan xilas gəmisini görmüşdük. Əllərimizi havaya qaldırıb hamılıqla qışqırdıq: "Ağa Rza! Ağa Rza!” Bizi görmədi. Xürrəmşəhrə tərəf gedirdi. Yenidən qışqırdıq. Bu vaxt topla körpünü vurdular. Alov və tüstü ilə birgə qışqırtı və fəryadlar da göyə ucaldı. Gözüm Rzada idi. Birdən əyləcə basdı. Həyəcanla ona doğru qaçdıq. Qayınanam maşının qapısını açdı. Ağa Rza şokda idi, heyrətlə bizə baxırdı. Qayınanam maşının qapısının yanında dayandı, salam vermədən Nəğməni, Mitranı, Rənanı,

Röyanı və Həliməni arxaya mindirdi. Bu zaman suda bir neçə qrad partladı, su körpüdən bir neçə metr yuxarı sıçradı. Qeyri-ixtiyari olaraq, başımızı əydik. Qayınanam dedi: "Ağa Rza, sağ ol. Burada qiyamətdir. Əzizlərinin xeyrini görəsən! Siz gedin Məhəmmədgilə, yoldaşını, uşağını, bibini və babanı mindirin, gedin Şiraza. Biz də bir yolla özümüzü sizə çatdırarıq. Həlimədən və Məhəmmədin yoldaşından ehtiyatlı ol. Hər ikisinin yükü şüşədəndir!"

Sonra maşının qapısını bərk bağladı. Ağa Rza heç nə demirdi. İrəli-arxaya verdi, izdihamın arasında çətinliklə dövrə vurub getdi. Qayınanam əlimi tutub dedi: "Qaç, Nəsrin, əclaflar körpünü vurmaq istəyirlər. Əgər buranı vursalar, işimiz bitdi".

Qaça-qaça körpüdən bir qədər aralıda və suda partlayan raketlərin fitini eşidirdim. Körpünü keçəndən sonra rahat nəfəs aldıq. Körpünün o tayındakı xurmalıqlarda və yolun hər iki tərəfində qələbəlik idi. Bir neçə nəfər ölmüş əzizlərinin başı üstə oturub ağlaşırdı. Bir gənc bir qızı belinə götürüb qaçırdı. Qızın üz-başından daman qan yerdə qırmızı iz buraxırdı. Kəndli qadınlar hətta çadralarını örtməyə də macal tapmamışdılar. Başlarına bir karton parçası və ya qəzet atıb vahimə içində qaçırdılar. Biz nə qədər bərk qaçırdıqsa, partlayışlar da çoxalırdı. Sanki düşmənlər bizim getdiyimiz yerləri vururdular. Tez-tez ayaqlarımızın altı silkələnirdi. Hərdən qorxa-qorxa arxama baxır, körpünün hələ vurulmadığına əmin olurdum. Fikirləşirdim ki, körpü partlasa, Xürrəmşəhr və o tayda olan hər bir şey tüstü kimi havaya uçar. Sıx xurmalığın yanından qaçır, uzun yaşıl xurma

ağaclarının arasından tüstü və alov qalxdığını və ətrafdakı quşların uçuşduğunu görürdük. Gözəl xatirələrimizi orada qoyub qaçırdıq. Deyrifarumda təbiət günləri, Karunda qayıq sürmək, Xürrəmşəhrdən Abadana qədər motorlu qayıq səyahəti, çayın kənarında gəzişmək, Münixin hündür xurma ağaclarına çıxmaq yarışı, isti gün və sərin gecələr... İkiyə bölünüb yolun kənarına düşmüş cansız xurma ağaclarına yazığım gəlirdi. Açıq yaşıl rəngli kəkilləri yolun ortasında camaatın ayaqları altında əzilirdi.

Atışma səsləri top və raket partlayışları arasında itirdi. Arxamızda bir maşın dayanmadan siqnal verirdi. Əli əmi idi, bizə işarə verib peykanına minməyimizi söyləyirdi. Əmim oğlu Əlirza öndə oturmuşdu. Minu adasından gəlirdilər. Həlimənin anası, bacısı və qardaşı bizə yer açdılar, çətinliklə maşına sığdıq. Əmi bizi görən kimi soruşdu ki, bəs digərləri haradadırlar. Qayınanam hövsələsiz halda baş verənləri danışdı. Əmi çox narahat idi.

- Benzin yoxdur. Namərdlər bütün yanacaqdoldurma məntəqələrini vurublar. Deyirlər ki, çoxlu şəhərləri bombardman ediblər.

Əlirza narahat halda əlavə etdi: "Xain və vicdansız Bəni-Sədr də millətə silah-sursat vermir. Camaatda vuruşmağa J3 silahı da yoxdur. Axşam Bəhmən özü prezident aparatına zəng vurub dedi ki, silahımız yoxdur, uşaqlarımız əldən gedirlər, dadımıza çatın. Nə vaxta qədər düşmənin qarşısına molotov kokteyli və daşla çıxa bilərik?! Əgər belə davam etsə, iraqlılar sabah-birigün şəhərə girəcəklər".

Bəhmənin adı çəkiləndə rahat nəfəs alıb sağ olduğuna görə Allaha şükür etdim. Halını soruşmaq istəyirdim, amma başımıza gələnlərdən sonra ərinin halını soruşmağa kimin üzü gələrdi?! Əmi güzgüdən mənə baxıb dedi: "Qızım, sən necəsən?" Yavaşca cavab verdim ki, yaxşıyam. Dedi: "Qəm yemə, uşaqlar sağdan-soldan onları öldürürlər". Sonra bir ah çəkib irəli əyildi, hər iki əli ilə sükanı tutub dedi: "Çox şəhid vermişik, amma buna baxmayaraq, heç kim geri çəkilmir, kimin əlindən nə gəlirsə, edir. Qadınlar came məscidinə və xəstəxanalara toplaşıblar. Həqiqətən kömək edirlər; yaralılara baxırlar, qanlı paltarları yuyurlar, yemək bişirirlər... Sağ olsunlar!"

Magistral yol Abadana gedən piyadalar, minik maşınları, ordunun SUV avtomobilləri və təcili yardım maşınları ilə dolu idi. Qatı tüstü şəhəri udmuşdu. Top və raketlərin fit və partlayış səsləri bir an da dayanmırdı. Bizdən öndə sürətlə bir təcili yardım maşını gedirdi. Yəqin ki yaralı aparırdı. Minik avtomobilləri də bacardıqları qədər adam mindirmişdilər. Hətta baqajlar da adamla dolu idi. Mən yola baxırdım. Qayınanam gah Əlirza ilə danışırdı, gah Həlimənin anası ilə, gah əmi ilə. Bəzən də sızlayır, düşmənləri söyürdü.

Birdən yolun ortası partladı, önümüzü görə bilmədik. Əmi əyləcə basmaq yerinə ayağını qaza qoyub irəliləyirdi. Əlirza qışqırdı: "Ata, dayan... Dayan... Nə edirsən?!" Bir neçə təyyarə alçaqdan uçur, camaatı və maşınları atəşə tuturdu. Qayınanam, Həlimənin anası və bəlkə mən də qışqırırdıq: "Ya Allah! Ya Əbəlfəz! Ya Sahibəzzaman!" Əmi isə

sürətlə irəliləyirdi. Əlirza avtomat kimi qışqırırdı: "Ata... Saxla! Saxla!"

Yolun torpaq çiynində çoxlu maşın dayanmışdı. Bir qədər irəlidə təcili yardım maşınını gördük. Yanırdı, kapot, ban və pəncərələrindən alov çıxırdı. Yolun asfaltı topa-topa qopmuş, maşınların gedişini çətinləşdirmişdi. Nəhayət, əmim əyləcə basdı və biz maşından yerə tökülüşdük. Camaat təcili yardım maşınının başına toplaşıb içəridəkiləri çıxarmağa çalışırdı. Deyirdilər ki, bir qadın doğuş halında imiş, təcili yardım maşınında Taliqani xəstəxanasına gedirmiş. Qadın parça-parça olmuş, yerindəcə şəhadətə qovuşmuşdu. Hadisəni yaxından görənlər danışırdılar ki, yazıq qadının qarnı yırtılmış, körpəsi asfaltın üstünə düşmüşdü. Körpə sağ imiş, ağlayırmış. Bu dünyada yalnız bir neçə dəqiqə, bəlkə də bir neçə saniyə qalmış və isti asfalt üstündə can vermişdi.

Heç birimizin halı yaxşı deyildi. Ətrafımızda başqa bir neçə maşın da yanırdı. Deyirdilər ki, içindəkilər kömür kimi olublar. Bir neçə uşaq yolun ortasında ağlaya-ağlaya valideynlərini axtarırdı. Bir kişi gənc bir qızı çiyninə götürüb qaçırdı. Deyəsən, şəhid olmuşdu. Yazıq kişi şokda idi. Digərləri nə qədər qaçırdılarsa da, ona çata bilmirdilər.

Düşmən artilleriyası Xürrəmşəhrlə Abadanı atəşə tuturdu, haranı gəldi vururdu. Top, raket və bomba səsi bir an da kəsilmirdi. Təyyarələr də yuxarıdan camaatın başına raket və bomba tökürdü. Şəhər ayaqlarımız altda titrəyirdi. Neftayırma zavodu yanırdı, göyü qatı tüstü qaraltmışdı. İnsanlar qorxu içində hər bir dəlikdən çıxıb qaçırdılar. Bu səhnələri

görüb ucadan ağlayır və utanmadan Bəhməni çağırırdım. Ətrafımdakı bütün insanlar arasında təkcə ona görə narahat idim. Fikirləşirdim ki, hər an şəhid ola bilər.

Əmi bizi çağırdı. Tez maşına minib Abadana yola düşdük. Başımı əminin oturacağına söykəyib ağlayırdım, bayıra baxa bilmirdim. Qan, ölü, yaralı, alov, dərd və qəm dolu yol baxmalı vəziyyətdə deyildi. Çox tezliklə yaxşı xatirələr şəhərinə çatmaq istəyirdim. Hərçənd bilirdim ki, Abadanda da həmişə qala bilməyəcəyik.

Məhəmməd dayının evi Piruzabad stansiyasında yerləşirdi. Şirkət evlərindən idi. Hamı oraya toplaşmışdı. İçəri girəndə hamı bizi dövrəyə alıb Xürrəmşəhrin vəziyyətini soruşmağa başladı. Qayınanam şivən qoparır, yolda gördüklərimizi ağlaya-ağlaya danışırdı. Abadanda da su və elektrik enerjisi kəsilmişdi. Dedilər ki, ötən gecə müqavimət qüvvələrinin yerini öyrənib bombalayıblar, korpus və Bəsic uşaqlarından çoxu şəhadətə qovuşub.

Əli əminin benzini bitmişdi. Hövsələsiz, məqsədsiz və yorğun halda otaqlarda gəzişib deyirdi: "Bu qədər maşın, bu qədər sürücü... Bunların bakına su tökmək olar?!" Sonra özünə cavab verirdi: "Olmaz! Kim bilərdi ki?! Əgər bilsəydim, Əlinin vilayəti haqqı, bütün qohumların maşınlarını benzinlə doldurardım".

Halım yaxşı deyildi. Həyətdə oturub gözlərimi Məhəmməd dayının göy forduna dikdim. O maşınla bağlı şirin xatirələrimiz vardı. Əmi maşına yaxınlaşdı, ona bir təpik vurub dedi: "Olmazdımı bu zibilin

bakını daha tez doldurasan?! Gərək bomboş qalaydı?!"

Heç kim etiraz etmirdi. Kim hirslənirdisə, istədiyini söyləyirdi. Əmi deyinəndən sonra bir neçə kanistr götürüb getdi. Əlirza da ondan bir neçə dəqiqə sonra evdən çıxdı. Məhəmməd dayımın yoldaşı Şahnazın doğuş vaxtı yaxınlaşırdı. Ağrı çəkir, qıvrılırdı. Həlimənin də ürəyi bulanırdı. Fatimə doğuş sonrası ağrıları ilə məşğul idi, İmana süd verə bilmirdi. Biz qadınlar su və elektrik enerjisi olmadan istidən, bekarçlıqdan və həyəcandan təngə gəlmişdik.

Axşam oldu. Evdə ağa Rzadan və Əhməd ağadan başqa kişi yox idi. Anamın bibisi oğlu bibini, babanı və digər sərnişinlərini Şiraza aparmışdı.

Ertəsi gün Hüseyn əminin qızı Müjdə soruşa-soruşa gəlib bizi tapdı. Əlində bir çanta vardı. İçində nə olduğunu soruşanda dedi: "Şəhriyarın şamdanlarıdır. Yoldaşı Tehrana anasıgilə getdi. Şəhram, Şəhriyar və Əhməd də ağamla Xürrəmşəhrə xəstəxanaya getdilər. Qorxuram ki, bombardmanda güzgü və şamdanları sınar. Onu çox sevirlər, almaq üçün Tehranda çox gəziblər. Kaş Mənsurə özü ilə aparaydı! Şəhriyar onları mənə tapşırıb. Bəs siz Tehrana və ya Dezfula getmirsiz? Anamgil Əndimeşkə gediblər. Hələlik bir mərtəbə kirayə eləyiblər. Dedim əgər o tərəfdən gedirsizsə, bunları yolüstü anama verərdiz". Anam dedi: "Sənə qurban, Müjdə can, biz Şiraza, Füruzan və Sağərgilə gedirik".

Müjdə kədərli idi. Anamın gözündən uzaq birlikdə ağladıq. O, təzə bəy olan, yoldaşı ilə bir gün də birgə

yaşamamış qardaşı Şəhriyar üçün, mən də qaranlıq gələcəyim və Bəhmən üçün ağlayırdım.

Müjdə bir neçə saat qalandan sonra qardaşının güzgü və şamdan çantasını götürüb o biri qohumlarıgilə getdi.

Əmi nəhayət, üç gündən sonra peykanının bakını benzinlə doldura bildi. Sevincək, amma həyəcanla ayaqqabı ilə otağa girib dedi: "Qalxın! Tərpənin! Benzin tapdım". Əmidostu bir qədər oyan-buyan elədi, sonra bizi göstərib dedi: "Bu qızları apar, mən qalıram". Əmi təəccüblə baxıb dedi: "Gəlmirsən?! Nə üçün? Burada halva paylayırlar?!" Qayınanam otaqda fırlanıb paltarları, corabları, yaylıqları, İmanın süd şüşəsini - əlinə keçən hər bir şeyi götürüb çantamıza qoyurdu.

- Bu qədər adamın evində bir nəfər qalmalıdır, yoxsa yox?! Bilirsənmi bu uşaqların evlərində nə qədər əşyaları, qızıl və pulları var?!

Yaxınlıqdakı bir neçə partlayış evi titrətdi. Əmi qışqırdı: "Bu sözləri burax! Tərpənin! İndi hamımız göyə uçacağıq. Vəziyyəti görmürsən?! Əmr gəlib ki, qadınları tez buradan uzaqlaşdırın. Əgər Xürrəmşəhrlə Abadanı tutsalar, ilk dəfə qadınları əsir aparacaqlar". Bunu eşidəndən sonra sürətim artdı. Hər birimizin kiçik bir səfər çantamız vardı. Onları götürüb həyətə qaçdıq. Qayınanam hələ deyinirdi.

- Əsirlik nədir?! Ürəyimə damıb ki, sabah-birigün müharibə bitəcək. Uşaqlarımız Xürrəmşəhrdə bu alçaqların qarşısını alacaqlar.

Biz maşına minəndə əmi dedi: "Yox, gözləyin. Belə olmaz. Gərək hamınız yerləşəsiz. Nəsrin,

əvvəlcə sən otur. Sən hamıdan arıqsan. Nəğmə, gəl, Nəsrinin yanında otur". Sonra fikirləşib dedi: "Yox-yox... Aşağı enin. Yox, bir qədər səbr edin".

Qaçıb mənim oturduğum tərəfin qapısını açdı.

- Həlimə bu başda otursun, qapının yanında, Şahnaz o başda, Səkinə banu, Fatimə, Röya və hacı xanım da ortada.

Sonra üzünü mənə tutub dedi: "Nəsrin, Mitra və Nəğmə arıq olduqlarına görə öndə otursunlar. Səidlə Həmid də baqajda". Hamımız yerbəyer olandan sonra maşının qabağında dayanıb diqqətlə baxdı. Bilmək istəyirdi ki, çamadan və çantaları bir-birinin üstünə yaxşı düzüb, yoxsa yox. Evin qapı və pəncərələrini kilidləməyə, bir butulka su götürməyə də qoymadı. Maşını işə saldı və sürətlə küçələrdən keçib magistral yola çıxdı.

Günəş pəncərədən üzümüzə saçırdı. Hava isti idi. Elə əvvəldə tərlədik. Həmid deyinib su istəyirdi. Şahnaz da ağlayır, tramplindən keçəndə zarıyırdı. Susuzluqdan və istidən ölürdüm. Bir stəkan suya həsrət qalmışdıq. Həlimə arxada deyinirdi. İman ac idi, səsi drel kimi beynimizi dəlirdi. Yol hərbi avtomobillərlə, hündür maşınlarla, yük və minik maşınları ilə dolu idi. Abadan-Əhvaz yolunda piyadalar da dəstə-dəstə hərəkət edirdilər. Bəzi maşınların üstü də adamla dolu idi.

Əmi sanki qulaqlarına pambıq tıxamış bizim etirazlarımıza fikir vermədən sürətlə sürürdü.

# Yeddinci fəsil

Şirazda vəziyyət həmişəki kimi sabit idi. Sadəcə, yollarda tıxac vardı. Xürrəmşəhr və Abadan qaçqınlarının çoxu Şiraza getmişdi. Şəhərə girən kimi küçələrdə bir neçə dost-tanış gördük. Əmi bizi Sağərgilə apardı. Sədiyyə prospektində kiçik və birotaqlı bir həyət evləri vardı, qayınatası və qayınanası da onlarla qalırdılar. Biz oraya Şah Abbas mehmanxanası deyirdik. Şirazda kimin işi olsaydı, kim həkimə getmək, gəzmək istəsəydi və ya universitetə qəbul olsaydı, birbaş onlara gedirdi. Səid Sağəri çox istəyir, ona "Aku mama" deyirdi.

Birinci gecə çətin keçdi. Səhər iki qrupa ayrıldıq. Bir qrup onlarda qaldı, mən də daxil olmaqla ikinci qrup Füruzangilə getdi. Anam da bizimlə idi. Səid ağlayır, özünü divara çırpıb deyirdi ki, mən Aku mamanın yanında qalmaq istəyirəm.

Elə ilk günlərdə dayım yoldaşı Şahnazın doğuş ağrıları başladı. Anamla əmim onu xəstəxanaya apardılar. Anam evə qayıtmadı, xəstəxanada dayım yoldaşı ilə körpəsinin yanında qaldı. Körpə kiçik və

arıq bir qız idi. Anam narahat idi, qəribliyinə və təkliyinə görə Şahnaza yazığı gəlirdi.

Xürrəmşəhrdən arabir yarımçıq xəbərlər gəlirdi. Oktyabrın on beşi idi. Heç birimiz yaxşı deyildik. Səhərlər başım gicəllənir, ürəyim bulanırdı. Hamilə olduğumu bilirdim, amma deməyə cəsarət etmirdim. Səhər çağı ürək bulanmalarım, çoxlu yatmağım və hövsələsizliyim hamını şübhəyə salmışdı. Mənsə inkar edib deyirdim ki, suyum dəyişilib, ya da narahatlığıma, Bəhməndən uzaq olduğuma görədir.

Bir gün telefon çaldı. Füruzan dəstəyi götürdü. Danışdığı yerdə birdən "ya Hüseyn" deməsi hamının diqqətini çəkdi. Dəstək əlindən yerə düşdü və özünü vurmağa başladı. Heç bir söz demədən üzünə vurur, saçını dartır, hər iki ilə dizlərinə çırpırdı. Füruzan kimi mənim də ağzım bağlanmışdı, ona yaxınlaşa bilmirdim. Divara yapışıb sakitcə oturdum. Hərə bir söz deyirdi:

– Əlirza...

– Bəhmən...

– İsmayıl...

Anam Füruzanın üzünə iki-üç sillə vurdu. Füruzan qışqırdı və ağzından "Şəhriyar" sözü çıxdı. Şəhriyar mənim yaraşıqlı əmim oğlu idi.

Anam sinəsinə vurur, qayınanam qışqırırdı. Füruzan deyirdi: "Şəhriyar şəhid olub... Qardaşının qucağında can verib... Xürrəmşəhrdə". Digərləri isə sual yağdırırdılar:

– Nə vaxt?

– Əminsən?

– Bəlkə yalandır. Kiminlə danışdın?

Füruzan qışqırıb ağlayır, özünü vururdu.

– Təzə bəyimiz Xürrəmşəhrdə şəhid olub... Yol polisində başına güllə dəyib. Əhməd dadaşın qucağında can verib. Xudaya! Yaraşıqlı əmim oğlu şəhid oldu...

Anam dəstəyi götürüb bir neçə yerə zəng vurdu, bir neçə nəfərlə danışdı, üzünün qəm-kədər dolu ifadəsindən bildik ki, xəbər doğrudur. Şəhriyar üçün ağı deyir, hüznlü şeirlər oxuyurdu. Dediklərindən bildik ki, Füruzan düz deyirmiş, Şəhriyarın başına raket qəlpəsi dəyib və yerindəcə şəhid olub. Əhməd də yanında imiş. Əhmədə yazığımız gəldi. Qardaşını Xürrəmşəhrin yol polisindən kilometrlərlə irəliyə qədər belində aparmış, dəfn edəndən sonra bacısı Müjdəyə xəbər verib demişdi: “Şəhriyarı torpağa tapşıranda ayaqlarına gözüm sataşdı; qardaşımın nə ayaqqabısı vardı, nə dabanı. Onu yerlə o qədər sürümüşdüm ki, ayaqqabıları ayağından çıxmış, hər iki ayağının sümükləri çıxmışdı”.

Müjdə Xaksütunda Şəhriyarın güzgü və şamdanlarını götürüb qaçır, ərəblərə xas şənlik səsləri çıxarıb deyirmiş: "Camaat, qardaşımın toyudur. Qardaşımla yoldaşı bu güzgü və şamdanları çox istəyirdilər. Görün necə qəşəngdir! Görün bəy və gəlinimizin zövqləri necə gözəldir! İndi mən bunları neyləyim?! Qardaşımın evində taxça yoxdur. Bunları hara qoyum?!"

Anam bunları danışanda Şəhriyara ürəyimiz yanırdı. Anam ağlaya-ağlaya deyirdi: "Aman Allah, siz Şəhriyarın toy gecəsində yox idiz. Mən orada idim. Bu uşaq bəy paltarı ilə Xürrəmşəhrə getdi. Çox

dedik ki, bu axşam toyundur, gənc yoldaşının yanında qal. Qəbul etmədi. Dedi ki, gərək qəsbkar zalımların qulaqlarının dibindən bir sillə vurum, sonra qayıdım".

Hüseyn əmidən və yoldaşından xəbərsiz idik. Telefon nömrələri bizdə yox idi. Füruzan bacının evi qadınların qərargahına çevrilmişdi. Səhərlər oraya toplaşır, yeni xəbər olanda müzakirə edir və sonra əzadarlığa başlayırdıq. Yeməkdən düşmüşdük. Nahar və şam xörəkləri əl dəyməmiş süfrədən mətbəxə qayıdırdı. Şah Abbas mehmanxanasının qonaqları gecə vaxtı Sağərgilə qayıdırdılar.

Əndimeşkdə bir ev kirayə etmiş Hüseyn əmi və yoldaşı Şəhriyarla Şəhramın halını soruşmaqdan ötrü bir axşam Mehr xəstəxanasına zəng vurmuş və Şəhriyarın şəhid olduğunu öyrənmişdilər. Onlar da orada qəribcəsinə yas saxlayırmışlar. Ev sahibi onların səsini eşidib yuxarı çıxmış, demişdi: "Bağışlayın... Sabah oğlumuzun toyudur. Burada ağlamayın. Düşər-düşməzi olar". Əmim yoldaşı anası ilə birgə yaxınlıqdakı məscidə gedib səhərəcən ağlamış, Şəhriyar üçün bayatı oxuyub əzadarlıq etmişdilər.

Bunları eşidəndə ürəyimiz kabab olurdu. Daxilimdə tufan idi. Həyəcan və təşviş məni əldən salmışdı; nə bir yerdə otura bilirdim, nə də boğazımdan bir şey keçirdi. Gecələr yata bilmir, o müddətdə başımıza gələn bütün hadisələri yadıma salıb yorğanın altında ağlayırdım.

Bir gün sübhə yaxın belimdə güclü ağrı başladı. Qarnım da elə ağrıyırdı ki, yeriyə bilmirdim. Hamı yatmışdı. Divardan tutub birtəhər özümü tualetə

çatdırdım, unitaza dolan o qədər qanı görüb qorxdum. Fikirləşdim ki, görəsən, başıma nə gəlib? Qan dayanmır, ağrı məni əldən salırdı. Ayağa qalxmağa gücüm qalmamışdı.

Bu zaman anam namaza durdu. Tualetin dəstəyini bir neçə dəfə aşağı-yuxarı verdi. Həmişəki kimi qapını içəridən kilidləmişdim. Mənim sızıltılarımı eşidib narahat oldu.

- Nəsrin, sənsən? Nə olub?

Tərpənə bilmirdim. Bu dəfə qışqırdı: "Nəsrin, qapını aç!" Ağlamağa başladım. Anam qapını döyürdü. Füruzanı çağırdı, ağlayıb yalvara-yalvara, dua edə-edə bıçaq və açarla qapını açmağa başladılar. Qapı açılandan sonra məni və o qədər qanı gördülər. Anamın rəngi qaçdı, hər iki əli ilə başına vurub dedi: "Füruzan... Vay, bədbəxt oldum. Uşağım əldən getdi. Ağa Rzanı oyat". Füruzan qışqırıb qaçdı.

Ayağa qalxmağıma kömək etdilər. Arıq və yüngül idim. Qoltuğumdan tutub qaldıranda qarnımın içində balığa bənzər bir şeyin sürüşdüyünü və göbəyimdən qopduğunu hiss etdim. Qışqırıb özümdən getdim.

***

Bir gün xəstəxanada yatdım. Dölün ayrıldığı və hamiləliyin bitdiyi anı xatırlayanda əmim yoldaşı və Şəhriyarın müsibəti yadıma düşür, görmədiyim uşaqdan ötrü kədərlənməyə xəcalət çəkirdim.

Səhərdən axşama qədər radionun yanında idik. 26 oktyabrda Xürrəmşəhrin süqut etdiyini xəbər verdilər və Füruzanın evində yenidən ağlaşma başlandı. Əziz şəhərimiz 34 günlük müqavimətdən sonra işğal olunmuşdu. Heç birimizin halı yaxşı deyildi. Bilirdik

ki, hər şeyimiz düşmənin əlinə keçmişdir. İraqlıların gecələr bizim yataqlarımızda yatdıqlarını, çirkli çəkmələri ilə mətbəxlərimizdə gəzdiklərini, soyuducuları açdıqlarını, hamamlarımızda yuyunduqlarını təsəvvür edəndə pis olurduq. Yenidən depressiyaya düşdüm, tək qalıb ağlamağa başladım. Doyunca baxmadığım toy albomumuz yadıma düşəndə ürəyim kabab olurdu. Zümrüd qaşlı qızıl dəstimi gizlətməyə macal tapmamışdım. Fikirləşirdim ki, görəsən, indi kimin əlindədir? Hamam dəsmalım, yataq paltarım və şəxsi əşyalarım haradadır? Bu fikirlərdən dəli olmaq üzrə idim.

Bəlkə də noyabrın əvvəlləri idi. Qapı döyüldü. Uzun müddətdən sonra ilk dəfə Füruzanın evindən şənlik və gülüş səsləri gəldi. Qayınanam sevindiyindən uçmağa qalmışdı. Anam gülüb əl çalırdı. Səidlə Həmid Bəhmənin başına fırlanırdılar. İnana bilmirdim. Çox arıqlamış, qaralmışdı, boyu daha uca görünürdü. Saçı pırtlaşmış, bığ-saqqalı uzanmışdı. Sevindiyimdən ağlayıb başına fırlandım. Gülüş onun vücudunun ayrılmaz hissəsi idi. Bir nəfər oxuyur, biz də dəli kimi əl çalırdıq:

*Aman Leyli, Aman Leyli!*
*Mən səni sevirəm xeyli.*
*Sən Leylisən, mən Məcnunam,*
*Sən şənlikdə, mən vurğunam.*
*Bir gün özgəsinə könül vermə sən,*
*Məbada bir gecə dönüb gedəsən!*

Səidlə Həmid bəndəri rəqsi edirdilər. Bəhməni ortaya salmışdıq. Gülür, bizimlə birgə sevinir, yorğun qəlbimizə dəyməsin deyə, hərdən çiyinlərini tərpədirdi.

Mənə baxdı. Badam gözləri sevincdən parlayırdı. İşarə ilə məni oynamağa dəvət etdi. Gözlərimin yaşını sildim. Uzun müddətdən sonra yaranmış gözəl əhval-ruhiyəni korlamaq istəmirdim. Yalandan hər iki əlimi havada yellədim. Füruzan arxadan çiyinlərimdən tutub məni Bəhmənin qucağına itələdi. Çəpik və fit səsləri ucaldı. Bəhmən qucağını açdı, başımı onun sinəsinə qoydum. Səidlə Həmid atılıb-düşür, oynayırdılar.

Ondan sonra biri çay dəmlədi, biri meyvə və şirniyyat gətirdi. Anam Bəhmənlə məni bir otağa göndərib dedi: "Qızım, hələlik sizinlə işimiz yoxdur". Gözlərinin yaşı isə dayanmırdı. Ayağa qalxıb bir iş görmək istəyən kimi qolumdan tutub Bəhmənin yanında oturdurdular.

Axşam birlikdə oturmuşduq. Hərə bir söz danışan yerdə elektrik enerjisi kəsildi, zenitlərin səsi gəldi. Bildik ki, qırmızı vəziyyətdir. Anam lampanı yandırmağa getdi. Kibriti yandıranda kükürd iyi gələn kimi Bəhmən titrəməyə başladı, ağzı köpükləndi və yerə yıxıldı. Hamımız özümüzü itirdik. Epilepsiya tutmalarım yadıma düşdü. Nə edəcəyimi bilmirdim. Bir tərəfdən zenitlərin səsi canımıza lərzə salırdı, digər tərəfdən Bəhmənin vəziyyəti hamını narahat edirdi. Əlindən tutdum. Taxta parçası kimi olmuşdu. Yavaşca üzünə bir neçə sillə vurdum. Bu dünyada deyildi. Əsirdi, əyilmiş ağzından köpük gəlirdi. Hərə

bir söz deyirdi. Füruzanla Sağərin yoldaşları qoltuqlarına girib onu çətinliklə yerdən ayırdılar, maşına qoyub xəstəxanaya apardılar. Həyəcandan ölürdüm. Digərləri məni nəzərə alıb bir söz demirdilər.

Bir-iki saatdan sonra qayıtdılar. Bəhmən halsız idi, rəngi qaçmışdı. Ona yataq sərdik, yatdı. Ağa Rza pıçıltı ilə danışdı ki, oktyabrın ikisində Xürrəmşəhrdə Rəsayi məktəbi bombalananda Bəhmən orada olmuş, yaralanmışdır. Bu hal oradakı partlayış dalğasından yaranıb. Dedi ki, üz vurmayın, sanki heç bir hadisə baş verməyib. Çünki özü o anda nə baş verdiyini bilmir. Bilirdim ki, digərləri gözucu mənə baxır, mənim tutmalarımı xatırlayırlar.

Səhər Bəhmən tez oyandı. Halı yaxşı idi. Ona səhər yeməyi verib yanında oturdum. Sonra ayağa qalxıb geyinməyə başladı. Soruşdum ki, haraya? Dedi: "Artıq Xürrəmşəhrə qayıtmalıyam". Narahat olub ağlamağa başladım. Dedim ki, olmaz, mən qoymaram. Güldü.

– Uşaq olmusan, Nəsrin banu?!

Paltarından tutdum.

- Vallah, getməyə qoymayacağam. Sənin halın yaxşı deyil. Gərək həkimə gedək. Müalicə almalısan, Bəhmən. Əgər getsən, bir də heç vaxt bir-birimizi görməyəcəyik. Mən qoymayacağam. Bu vəziyyətdə getsən, şəhid olacaqsan.

Səsimə hamı oyandı. Bəhmən xəcalətindən başını yellədi.

– Nəsrin banu, uşaq olmusan?! Bəsdir. Ayıbdır.

Hamımız qaçqın idik, ortaq dərdlərimiz vardı. Mənim ağlayıb yalvarmam digərlərini kövrəltdi. Birlikdə ağlayırdıq. Onların da ağlaması vəziyyətimi ağırlaşdırdı. Bəhmənin ayaqlarından yapışdım, sınıq qəlblə yalvarmağa başladım: "Allaha and olsun, qoymayacağam. Bu vəziyyətdə getsən, daha qayıtmayacaqsan. Məgər demirdin ki, hər kəsim olmaq istəyirsən? Məgər söz verməmisən ki, mənim atam, qardaşım, dostum olasan?! Qoymaram ki, atam kimi gedib, bir də qayıtmayasan".

Başım gicəllənirdi. Vəziyyətim yaxşı deyildi. Bəhmən də narahat idi. Bəlkə də xəstəliyimin qayıdacağından qorxurdu. Gedib dərmanlarımla bir stəkan su gətirdi. Göz yaşlarım bəhrəsini verdi. Əyilib qolumdan tutdu, məni qaldırıb dedi: "Yaxşı, getmirəm, olsun. Sən necə istəyirsən". Məni otağa aparıb qapını bağladı. Dərmanlarımı verdi. Oturub başımı dizinin üstə qoyub saçımı tumarlamağa başladı. Dedim: "Qoymaram gedəsən. Əgər getsən, mən öləcəyəm. Qal, gedək həkimə. Nə üçün başına gələnləri söyləmirsən? Yəni mən sənin üçün mühüm deyiləm?! Sən daha məni və birgə həyatımızı fikirləşmirsən?!" Bir qədər dayandı, sonra gülüb dahiyanə tərzdə dedi: "Əgər yox idisə mənə öz meyli, nə üçün qabımı sındırdı Leyli?!" Dodağını dişlədi və kövrək səslə dedi: "Xürrəmşəhrimizə heyf! Uşaqların, əzizlərimizin çoxunun cəsədi orada qaldı". Dodaqları əsirdi.

– Çayın sahilində qaldı. Şəhəri yalnız 34 gün saxlaya bildik. Özümüz təcrübəsiz, əlimiz boş, düşmənimiz də namərd idi. Bizi qəfil yaxaladılar, hər

tərəfdən mühasirəyə düşdük. Xürrəmşəhrin süqut etməkdə olduğuna inana bilmirdik. Hələ şəhərdə bir neçə ailə qalmışdı. İsmayıl dayın son ana qədər qaldı. Daha işin bitdiyini, əlimizdən bir şey gəlmədiyini anlayanda bir dəstə körpünün altından üzə-üzə bu tərəfə gəldi. Bəziləri kanalların içindən və körpünün altındakı borulardan bu tərəfə keçdilər.

Gözlərinin yaşı bütün üzünə axırdı, badam gözləri qızarmışdı. Başını yelləyib təəssüflə dedi: "Körpünü bir neçə gün qabaq özümüz vurub partlatdıq. Yoxsa, düşmən gəlib Abadanı da tutacaqdı. Nəsrin banu, Xürrəmşəhrimizin bütün divarlarından qan damır. Uşaqlar onun adını Qanlı şəhər qoyublar. Gecələr yuxuda evimizi görürəm. Otağımıza uşaq kimi darıxıram. Sizin evinizdən, böyük həyətinizdən ötrü ürəyim gedir. İkimizin oradan çoxlu xatirəmiz var. Bizim Xürrəmşəhrimiz məzlumcasına, qəribcəsinə əsir düşdü. Amma Nəsrin, mən geri çəkilməyəcəyəm. Heç birimiz geri çəkilməyəcəyik. Gərək qayıdıb Xürrəmşəhri geri alaq. Biz bir-birimizə söz verdik ki, şəhid dostlarımıza görə qayıdaq. Əlimizi əlimizin üstünə qoysaq, düşmənlər bir neçə günə Abadanı da alarlar. Sonra növbə Mahşəhrə, Əhvaza, Şiraza və hətta Tehrana çatar. Onlara kömək edirlər, texnikaları güclüdür. Nə desən, gözləmək olar. Əgər mən, atam, qardaşlarım gəlib yoldaşlarımızın yanında otursaq, iraqlılar iki-üç günə bütün İranı tutarlar. Biz qayıtmalıyıq. Ürəyim istəyir ki, uşaqlarımız Xürrəmşəhrdə dünyaya gəlsinlər. Axşamlar uşaqlarımızın əllərindən tutub çayın sahilində samosa və falafel yeyək, gəmiyə minək, Xürrəmşəhrin kələ-

kötür yerlərində futbol oynayaq. Mən yoldaşımın camaatın evində yatmasını, uşağımın başqasının evində dünyaya gəlməsini qəbul edə bilmirəm".

Uşağımın düşdüyünü bilmirdi. Orada dedim, kövrəlib ağlamağa başladı. Sonra özünü ələ aldı.

- İstəyirəm ki, özün ayağa qalxıb məni Quranın altından keçirəsən. Mən gedirəm, amma tez qayıdacağam. Səni təhlükəsiz bir yerə aparmaq, birlikdə olmaq üçün özümüzə ev tikmək istəyirəm. Uşaqlarımız olsun, mən sənin atan, qardaşın - hər kəsin olum.

Səsi ana laylası kimi şirin idi, məni sakitləşdirirdi. İstidən yanan susuz xurmalıqlarda yağış şırıltısına bənzəyirdi. Danışır, məni yuxuya aparırdı.

Dedim ki, bəs nə edək? Balış gətirdi, üstümə yorğan atıb dedi: "Yat". Soruşdum: "Nə üçün yaralandığını demirdin? Gərək qalasan, birlikdə həkimə gedək". Dedi ki, mühüm bir şey deyil, keçəcək. Dedim: "Yox, həkimə getməyincə və mən arxayınlaşmayınca səni getməyə qoymaram".

Kövrəlmişdi. Başını aşağı salıb yorğanın küncü ilə oynamağa başladı.

- Mən yaxşıyam. Ancaq barıt və kükürd iyi gələndə, bir də hər yer qaranlıq olanda həmin gecəki halımı yaşayıram.

Güclə udqunub əlavə etdi: "Oktyabrın ikisində səhərdən Taliqani küçəsində tanklarla vuruşurduq. Çox şəhid verdik. Nəhayət, tanklar geri çəkildi. Axşam yadıma düşdü ki, səhərdən heç nə yeməmişəm. Came məscidində namaz qılıb

yüngülvarı bir şey yedik. Rəsayi məktəbi yadındadır? Kərpiclə yeni tikilmiş oğlan məktəbi..."

- Hə, yadımdadır; İmam Sadiq (ə) məscidinin qarşısındakı. Necə qəşəng məktəb idi!

- Hə, qəşəng idi. Bir neçə gecə idi yatmağa oraya gedirdik. Xürrəmşəhr və Ağaceri korpusunun uşaqları o qədər yorğun idilər ki, koridorda, ikinci mərtəbəyə qalxan pilləkənin altında çəkmə ilə yatmışdılar. Otaqların biri bizim rabitə qovşağımız idi. İçəridə heç kim yox idi. Kənarda bir karton parçası vardı. Çəkmə ilə onun üstündə yatdım. O qədər yorğun idim ki, başımı yerə qoyan kimi yuxuya getdim. Bilmirəm nə qədər yatmışdımsa, birdən güclü bir partlayış səsinə diksindim. Tüstü, barıt, yanmış ət və torpaq iyi gəlirdi. Qaranlıqda qapını axtarırdım. Qapını açanda başqa bir partlayış hər yeri işıqlandırdı. Uşaqların qışqırtısı, "ya Hüseyn" və "ya Zəhra" səsləri adamın ürəyini kabab edirdi. O anda Əhməd Qəndəharini gördüm, koridorun ortasında uzanmışdı. O qədər yorğun idi ki, raket və top səslərinə oyanmamışdı. Qışqırdım: "Əhməd!" Mənim qışqırtıma oyandı. Koridorun qapısına tərəf qaçdıq. Şəhidlərin cəsədi ayaqlarımız altda qalmışdı. Uşaqlardan Qulam Abkarı partlayış dalğası tutmuşdu. Nə qədər çağırırdımsa, eşitmirdi, oyan-buyana qaçıb qışqırırdı. Əlirza Rustayinin ayağı kəsilmişdi. Təkayaq qaçır, kəsilmiş ayağından qan fəvvarə vururdu. Hamımızdan sağlam olan Höccət Musəviyə gözüm sataşdı. Qışqırdım: "Höccət! Qaç came məscidinə, kömək gətir". Koridorun qapısına çatdıq. Pillələrin altındakı uşaqların hamısı yuxuda şəhid olmuşdu. Bütün bunlar

bir neçə saniyə ərzində baş vermişdi. Pilləkənin altında olanda həyətin ortasına bir bomba da düşüb hər yeri işıqlandırdı. Ondan sonrası yadımda deyil. Uşaqlar deyirlər ki, yerimizi beşinci kolon satıbmış. Dəhşətli gecə idi. Abadanın Taliqani və Xürrəmşəhr xəstəxanaları yaralılarla dolu idi. Məni Abadanın Neft xəstəxanasına aparmışdılar.

Bəhmən mənimlə çox danışdı; Xürrəmşəhrdən, döyüşdən, şəhid dostlarından. Dərmanlarımı içdiyimə görə Bəhmənin sakit səsi ilə yuxuya getdim.

Yuxudan oyananda günortaya az qalırdı. Bir kağıza belə yazmışdı: "Mən getdim. Tez qayıdacağam. Heç nədən nigaran qalma. Səni sevirəm, Nəsrin banu". Bəhmən mənimlə o qədər danışmışdı ki, getməyinə razılaşmışdım. Bununla yanaşı, orada olmadığına görə hər yer darıxdırıcı, yorucu və qorxunc idi. Ağlamağa başladım. Qayınlarımın yoldaşları gəlib yatağımın yanında oturdular, bir söz demədən ağlamağa başladılar. Mən zarıyırdım, onlar ağlaşırdılar; mən ağı deyirdim, onlar qışqırırdılar. Qayınanam səsimizi eşitdi. Otağa girib qarşımda dayandı və dedi: "Vay! Nə olub? Nə baş verib? Bəlkə qızıllarınıza darıxmısınız?! Yoxsa güzgü, şamdan və cehizlərinizə görə narahatsınız?! Hə, evinizi, paltar və xalçalarınızı istəyirsiniz?!" Qayınanamın danlaqlarını anam davam etdirdi.

– Nəsrin, mən səninləyəm. Heç kim inciməsin. Bəsdir. Toparlanın. Ayağa qalx, qız. Bir qədər abqora iç. Camaat can verib, cavan verib. Abadanda qalıb şir kimi vuruşurlar, od-alov altındadırlar. Nə olub, siçan kimi buraya yığışıb mal-mülk, ev, həyət və həyat

yoldaşlarınız üçün ağlayırsınız?! Bəsdir! Qalx, qız! Özünüzü ələ salmayın! Bu da sizdən çıxıb, vallah. Ağıllı adam gedənin arxasından ağlayarmı?!

Qayınanam şirə döndü.

– Mən də anayam, oğullarımı bomba altına göndərmişəm. Südüm onlara halal olsun! Vallah, qoymaram uşaqlarımın ardınca ağlayasınız. Sənə demədim ağlamaq uğursuzluq gətirər?! Ayağa qalx, bu uşaqlıq nədir, edirsən?! Kişilərinizin ardınca dua edin, salavat deyin.

Anamla qayınanam əl çəkmək bilmir, sözü bir-birinə ötürürdülər; biri deyir, o biri cavab verirdi. Anam dedi: "Hələ bir dayanın; biz səhərdən axşama qədər mətbəxdəyik. Siz bişirib, yuyub, təmizləmək əvəzinə biz bişiririk, yuyuruq, siz yeyib-yatırsız. Qalxın, stəkanları yuyun. Bunlar nədir, vallah?!" Qayınanam da dedi: "Düz deyir. Qalxın, keçin mətbəxə. Vallah... Bu da yəqin yeni gəlinlərin adətidir!" Bu söz bizi narahat etdi və qeyrətə gətirdi. Ayağa qalxıb mətbəxə keçdik, hərəmiz bir işlə məşğul olmağa başladıq.

Elə bilirdik ki, bir neçə həftə od-alovdan uzaq bir yerdə yaşayacağıq, döyüş bitəndən, əmin-amanlıq yaranandan sonra isə Xürrəmşəhrə qayıdacağıq. Ancaq pis mərəkəyə düşmüşdük. Anamla qayınanamın Xürrəmşəhrdəki bir ömür zəhməti buxar olub havaya uçmuşdu. Bir gecənin içində zəlzələdən məhv olmuş, bütün var-yoxları uçqun altında qalmış insanlar kimi idik. Nə başımızın üstə tavan vardı, nə ayaqlarımız altda xalça. Evlərimizin qapısını qıfıllamağa, soyuducularımızı söndürməyə, su

kranlarını bağlamağa da macal tapmamışdıq. Xalça, qızıl və cehiz sözlərini isə analarımızın yanında dilimizə gətirə bilmirdik.

Səidlə Həmid hamıdan laqeyd və şən idilər. Üç ay idi məktəbə getmirdilər. Səid altıncı, Həmid dördüncü sinifdə oxuyurdu. Anam Qaçqınlar komitəsinə gedib özünü, babanı, bibini və digərlərini müvəqqəti qeydiyyata saldırdı, Səidlə Həmidi məktəbə yazdırdı. Nəğmə Şirazın maarif şöbəsinə gedib bir məktəbdə tədrisə başladı. Xürrəmşəhrdə çox böyük evləri olan anamın və babanın indi bir dəst boşqabları da yox idi. Qaşıq çatmırdı. Çox vaxt gözləyirdik ki, bəziləri yeməklərini yeyib qurtarsınlar, qablar yuyulandan sonra digərləri yeməyə başlasınlar.

Qayınanam evini sahmana saldı. Əmi yaxşı təqaüdlə Neft şirkətindən çıxdı və həyatını yenidən qurdu. Röya ilə yoldaşı Quma getdilər. Mitra və Rəna qayınanamın yanında qaldılar. Qayın yoldaşlarımın hər biri bir ev kirayə eləyib yavaş-yavaş yerbəyer oldular. Mən hərdən anamgildə qalırdım, hərdən qayınanamgildə. Bəhmən yanvarda Şiraza gələndə didərginliyimizi görüb dedi: "Nəsrin, biz də gedərik Quma, Röyagilin yanına. Qum ucuz şəhərdir. Bir ev tutarıq. Orada dindar adamlar, möminlər bir-birinin qayğısına qalırlar. Röya ilə münasibətin də yaxşıdır".

***

Qumda bir neçə gün Röyagildə qaldıq. Şeyx Fazil Qum Elm Hövzəsində təhsil alırdı. Kiçik və sadə bir evi vardı. Bizim də Qumda yaşamaq istədiyimizi biləndə sevindilər, onlara yaxın bir yerdə ev tapmağımıza kömək etdilər.

Üstümdə azca qızıl vardı. Nişan üzüyümü, bir neçə qolbağımı, sırğaları və boyunbağını satıb Stansiya məhəlləsinin Tövhid meydanında bir ev kirayə elədik. Evin yalnız bir otağı və bir zirzəmisi vardı. Mətbəx və tualet zirzəmidə idi. Nə hamamımız vardı, nə qazımız, nə isti suyumuz. Ev rütubətli və kiçik idi. Çarə yox idi. O qədər pulla yalnız elə bir ev kirayə etmək olardı. Hərçənd Qum ucuz şəhər idi, orada möhtəkirlik və bahalıq yox idi. Xürrəmşəhrə nisbətən kasıb bölgə sayılırdı, yaşayış imkanları aşağı səviyyədə idi. Əlbəttə, Bəhmən düz fikirləşmişdi, camaat bir-birinin qayğısına qalırdı. Şeyx Fazilin əksəri hövzə tələbəsi olan dostları kömək edib bizə bir neçə ədyal, bir primus, bir köhnə samovar, su və dəm çaydanları, stəkan, nəlbəki, boşqab, qaşıq və qazan gətirdilər.

Bəhmən gedəndə həmin evdə tək qalacağımı bilib qorxuya düşdüm. Qış idi. Qışda Qumun havası Xürrəmşəhrə nisbətən soyuq və quru olur. Mən belə havaya alışmamışdım. Xürrəmşəhrin cənnət ətri verən havası və gözəl qışları hara, yandırıcı soyuq hara?!

Yanvarda qışın ilk qarı yağdı. O günə qədər qar görmədiyimə görə sevindim. Lakin soyuqdan tir-tir əsirdim, dişlərim bir-birinə dəyirdi. Əl-ayaqlarım keyidi, göyərdi və qurudu. Otağa qaçıb samovarı yandırdım, qapağını götürdüm ki, buxarı otağı isitsin. Sonra primusu yandırmağa çalışdım. Nasoslamağa gücüm yox idi. Titrəyir, uşaqlığımı, tüstü dolu qara mətbəximizi xatırlayıb nasosla neft vururdum. Primus yanandan sonra ədyalları başıma çəkdim. Hərdən əllərimi primusun mavi şöləsinə, üzümü samovarın

buxarına yaxınlaşdırırdım, ancaq yenə qızışmırdım. Çənəmin titrəməsi dayanana qədər bəlkə də yarım saat çəkdi. Primus pırtıldayırdı. Mavi şölə əvvəlcə saraldı, sonra yavaş-yavaş söndü. Bildim ki, nefti bitib. Məndə çörək və ət kimi zəruri ərzaq üçün bir qədər pul vardı. Hər neçə gündən bir çadramı başıma atıb soyuqda buzların üstündə ehtiyatla neft növbəsinə durur, bir onlitrlik neft alırdım. Hava soyuyanda ən çətin iş həmin rütubətli və buxarlı otaqdan bayıra çıxmaq olurdu. İsti paltarım olmadığına görə Röyadan borc almağa məcbur qalırdım. Çox vaxt nəyim vardısa, üst-üstə geyinir, ancaq yenə soyuqdan titrəyirdim.

Bəhmən novruz bayramına qədər iki-üç dəfə Quma gəldi. Bir dəfə birlikdə həzrət Məsumənin məqbərəsinə getdik. Yolda çoxlu mağazalar vardı, möhür, təsbeh, namaz çadrası, suhan halvası və nabat satırdılar. Bir satıcı mağazasının önünə iri qədəhlər qoymuş, içinə ləbləbi, kişmiş, quru ərik, albalı və bu kimi şeylər doldurmuşdu. Qədəhlərin üstündə bir neçə 200 vatlıq lampa yanırdı. Quru ərik və albalılar işığın altında parlayır, turş və dadlı görünürdülər. Onları görəndə adamın azğının suyu axırdı. Qeyri-ixtiyarı olaraq, dayanıb turş albalılara və dadlı quru əriklərə baxdım. Bəhmən bunu duyub əlini ciblərinə saldı, ancaq nə qədər axtardısa, bir şey tapmadı. Üzünü həzrət Məsumənin məqbərəsinin günbəzinə tutub dayandı. Qara gözləri dolmuşdu. Dedi: "Ey həzrət Məsumə, bu səbirli xanım üçün özün böyük savab istə, mən xəcalətliyəm". Sonra dönüb mənə baxdı. Gözlərinin ağı qızarmışdı. Dedi: "Nəsrin banu, əgər

Xürrəmşəhrdə olsaydıq və müharibə olmasaydı, vəziyyətim belə olmazdı. Amma bu həzrət Məsuməyə and olsun, əminəm ki, bibi bizi görür və hamilə bir qadının savabı min qat artıq olacaq".

Bəhmən olanda çətinliyə dözmək asan olurdu. İşlərin çoxunu özü görürdü, mən soyuqda bayıra çıxmağa məcbur qalmır, samovarın kənarında oturub primusun üstündə yemək bişirirdim. Əlbəttə, paltarlarımızdan da həmişə qızarmış soğan iyi gəlirdi.

***

Bahar idi. Mən yaxşı deyildim. Çox vaxt günortaya qədər yatırdım. Hamama gedəndə əzab çəkirdim. Şeyx Fazil evdə olmayanda hərdən onlara gedib duş alırdım. Röya vəziyyətimi görüb kədərlənir, mənə yazığı gəlirdi. Bir dəfə anası zəng vurub mənim halımı soruşanda ağlaya-ağlaya hər şeyi demişdi. Həmin axşam qayınanam avtobusla gəldi. Çatar-çatmaz Röya ilə bizə gəldilər. Qayınanam o evi görüb özünə qarğış eləməyə başladı.

- Allah məni öldürsün! Xudaya! Bu Bəhmənlə Rəhmətin əlindən nə edim?! Mən bu uşaqların əlindən hara gedim?! Ay Allah! Axırda bu Mirzə Əli ilə uşaqlarının əlindən öləcəyəm. Xudaya! Mənim haqqım bu idi?! Uşaqlarımın haqqı bu idi?! Məni rəzil etmiş bu uşaqların əlindən nə edim?! Axı bu ev və yaşayış bizə uyğundur?! Haqqımızdır?! Nəsrin, sən minmetrlik böyük bir evdə yaşayırdın... Bəhmənin necə ürəyi gəlib səni bu quş qəfəsinə salmağa?! Yəni Allah mənim günahımdan keçər?!

Sonra Bəhmənə deyinməyə başladı:

– Bu oğlanın necə ürəyi gəlib hamilə xanımını bu evdə tək-tənha qoyub getməyə?! Mən özüm Bəhməni qu tükünün üstə böyütmüşəm. Bəhmən, Allah xeyrini verməsin! Bu necə ailə saxlamaqdır?! Məgər sən atanın və əmilərinin ailə-uşaqları ilə necə davrandıqlarını görməmisən?! Xanımlarının azca əziyyət çəkmələrinə də razı deyillər. Bura nədir?! Nə su var, nə kondisioner... Camaatın qızını burada qoyub cəbhəyə gedirsən. Mən kimin qızı idim, nə oldum?! Mən böyük bir saraydan buraya düşdüm. Qız, qalx ayağa... Qalx ayağa, əşyalarını topla, bu xarabadan gedək.

Sonra çantamı hazırlayıb dedi: "Allahın Allahlığına and olsun, qoymaram bir an da bu evdə qalasan". Bəhmənin gəlib nigaran qalacağını söyləyəndə belə cavab verdi: "Qoy nigaran qalsın! Mən bilmək istəyirəm ki, nigaran qalanda nə edir". Hətta ona bir kağız yazmağa da qoymadı. O qədər hirsli idi ki, onunla danışmaq olmurdu. Həmin gecəni Röyagildə yatdıq, ertəsi gün bir avtobusa minib ikimiz də Şiraza getdik.

Şirazın havası cənnət kimi idi. Şəhərdən narınc çiçəyinin ətri gəlirdi. Ağacların parlaq yaşıl qol-budaqları arasında yaşıl xurmalar və narınc çiçəkləri görünürdü. Qayınanamın evi böyük idi. Qısa müddətdə yenidən özünə yaxşı bir həyat qura bilmişdi. Böyük otaqlarından birini mənə verdi.

Anamın maddi vəziyyəti yaxşı olmasa da, bizə yaxşı bələk-beşik gətirdi və öz zövqü ilə düzdü. Uşaq çarpayısına, şkafa, o qədər oyuncağa, süd şüşəsinə, dama-dama yorğana və çarpayının üstündəki

asılqanlara baxanda, o nəmli və soyuq otaqdan xilas olduğuma inana bilmirdim. Uzun illərdən sonra azadlığa çıxıb evinə qayıtmış bir məhbus kimi idim. İsti, yumşaq və təmiz yataqda yatanda rahat nəfəs alır, buna görə Allaha şükür edirdim.

# Səkkizinci fəsil

Həkim doğuş zamanımı 1981-ci il avqustun beşinə təyin etmişdi. Lakin iyulun 31-də ağrılar başlayanda əmim yoldaşı bir taksi tutdu, Şirazın çox yaxşı və özəl xəstəxanalarından olan Kəsra xəstəxanasına getdik.

Bir həftə qabaq Bəhməndən məktub gəlmişdi. Yazmışdı ki, uşağın doğuşu vaxtı Şirazda ola bilməyəcək. Həmin bir neçə səhifəlik məktubda çox söz yazmışdı. Mənə təskinlik verib deyirdi: "Ola bilər güclü ağrıların olsun. Ağrın güclənəndə bir-bir Əhli-beyt məsumlarını çağır. Həzrət Zəhraya çatanda Allahı xanıma and ver. Eyni cinsdən olduğunuza görə mütləq köməyi dəyəcək".

Eynilə Bəhmənin dediyi kimi oldu. Doğuş ağrılarım dəhşətli idi. Bədənimin yetərli müqaviməti yox idi. Hamiləlik zamanı daha da arıqlayıb zəifləmişdim. Əmim yoldaşı, anam, əmim, Füruzan, Sağər, Nəğmə və qayınlarımın yoldaşları başım üstə dayanmışdılar.

Bir neçə saat ağrı çəkəndən sonra məni doğuş otağına apardılar. Ətrafımda bir neçə həkim vardı. Onların biri hər iki əli ilə sinəmin altını sıxırdı. Ağrı o

qədər güclü idi ki, dözə bilmirdim. Hətta nəfəs almaq da mümkün deyildi. Bu zaman Bəhmənin məktubunu xatırlayıb Əhli-beyti səsləməyə başladım. Ağlayır, onlara and verirdim. İmamların adları qurtarandan sonra yenidən Peyğəmbərdən başlayıb on ikinci imama çatdım. Maraqlıdır ki, onların adlarını ilk dəfə idi sıra ilə çəkirdim. Elə bilirdim ki, Bəhmən yanımda dayanıb və bu adları mənə xatırladır. Onun səsini eşidirdim. Mənə deyirdi: "Nəsrin, həzrət Zəhra... Xanımdan kömək istə. O, mütləq kömək edəcək".

O vəziyyətdə Bəhməni, Xürrəmşəhrdəki həyatımızı, ev və əşyalarımızı xatırladım. Fikirləşdim ki, bütün qadınlar həyatlarının sahmana düşməsini çox sevirlər. Mütləq həzrət Zəhra da belə imiş. Dedim: "Bilirəm ki, sən də ailəni sevirdin; yoldaşını, həzrət Əlini". Sonra qəribə hisslərlə dedim: "Xanım, bizə kömək elə. Kömək elə, Xürrəmşəhrimiz azad olunsun. Mən, yoldaşım, uşağım qayıdıb şəhərimizdə yaşayaq". Ağrı altında ağlaya-ağlaya beynimdən bu fikirlər keçirdi.

Daha gücüm qalmamışdı. Həkimlər çox çalışırdılar, amma uşaq dünyaya gəlmirdi. Həkimlərin biri dedi: "Deyəsən, bu gözəl, dünyaya gəlmək istəmir. Onu əməliyyat otağına aparın. Gərək qeysəriyyə əməliyyatı olunsun!"

***

Əmimgilin ailəsində belə bir adət vardı ki, oğul nəvələrə babaların adlarını qoyurdular. Atamla əmimin adlarının eyni olduğuna görə sevinirdim.

Əli Bəhmənə çox oxşayırdı. Gecələr oyanıb ona süd verəndə məzlum görkəmini görüb Bəhməni xatırlayır, yavaşca ağlayırdım. Anam narahat olurdu.

- Vay! Bu da səndən çıxıb, vallah... Biz adam deyildik?! Füruzanla Sağər kiçik olanda ataları ömrünü sizə bağışladı. Şükür Allaha, uşağın atası sabah-birigün gələcək. Bu qədər özünə əzab vermə, qız! Bu uşaq yazıqdır, vallah. O qədər ağlayırsan, axırda gözlərin kor olacaq.

O günlərdə xürrəmşəhrlilər hər yerdə bir-birini tapırdılar. Xürrəmşəhrdən olan ağa Nurani ilə təsadüfən, Şirazda qonşu olduq. Cəbhədən gələndə yoldaşı oğlumuz olduğunu ona demişdi. O da Abadana qayıdanda bunu Bəhmənə xəbər verib muştuluq almışdı. Orada ona kiçik şənlik keçirmişdilər.

Dəqiq yadımda deyil, bir neçə həftədən sonra Bəhmən gəldi, özü ilə həyat dolu sevinc gətirdi. Bəhmən Əlini görüb çox sevindi. Ancaq onu məndən alan kimi geri qaytarıb dedi: "Nəsrin, tez tut, indi düşəcək. Qorxuram". Məni gülmək tutdu.

Anam axşam Bəhmənə Əlinin yanında yataq sərib dedi: "Bu gecə ata-oğul yatarsınız". Özü bayırda yatdı. Bəhmənsə yuxuda Əlinin üstünə diyirlənməkdən qorxub yatağını kənara çəkdi.

Həmin gecə hər dəfə Əliyə süd verməyə qalxanda Bəhmən də oyanırdı. Yuxusu gəlirdi, amma Əlinin süd əmməyindən həzz alırdı. Səhərə yaxın Əli oyandı, Bəhmən məndən tez qalxıb onu sakitləşdirməyə çalışdı. Qucağıma götürüb ona süd verdim. Bəhmən yatağını topladı. Ürəyimə həyəcan düşdü. Soruşdum

ki, birdən getmək istəyərsən. Yatağı otağın küncünə qoyub qarşımda oturdu.

- Hə, getmək istəyirəm. Xürrəmşəhrdən sonra düşmən Abadanı tutmaq istəyir. Əhvaz-Abadan yolu tamamilə mühasirədədir. İmam Xomeyni əmr edib ki, Abadanın mühasirəsi yarılsın. Əməliyyatdan qabaq sizi görməyə gəldim. Abadan arzusunu ürəklərində qoyacağıq. Qoy mühasirə yarılsın, vallah, gəlib bir müddət sizinlə qalacağam. Ümumiyyətlə, işlər yoluna düşsə, sizi özümlə Abadana aparacağam. Nəsrin, gələrsən?

Abadanı xatırladım; düşündüm ki, oranı həmişə sevmişəm, yenə yaxşı keçəcək.

- Hə, vallah, gələrəm.

Bəhmən hər dəfə gəlib-gedəndə arxasınca uşaq kimi ağlayırdım. Həmin gün isə Əliyə süd verdiyim yerdə qəhər içində dedim: "Bilirəm ki, ağlasam da, ağlamasam da, gedəcəksən. Amma sən Əlinin canı, ehtiyatlı ol. Çox diqqətli ol. Əli ilə gözlərimiz yoldadır. Özündən muğayat ol!"

Eşitmişdim ki, südverən qadının duası qəbul olur. Dedim: "Mənə bir dua öyrət, arxanca oxuyum". Bəhmən Quran gətirdi, Bəqərə surəsinin 255-ci ayəsini göstərib dedi: "Ayətül-kürsini əzbərlə; həm özün rahatlaşacaqsan, həm də qəm-qüssəni, dərd-bəlanı uzaqlaşdırmağa yaxşıdır".

***

Əməliyyat olacağını bilən kimi səhər tezdən radionu açıb səsini artırırdıq. Səhər saat 8-də, günorta saat 2-də və axşam saat 9-da verilən bütün xəbər proqramlarını dinləyirdik.

1981-ci ilin 27 sentyabrı idi. Səhərdən radiodan əməliyyat marşı yayımlanırdı. Diktor gur səsi ilə elan edirdi: "Əziz dinləyicilər! Diqqət! Diqqət! Əziz dinləyicilər! Diqqət! Diqqət! Bir saat öncə Abadan və Karunun şərqi istiqamətində İran İslam Respublikası ordusunun Quru qoşunları və Xorasan diviziyası tərəfindən "Kömək Allahdan və zəfər yaxındır" parolu ilə genişmiqyaslı Saminül-əimmə (səkkizinci imam) əməliyyatı başlanmışdır. Bu əməliyyatda məqsəd Abadanın mühasirəsini yarmaq və müqəddəs torpaqlarımızın kilometrlərlə ərazisini geri almaqdır".

Xəbərlər İslam döyüşçülərinin qələbə çaldığını bildirirdi. Çoxlu iraqlı döyüşçünün, saysız-hesabsız texnikanın, o cümlədən bir neçə tankın və çoxlu silah-sursatın ələ keçirilməsi bizim sevincimizə səbəb oldu. Bəhmənin sözü yadıma düşdü. Deyirdi ki, Xürrəmşəhrin süqutuna yaxın günlərdə yol polisi ilə üzbəüz bir şirkət binasına yerləşmişdilər. Onlar düşməni geri qovub bir neçə tank, çoxlu silah-sursat və bir neçə sağlam rio avtomobili qənimət götürmüşdülər. Bəlkə də bu, ilk qələbə və qənimətləri olmuşdu. Dostları ilə birgə İraq riolarına minib şəhərdə siqnal verə-verə gəzdiklərini söyləyəndə gözlərindən sevinc yağırdı. Onların biri qəliz ləhcə ilə sevincək deyirmiş: "Bu gördükləriniz İraq maşınlarıdır, döyüş qənimətləridir".

Radiodan qələbə marşı səsləndirilib Abadanın mühasirəsinin yarıldığı elan olunanda evimizdə toy-bayram idi. Qayınanam xüsusi şənlik səsləri çıxarır, anam oynayır, qayın yoldaşlarım əl çalırdılar. Mitra ilə Nəğmə qazan və sini ilə nağara çalırdılar. Səidlə

Həmid adətləri üzrə bəndəri rəqsi oynayırdılar. Şirazda yaşayan xürrəmşəhrli və abadanlı qaçqınlar küçələrə çıxıb insanlara şirniyyat paylayır, ağlaya-ağlaya bir-birlərini qucaqlayır, öpüb təbrik edirdilər. Həmin günlərdə Ayətül-kürsini yenicə əzbərləmişdim. Oxuyub Abadana tərəf üfürürdüm.

Noyabr ayında Şirazda hava mülayim idi. Hələ qayınanamgildə idim; Əlinin bələk-beşiyi ilə dolu olan, uşaq dəstinin taxta, boya və lakının, habelə uşaq pudrasının iyi gələn böyük otaqda. Əli süd əmir, gülüşlərilə qəm-kədərimizi aparırdı. Həmin günlərdə Bəhmən gəldi. Abadanın mühasirəsinin yarılması onu çox ruhlandırmışdı. Şən idi, hamı ilə zarafat edirdi.

Bir neçə gündən sonra dedi: "Nəsrinlə oğlumu özümlə aparmaq istəyirəm". Qayınanam razılaşmadı. Əmi Əlini qucağına götürüb dedi: "Kəllən hələ də xarabdır! Bilirsən Abadanda vəziyyət necədir?! Bu uşağı bomba altına aparmaq istəyirsən?! Bunların nə günahı var?!" Bəhmən hamının narahatlığını aradan qaldırmaq üçün dedi: "Abadana aparmıram. Mahşəhrə gedirik. Orada əmin-amanlıqdır". Əmimin cavabı isə hazır idi.

– Hə, nənən canı! Uşaq aldadırsan?!

Bəhmən çamadanımı hazırladı, əlimdən tutdu, Əlini qucağına götürdü. Hamı ilə sağollaşdıq. Yoldaşımla çiyin-çiyinə getdiyimə görə uşaq kimi sevinirdim. Bəhmən əlimi tutanda, avtobusda yan-yana oturanda sevindiyimdən yerə-göyə sığmırdım.

Mahşəhrdə çoxlu sinifləri olan və kamp adlandırdıqları bir məktəbdə bizə bir otaq aldı. Kiçik sinif idi, rəngsiz pərdəsi vardı, günəş dəliklər

arasından köhnə və çirkli boz kovrolitə saçırdı. Fikirləşdim ki, belə bir yerdə Əlini necə yedizdirib yatızdıraram, əsgilərini necə yuyaram?!

Bəhmən bizi qoyub getdi. Bütün siniflər Abadandan, ətraf kənd və şəhərlərdən didərgin düşmüş adamla dolu idi. Bəzən bir otaqdan ağı və şivən səsi gəlirdi. Bilirdim ki, qonşum hansısa əzizini itirib. Bəzən şənlik səsi gəlirdi, həmin kiçik otaqlarda toy edir, gəlin gətirirdilər. Hər səhər bir əsgər gəlib gündəlik yemək payımızı sinif qapılarının arxasına qoyurdu: çörək, pendir, qənd və çay. Nahar və şam yeməklərini də vaxtından əvvəl gətirirdilər.

Təkbaşına Əlinin öhdəsindən gələ bilmirdim. Çadramı başıma atıb Əlini qucağıma götürməli, həyətin o başında soyuq su kranı altında yumalı idim. Bəzən Əli oyaq olub tərslik edəndə, həm də çoxlu yuyulmamış əsgi qalanda məni ağlamaq tuturdu. Çox vaxt yandakı qonşumdan icazə alırdım ki, qızı bizə gəlib yarım saat Əlinin yanında qalsın. Qız Əlinin yanında əda çıxarır, onu güldürür, mən də həyətin o başındakı tualetlərin yanında əsgiləri yuyurdum. Həmişə də nigaran qalırdım. Fikirləşirdim ki, birdən qız Əlini qucağına götürüb yerə yıxıdar. Tələm-tələsik əsgiləri yuyub ipdən asır, tez uşağın yanına qayıdırdım.

Anam üçün, habelə Xürrəmşəhrdəki evimiz, keçmişdə qalmış xoş günlərimiz, çayın sahili, estakada və balıq bazarları üçün darıxırdım. Əsgər xörəyi yeməkdən bezmişdim. Əmim yoldaşının qəlyə-balığını ürəyim istəyirdi. Samosa və falafel də istəyirdim. Özümü dustaq kimi hiss edirdim. Həmişə

ehtiyatlı idim ki, səsim yandakı otağa getməsin. Uşağıma ucadan laylay oxuya bilmirdim. Anamın dəşti laylalarını xatırlayıb yavaşca zümzümə edirdim:

*Laylay! Laylay! Balam, laylay!*
*Əzizim, həmdəmim, laylay!*
*Laylay! Laylay! Bəh-bəh! Bəh-bəh!*
*Balamın atası səfərə gedib.*
*Narıncı ayaqqabı gətirib,*
*Balamın ayağına girmir.*
*Laylay! Laylay! Gülüm olasan!*
*Həmdəmim, munisim olasan!..*
*Bunları oxuyub bəxtimə ağlayırdım.*

Bir gün laylay çalıb ağladığım yerdə Bəhmən gəldi. Məni o halda görüb təəccübləndi. Hirsli idim. Ağlayıb şikayətlənməyə başladım.

- Yoruldum! Təklikdən bezdim. Sən necə adamsan?! Məni uşaqla bir otaqda qoyub getmisən. Heç fikirləşmirsən ki, təkbaşına uşağın paltarlarını necə yuyum, ona necə süd verim. Fikirləşmirsən ki, uşaq xəstələnə bilər, yoldaşım gecələr qorxar, uşağı necə çimdirər. Məni bu otağa salıb getmisən!

O qədər hirsli idim ki, heç nə anlamırdım. Bəhmən yalvarırdı:

- Yavaş ol, qonşular eşidər, yaxşı deyil.

Qışqırdım:

- Təkcə bunu bilirsən ki, deyəsən səsini naməhrəm eşitməsin, çadra geyin, elə yeri ki, diqqət cəlb eləmə... Daha bilmirsən ki, dişlə çadra tutmaq, həm uşağı götürmək, həm də onu soyuq su ilə yumaq necə olur!

Bəhmən mənim heç cür sakitləşməyəcəyimi görüb otaqdan çıxdı. Fikirləşdim ki, yəqin həyətdə havasını dəyişib qayıdacaq. Bir qədər sakitləşəndən sonra ayağa qalxıb otağı səliqəyə saldım. Pərdənin arxasından gizlicə həyətə baxdım. Bəhmən yox idi. Paltarımı dəyişdim, Əlini səliqəyə saldım və yenidən pərdənin arxasına keçdim. Həyətdə deyildi. Nigaran qaldım.

Şam yeməyini yemədim. Gözlədim Bəhmən gəlsin, birlikdə yeyək. Axşam oldu. İşığı yandırdım, Əliyə süd verib yatızdırdım. Sonra işığı söndürüb pərdənin arxasında dayandım. Bəhmən yox idi. Bir saat, iki saat... Saat on bir oldu. Əli yatmış, əllərini başı üstə yumruqlamışdı. Hərdən ağzını əyib gülümsəyirdi. Çadra geyinib koridora çıxdım. Otaqlardan yemək iyi və səs-küy gəlirdi. Bir uşağın ağlamaq səsi kəsilmirdi. Kişi və qadınların ucadan və qarmaqarışıq danışıq səsləri zalı başına almışdı.

Darıxdığımdan zalda bir dəfə obaş-bubaşa getdim, qapının arxasındakı ayaqqabılara baxdım; zərif qadın ayaqqabıları, üstündə ayı və dovşan şəkli olan narıncı və yaşıl uşaq çəkələkləri, tünd boz çəkmələr vardı. Fikirləşdim ki, görəsən, bəy-gəlinin otağı hansıdır? Qapıların birinə bir şəhid şəkli vurulmuşdu. Həyətə çıxmaq istəyəndə bir otaqdan gənc bir oğlanla qız çıxdı. Qız ağ çadraya bürünmüş, üzünü bəzəməmişdi. Oğlan çox gənc idi; iyirmi, ya da iyirmi bir yaşı olardı. Saçını keçəl qırxdırmışdı, amma bığ-saqqalı vardı. Birlikdə yan otağa girdilər.

Həyətdə hava sərin idi, uzaqdan çayın qoxusu gəlirdi; Xürrəmşəhrin ətri. Səma aydın və ulduzla

dolu idi. Həyətdə bir neçə oğlan uşağı oynayırdı. İki-üç qadın voleybol torunun altında əllərində boşqab və qazan maraqla söhbət edirdilər. Onların biri mənə tanış gəldi. Yaxınlaşdım. Dostlarımızdan Pəri Hurisinin bacısı idi. O qərib məktəbdə bir tanış görüb çox sevindim. Darıxdığımdan onu qucaqladım və yarım saat hamının halını soruşduq. Ağlamaq səsi gəldi. Fikirləşdim ki, yəqin Əlidir. Onun otağının yerini soruşub öz otağımıza qaçdım. Uzun yalqız günlər üçün həmsöhbət tapdığıma görə sevinirdim. Otağımıza çatanda gözüm yandakı otağın qapısının qarşısında cütlənmiş yumru dabanlı ağ qadın ayaqqabılarına və 43, ya da 44 ölçülü qara çəkməyə dikildi.

***

Bəhmən ertəsi gün səhər yeməyi vaxtı gülərüzlə gəldi. Oturub səhər yeməyini yedik. Dedi ki, əşyalarını topla, səni Abadana aparıram. Olan-qalanımız paltarlarımızdan və Əlinin əşyalarından ibarət idi. Köməkləşib onları çantaya yığdıq.

Bəhmən mənə bir açar göstərib dedi: "Hacı Məkkinin evinin açarıdır. Anamla atamı həccə aparan karvanın başçısıdır. Dostlarımızdan bir neçəsi də yoldaşlarını oraya gətiriblər. Hacı özü Quma gedib, evinin açarını bizə verib".

Otaqdan çıxanda təkcə gəlinin ayaqqabıları qapıda idi. Son bir neçə gündəki yalqızlığımı xatırladım və gəlinə yazığım gəldi.

Bir nissan patrol bizi gözləyirdi. Minib yola düşdük. Əli qucağımda yatdı. Estakadanın yanında maşından endik. Keçid icazəsi verilənə qədər bir neçə

saat gözlədik. Suyun üstündəki çoxlu barkas, barj və gəmilər Çuebdeh kəndinə doğru gedirdi. Abadanın mühasirəsi yarılmazdan öncə camaat öz əşyalarını çıxarmaq üçün həmin gəmilərlə kəndə gedib-gəlirdilər. Əli oyanmışdı. Ac idi. Özünü də islatmışdı və tərslik edirdi.

Nəhayət, bir barja mindik. Əlini yedizdirmək istəyirdim. Bəhmən işarə ilə çadramı kip tutmalı olduğumu bildirdi. Gəminin yerində oturub çadramı üzümə çəkdim və sinəmi Əlinin ağzına qoydum. İsti günəş saçırdı. Çadramın altından korpus, Bəsic və ordu hərbçilərini görə bilirdim. Onlar qayıq və gəmi ilə Abadanın o tərəfinə keçirdilər. İsti idi, gəmi də yavaş gedirdi. Susuz idim. İstidən ürəyim bulanırdı. Bölgə tamamilə kişilərdən ibarət hərbi məntəqə idi. Əli məni yorur, Bəhmən də yanıma gəlməyə utanırdı.

Uzun müddətdən sonra Çuebdehə çatdıq. Çuebdeh Abadanın yaxınlığında bir kənddir. O vaxtacan onun yalnız adını eşitmişdim, müharibədən öncə Abadanı xiyar, pomidor və digər yay məhsulları ilə təmin etdiyini bilirdim. Oradan Abadana 30-40 km yol vardı.

Barjdan enəndə başım gicəllənir, ürəyim bulanırdı. Yenidən maşına minib Abadana yola düşdük. Bəhmən qabaqda oturmuşdu, bədənini geri çevirib bələdçi kimi ətrafı izah edirdi. Bir qədər sonra sürücü ilə söhbətə başladı. Yavaşca soruşdum: "Bəhmən, bu ağa kimdir?" Çiyinlərini çəkdi. Təəccüblə onlara baxdım. Bir-birini tanımaya-tanımaya çox səmimi şəkildə danışırdılar. Sanki Abadandakıların hamısı bir ailə olmuşdu. Bəhmən sürücüyə dedi: "Zəhmət

olmasa, şəhərdə bir dövrə vuraq". Sonra üzünü mənə çevirib göz vurdu.

Şəhərə baxıb düşünürdüm ki, bura Abadan ola bilməz. O qədər şən və gümrah şəhər hara, bütün divarları raket qəlpələri ilə dolu olan lal və kor şəhər hara?! Dağılmış evlərdən sıxıldım. O zaman şəhərdə gəzəndə velosiped minmiş fəhlələr görürdük, Neft şirkətinin göy uniformaları ilə evlərinə, ya da işə gedirdilər. İndi isə ağac budaqları ilə gizlədilmiş tünd boz SUV avtomobilləri və landcruiserlər canıma qorxu salırdı. Neftayırma zavodunun gündəlik siqnalı yerinə uzaq və yaxından partlayış və atışma səsləri gəlirdi. Əhmədabad prospektinin, meyvə-tərəvəz bazarının və çayın sahilindəki beynəlxalq yarmarkanın qələbəliyindən əsər-əlamət yox idi. Sanki bu şəhərdə heç vaxt həyat olmamışdı.

Bəhmən sevincək dedi: "Ağa, gedək Teleradio prospektinə tərəf". Bilirdi ki, oranın evlərini sevirəm. Bir zamanlar geyinib-kecinmiş, ətirlənmiş kişilərin, hicabsız və mini-yubkalı qadınların get-gəl etdiyi o gözəl və təmiz villalar hər gecənin öz parolunu söyləməklə get-gəl edən hərbçilərin ovlağına çevrilmişdi. Xatırladığım qədərincə, qırmızı və narıncı şölələr saçan buxar qazanları sönmüş, yorğun halda bir tərəfdə dayanmışdı.

Maşın dayandı. Bəhmən təşəkkür edib maşından enməmizi söylədi. Sürücü ilə sağollaşdıq. Əli qucağımda yatmışdı. Bəhmən çantanı götürdü və yola düşdük. Mənə dedi: "Bura Xürrəmşəhr korpusunun Qadınlar şöbəsinin qərargahıdır. Dostun Kübra da

buradadır. Sən keç içəri, mən gedim günortaya yeməyə bir şey tapım".

Bəhmən gedən kimi həyət evlərindən birinin qapısı açıldı, Kübra Arifzadə məni qarşılamağa gəldi. Toydan sonra görüşməmişdik. O, Siddiqə xalanın dostu idi. Görkəmi dəyişmişdi. Əvvəlcə qucağımdakı Əlini yavaşca öpdü, sonra uşağı oyatmayacaq tərzdə məni qucaqladı. Görüşüb-öpüşdük.

- Gəl içəri. Uşaqlar hamısı burdadı. Kübra Salehpuru da görəcəksən. O da ailə qurub, sizinlə bir evdə qalacaq. Doğrudan, Nəsrin, əri Həsən Məavi soyadını dəyişib Müvəhhidi qoyub. Birdən deyərsən ki, ağa Məavi necədir.

Yavaşca gülüşdük. Sözünə davam etdi: "Təzə ailə qurublar. Uşaqları yoxdur. Qumda yaşayırlar. Valideynləri də Qumdadır".

Kübra tez-tez danışırdı. Az vaxtda mənə maksimum məlumat çatdırmaq istəyirdi. Diqqətim bütün həyət boyu uzanan həmişəyaşıl şümşad kollarında, bir zamanlar çox sevdiyim kağız gülü və dekorativ xurma ağaclarında idi. Yanmış xurmaları, gülü və yaşıllığı olmayan qurumuş bağçaları görüb sıxıldım. Şümşadlar əvvəlki kimi təravətli deyildi.

Həyətdəki ikinəfərlik yelləncəyin yanından keçdik. Ayaqlarımı ətraflarında yaşıllıq, quru və sarı ot bitmiş dördkünc panellərin üstünə qoydum. Kübra öndə gedirdi. Onun mətanətinə və soyuqqanlılığına görə bu cəbhə şəhərindən qorxum azaldı. Qapını açdı və qız dəcəlliyi ilə dedi: "Ev sahibəsi, sənə qonaq gətirmişəm".

Çənəli qara başörtüyü ilə çadra geyinmiş bir xanım tələsik bizi qarşılamağa gəldi. Başörtüyü yuxarıdan qaşlarının üstünü örtmüşdü, aşağıdan da çənəsini. Məni görüb gülümsədi.

– Bu ki öz Nəsrinimizdir. Xoş gəlmisən! Necə böyümüsən, Baqirzadə!

Sanki 10-12 yaşlı bir qızla danışırdı. Əlini qucağımdan aldı. Yavaşca Kübradan soruşdum ki, bu xanım kimdir? Özü eşidib cavab verdi: "Bıy, Nəsrin, məni tanımırsan?! Xalanın sinif yoldaşı və dostuyam, ağa Salarvəndin həyat yoldaşı". Yadıma düşdü. Hicablı olmuşdu. Çadra və başörtüyünə görə tanımamışdım.

Əlini bir otağa aparıb dedi: "Bu uşaq yazıqdır, gəl onu yuyaq". Çox sevindim. Orada su, hamam və tualet vardı, uşağı yumaq üçün dünyanın o başına getməyə məcbur deyildim. Kübra dedi: "Dama böyük bir çən qoymuşuq. Günəş suyunu qızdırıb".

Digərləri də bir-bir gəldilər. Rübabə Hurisi də gəldi. Ona dedim: "Nə maraqlı! Bacın Pərini Mahşəhrdə gördüm". Gülüb başını yelləməsindən bildim ki, xəbəri var.

Həsən Məavinin, yaxud Müvəhhidinin həyat yoldaşı, bir evdə yaşayacağımız Kübra Salehpur da yaxınlaşdı. Hamı hicablı olmuşdu. O evdə kişi olmasa da, başlarında başörtüyü və çadra vardı. Mən çadramı çıxardım. Rahat və yüngül şəkildə Əlini hamamda ilıq suyun altında yudum. Kübra Arifzadə qazanda su qaynadıb dedi: "Uşağa soyuq olub. Gəl bu su ilə yuyaq". Əlini yenidən isti su ilə yuduq, əsgisini dəyişdirib bədənini pudraladıq.

Zalda oturdum. Xanım Salarvənd Əlini qucağına götürüb ayaqlarının üstünə qoydu, yelləyə-yelləyə yavaşca ona laylay oxumağa başladı. Kübra Arifzadə bir neçə boş mürəbbə qabında bizə çay gətirdi. Mürəbbə şüşələrinə təəccüblə baxdım, amma bir söz demədim. Kübra güldü.

- Yəqin soruşmaq istəyirsən ki, bu boyda evdə dörd ədəd stəkan yoxdur? Var, əzizim, var, hər şey var; həm yaraşıqlı fincanlar, həm də indi mod olan kristal stəkanlar var. Lakin düşünürük ki, ev sahibinin əşyalarına toxunmağa icazəmiz yoxdur. Bəlkə də razı olmazlar. Əmanətdir. İnşallah tezliklə bu qarışıqlıqlar bitər, hərə öz ev-eşiyinə dönər. Biz də əmanətlərini sağlam şəkildə təhvil verərik.

Çaylar hələ isti idi. Evin bülbül səsli zəngi çalındı. Bir-birimizə baxdıq. Kübra Arifzadə çadrasını kip tutub qapıya yaxınlaşdı. Bir qədər sonra gəlib dedi: "Hurisi can, ağa Xosrəvidir". Bir-birimizə baxıb gülüşdük. Xanım Hurisi qalxıb o biri otaqdan bir dəst kişi paltarı götürdü, qapıya yaxınlaşdı və tez qayıtdı. Onda bildim ki, korpusdakı qardaşların qərargahı 2-3 km aralıda yerləşən Persiya otelindədir.

Orada hamıdan kiçik mən idim. Kübra dedi: "Yadındadır, Nəsrin, inqilab vaxtı uşaq idin. Necə məzlum idin! Biz yürüşə gedəndə deyirdin ki, uşaqlar, məni də apararsız?" Zarafat edirdi. Məni məzəli şəkildə yamsıladığına görə gülməyim tutdu. Əlini yatızdıran xanım Salehpur dedi: "Nəsrin, sənin ailə qurduğuna da inana bilmirəm, o ki qala ana olduğuna".

Çayı gülüş və zarafatla içdik. Yolda yorulduğumdan və kampda bir müddət tək-tənha qaldığımdan o evi və oradakıları yaşamağa münasib görürdüm. Dedilər ki, hərəsi bir həyət evində yaşayır. Səhərlər yoldaşları Persiya otelinə gedəndə onlar da öz qərargahlarına toplaşırlar. Bir neçəsi bizimlə bir evdə qalacaqdı.

Kübra Arifzadə və Salarvənd ayağa qalxıb nahar yeməyinə qəlyə-balıq bişirdilər. Sarımsaq, balıq və keşniş iyi evi doldurdu. Necə də gözəl saatlar idi! Sanki Abadanın xislətində gülüş və sevinc vardı.

Dadlı plovdan və qəlyə-balıqdan səbirlə yeyim deyə xanım Salarvənd Əlini qucağına götürdü. Nahar yeməyindən sonra telefon zəng çaldı. Kübra Arifzadə dəstəyi götürdü, danışıb qurtarandan sonra gülə-gülə bizə yaxınlaşıb dedi: "Uşaqlar, qardaş Baqiri idi. Deyirdi ki, mənim uşaqlarıma deyin hazırlaşsınlar, gəlirəm". Təəccüblə ona baxdım. Bəhmən belə danışmazdı. O vaxta qədər hətta Əlini qucağına götürməmişdi, bizə necə "mənim uşaqlarım" deyə bilərdi?!

Əlinin çantasını topladım. Kübra Salehpur Əlini qucağına götürdü. Bəhmən sükanın arxasında idi. Mən öndə oturdum, Kübra arxada. Bəhmən bizə bir neçə ədyal gətirmişdi; mələfəsiz, boz rəngli cod ədyallar. Dedi ki, biri döşək, biri də yorğan əvəzinədir. Fikirləşdim ki, nə yaxşı anam çantama bir neçə təmiz mələfə qoyub. Bəhmən təklif etdi ki, gedib şəhərdə gəzək, xanım Abadan üçün darıxıb.

Zenit raketlərinin, top mərmilərinin və güllələrin səsi qorxumu artırırdı. Mən bu Abadanı sevmirdim.

Bizim Abadanımız adamla, səs-küylə, fəallıqla və həyatla dolu idi. Raket qəlpələrindən divarları dəlik-deşik olmuş, az evin şüşəsi sağlam qalmış bu boş və sakit şəhər Abadan deyildi. Qara plakatlara cürbəcür şüarlar yazılmışdı. Xurma və innab ağacları çılpaq, yaralı, başsız-qolsuz idi. Neft klubunun yanından keçdik. Fikirləşdim ki, bu klubdakı o qədər adam, səs-küy və toy mərasimi haraya getdi?! Su anbarlarının, Piruzabad bazarının, əmimgilin evinin, aşçı Abbasın yeməkxanasının yanından keçdik. Heç vaxt təsəvvür etməzdim ki, Əhmədabad prospekti və bazar bu qədər sakit ola bilər. O bazar hətta cümə günləri də adamla dolu olurdu.

Məni ağlamaq tutdu. Əlimi gözlərimə qoydum. O tənhalığı, qürbəti və sükutu görə bilmirdim. Birdən Kübra dedi: "Nəsrin, dostun Şahnaz Hacışah[1] yadındadır?" Həyəcanla dedim: "Hə, nə olub ki?" Qabaq oturacağa tərəf əyildi.

---

[1] Şahnaz Hacışah 1967-ci ildə Xürrəmşəhrdə dünyaya gəlmişdi. Evin üçüncü uşağı idi. Orta məktəbi bitirmişdi. Öz zamanından irəlidə idi. Sürücülük vəsiqəsi almışdı, çox gözəl sürücülük edirdi. Kompüterdə fars və ingiliscə çox yaxşı yazırdı. İslam inqilabının qələbəsindən sonra bir neçə nəfərlə birgə bir qrup yaradıb kəndlərə gedir, uşaqlara dərs öyrədirdilər. Müharibə başlayandan sonra valideynləri Əhvaza köçdülər, o isə Xürrəmşəhrdə qalıb şəhəri müdafiə etməyə başladı. Onlar 30 sentyabr 1980-ci ildə Gülçülər meydanında xalq tərəfindən göndərilmiş yardım maşınını boşaldarkən bir ev raketlə vuruldu. O, yaralılara kömək etmək üçün dostu Şahnaz Məhəmmədizadə ilə birgə evə tərəf qaçmışdı. Lakin bu zaman başqa bir raket də atılır, qəlpəsi Şahnaz Hacışahın düz ürəyinə dəyir və yerindəcə şəhadətə qovuşur. O, Xürrəmşəhrin Şəhidlər gülzarı məzarlığında qəribcəsinə dəfn olunmuşdu. Dəfndə yalnız anası və qardaşları iştirak etmişdilər.

– Bilmirsən?

Nəfəsim gəlmirdi. Bir ah çəkib dedi: "O cür qız müharibənin ilk günlərində Quran məktəbinin yanında şəhid oldu. Oranı topla vurmuşdular".

Dostum və sinif yoldaşım Şahnaz inqilabdan sonra çox mömin və mənəviyyatlı olmuşdu, həmişə Quran məktəbində olurdular.

Onun şəhid olduğunu eşidib çox gərginləşdim. Kübra oturacağa söykənmişdi, aynadan mənə baxırdı. Başını yellədi.

- Yazıq! Bir neçə nəfər də yanında imiş. Şahnaz Məhəmmədizadə[1] də orada olub, şəhadətə qovuşub.

Maşın Əmiri prospektinə, sonra Zənd küçəsinə döndü. Heç birimiz danışmırdıq. Maşın Ələvi məktəbinin qarşısında dayandı. Hacı Məkkinin evi ikimərtəbəli və böyük, amma qaranlıq və cansıxıcı idi. Bəlkə də o şəraitdə belə görünürdü. Əli hələ Kübranın qucağında idi. Kələ-kötür həyətdən keçdik. Kübra girib bir-bir otaqlara baxdı və dedi: "Nə gözəl! Suqızdıran və nə qədər istəsən, yorğan-döşək var". Bəhmən dedi: "Su olmayandan sonra suqızdıran nəyə yarayır?! Əlbəttə, evdəki əşyalara da əl vurmayacağıq". Kübra zarafata dedi: "Hə, biz yaxşı uşaqlarıq, heç nəyə əl vurmarıq, amma Höccət

---

[1] Şahnaz Məhəmmədizadə 1960-cı ildə Dezfulda dünyaya gəlmişdi. O, inqilaba yeniyetməlik çağından qoşulmuşdu, İmam Xomeyninin bəyanat və kasetlərini yaymaqla şah rejimi əleyhinə mübarizə aparırdı. İslam inqilabından sonra İmam Xomeyni ilə görüşə getmişdi. O, 30 sentyabr 1980-ci ildə dostu Şahnaz Hacışahla birgə müqavimət zamanı düşmən raketinin qəlpəsinə tuş gəlib şəhadətə qovuşdu. Onun qəbri də Xürrəmşəhrin Şəhidlər gülzarı məzarlığındadır.

Musəvi ilə xanımı bizim qədər ədəb-ərkanlı olmaya bilərlər!"

Otaqların birində oturdum. Darıxırdım, dostlarımın şəhid olduğunu eşidəndən ürəyimə böyük bir qüssə çökmüşdü. Kübra bir otaqdan o birinə keçir, sevinclə danışırdı. Bəhmənə deyirdi ki, suqızdıranı yandıra bilərik? Bəhmənin səsini eşidirdim.

– Kübra xanım, qaz kəsilib. Ancaq sizə qaz balonu gətirə bilərik. Su da bulanıqdır. Hər gün ya özümüz sizə bir bak içməli su gətirərik, ya da bir əsgər.

Sonra dedi: "Qarşı tərəfdəki məktəb hərbi hissədir, əsgərlə doludur. Burada qadın olduğunu bilməməlidirlər. Axşamlar əsla bayıra çıxmayın. Bura beşinci kolonla doludur. Bayıra çıxsanız, gərək gecənin parolunu biləsiz. Parolsuz hətta uşaq xəstə də olsa, bayıra çıxmamalısız".

Qulaqlarımı tutdum. Yer-göy yenidən gözlərimə çirkin görünməyə başladı. Hər iki Şahnaza ürəyim yandı. Mən bu Abadanı sevmirdim.

Uzandım, yatmaq istəyirdim. Otağın yeri kovrolit idi: bərk və quru. Kübra içəri girdi. Hələ Əli qucağında idi. Dedi ki, Nəsrin, nə olub? Dedim ki, yorulmuşam, yatmaq istəyirəm. Mənə ədyal gətirdi, yerimi hazırladı. Ağlamağa başladım. Kübra məndən böyük, həm də güclü və cəsur idi. Dedi ki, xürrəmşəhrli qız qorxaq olmaz. Bununla yanaşı, yanımda oturdu, əyilib məni öpdü və dedi: "Bağışla, bəlkə də sənə deməməli idim, amma nə etmək olar?! Alışmalısan. Yat, şam yeməyi hazır olanda səni oyadaram". Qəhər içində dedim: "Yox, yeməyəcəyəm". Dedi: "Yaxşı. Bu axşam Həsən

gəlməyəcək. Əlini öz yanımda yatırdaram. Sən yolda yorulmusan. Başını at, yat". Əlinin çantasını götürüb getdi.

Hər yer qaranlıq idi. Yaxından-uzaqdan gələn partlayış səsləri evi titrədirdi. Mənim üçün heç bir şeyin əhəmiyyəti yox idi. Əsgər ədyalını başıma çəkdim. Şahnazlara yazığım gəlirdi. Gənc idilər. Özümə hirslənir, Şirazda olmaq istəyirdim. Fikirləşdim ki, müharibədə heç kimə şirniyyat paylamırlar. Çox güman ki başqa dostlarımdan da şəhid olanlar var. Kübra doğru deyirdi; ölümlərə alışmalı idim.

Fikirləşdim ki, niyə narazıyam?! Bəhmən yanımdadır; Əli yanımdadır. Məgər arzulamırdım ki, hər üçümüz bir yerdə olaq?! İndi birlikdəyik. Bəs nə üçün sevinmirəm?! Nə üçün razı deyiləm?! Yəqin ki ölümdən qorxuram. Üçümüz birlikdə ölməkdən yaxşı nə ola bilər?! Bu fikirlə məni ağlamaq tutdu. Ədyalı kənara çəkib qalxdım. Öz qorxuma qarşı mübarizə aparmalı idim.

***

Bəhmən getmişdi. Səhər yeməyinin süfrəsi zalda yarımaçıq vəziyyətdə idi. Əlini axtarmağa başladım. Kübra Əlini ayaqlarının üstünə qoyub laylay çalırdı. Məni görüb dedi: "Gəldinmi?! Hələ yatardın bir az!"

Gülümsədim.

– Bağışla, çox əziyyət çəkdin.

Kübra oturdu, amma hələ də ayaqlarını yellədirdi. Dedi: "Buyur. Yeri qurudur, südünü içib. Şərbətini də verdim. Mədəsinin qazını da çıxarıb, amma özün kimi ərköyündür, yenə narazıdır. Gördüm ki, özünü

ərköyünləşdirir, uzatdım ayağımın üstünə". Kübranı qucaqlayıb öpdüm. Anamın ətrini verirdi. Dedi: "Get səhər yeməyini ye, sonra götürərsən".

Çay ətri gələndə əmimin evi yadıma düşdü. Onda Abadanda idilər. Qalın lavaş çörəkləri və camış pendirləri vardı. O günləri xatırlayıb yenidən kövrəldim, ürəyimdən aşçı Abbasın aşı keçdi.

Günorta Həsən ağa gəlib ertəsi gün səhərə qədər qaldı. Yavaş-yavaş gündəlik rejimi öyrənirdim. Bir gecə Bəhmən gəlirdi, bir gecə də Həsən Müvəhhidi. Kübra hərdən Əlinin əyninə təmiz paltar geyindirib Həsən ağaya verirdi ki, korpusun qərargahına aparsın. Həsən ağa deyirdi ki, Əlini görəndə uşaqlar ruhlanır, tankın üstündə Əli ilə şəkil çəkdirirlər.

***

İki həftə idi Kübra ilə bir yerdə qalırdıq. Bir gün Bəhmənlə Həsən yeni bir qonaqla gəldilər: Seyid Höccət Musəvi, anası və yoldaşı Zöhrə. Höccət Musəvinin anası əsalətcə lor idi, Lorustan əyalətinin şəhərlərindən olan Əznadan idilər. Atası isə ərəb idi. Höccətlə Zöhrə Xürrəmşəhrdə dünyaya gəlmişdilər. Onları görüb sevindik, gətirdikləri o qədər əşya və avadanlığa görə isə təəccübləndik: bir neçə kisə düyü, bulqur, buğda, yerli yağ, zəfəran, un, qənd, çay, şəkər, dənli bitkilər, tərxun, qoz və bir neçə qutu meyvə.

Yeni adamlar gəldiyinə görə hər şey dəyişdi. Sanki evə həyat enerjisi verdilər. Nə Zöhrə, nə də qayınanası bir şeydən qorxurdu. Yüksək əhval-ruhiyyəli və güclü idilər. Bir qədər söhbətləşdik. Kübra və Zöhrədə Xürrəmşəhr ləhcəsi vardı, məndə isə yox idi. Zöhrənin qayınanası Əli ilə məni görüb

mətbəxə firni bişirməyə keçdi. Dedi: "Bala, sən təzə azad olmusan. Üzünün rəngi hələ qayıtmayıb. Gərək cana gələsən". Gülab, zəfəran və qızarmış un iyi hamıya xoş təsir bağışladı.

Zöhrənin qayınanası hamımızı işə cəlb etdi. Düyü kisələrini mətbəxə gətirdik. Quru göyərti və dənli bitki qutularını mətbəx şkafına düzdük. Zöhrə ilə qayınanası düyü təmizləyib kişiləri ət, toyuq və balıq almağa göndərdilər. Hisə verilmiş düyünün ətri bütün evə doldu.

Zöhrənin qayınanası qıvraq idi. Cəld balıqları təmizlədi. Özü ilə körfəz ədviyyatı gətirmişdi. Balıqları rəndələnmiş sarımsaq və duza yaxşıca bələdi. Mən Kübra ilə birgə göyərti təmizləyirdim. Nanə, keşniş, cəfəri, habelə plov, qızarmış balıq, körfəz ədviyyatı və sarımsaq iyi evi dirçəltdi. Qoxulayıb məst olurduq. Ətirlə birgə təsəvvürümdə əmigilin evinin xoş xatirələri, çoxadamlı və səs-küylü qonaqlıqlar canlanırdı. Bizim sevindiyimizi görüb ağa Höccət də sevinirdi. Əlini qucağına götürüb otaqda gəzdirir, havaya çıxarırdı.

Süfrəni sərdik. Bir neçə partlayış evi titrətmiş olsa da, diqqətimiz yeməkdə idi, gəlinlə qayınananın bir saat içində evi necə şənləndirdiklərinə fikir verirdik. Süfrədə mürəbbə və turşudan çörək, göyərti və xurmaya qədər hər şey vardı. Yeməyə səbzi-plovla bol sarımsaqlı və ədviyyatlı balıq bişirmişdilər. Zöhrə süfrənin ortasına yağ və darçın dolu bir kasa xəşil qoyub dedi: "Buyurun".

O qədər yedim ki, nahardan sonra ayı kimi yatdım. Axşamüstü isti şirniyyat ətrinə yuxudan oyandım. Əli

yanımda yatmış, Bəhmən getmişdi. Otaqdan çıxdım. Zöhrənin qayınanası mətbəx mebelinin arasındakı kafelləri parladırdı. Şkaflar təmiz idi, mətbəxin yeri yuyulmuşdu. Məni görüb gülümsədi.

– Nəsrin, bala, sənə qurban! Yaxşı yata bildin?

Onu qucaqlayıb üzündən öpmək istəyirdim, amma nədənsə bunu etmədim.

Hava yaxşı və mülayim idi. Bağçada dekorativ sansevyera gülləri boy atmışdı. Güman ki bağça əvvəllər kaktusla dolu imiş, sonra onlara o qədər qəlpə dəyib və susuz qalıblar ki, quruyub getmişdilər. Həyətdəki plitələr bir neçə yerdən qopmuş, bir neçə böyük çala əmələ gəlmişdi. Hava hələ də gözəl və ürəkaçan idi. Müharibədən öncə olduğu kimi, çayın kənarına və estakadaya getmək istəyirdim. Lakin bayırda hər yer o qədər sakit və qorxulu idi ki, tez evə qaçdım.

Mən qayıdanda Əli oyanmışdı, Kübranın qucağında idi. Gəlinlə qayınana da oturmuşdular. Ortada çay podnosu vardı. Zəncəfil iyi gəlirdi. Yumru sininin içində kiçik bir tort görünürdü. Sevindim. Bu dəfə yaxınlaşıb Zöhrənin qayınanasının yanaqlarından öpdüm. Tortdan ilk dilimi mən götürdüm. Şirin və ətirli idi, günorta istirahətindən sonra çayla çox möhtəşəm alınırdı. Dedim: "Əllərinizə sağlıq! Çox dadlıdır!" Həmişə ləhcə ilə danışan qayınana dedi: "Nuş olsun, rulə![1] O uşağa da ver". Ağzına bir qənd parçası atdı və bu dəfə qəliz lor ləhcəsi ilə dedi: "Bir neçə şey evə şənlik gətirir, kişini ailəyə bağlayır,

[1] Bala

uşaqları başıaşağı və sakit edir. Birincisi mətbəxdir. Gərək həmişə təmiz olsun və ondan gözəl ətir gəlsin. İkincisi süpürgə və təmizlikdir. Çirkli ev şeytan yuvasıdır. Üçüncüsü budur ki, evin xanımı həmişə təmiz olsun, danışanda ağzından gül yağsın". Kübra ilə bir-birimizə baxıb gülüşdük. Dedim: "Bizimsə qaşlarımız keçi ayağı kimi olub, bığ-saqqal çıxarmağımıza da az qalıb". Zöhrənin qayınanası dedi: "Xanımdan xörək iyi gəlməməlidir. Yeməyi bişirən kimi duş alıb ətirlənin". Kübra ilə yenidən gülüşdük. Zöhrənin qayınanası dedi: "Gülün... Gülün... Mən sizin ikinizi də yerə uzadıb üzünüzə ip atmasam, adımı dəyişərəm". Sonra Zöhrəyə dedi: "Rulə, Zöhrə, qalx, mənim çantamı gətir". Bu şənlik və qayğısızlıqdan həzz alırdıq.

Axşam kişilərin biri gələcəkdi, amma hər üçü gəldi. Hamımız bir-birimizə baxdıq. Zöhrənin qayınanası dedi: "Sizə demədim?! Xörək iyi onları gətirdi!"

Bir neçə gündən sonra bizə əlavə olunan üçüncü qrup Seyid Əhməd Qəndəhari, anası və yoldaşı Siddiqədən ibarət idi. Seyidin atası Xürrəmşəhrdən, anası Məşhəddən idi. Özü də məşhədli xanım almışdı. Məşhəddə toy edəndən bir neçə gün sonra Xürrəmşəhrə gəlmişdilər, sonra da müharibə başlamışdı. Siddiqə həmişə deyirdi: "Heyf! Biz Xürrəmşəhri əməlli-başlı görə bilmədik".

Siddiqə hamilə idi, ürəyi bulanırdı, arıqlayıb zəifləmişdi, tez-tez təzyiqi düşürdü. Özləri ilə çox şey, Siddiqənin cehizinin yarısını da gətirmişdilər. Bir otağı döşəyib gəlinin əşyalarını düzdülər; tikiş

maşınından tutmuş fenə və yorğan-döşəyə qədər. Siddiqənin qayınanası çatan kimi hökm çıxardı:

- Bu nə yaşayışdır?! Məgər bura səngərdir ədyal üstə oturmusuz?! Bəlkə illərlə burada qalacaqsız. Məgər quru yerdə oturmaq olar?!

Şir kimi qadın idi. İkinci mərtəbəyə çıxdı, bizi çağırıb dedi: "Bura əşya ilə doludur". Dedik: “Hacı Məkki deyib ki, istifadə edin, amma bizim ürəyimiz gəlmir”.

Doğrusu, anamla qayınanamın həyat tərzi yadıma düşdü, öz cehizlərimi xatırladım. Hərdən fikirləşirdim ki, görəsən, indi evimizdə kim var. Bunu düşünəndə qəsbkarları lənətləməyə başlayırdım: “Əgər xalçalarımızın üstündə çəkmə ilə yeriyirlərsə, ayaqları sınsın!”

Sonralar Bəhmənlə Höccət Hacı Məkkinin digər əşyalarını da yavaş-yavaş gəmi ilə göndərdilər və bir nəfər təhvil alıb Quma apardı. Çoxları belə edir, xürrəmşəhrlilərin taleyini yaşamasınlar deyə, əşyalarını aparırdılar.

Siddiqənin qayınanasının təklifindən sonra bir neçə xalçanı əzab-əziyyətlə aşağı sürüyüb altımıza sərdik.

Siddiqənin qayınanası bir həftədən çox qalmadı, amma həmin bir həftədə vəziyyətimizi tamam dəyişdi. Zöhrənin qayınanası nə qədər bişirib-düşürən olsa da, Siddiqənin qayınanası evin bəzəyinə, pərdələrə, xalçalara və daxili dekorasiyalara daha əhəmiyyətli yanaşırdı. O, korpusun Fəth mağazasından gəlininə kreditlə xalça da aldı. Bizimlə qaldığı sonuncu gündə ikinci mərtəbədən tezbişirən qazan gətirib dedi: "Mən axşam dənli bitkilərdən

islatmışam. Kömək edin, sizə Məşhədin qələmkar aşından bişirim". Öncədən qaynatdığı iri lobyanı Kübraya qabıqlarını soymağa verdi. Tezbişirən qazanda sümüklü ət qaynadırdı. Noxudu, ağ və qırmızı lobyanı, bulquru və düyünü ayrı-ayrılıqda bişirmişdi. Bişmiş əti çıxarıb doğradı, hamısını birlikdə yaxşıca əzdi. Dənli bitkilərin yarısını əzməmiş qazın üstünə, şüyüd, kəvər, cəfəri, tərxun və mərzə ilə bişməyə qoydu. Sonra əzdiklərini əlavə edib hamısını birlikdə bişirdi. Aş hazır olanda üstünü qızılı rəngli qızarmış soğan, qızarmış nanə, qiymə və qara istiotla bəzədi. Gülab, hil, darçın, zəncəfil və hind qozunun ətri evi bürüyəndə Məşhədin qələmkar aşının digər aşlarla fərqini başa düşdük.

Qayınanası gedəndən sonra Siddiqənin halı pisləşdi. Yaşı az və bədəni zəif olduğuna görə bəzən şiddətli ürəkbulanmadan huşunu itirirdi. Zöhrənin qayınanasının həmişə bir əli qazanda idi, bir əli Siddiqənin ağzında. Ona bal və limon şərbəti hazırlayır, şərbət verirdi. Siddiqə də tez-tez deyirdi: "Mən istəmirəm... İçə bilmirəm..." Biz də onu ələ salıb deyirdik: "Sən Allah, iç. Sən içməsən, biz hamısını içəcəyik!"

Bir gün şam yeməyinə kartofla yumurta bişirmişdik. Kişilərin heç biri gəlmədi. Gülüb deyirdik: "Bəsirət gözləri açıqdır. Necə olur ki, rəngarəng yeməklər bişəndə hər üçü gəlir, bu axşamsa heç biri gəlmədi!"

Şam yeməyindən sonra mehmanxananın böyük otağında hamımız yan-yana yatdıq. Dörd böyük batareya ilə işləyən tranzistorlu radiomuz vardı. Onu

açdıq. Guya radio dinləyirdik, amma öz röyalarımıza qərq olmuşduq. Mən çox vaxt əmimgilin evini düşünür, Xürrəmşəhrin 15 km aralıda olduğunu, amma oraya gedə bilmədiyimi yada salırdım. Fikirləşirdim ki, indi o ev nə haldadır? İkinci mərtəbədəki otağımız salamat qalıb, yoxsa yox? Əmim yoldaşının xalçaları, o qədər əşya və avadanlıqları kimin əlinə keçib? Albomum hələ də taxtın altındadır? Əgər bir namərd onu götürübsə, indi haradadır? Buraya çatanda dua edirdim ki, evə bir bomba düşmüş olaydı, bütün ev, əşyaları, xüsusən də albomum tüstü olub havaya uçaydı! Sonra anamın nəfis əşyalarını, xarici soyuducunu, beşgözlü qaz ocağını, daşla döşənmiş həyətimizi yada salırdım. Həyətimizin döşəməsini bəyənmədiyimə peşman olurdum. Çox fikirləşir, axırda yuxuya gedirdim.

Heç birimiz gecə yarısı təkbaşına tualetə getməyə cürət etmirdik. Şəhərin elektrik enerjisi çox vaxt kəsilmiş olurdu. Bir gecə Siddiqənin halı yaxşı deyildi, tualetə getmək istəyirdi. Lampanın fitilini imkan daxilində aşağı verdim və hamımız birlikdə həyətə düşdük. Siddiqə tualetə girdi, qalanı həyətdə dayanıb gözlədi.

Uzaqdan raket partlayışlarının və it sürüsünün hürüş səsləri gəlirdi. O qədər qan içmiş, ölü yemişdilər ki, quduzlaşmışdılar. Biz daha çox qarşıdakı məktəbdən qorxurduq. Özümüzü təhlükəsiz yerdə hiss etmək, ürəklənmək yerinə o hərbi hissədən qorxurduq. Bəhmən deyirdi: "Bunlar gəncdirlər, subaydırlar. Pərdələri kənara çəkməyin, ucadan gülməyin. Elə səs-küy salmayın ki, burada qadın

olduğunu bilsinlər. Aralarında düşmənin beşinci kolonundan adamlar da ola bilər". Kişilər bizə bir süngü və bir tapança verib hər üçümüzə istifadə qaydalarını, atəş açmaq tərzini öyrətmişdilər. Bunlar gecələr qorxumuzu artırırdı. Ətrafımızdakı əksər evlər boş idi. Şəhərdən qaçmış əhali Abadanın mühasirəsi yarılandan sonra qayıdıb əşyalarını yükləyir, başqa şəhərlərə aparırdılar. Boş evlər beşinci kolonun yerləşməsi üçün əlverişli idi.

Siddiqə tualetdən çıxdı, hamımız evə qaçdıq. Qapıları içəridən kilidləyib yataqlarımıza uzandıq, amma heç birimiz yata bilmədik. İtlərin səsi yaxınlaşırdı. Şəhər o qədər sakit idi ki, keşikçilərin "dur" səsini eşidirdik. Radio açıq idi, “Pilotlar, gəmiçilər” mahnısı yayımlanırdı. Bu mahnını sevir, eşidəndə yaxşı hisslər keçirir, əzbərlədiyim hissələrini müğənni ilə birgə oxuyurdum:

Pilotlar, gəmiçilər! Ey İranın ümidləri, fəxrləri!

Pilotlar, qəhrəmanlar! Sizinlə olsun Tanrının lütfləri!

Uç! Uç!

Haqq mələyi yar olsun! Allah mədədkar olsun!

Fikrim ikinci mərtəbədə, onun sakitliyində və qaranlığında idi. Düşünürdüm ki, birdən beşinci kolonun üzvləri yuxarıdan evə girərlər. Yuxarıdan ayaq səsləri eşidirdim. Qorxudan radionun səsini artırdım. Müğənni cəsarətlə, qorxmadan oxuyurdu, qorxu isə başımdan çıxmırdı. Ürəyim istəyirdi ki, Tehranda, Şirazda, hətta Qumda olaydım, amma belə bir vəziyyətə düşməyəydim.

Müğənni mahnının türkcə oxunan yerlərinə çatmışdı. Başa düşməsəm də, sevdiyimə görə tutuquşu kimi bir neçə beytini əzbərləmişdim:

Ərteşimiz[1] var olsun! Allah sizə yar olsun!

Xələbanlar,[2] mələvanlar![3] Yurdumuza iftixarsız!

Bəhmən səhər bir neçə qonaqla gəldi. Qardaşı Rəhmət zəng vurub demişdi ki, dayı yoldaşı ilə Abadana gəlir, evlərindən əşyalarını toplayıb Mahşəhrə aparacaqlar. Evləri Şirkətçilər məhəlləsində yerləşirdi. Əşyalarını çıxarmaq üçün ordudan icazə almalı, bəzi yoxlama və mühafizə mərhələlərini keçməli idilər. Kim necə gəldi, bir evin əşyalarını toplayıb apara bilməzdi.

Zöhrə ilə Höccətin də qonaqları vardı. Zöhrənin ata-anası onları görməyə gəlmişdilər. Mən çətin gecə keçirdiyimə görə onları görüb çox sevindim. Hərə bir iş görürdü. Zöhrə ilə qayınanası nahar yeməyi barədə düşünür, qəlyə-balıq bişirmək istəyirdilər. Qonağımız gəldiyinə görə sevinirdik. Duxovka olmadan zəncəfilli keks bişirməyi Zöhrənin qayınanasından öyrəndim. Sadə idi, halva kimi bişirilirdi, yalnız zəfəranla gülab yerinə zəncəfil tökür, axırda qəlibə salırdıq.

***

Fevral ayı idi. Bütün ölkədən 50-60 şəhid ailəsi Abadana gəlmişdi. Hamısı Əhmədabaddakı Şəhid evində qalırdı. Bir gecə Xürrəmşəhr korpusunun

---

[1] Ordumuz

[2] Pilotlar

[3] Gəmiçilər

qərargahında şəhidlərə mərasim keçirirdilər. Kişilər bizi də dəvət etdilər. Şükuh Allahəfşar məddahlıq edəcəkdi. O, inqilabdan qabaq Xürrəmşəhrdə qonşumuz olmuşdu. Yaxşı səsi vardı.

Məmnuniyyətlə qəbul etdik. Səhərdən axşama qədər evdə tək qaldığımıza görə hər hansı səbəbdən bir yerə getməyi sevirdik. Axşam qonaqlarımızla birgə yola düşdük. Gözlədiyimizdən çox adam vardı. Elə əvvəldə bir-birimizi itirdik. Ratsiya ilə zəng vurub Bəhməni çağırdılar. O, təmas xəttinə getdi. Şükuh yanıqlı növhə oxuyur, özü də ağlayırdı:

Buradan Xürrəmşəhrə qədər lalə əkmişəm.
Lalələrin arasına xəncər qoymuşam.
Bu yolda bitən lalələri dərməyin,
Onları qəlbimin qanı ilə becərmişəm.

Tehranın Mədəniyyət və incəsənət evindən bir ansambl gəlmişdi. Onlar da gözəl və təsirli bir mahnı oxudular.

Mərasim gecə bitdi. Nə qədər gəzdik, heç kimi tapmadıq. Evə necə qayıdacağımızı bilmirdik. Nə gecə parolunu bilirdik, nə də küçədə təkbaşına gəzməyə cəsarətimiz vardı. Başqa yolumuz yox idi; şəhid ailələrinin avtobusuna minib onlarla getdik. Əliyə nə əsgi götürmüşdüm, nə də əlavə paltar. Məni ağlamaq tutdu. Keşikçi hərbçilər bir neçə dəfə avtobusu saxlayıb gecə parolunu soruşdular, bir-iki dəfə avtobusun içinə girib hər yeri yoxladılar. Üzləri örtülü idi, onları tanımaq olmurdu. Əli onları görüb qorxur, ağlayırdı. Güclü yağış da yağırdı. Hava rütubətli və soyuq idi. Avtobusda soyuqdan titrəyirdik. Kübra paltosunu çıxarıb Əlinin üstünə

atdı. Əli altını islatmışdı. Nə edəcəyimi bilmirdim. Bəhmən yadıma düşdü. Onun qəşəng qara gözlərindən ötrü darıxırdım. Dolu qaşları sanki ortadan ütülənmişdi. O evdə tək ola bilməsək də, ona çox alışmışdım. Necə olsa da, istədiyim vaxt görə bilirdim.

Şəhid evinə çatanda qəmə batdım. Şəhid anaları başıma toplaşdılar. Əlini görüb sevinirdilər. Xanımların biri çantasından təmiz bir köynək çıxarıb mənə uzatdı və dedi: "Al, qızım, hələlik bundan əsgi kimi istifadə elə". Qəbul etmədim. Gülümsədi, mehribancasına Əlini alıb anama bənzər xüsusi məharətlə köynəyi şortik əvəzinə Əliyə bağladı və dedi: "Təmizdir, əmin ol". Əli sevinirdi. Xanım Əlini qucağıma tərtəmiz verib dedi: "Birdən ac olar. Ona süd ver". Paltomu döşək yerinə Əlinin altına sərdim. Bir xanım üstünə ədyal sərdi, əyilib onu öpdü. Hava soyuq idi. Əlini ortaya qoyduq, Kübra ilə ona yapışdıq ki, qızışsın. İki şəhid anası olan xanım Nurani bir ədyal gətirib üstümüzə atdı və yanımızda uzandı. Kübra ilə birgə şəhid ailələri üçün ağlayırdıq. Xanım Nurani yanımızda oturub şəhid oğlundan danışmağa başladı. Onunla bir-birimizi illərdir tanıyırdıq. Biri şəhid olmuş, biri də həmişə cəbhədə olan Həmid və Səid Ərcəi[1] qardaşlarından, üç-dörd oğlundan sonra bu yaxınlarda əri də şəhid olmuş bir qadından danışdı. O danışır, biz ağlayırdıq. Həmin qadını görmək istəyirdim. Xanım Nurani uzaqdan onu bizə göstərdi. İnanılmaz idi; biz onun üçün ağlayırdıq,

[1] Sonra o biri qardaş da şəhadətə qovuşdu.

o isə qadınları başına toplayıb onlarla danışırdı. Hərdən xanımların gülüş səsləri gəlir, Əli yuxudan diksinirdi. Xanım Nurani dedi: "Qızım, Xürrəmşəhr üçün çox darıxıram. Vallah, Xürrəmşəhrə ürəyim yandığı qədər şəhid oğluma ürəyim yanmır. Xürrəmşəhrdən nigaran qaldığım qədər cəbhədəki oğullarımdan nigaran deyiləm. Onlar mənim burada, bir neçə addımlıqlarında olduğumdan xəbərsizdirlər; oğullarımı deyirəm. Nə olardı ki, Xürrəmşəhr körpüsündən bir də o tərəfə keçə biləydik!"

Novruz bayramına az qalırdı. Əməliyyat da yaxınlaşırdı. Bunu kişilərin get-gəlindən anladıq. Xüsusən də bizi arxa cəbhəyə göndərmək istəyirdilər. Gecələr heç biri gəlməyəndə, tək qalıb hamımız bir yerə toplaşanda başımıza bir ədyal atır, lampanın fitilini ortaya qoyurduq. Yalnız bircə Məfatih kitabımız vardı. Pırtıldayan lampanın zəif işığında növbə ilə Təvəssül duasını oxuyurduq. Kübranın oxumaq növbəsi çatanda ağlamaq gülməyə qarışırdı. O, məclis xanımları kimi dua oxumaq istəyirdi; səsini boğazına salırdı, burnunda və yanğı ilə oxuyurdu, bizi də gülmək tuturdu. Çalışırdıq üz vurmayaq, amma nəhayət, biri duanın ortasında pıqqıldayır, partlayış halında olan digərləri də bərkdən gülüşürdülər. Sonra uğunub yerdə çapalayırdıq.

# Doqquzuncu fəsil

1982-ci ilin novruz bayramı idi. Kişilərlə avtobusa mindik. Əvvəlcə Əznaya gedib bir gecə qaldıq. Hava soyuq idi. Zöhrə, Höccət və anası öz şəhərlərində qaldılar. Məhəmməd zarafatla Höccətə deyirdi: "Höccətülislam, gəl gedək Quma, sənin yerin möhtərəm ruhanilərin yanıdır!" Höccət gülürdü.

Biz Kübra, Həsən ağa, Əhməd Qəndəhari və Siddiqə ilə birgə Quma getdik. Anamla qayınanam bayrama Röyagilə getmişdilər. Sağər, yoldaşı və uşaqları da orada idilər. Qayınanam bizi görüb olduqca sevindi, oradaca Bəhmənə 80 min tümən verib dedi ki, get, özünə maşın al.

Bəhmən Əlini sünnət elətdirmək qərarına gəldi, ona kiçik toy etdi. Məni Röya ilə birgə gözəllik salonuna göndərdi və mən ilk dəfə saçlarımı boyadım.

Bəhmənin Qumda Rza Baqiri adlı dostu vardı. Orada qaldığımız bir neçə gündə onunla birlikdə idi. Bir gün Tehrana getdilər, qayıdanda Bəhmən mənə bir çanta verdi. Mənə tünd qırmızı rəngli qəşəng bir çanta, bir dəst krem rəngli yubka-pencək almışdı. Yubka-pencəyin sağ-solunda xovlu yaxası vardı.

Dama-dama bir klyoş yubka da almışdı. Viver ətrindən xoşum gəldiyini bilirdi; ondan da almışdı. Bu qədər hədiyyə gözləmirdim. Əliyə bir dəst paltar, özünə bir Koreya gödəkcəsi almışdı. Sonra mənə bir qutu verdi. Qızıl kulonlu Yəzd boyunbağısı idi. Təəccüblə dedim: "Bəhmən, axı sənin pulun yox idi!" Gülümsəyib dedi: "Səs eləmə, 80 min tüməndir; maşının pulu. Müharibə vaxtı maşın nəyimizə lazımdır?! Maşını apararıq ora, üstünə bir raket düşər, tozu da qalmaz". Dedim ki, bəs anana nə deyəcəksən? Göz vurdu, qara badam gözlərini xumarlayıb dedi: "Anam mənim sevinməyimi istəyir. Mən də belə sevinirəm". Dəcəlcəsinə gülümsəyib əlavə etdi: "Hələ üç mini qalıb. Axşamüstü sənə bir bilərzik alacağam".

Gözümü Bəhmənə dikib durmuşdum; qara bitişik qaşlarına, düz burnuna, həmişə parlaq olan qəşəng dodaqlarına baxırdım. Bu çöhrə həmin anda necə də gözəl və sevimli idi! Atam yadıma düşdü, gözlərimdən yaş axdı. Öz-özümə dedim ki, Allah rəhmət eləsin, kaş sağ olub kürəkənini görəydi! Bu zaman üzünü turşudub dedi: "Yenə ağlamaq?! Söz vermişəm ki, gözlərindən yaş axmasına qoymayım. Sən Allah, gülümsə". Gülməklə ağlamaq bir-birinə qarışdı.

Baharın ilk həftəsi idi. Kişilər qərara gəldilər ki, Məşhədə gedək. Əl-Mehdi mehmanxanasında otaq tutdular. Əhməd Qəndəhari ilə Siddiqə də Siddiqənin anasıgilə getdilər. Mehmanxana kiçik, səliqəsiz və çirkli idi, otaqlarda tualet yox idi. Uzun dəhlizin sonunda kiçik bir tualet vardı, qadın və uşaqlar həmişə qapının ağzında dayanıb növbə gözləyirdilər.

Bilmirdim Əlini necə yuyub-təmizləyim. Bəhmən dedi ki, fikir eləmə, böyük bir ləyən, bir kauçuk aftafa, bir bədən şampunu və bir neçə qutu salfet aldı. Aftafa ilə hamamdan isti su gətirdi. Yerə böyük bir zibil torbası sərib ləyəni üstünə qoydu və Əlini yuyundururdu. Hətta otağın kovroliti üzərində namaz qılmaqdan da çimçəşirdim. Ləyəndə dəstəmaz aldım, öz mələfələrimi yerə sərib namaz qılmağa başladım. Bəhmən yemək almağa getdi. Bir saatdan sonra qayıdıb dedi: "Hazırlaş, gedək!" Su meydanında yaxşı bir otaq kirayə eləmişdi. Əlavə pul verib demişdi ki, mələfələri buxarla sterilizasiya etsinlər.

Siddiqənin anasıgilin evi İmam Rza (ə) xiyabanında 10-cu küçədə yerləşirdi. Bizə təmtəraqlı nahar süfrəsi açmışdı. Eləcə oturub evinə tamaşa etmək istəyirdik. Təmizlikdən hər yer parlayırdı. Divara türkmən bellikləri söykəmiş, üzərlərinə üçkünc ağ dekorativ toxuma sərmişdi. Parıltılı xalçaları təmiz idi, süpürülmüşdü. Elektrik açarları və yuvaları ağappaqdı, üzərlərində zərrə qədər də ləkə yox idi. Mətbəxdən xörək ətri gəlirdi. Otağın ağ pərdələrini kənara çəkmişdilər, günəş pəncərələrin yanındakı güllə dolu şamdangülü dibçəklərinə saçırdı. Yoldaşı və uşaqları mehriban və sevimli insanlar idilər. Evə girən kimi Əlini qucağımdan aldılar, bir də axşam sağollaşanda qaytardılar. Əli çox ərköyünləşmişdi, qucaq istəyirdi.

Hamının səfərdən həzz aldığı yerdə xəbər gəldi ki, kişilər qayıtmalıdırlar. Siddiqə Məşhəddə qaldı. Bəhmənlə Həsən Müvəhhidi Kübra ilə məni Quma apardılar, özləri Abadana qayıtdılar. Mən yenidən

radio, əməliyyat marşı, xəbərlər, elanlar, həyəcan və nəzir-niyazla baş-başa qaldım.

Bəhmən aprelin əvvəllərində zəng vurub darıxdığını söylədi və mənim oraya getməmi istədi. Qərara gəldik ki, Əhvaza qədər anamla gedim. Qatarla yola düşdük. Əhvazda Bəhmənin dostlarından biri bizi gözləyirdi. Onunla birlikdə Abadana getdik.

Yenidən Hacı ağa Məkkinin evinə getdik. Adamsız olduğuna görə sıxıcı idi. Bəhmən Həsən Müvəhhidiyə xəbər yolladı ki, Kübranı yanımıza gətirsin. Bir neçə gündən sonra Kübra gəldi. Halı yaxşı deyildi. Siddiqə hamiləliyinin axırıncı ayı olduğuna görə gələ bilmədi. Höccətsə Zöhrəni Əznadan gətirdi. Yenidən bir yerə toplaşdıq.

Abadanın vəziyyəti yaxşı deyildi. Bombardmanlar çoxalmışdı, hava da isti idi. Səhərdən axşama qədər Kübranın ürəyi bulanır, bir şey yemirdi. İsti ona pis təsir edirdi. Beşinci kolon şəhərdə təhlükəsizliyi pozmuşdu. Hətta iki gün evdən bayıra çıxıb Kübranı həkimə apara bilmədik. Axırda Həsən onu Quma aparmağa məcbur oldu. Şəhər gecə-gündüz bombalanır, evlər raket altında dağılırdı. Hər gün pəncərələrimizin daha çox şüşəsi sınırdı.

Bir gün Bəhmən evə gələndə qanı qara idi. Təklikdə mənə dedi: "Nəsrin, Höccət ağır yaralanıb. Məcbur qalıb bir ayağını kəsdilər. İndi Taliqani xəstəxanasındadır. Zöhrəni onun yanına aparmaq istəyirik. Ona birtəhər deyə bilərsənmi?" Öz-özümə fikirləşdim ki, yaralanmaq şəhid olmaqdan çox yaxşıdır. Zöhrə mətbəxdə idi. Ona yaxınlaşıb dedim: "Zöhrə, sənə bir söz demək istəyirəm. Eşitməyə

taqətin var? Narahat olmazsan?" Zöhrə həyəcanlandı, iki əli ilə başına vurub dedi: "Nə olub? Höccət şəhid olub?" Dedim ki, yox, yaralanıb. Qışqırıb çadrasını asılqandan götürdü və həyətə qaçdı. Bəhmən Zöhrənin ardınca qaça-qaça dedi: "Nəsrin, ona nə dedin?"

Günortadan sonra Bəhmənlə birgə Ariyən xəstəxanasına Höccəti ziyarət etməyə getdik. İnqilabdan sonra onun adını Taliqani xəstəxanası qoymuşdular. Gördüklərimə təəccübləndim. Xəstəxanada çoxlu qadın işləyirdi; döşəməni silir, yaralılara serum taxır, iynə vururdular. Bəhmən deyirdi ki, xanımlar xəstəxananın camaşırxanasında dayanmadan yaralıların qanlı paltarlarını yuyurlar. Yeməkxananın işçiləri də qadınlar idilər.

Höccətin otağına yaxınlaşanda qışqırtı səsini tanıdım. Zöhrə ağlayıb deyirdi ki, yenicə özünə gəlib. Höccət ağrıdan qışqırırdı: "Ya İmam Hüseyn!" Zöhrə deyirdi ki, ayağının iltihabı sağalmır. Doğru deyirdi. Çirk və qan qoxusu gəlirdi. Bəhmən ona ağrıkəsici iynə vurdurmaq üçün tibb bacılarının yanına getdi. Zöhrə deyirdi ki, səhərdən ona on morfi vurublar. Höccət qışqırırdı: "Zöhrə, ayağımın barmağı gicişir!" Zöhrə də ağlayır, kəsilmiş ayağın nəyini qaşımalı olduğunu bilmirdi. Biz qayıdanda ağlaya-ağlaya dedi: "Nəsrin can, nə pislik görmüsənsə, halal elə. Güman ki Höccəti Xürrəmabada, ya da Bürucerdə göndərəcəklər. Bilmirəm, amma burada qalası deyil. Birlikdə gözəl günlər yaşadıq. Hər şey heyf oldu, heyf!" Sonra qucaqlaşıb hər ikimiz bərkdən ağlamağa başladıq.

Maşında Əli mənim qucağımda idi. Birdən Bəhmən ağlamağa başladı. Ötürücünün üstündəki əlindən tutdum.

– Bəhmən can, yenə nə olub?

Ağlamaq səsi daha da ucaldı. Dedim: “Sən Allah, de görüm, nə olub. Sən Nəsrinin ölmüşü!" Ağlaya-ağlaya dedi: "Allah eləməsin! Əhmədin uşağı dünyaya gəlir, Əhmədsə... itkin düşüb. Uşaqlar deyirlər ki, önündə raket partlayıb, ondan heç nə qalmayıb". Kədərli halda soruşdum: "Yəni şəhid olub?" Maşını evin önündə saxlayıb dedi: "Bilmirəm... Heç nə bəlli deyil. Onun üçün dua elə!" Soruşdum ki, evə gəlmirsən? Hələ ağlayırdı. Güclə cavab verdi: "Yox, gərək Əhmədi tapım. Onun uşağına ata lazımdır". Ağlaya-ağlaya maşından düşdüm. Biz evə girənə qədər maşında gözlədi, sonra qaza basıb sürətlə küçədən çıxdı.

Evə girəndə hər yer gözümə qara və kədərli göründü. Daha mətbəxdən xörək ətri gəlmirdi. Bəhmənə su lazım olduğunu söyləmək də yadımdan çıxmışdı. Mətbəxə keçib əlimlə su bakına vurdum, səsindən bildim ki, boşalmaq üzrədir. Əli qucağımda zarıyırdı, əlim heç bir işə yatmırdı. Höccət Musəvinin, onun kəsilmiş ayağının və Zöhrənin ağlar gözlərinin fikri məni rahat buraxmırdı. Bir qədər sonra Əhməd Qəndəhari yadıma düşdü və dedim: "İlahi! Özün ona kömək ol!"

Küçədən itlərin hürüş səsləri gəlirdi. Onların şübhəsiz, bir neçə saat öncə hansısa kənddə bir qadını, kişini, yaxud uşağı parçalayıb yediklərindən belə quduzlaşdıqlarını fikirləşəndə halım pisləşirdi.

Qəhvədanı götürüb baka yaxınlaşdım. Su qaynadıb Əliyə serelak hazırlamaq istəyirdim. Qəhvədanı qazın üstünə qoydum. Qazı açdım, amma heç bir səs eşitmədim. Buna baxmayaraq, yanar kibriti yaxınlaşdırıb yenidən qazı açdım. Bütün gözlərini yoxlayıb kibriti yaxınlaşdırdım. Qaz da bitmişdi. Pəncərələri Ələvi məktəbinə açılan otaqda oturdum. Ev yoldaşlarımla o otaqda necə xoş günlər keçirdiyimi xatırladım. Əlini qucaqlayıb sinəmi ağzına qoydum. O, iştahla süd əmməyə başladı, mənsə qarşı tərəfdə iki yüz əsgərin yaşadığını, onların arasında beşinci kolon üzvlərinin olduğunu və maşından düşəndə məni gördüklərini fikirləşib qorxurdum.

Əli qucağımda yuxuya getdi. Altına və üstünə bir ədyal sərdim, yanında uzanıb Bəhməni gözləməyə başladım. Birdən ev titrədi, bir qədər şüşə qırılıb yanımıza töküldü. Əli qorxulu partlayış səsindən diksinib qışqırdı. Onu qucağıma götürüb əlimi ağzına qoydum. Bəhmən həmişə tapşırırdı ki, Əlinin səsi bayıra getməsin, əsgərlər burada qadın və uşaq olduğunu bilməsinlər.

Zala doğru qaçanda bir neçə partlayış səsi yenidən evi titrətdi və şüşə qırılmasının səsi gəldi. Əli ucadan ağlayırdı. Mən nə edəcəyimi bilmirdim; bilmirdim ki, həyətə çıxım, yoxsa evdə qalım. Hələ də top və raket səsləri gəlirdi, amma uzaqdan. Zalın küncündə qapı və pəncərəsiz üçkünc bir yer vardı. Orada oturub Əlini yedizdirməyə başladım.

Hava qaralmışdı. Ayağa qalxıb lampanı yandırmağa qorxurdum. İtlər də dayanmadan hürürdü.

Sanki həyətdə idilər, içəri girib bizi parçalamaq istəyirdilər. İtlərin hürüşü və bombardmanın aramsız partlayışları arasında snayper tüfənglərinin səsi də gəlirdi. Məncə, beşinci kolondan idilər. Abadanda olduğumuz müddətdə elə bombardman görməmişdim. Fikirləşirdim ki, kaş Zöhrə, Kübra və digərləri yanımda olaydılar və bu qədər qorxmayaydım. O səs-küy arasında Bəhmənin gəlib zəngə basacağını gözləyirdim. Əli qucağımda yenidən yuxuya getdi, amma hələ bəzən süd əmirdi. Ac idim, ancaq ayağa qalxıb mətbəxə getməyə cəsarət etmirdim. Saatdan da xəbərim yox idi. Əlini yerə, əlimi də başının altına qoyub həmin üçkünc yerdə balışsız, ədyalsız uzandım. Əlinin ətri və nəfəsinin səsi məni sakitləşdirirdi. Buna baxmayaraq, səhərə qədər yata bilmədim, sübh açılandan sonra özümdən getdim.

Əli oyanmışdı və tərslik edirdi. Yuxulu-yuxulu ayağa qalxıb çantamı gətirdim. Bir neçə qutu pampers gətirdiyimə görə sevinirdim. Əlini qəhvədandakı su ilə hamamda yudum. Ac idim. Fikirləşirdim ki, Bəhmən bu gün mütləq gəlib bizə səhər yeməyi gətirəcək. Düşündüm ki, o gələnədək istirahət edim. Əlini yatızdırıb özüm də uzandım. Əli şən və gümrah idi. Əl çəkmir, mənimlə oynamaq istəyirdi, mənsə yuxudan ötrü ölürdüm. Mətbəxdən qazan və qaşıq gətirib qarşısına qoydum. Oturub qaşıqla qazana vurmağı təzə öyrənmişdi, bununla əylənirdi. Əlinin səs-küyü altında yuxuya getdim.

Mən oyananda Əli bir tərəfdə yatmışdı, qaşıq hələ əlində idi. Bir qədər evdə gəzişdim. Ədyal və balışları

gətirib Əlinin ətrafına divar çəkdim ki, yuxudan oyansa, iməkləyə-iməkləyə bir yerə getməsin.

Bir də yuxudan oyananda axşamüstü idi, Əli ağlayırdı. Südünü verib altını dəyişdirdim. Ac idim. Mətbəxə keçib bir stəkan su içdim. Su palçıq iyi verirdi. Bak yosunlamışdı. Mətbəx şkafının içini axtarmağa başladım. Yeməyə bir lobya konservindən başqa heç nə tapmadım. Məcbur qalıb açdım, soyuq-soyuq çörəksiz yeməyə başladım.

Əli ədyal və balışlardan düzəltdiyim otaqda qazan və qaşıqla məşğul idi. Yadıma düşdü ki, ona oyuncaq gətirmişəm. Anamın aldığı oyuncaq maşını çantamdan çıxarıb ona verdim, sonra ayağıma çəkələk geyinib axşam şüşələri sınmış otağa girdim. Pərdə ilə karniz yerə düşmüşdü. Qapını bağlayıb bayıra çıxdım. Bəhmən gəlib şüşələri dəyişməli idi. Fikirləşdim ki, o vaxta qədər zalda qalım və bizi heç kim görməsin. Sonra düşündüm ki, bayıra işıq düşməsə, evdə heç kimin olmadığını bilər və hər hansı səbəbdən evə girərlər... Nə edəcəyimi bilmirdim.

Hava yavaş-yavaş qaralırdı. Bəhmən hələ gəlməmişdi. Hirslənirdim ki, nə üçün bizi fikirləşmir, ailə-uşağını 24 saat tək və ac-susuz qoymağa necə ürəyi gəlir, niyə belə laqeyddir!

Axşam düşən kimi yenə qorxmağa başladım. Beynimdən müxtəlif fikirlər keçirdi. Mənə elə gəlirdi ki, ikinci mərtəbədən ayaq səsi gəlir; üstəlik, qapıların açılıb-bağlanma səsi, küçənin səsləri, həyətdə iki nəfərin danışması, beşinci kolonun atışması, itlərin hürüşməsi...

Əli ac idi, ağlayırdı. Mən də bir şey yemədiyimə görə südüm azalmışdı; nə qədər sorurdusa, daha çox məyus olurdu. Onu sakitləşdirə bilmirdim. Özümü də ağlamaq tuturdu. Fikirləşirdim ki, bəs Bəhmən haradadır? Əhməd Qəndəharinin anası üçün darıxdım. Ürəyimdə dedim ki, kaş burada olaydı! Kaş bizə bişirdiyi südlü aşından bir kasası burada olaydı! Kaş Siddiqənin qayınanası burada olaydı, bizə balıq-plov və səbzi xuruşu bişirəydi! Qayınanamın qəlyə-balıqları üçün də darıxmışdım. Necə də dadlı idi! Süfrəyə yuxarıdan baxıb yoxlayırdı ki, əyər-əskik olmasın və sonra tez-tez deyirdi: "Yeyin! Nuş olsun! Yeyin! Getdiyi yerdə dərd-qəm olmasın!"

Axşam saat on, ya da on bir idi. Bəhmən hələ gəlməmişdi. Aclıqdan və nigarançılıqdan təngə gəlmişdim. Əli də dayanmadan ağlayırdı, sakitləşdirə bilmirdim. Məcbur qalıb qucağıma götürdüm, zalda gəzişə-gəzişə laylay oxumağa başladım.

Gecənin yarısı oldu. Çox həyəcanlı idim, amma qalxıb həyətə çıxmağa qorxurdum. Yox, heç vaxt! Əli bir yerdə qalmırdı. Onu qucağıma götürdüm. Öpür və qulağına deyirdim:

– Əli can, yaxşı oğlan ol! İndi atan Bəhmən gələcək, bizə su gətirəcək, yemək gətirəcək: şam yeməyi, çörək, pəmpəm! Əli yeyib kökəlir, böyüyür, gedib düşmənlə vuruşur...

Əli dinləyir, xoşu gəlir, mən dayanan kimi ağlamağa başlayırdı. Onu bir neçə saat zalda gəzdirdim. Partlayış səsləri kəsilmirdi.

Bilmirəm saat neçə idisə, birdən evə isti külək girdi, bütün qapılar açıldı, sınmamış şüşələr də sındı

və bir gurultu qopdu. Zalın ortasından qapının önünə düşdüm. Əli hələ qucağımda idi. Əlimi ağzına qoydum ki, səsi çıxmasın. Əsgərlərin səsi gəlirdi. O haray-həşirdə dua edirdim ki, heç kim evə girməsin. Bayırda qiyamət idi, amma qaranlıqda heç nə görə bilmirdim. Əli ilə birgə ağlayırdıq. Partlayış səsləri dayanmırdı. Sanki Abadanı yerlə-yeksan etmək istəyirdilər. Fikirləşdim ki, birdən iraqlılar şəhərə girmiş olarlar. Əgər Xürrəmşəhr kimi Abadan da işğal olunsa... Vay... Əsirlik barədə hətta bir an da fikirləşə bilmirdim.

Bir qədər sonra səslər azaldı. Zalın küncünə, Əlinin balış evinə sığındım. Əli qucağımda idi. Üstünə bir ədyal sərib onu öpməyə başladım. Saçı və üzü göz yaşlarımla islandı.

Səhər açıldı. Gecəki partlayış dalğasından evdə hər şey alt-üst olmuşdu. Qablar mətbəxin yerinə tökülmüşdü. Lobya, noxud və mərcilər şüşələrin və ev sahibinin sınmış büllur qablarının qırıntılarına qarışmışdı. İşlətməyə ürəyimiz gəlməyən sarı pireks boşqab və stəkanlar mətbəxin yerinə tökülmüşdü. Fikirləşirdik ki, bir gün ağa Məkkinin yoldaşı qayıdıb bu evdə yenidən yaşamağa başlayacaq, bu boşqablarda qonaqlarına xörək çəkəcək. Otaqların qapıları açılmış, bütün şüşələri qırılıb yerə tökülmüşdü.

Üçüncü axşam da Bəhmən gəlməyəndə əmin oldum ki, başına bir iş gəlib. Düşündüm ki, mütləq şəhid olub; çünki özü gələ bilməsəydi də, kimdənsə bizə su və yemək göndərərdi. O, yeməyə heç nəyimizin olmadığını bilirdi. Əli aclıq və susuzluqdan

qışqırırdı. Başqa yolum yox idi; bakın dibindəki yosunlamış su ilə ona serelak hazırladım. O, iştahla yeyirdi, mənsə uşağımın o sudan öləcəyindən qorxurdum. Dəli kimi mətbəxə girdim. Salamat stəkan tapmadım. Ağzımı baka söykəyib pis qoxu gələn isti suyundan doyunca içdim. Əli hələ də ac idi. Ona yenə bir kasa serelak hazırladım və birlikdə yedik. Onun dadı heç vaxt yadımdan çıxmaz. Bir az sonra Əli doydu, mənsə hələ taqətsizlikdən yeriyə bilmirdim.

Çox tezliklə palçıqlı su və serelak da bitdi. Daha Əlini heç bir yolla sakitləşdirmək mümkün deyildi. Bir neçə dəfə beynimə gəldi ki, onu götürüb evdən çıxım, Əhmədabaddan bir şey alıb qayıdım, ya da pasdar xanımların toplaşdığı Teleradio prospektinə gedim. Oraya gedə bilsəydim, Bəhməndən mütləq bir xəbər öyrənərdim. Ən azı, digərləri mənim evdə tək olduğumu bilərdilər. Lakin qarşıdakı məktəb və beşinci kolon barədə düşünəndə fikrimdən daşınırdım. Hərçənd əsgərlərin orada olması məni bir az ürəkləndirirdi.

Fikirləşirdim ki, bəlkə də iraqlılar şəhərə giriblər və Abadan işğal olunub. Bu fikirlə azca cəsarətimi də itirirdim. Radionu axtarmağa başladım. Radio olsaydı, o dörd divardan bayırda nə baş verdiyini öyrənə bilərdim. Gözlədim ki, axşam olsun və otaqlara keçə bilim. Radionu hava qaralandan sonra birinci gün Əlini yatırtdığım otaqdan tapdım, ancaq nə qədər qurdaladımsa, işləmədi. Batareyaları bitmişdi. Son şansım da əldən çıxdı. Hansı gün olduğunu da bilmirdim. Artıq nə mənim taqətim qalmışdı, nə də

Əlinin. Hər ikimiz səhərdən axşama qədər bir tərəfdə uzanıb qalırdıq. Hətta Əlinin altını da dəyişdirə bilmirdim. Əli daha nə ağlayırdı, nə də oyanırdı. Özüm də yavaş-yavaş dərin yuxuya gedirdim.

Bəzi səslər eşidirdim. Bəhmən evə gəlmişdi. Anam, qayınanam, əmim, bacılarım və digər qohumlarım evdə idilər, deyib-gülürdülər. Yenə adamla dolu süfrələr, xörək ətri, boşqabların şaqqıltısı... Sanki evdə toy idi. Sevincək gözümü açır, amma görürdüm ki, hər yer lal-kordur, istidən yer-göy qaynayır, Əli ilə tər-suyun içindəyik...

Sinəm Əlinin ağzında idi. Taqətsiz damaqları hərdən bir damla süd ümidi ilə tərpənirdi. Yuxu ilə ayıqlıq arasında bir səs eşitdim:

– Əli... Bala, gəl... Mənəm... Əli...

Kimsə qapını bərk döyür, tanış bir səs bizi səsləyirdi:

– Əli... Mənəm, Həsən əmi. Qapını aç.

Elə bilirdim ki, yenə yuxu görürəm, ya da epilepsiya tutmalarıdır. Lakin səs kəsilmək bilmirdi:

– Əli, qapını aç... Səni atanın yanına aparmağa gəlmişəm...

Gözümü açıb yaxşı qulaq asmağa başladım. Kimsə qapını bərk döyürdü. Həsən Müvəhhidinin səsi idi. Ayağa qalxmaq istədim, amma sanki üstümə ağır bir şey düşmüşdü və məni tərpənməyə qoymurdu. Həsən qapını döyür, onu sındırmaq istəyirdi:

– Əli... Əlinin anası, mənəm...

Epilepsiya tutmalarım başlamışdı. Özümə gəlib mələfələrin birini birtəhər başıma atdım. Nə qədər çəkdiyini bilmirəm, amma nəhayət, ensiz dəhlizdən

keçib qapıya çatdım. Həsən Müvəhhidi dayanmadan çağırır, qapını döyürdü. Qapının cəftəsini qaldırmağa gücüm yox idi. Həsən qapının arxasında kiminsə olduğunu bilib tez-tez deyirdi: "Mənəm, qorxmayın, qapını açın. Sizə su gətirmişəm". Bütün qüvvəmi əllərimə toplayıb cəftəni qaldırdım. Qapı açılan kimi olan-qalan gücümü də itirib yerə yıxıldım. Həsən Müvəhhidi hər iki əli ilə başına vurdu və tez evə qaçdı.

Gözümü açanda üz-başımdan su damırdı. Maşında idim. Həsən Müvəhhidi orada, Əli də qucağında idi. Sürücünün yanında heç kim yox idi. Yolda tıxac vardı, kamuflyajlı hərbi avtomobillərlə dolu idi. Yenidən yuxuya getdim.

Həsən Müvəhhidi o tərəfdə pəncərənin yanında oturmuşdu, mən də bu tərəfdə. Hərdən üzümə bir ovuc su çiləyirdi. Paltarlarım islanmışdı. Bir də özümə gələndə fikirləşdim ki, haradayam, bütün o əhvalatı yuxudamı görmüşəm?

Həsən Müvəhhidi mənə bir şokolad verib dedi: "Oyaqsan? Bunu yeyə bilərsən?" Birdən özümə gəlib ləfəni başımda bərkitdim. O, başını aşağı salıb qucağında yatmış Əliyə baxırdı. Mənə dedi: "Əliyə verdim, yeyib yatdı. İndi yaxşıdır". Şokoladı alıb ağzıma qoydum. Yavaş-yavaş yuxum qaçdı. Soruşdum ki, Bəhmən haradadır, niyə gəlməyib? Dedi ki, əməliyyatla məşğuldur. Dedim: "Çox nigaran qaldım. Neçə gündür bizi qoyub gedib. Heç vaxt belə etməzdi. Mütləq başına bir iş gəlib. Siz bilmirsiz? Düzünü deyin". Müvəhhidi çox ciddi şəkildə dedi: "Yox, vallah, xəbərim yoxdur. Çoxdandır

görməmişəm. O, Kutşeyxədədir, mənsə poçtda". Soruşdum ki, bizim evdə olduğumuzu haradan bildin? Dedi: "Ağa Zamani mühəndis Qərəzi ilə birgə Əhvaza yoxlamaya gəlib. Mən poçtda idim. Bəhməni soruşdu. Dedim ki, rabitə naqillərini çəkmək üçün önə gedib. Ağa Zamani soruşdu ki, bəs yoldaşı və uşağı haradadır? Birdən yadıma düşdünüz. Başıma vurub dedim ki, ey dad-bidad, Bəhmənin başı qarışıb, gələ bilmir, siz də tək qalmısız. Ağa Zamani Əhvazdakı baldızının ünvanını verib dedi ki, sürücü ilə gedin, bacım qızını oraya aparın". Soruşdum ki, bəs İsmayıl dayımın özü haradadır? Dedi: "Mühəndis Qərəzi ilə təmas xəttinə bölgəni yoxlamağa və vəziyyəti araşdırmağa getdi".

Maşının pəncərəsindən bayıra baxırdım. Yolda tıxac vardı. Palçıqla gizlədilmiş avtobus və mikroavtobuslar Abadana yollanan döyüşçülərlə dolu idi. Yolda yeyinti məhsulları ilə dolu kiçik və böyük yük maşınları da hərəkət edirdi, üzərlərinə vurulmuş plakatlara hansı şəhər və əyalətin hədiyyəsi olduğu yazılmışdı. Təcili yardım maşınları isə daha sürətlə gedirdi. Fikirləşdim ki, birdən Bəhmən bu maşınların birində olar. Bu fikirlə canıma lərzə düşdü. Gözlərimi yumub fikirləşməyə çalışdım ki, Bəhmən yaxşıdır və tezliklə bir-birimizi görəcəyik. Hələ yarıhuşlu idim, yuxum gəlirdi, göz qapaqlarım və başım mənə ağırlıq edirdi.

Avtomobilin sürəti azalanda və bir neçə tramplinin üstündən keçəndə yuxudan oyandım. Əli Həsən Müvəhhidinin qucağında idi. Qarnının böyüyüb-kiçildiyini görüb arxayınlaşdım. Harada olduğumuzu

bilmirdim. Əhvazı tanımırdım. Sürücü bir evin qabağında əyləcə basdı. Həsən Müvəhhidi maşından endi. Xürrəmşəhrdəki evimiz kimi bu evin də qapısı açıq idi, arxasından pərdə asılmışdı. Həsən Müvəhhidi zəngə basdı. Bir qədər sonra ortayaşlı bir qadın pərdəni kənara çəkdi. Başında rəngli çadra vardı. Həsən Müvəhhidi onunla danışdı. O, Əlini Həsəndən alıb maşına yaxınlaşdı, qapını açıb sürücüyə və mənə salam verdi, sürücüyə maşından enib şərbət içməyi təklif etdi. Sonra üzünü mənə tutub dedi: "Buyur, qızım, çox xoş gəlmisən. Bura öz evindir. Qədəmlərinə qurban!" Maşından enib sürücü və Həsən Müvəhhidi ilə sağollaşdım.

Axşamüstü idi. Qadın pərdəni kənara çəkdi, güllü bağçaları və ortada bir hovuzu olan böyük bir həyət göründü. Aprel ayı idi, sarı və çəhrayı güllər bağçanı doldurmuşdu. Hündür ağaclar və hovuzun ətrafındakı kaktus dibçəkləri həyətə xüsusi gözəllik verirdi. Giriş qapısının qarşı tərəfi və evin sağ hissəsi ikimərtəbəli otaqlarla dolu idi. Xürrəmşəhrdəki ata evimizi xatırladım. Qadın mənə dedi: "Mən səni çox görmüşəm. Səkinə banunun qızısan, kiçik qızı. Ancaq adını unutmuşam". Dedim ki, Nəsrin. Gülüb dedi: "Hə, Nəsrin. Düz deyirsən; Nəsrin". Sonra dedi: "Nəsrin can, bura öz evindir. Yalnız bu bir neçə gündə bir qədər qarışıb. Böyük oğlumun və kiçik qızımın toyudur". Gülümsədim. O, əlavə etdi:

- Allah atana rəhmət eləsin! Bir qızım qırx gün öncə doğuş zamanı dünyadan köçdü. Bir qızı, bir oğlu, bir də həmin körpəsi qalıb. Bu kiçik qızımı kürəkənimə verdim. Uşaqlarının yad əllərdə

böyüməsini istəmədim. İstixarə etdim. Allahın tövsiyəsi də budur.

- Vay... Sara xanım? Allah rəhmət eləsin! Ağa Cahanaranın toyundakı? Hüseyn ağanın yoldaşı?"

Təəssüflə başını yellədi.

- Hə.

- Allah səbir versin! Çox narahat oldum.

- Birinci mərtəbədə sənə sakit bir otaq verəcəyəm. Necədir?

Birinci mərtəbədəki otaqlardan birinin qapısını açdı. Otaq xalça ilə döşənmiş, bütün divarlara bellik düzülmüşdü. Taxçaların üstü Quran və Məfatih kitabları ilə dolu idi. Qapını açıb dedi: "Buyur, qızım, bura Quran sinfidir. Xanımlar səhərlər buraya gəlib Quranın üzündən oxunmasını, əzbərlənməsini və təfsirini öyrənirlər. Burada ürəyin istəyən qədər otaq var. Onları bir neçə gün başqa otağa göndərəcəyəm".

Otaq təmiz və səliqəli idi, ətir iyi gəlirdi, sanki orada rahatlıq və təhlükəsizlik hökm sürürdü. Hovuzun önündəki pəncərə açıq idi. Külək suyun üstündə sərinləşib içəri girirdi. Oturub belliyə söykəndim. Əlini almaq üçün qucağımı açdım. Mənə dedi: "Qoy onu yuyum. İsti su var".

Həyətdə başında qara örpək və çadra olan ucaboy və enlikürək bir qadın dayanmışdı. Ucadan dedi: "Hübabə Zəhra!" Cavab verdi: "Hə, canım, gəldim".

Hübabə Zəhra! İndi xatırladım. Onun adını anamdan və İsmayıl dayımın yoldaşından çox eşitmişdim. Hübabə Zəhra dayımın yoldaşının ən böyük bacısı idi. Deyirdilər ki, çox imanlı və xeyriyyəçi qadındır. Həm də Quran təfsirçisi idi.

Barəsində deyilən tərifləri yadıma salandan sonra həmin evdə daha yaxşı hisslər keçirməyə başladım.

Hübabə Zəhra ucaboy qadınla danışırdı. Bir qədər sonra qadın həyətdən çıxdı, Hübabə Zəhra da yarım saatdan sonra otağa gəldi. Uşağı yumuş, ayaqlarına və belinə təmiz bir parça bükmüşdü. Mənə dedi: "Nəsrin can, uşağının ishalı var. Oğluma dedim ki, gedib yaxşı bir doktordan vaxt alsın. Özün də bir analiz versən, yaxşı olar".

Yanımda oturdu. Hörmət əlaməti olaraq, ayaqlarımı topladım. Dedi ki, rahat ol. Əlini ayaqlarımın üstünə qoydu və otaqların birinə ədyal və balış gətirməyə getdi. Otaqlar iç-içə və çox idi, taxta qapılardan bir-birinə yol vardı. Balışı yerə qoyub dedi ki, uzan.

Hübabə Zəhranın gözlərinə baxıb dedim: "Mənim yoldaşımdan xəbəriniz var? Şəhid olub? Düzünü deyin". Mənə yaxınlaşdı, əllərimi tutdu.

- Yox, Allah haqqı, xəbərim yoxdur.

- Çox həyacanlıyam. Bizim Abadanda suyumuz, çörəyimiz yox idi. O bizə su və yemək almağa getdi. Bizi elə bombalar altında qoyub getməsi mümkün deyil. Mütləq başına bir iş gəlib. Siz bilmirsiz?

- Ürəyini Allaha tapşır. Müharibə pis şeydir, mərhəmət-zad anlamır. Bəlkə döyüşün ortasında bir işi çıxıb, ona başqa bir tapşırıq verilib.

Ağlamağa başladım.

- Əgər sağ olsaydı, yanımıza kimisə göndərərdi; deyərdi ki, gedin arvad-uşağıma su aparın. Deməzdi?!

Hübabə Zəhra sakit və nurani qadın idi. Dərisi bəyaz və gözəldi. Gözlərinin ağı dəniz kimi maviyə

çalırdı. Mənə dedi: "Hər şey barədə fikirləş, ancaq pis şeylərdən başqa. Allahı düşün. Bizi yaradan Odur. Onun razılığı nədirsə, o da olacaq. Dözümlü ol, qızım. Səbir Allahdan istəyəcəyin ən yaxşı şeydir. Özündən istə ki, hər şey yolunda olsun".

Əlini ürəyimin başına qoyub Həmd və surə oxumağa başladı. Sonra salavat çevirdi. Mən rahatlaşırdım. Gülümsəyib dedi: "İlahi! Bütün bəndələrinə səbir meyvəsini daddır, xüsusən də bu gənc qıza!" Ürəyim istəyirdi ki, Hübabə Zəhra dünya durduqca əlini ürəyimin başına qoyub dua etsin.

Hava qaralmışdı. Hübabə Zəhra lampanı yandırdı. Bir qədər sonra həyətdəki pərdə kənara çəkildi və həmin ucaboy gənc qadın içəri girdi. Hübabə Zəhra dedi: "Bu qız Əhvaz Neftayırma zavodunun mühəndisidir. Axşamüstülər buraya gəlir, alış-verişə və camaatın cəbhələrə yardımlarını bükməyə kömək edir". Gənc qadın pəncərədən Hübabə Zəhraya bir çanta verdi. Hübabə Zəhra dedi: "Xeyir görəsən, qızım! Allah əcr versin!"

Hübabə Zəhraya baxır, bir insanın necə bu qədər səbirli və mətanətli ola biləcəyini düşünürdüm. Qızının qırxında kiçik qızını onun yerinə göndərir, Şəhid Əli və Məhəmməd Cahanaralara məclis keçirir və bu qədər işin içində oğluna toy edir! Qadın Əliyə iki qutu pambıq əsgi almışdı. Hər qutuda altı dördkünc və dama-dama əsgi vardı. Bundan əlavə, Əliyə biri böyük, biri kiçik olmaqla iki süd şüşəsi, bir qutu serelak, iki qutu quru süd, əmzik və şüşəyuyan, mənə də bir qara manto-şalvar, bir sürməyi örpək, corab və çadra almışdılar.

Hübabə Zəhra quru süd qutusunu süd şüşəsi ilə birgə pəncərənin yanında dayanmış qadına verib: "Sənə qurban, bu şüşəni əvvəlcə qaynar suda iyirmi dəqiqə qaynat, sonra üç qaşıq quru süd tök, bura qədər də su" - dedi və süd şüşəsinin üstündəki xətlərdən birini göstərdi. Qadın şüşəni və quru südü alıb getdi.

Əlinin bağırsaqlarının səsi gəlirdi. Hübabə Zəhra Əlini götürüb dedi: "Gedib onu yuyum. Uşağın halı pisdir. Qorxma, amma qan ishalı var".

Həmin axşam Hübabə Zəhranın oğlu və adı Siddiqə olan həmin mühəndis xanımla həkimə getdik. Mühəndis xanım şəxsiyyətli və alicənab insan idi. Gedib-gələnə qədər uşağı qucağında saxladı. Analiz verdik, doktor dedi ki, çirkli su içdiyimizə görə qanımıza mikrob düşüb. Serum və çoxlu dərman yazdı, epilepsiya dərmanlarımın dozasını da artırdı.

Təxminən səhər saat beş idi. Həmin Quran otağında idim. Yavaş-yavaş Hübabə Zəhra barədə hər şey yadıma düşürdü. Adı Zəhra İmamzadə idi; Şəhid Cahanaranın böyük xalası, Quran hafizi və müəllimi. Gecənin yarısına qədər Əli ilə başımız üstə qaldı. Serum bitəndən sonra qonaqların birini çağırdı ki, iynəni qolumuzdan çıxarsın. Özü yandakı otaqda yatdı. Bizə dedi ki, nə vaxt işiniz olsa, məni çağırın.

Həmin gecə mənimlə çoxlu söhbət edib dedi: "Qızım bu il Pedaqoji universitetə qəbul olub. Nəvələrimin Tehranda onun-bunun əlində böyümələrinə necə ürəyim gələrdi?! Anadan sonra uşağa ən yaxşı dayə xalasıdır. Qızım qəbul etdi. Onun böyük ruhu var; 18 yaşı olsa da, üç uşaq anası və

özündən 15-16 yaş böyük bir kişinin xanımı oldu. Əlbəttə, kürəkənim yad adam deyil, bacım oğludur, yaxşı kişidir. Vallah, Saraya yaxşı ər idi. Allah ona rəhmət eləsin!"

Hübabə Zəhra hovuzda dəstəmaz alıb bağçanın divarının küncündə, bəzi gülləri divarın üstünə tökülmüş kağız gülü ağacının kölgəsində namaza başladı. Namazdan sonra dua etdi. Pəncərənin yanında idi, səsini eşidirdim. Birdən ağlamağa başladı. Elə mənəvi halla dua edib ağlayırdı ki, məni də ağlamaq tutdu. Mən də namaz qılmaq istəyirdim, amma bütün bədənim murdar idi. Əli yatmışdı, kiçik qarnı qalxıb-yatırdı. Xalçanı kənara çəkib otağın yerindəki yumşaq torpaqda təyəmmüm etdim.

Hübabə Zəhranın dua və ağlamaq səsi qulaqlarımda ikən namaza başladım. Mülayim külək gül ətrini və sübhün sərinliyini içəri gətirirdi. Əziz Bəhmənim üçün dua edirdim. Allahdan istəyirdim ki, bu rahatlıq hər üçümüz üçün həmişəlik olsun.

Günəş işığı otağa düşəndə yuxudan oyandım. Paltarlarım həyətdə ipdən asılmışdı. Hübabə Zəhra Əlinin paltarlarını da dəyişdirib südünü vermiş, səhər yeməyimi pəncərənin ağzına qoymuşdu.

Sakit bir toy keçdi. Əl çalıb sevinmək yerinə radiodan əməliyyat marşları yayımlanırdı. Əhvazda gərginlik idi, təcili yardım maşınlarının siqnalı səhərdən-axşama, axşamdan-səhərə qədər gəlirdi. Həmin bir neçə gündə Əhvaz bir-iki dəfə bombardmana məruz qaldı. Hübabə Zəhranın evində isə sakitlik idi, hətta toy günü də Quran dərsi

keçirilirdi. Xanımlar hər gün səhər saat 10-da gəlib otaqların birində Quran öyrənirdilər.

Hübabə Zəhra o qədər işin içində İsmayıl dayıya zəng vurub anamın ünvanını öyrənmişdi. Bizi anamın yanına sağ-salamat göndərdiyinə görə sevinirdi. Toydan bir-iki gün sonra bizi 18 yaşlı gəlin, kürəkəni, onun üç övladı və Şəhid Cahanaranın anası ilə birgə Tehrana yola saldı.

Maşın evdən uzaqlaşıb magistral yola çıxan kimi yenə həyəcanlanmağa başladım. Bəhmənin şəhid olması, əsir və ya itkin düşməsi fikri xora kimi canıma düşmüşdü. Tehrana çatanda anam Əli ilə məni çox xəstə və arıq görüb ağlamağa başladı. O, başına vurub deyirdi: "Əlim sınsın! Bu qırılmış əllərimlə uşağımı ölümə göndərdim".

Tehran sakit və təhlükəsiz idi. Anamın sözü ilə desəm, o ölümdən salamat qurtulub Əlini rahat şəkildə qucağıma götürdüyümə inana bilmirdim. Baba Tehranın Sədi xiyabanında, Müxbirüddövlə dördyolunda ikimərtəbəli bir ev kirayə etmişdi. Birinci mərtəbədə özü, bibi, Mahmud dayı, anam, Nəğmə, Səid və Həmid qalırdı, ikinci mərtəbədə də dayımın yoldaşı Şahnaz uşaqları ilə. Əmimgil də Şirazdakı evlərindən birini satıb Qumda yaxşı ev almışdılar, Rəna, Röya, Rəhmət və Əlirza orada yaşayırdılar.

Ertəsi gün anam bizi xəstəxanaya apardı. Orada bir neçə gün qalıb müalicə aldıq. Füruzan Şirazdan gəlmişdi. Sonra Sağər də gəldi.

***

Mayın səkkizi idi. Səidlə Həmid məktəbdən qayıdıb atari oynayırdılar. Anam namaz qılırdı. Qaynar pomidor ətri xiyar və soğan iyinə qarışmışdı. Gözləyirdik ki, Nəğmə də yaxınlıqdakı məktəbdən gəlsin, birlikdə nahar edək. Nəğmə müəllimlik sənətini əvvəldən çox sevirdi. Hamımız bilirdik ki, yaxşı müəllimə olacaq.

Anam başını səcdədən qaldırıb ucadan: "Allahu-əkbər" – dedi və göz-qaşı ilə mətbəxi göstərdi. Anamın Allahu-əkbərlərinin mənasını yaxşı bilirdik. Bu Allahu-əkbər o demək idi ki, Nəsrin, get salata abqora və duz tök, indi Nəğmə gələcək.

Qazanın qapağını götürüb buxarı iylədim. Kirmanşah yağının ətri çox gözəl gəlirdi. Anamın aşpazlığına söz ola bilməzdi, pomidorlu daşma plov bişirməkdə isə usta idi. O, səbirlə pomidorların qabığını soyub çox xırda-xırda doğrayırdı. İki böyük soğanı qızardıb pomidorlarla birgə suyu quruyana qədər bişirir, sonra ona sarıkök, duz və istiot əlavə edirdi. Düyünün suyu qaynamağa başlayanda pomidorlu mayeni ona töküb qarışdırır, qapağını qoyub qazın şöləsini azaldırdı. Bu plovu çoban salatı ilə yeməkdən doymurduq.

Salata abqora ilə duz əlavə etdiyim yerdə qapı açıldı, Nəğmə iş yoldaşı xanım Həqirəstlə birgə içəri girdi. Hər ikisinin gözləri qızarmış, şişmişdi. Salatı buraxıb Nəğmənin yanına qaçdım. Nəfəsim gəlmirdi. Çox ağladıqları üzlərindən bəlli idi. Burunlarının ucu da qızarmışdı. Qırıq-qırıq səslə: "Nəğmə, Bəhmən?" – dedim və qışqırdım: "Ya İmam Zaman!" Əli səsimə yuxudan oyanıb ağlamağa başladı. Nəğmə başı ilə

işarə elədi ki, Bəhmənə heç nə olmayıb. Sonra dedi: "Rza... Rza şəhid olub".

Əlini qucağıma götürüb taqətsiz halda yerə oturdum. Anam namazın salamlarında idi. Xanım Həqirəst anamın səccadəsinin yanında oturdu, çadrasını öpüb gözlərinə çəkdi və dedi: "Ana, təbrik edirəm, Rza şəhid oldu!"

Anam mat-məəttəl Nəğməyə və xanım Həqirəstə baxırdı. Bir neçə saniyə sakit qaldı, sonra dedi: "Kimsə öləndə baba deyir ki, həqiqətən, biz Allahınıq və Ona doğru da qayıdacağıq.[1] Özünü soyuqqanlı göstərməyə çalışırdı. Canamaz və səccadəsini yığışdırmağa başladı, ancaq birdən partladı; başına vurub yaxasını dartdı, sinəsinə vurub dedi: "Ya İmam Hüseyn... Siddiqə... Mən sənin dulluğuna necə dözəcəyəm?!.." Nəğmə anamı öpüb dedi: "Səhər tezdən əmiyə və yoldaşına zəng vurdum. Qumdan gəlirlər, indi çatarlar".

Anam hərdən sinəsinə, hərdən də iki əli ilə ayaqlarına vurub deyirdi: "Nəğmə... Kim deyib? Kim deyib ki, Rza şəhid olub?" Nəğmə ağlaya-ağlaya dedi: "Səhər məktəbə gedəndə İsmayıl dayı zəng vurub dedi. Siddiqə xalaya və digərlərinə də xəbər verib. Hamısı Abadana yola düşüb. Qalxın, hazırlaşın. Sabah dəfndir".

Bizim ağlayıb-sızladığımız yerdə Səidlə Həmid yuxarı çıxdılar, dayım yoldaşı Şahnazgilə getmiş baba ilə bibiyə xəbər verdilər. Baba qapının önündə dayanıb titrək səslə dedi: "Həqiqətən, biz Allahınıq və

---

[1] Bəqərə, 156.

Ona doğru da qayıdacağıq". Anam babaya üzünü tutub sinə vurur, saçını dartırdı. Bibinin halı da yaxşı deyildi, depressiyası çox şiddətlənmişdi. Hamımız ağlayırdıq. Nəğmə otağa girib qara paltar geyindi, çantasını hazırlayıb dedi: "Ana, sən də hazırlaş".

Qapının zəngi çalındı. Səidlə Həmid qapıya qaçdılar. Əmim yoldaşı həyətdən ağı deyə-deyə gəlirdi. Otağa çatanda anamla birgə aşura qopardılar. Saçlarını yolub sinələrinə vurur, doyunca yaşamamış, qızını yaxşı görməmiş kürəkəninə rövzə deyirdilər. Anam saçını darta-darta ağlayırdı. Əmi iki taksi tutub hamını dəmiryol vağzalına göndərdi. Baba bibiyə görə gələ bilmədi.

Əhvaza bilet yox idi. Əmi "bizim şəhidimiz var, sabah Abadanda olmalıyıq" – deyib iki kupe götürmüşdü. Əli qatarı görüb sevincək olmuşdu, arıq əlləri ilə sinəsinə vurub "Mehdi, cəl... Mehdi, cəl..." – deyir, başını sağa-sola yelləyirdi.

Qatarın koridorunda, kupemizin qarşısında iki xanım dayanıb ağlayırdı. Anam onları içəri dəvət etdi. Əmimlə Mahmud dayı yandakı kupeyə keçdilər. Hər iki qadın şəhid anası idi, biri üç şəhid vermişdi. Onların oğulları dost olmuşdular, özləri də iki bacı kimi idilər. Üç oğlu şəhid olmuş anaya xəbər vermişdilər ki, dördüncü oğlu Beytülmüqəddəs əməliyyatında itkin düşüb. Səhərə qədər şəhidlərimiz barədə söhbətləşib ağlaşdıq.

Əhvaza çatan kimi vağzalda bir kişi soruşa-soruşa bizi tapdı. İsmayıl dayı maşın göndərmişdi ki, birbaş

Abadana gedək. Yolda ondan Seyid Rza[1] və onun necə şəhid olması barədə soruşduq. Kişi çox narahat halda dedi: "Cümə günü, 13 rəcəbdə, həzrət Əlinin (ə) doğum günü günorta saat 3-dən sonra motosikletlə əməliyyat istiqamətlərinə kəşfiyyata getdi. İşi bu idi. Həmişə müxtəlif zonalara gedib-gəlirdi. Bu dəfə yolda bir yaralı döyüşçü ilə rastlaşmış, ratsiya ilə təcili yardım postlarından birinə xəbər vermişdi. Təcili yardım maşını döyüşçünü mindirib uzaqlaşan kimi yaxınlığında bir top mərmisi partlamışdı. Başının üstündən də bir düşmən təyyarəsi atəş açmağa başlamışdı. Seyid Rza bir neçə nəfərlə birgə oradaca şəhid olmuşdu".

Abadanda qiyamət idi. Partlayış səsləri bir an da kəsilmirdi. Güclü külək əsir, torpaq, tüstü və barıt qoxusunu hər tərəfə yayırdı. Persiya otelinin önündə maşından endik. Üçrəngli bayraqlara bükülmüş tabutlar yerdə ailələrini gözləyirdilər. Siddiqə xala, Rza Musəvinin anası və qardaş-bacıları bizdən tez çatmışdılar. İsmayıl dayı, Məhəmməd dayı, dayım yoldaşı Şahnaz və Siddiqə xalanın Sima Fəzilət adlı səmimi dostlarından biri də orada idi. Sima Fatiməyə baxmaq üçün Tehrandan gəlmişdi. Fatimə gülüb-oynayırdı.

Siddiqə xala yüksək əhval-ruhiyyə və mətanətlə dayanıb bibi dedikləri qayınanasının əlini möhkəm tutmuşdu. Anam Siddiqə xalanı görən kimi başına vurdu. O, sinə vurub qışqırırdı: "Bacı... Dərd-bəlan

[1] Seyid Əbdülrza Musəvi 18.04.56 tarixində doğulmuşdu, Əhvazın Cündi-Şapur Tibb Universitetinin tələbəsi idi. O, 7 may 1982-ci ildə Xürrəmşəhrdə şəhadətə qovuşdu.

ürəyimə! Ölərəm sənin üçün! Allah məni öldürsün, səni bu halda görməyim!"

Siddiqə xalam anamın əllərindən tutdu, başörtüyünü səliqəyə saldı, saçını gizlətdi. O, anamın üzündən öpüb deyirdi: "Bacı, belə eləmə. Rza səni çox istəyirdi. O bu işlərə razı deyil, ruhu əzab çəkir. Yazıqdır. Mənə tapşırmışdı ki, heç kimin ağlayıb səs-küy salmasına imkan verməyim. Rza deyirdi ki, belə etməyin, insanları müharibədən, cəbhə və şəhadətdən qorxutmayın!" Anam Siddiqə xalamın sözlərinə fikir vermədən sinəsinə vurub: "Hüseyn, Hüseyn, ya Hüseyn! Hüseyn, Hüseyn, ya Hüseyn!" – deyir, sonra qışqırırdı: "Xudaya! Bu dağı ürəyimin harasına qoyum?! Vay... Vay... Evim yıxıldı..." Siddiqə xala anamın rəftarına görə narahat olub deyirdi: "Bacı, sən Allah, bəsdir! Rza dostlarının yanında utanır. Mən bibini zorla sakitləşdirmişəm. Sən Rzanın canı, belə eləmə!" Siddiqə xala bibinin əllərini qucağında bərk tutmuşdu. O, ağlamırdı; hətta mənim yaxınlaşıb başsağlığı verməyə üzüm gəlmirdi.

Camaatın arasında dayım yoldaşı Şahnazı gördüm. Birdən hər ikimiz ağlamağa başladıq. Siddiqə xala bizi görüb dedi: "Nəsrin can, sən nə üçün?! Bəhmən Rzanın səmimi dostu idi. Yadındadır, Rza həmişə deyirdi ki, müharibə zamanı bizim vəzifəmiz şəhadətdə bayram etmək, sevinməkdir?! Deyirdi nə qədər ki, döyüşçülər cəbhələrdə vuruşurlar, gərək şəhadəti bayram bilək, özümüzü zəif göstərib düşməni sevindirməyək!"

Rzanın dostları, döyüş yoldaşları yaxınlaşdılar, tabutu götürüb maşının arxasına qoydular. Avtobuslar

sıra ilə düzülmüşdü. Şəhər təhlükəli idi, korpus uşaqları israrla camaatı dağıtmağa çalışırdılar. Avtobusa minəndə gözüm bir tabuta sataşdı. Üzərinə belə yazılmışdı: "Şəhid Salman Bahar".[1] Sanki göydən yerə çırpıldım. Yerlimiz Salman Bahar Bəhmənin səmimi dostu idi, Xürrəmşəhrdə bir məhəllədə qalmışdıq. O, yeddi bacının bir qardaşı idi. Bacıları tabutdan əl çəkmirdilər. Öz-özümə dedim ki, İlahi, mən nə görürəm! Vay mənə! Başqa bir tabutun üstünə "İsmayıl Xosrəvi"[2] yazılmışdı. Yoldaşı Rübabə Hurisi hamilə vəziyyətdə tabutun başı üstə dayanmışdı, otura bilmirdi. Axırıncı ayı idi. İsmayıl Xosrəvi də Bəhmənlə Seyid Rzanın səmimi dostu idi. Anası və qohumlarından heç kim orada deyildi. Təkcə qayınanası tabutun yanında oturub ağlayırdı. Yadımdadır, bir neçə ay qabaq Rübabəni Abadanda Teleradio prospektindəki evlərin birində görüb çox sevinmişdik. O isə artıq dul, uşağı da yetim qalmışdı.

Qəm-qüssədən ürəyim ağrıyırdı. Fikirləşdim ki, axşama sağ çıxmaram. Məhəmməd dayı ayaq üstə dayana bilmədiyimi görüb əlimdən tutdu, yoldaşı Şahnazla birgə məni öz maşınlarına apardılar. Məhəmməd dayı dedi: "Şahnaz, Nəsrindən ehtiyatlı ol. Bu qız xəstəxanadan təzə çıxıb. Gözün onda olsun!" Sonra üzünü mənə tutub dedi: "Dərmanlarını içmisən?" Dayıdostu Şahnaz ayağının yanındakı qabdan bir stəkan su doldurub mənə verdi. Əlini də

---

[1] Salman Əbdülnəbi oğlu Bahar 29 aprel 1982-ci ildə Darxuində kəşfiyyat zamanı boğulmuşdu.

[2] 1961-ci ildə Xürrəmşəhrdə doğulmuş İsmayıl Xosrəvi 8 may 1982-ci ildə Beytülmüqəddəs əməliyyatında şəhadətə qovuşmuşdu.

qucağına götürdü. Başımı oturacağın başlığına söykəyib gözlərimi yumdum. Tabutları aparan yük maşınındakı səsucaldandan Hüseyn Fəxrinin[1] növhə səsi gəlirdi:

*Leyla dedi: "Ey susuzların şahı!*
*Əlim ətəyində, ağa, əl-aman!*
*Oğlum canavarlarla döyüşə gedir.*
*Əkbərin fərağından aman, əl-aman!"*
*Ah-vaveyla! Hanı mənim Əkbərim?*
*Yaşlı gözlərimin nuru, dilbərim?*

Xaksütuna çatdıq. Külək tozları havada fırladıb gözlərimizə və boğazımıza doldururdu. Vidalaşmaq üçün Seyid Rza Musəvinin tabutunu açdılar. Siddiqə xala hələ də möhkəm dayanmış, yavaşca bibinin əlindən tutmuşdu. O, hamıya yazıqcasına baxırdı. Sima Fatiməni tabuta yaxınlaşdırdı. Fatimə yeriyə bilmirdi, ancaq atasını görən kimi Simanın qucağından enmək istədi. Sima Fatiməni yerə qoydu. Göyçək və yaraşıqlı uşaq idi, hamıya gülürdü. İlk dəfə orada ayaq üstə dayandı. Əyilib atasının üzünü öpdü. Seyid Rza Musəvi korpus geyimində, dodağında xəfif təbəssüm yatmışdı. Üzü sağlam və gözəl idi; belə ki Fatimə kimi mən də əyilib üzündən öpmək istəyirdim.

---

[1] Hüseyn Fəxri Xürrəmşəhrli məddahdır. O, Ahəngəran və Küveytipur müharibə dövrünün fəal məddahları idilər. Hüseyn Fəxri Məhəmməd Cahanaranın döyüş yoldaşlarından idi, "Məmməd, yox idin ki, görəsən; şəhər azad olundu" şeirini ilk dəfə onun məzarı başında oxumuşdu.

Bütün dünyanın dərd-qəmi qəlbimə dolmuşdu. Özümü yalqız və kimsəsiz hiss edirdim. Fatiməyə, Əliyə, Siddiqəyə və özümə yazığım gəlirdi.

Siddiqə xala hamı ilə sakitcə danışır, xoşgəldin deyirdi. Aramsız partlayış səsləri, isti və toz-torpaq şəhidlərin tez dəfn olunmasına səbəb oldu. Korpusda xidmət edən qardaşlar tez-tez deyirdilər: "Bir yerə toplaşmayın. Tez maşınlara minin!" Buna görə digər şəhidlərin dəfninə qala bilmədik. Xaksütunda çoxlu adam vardı. Şəhər döyüş şəhəri idi, düşmən qırıcıları başımız üstə uçuşur, bizə atəş açırdı. Məhəmməd dayının maşınına mindim. Yas məclisi qədim qonşumuz olan, Əhvaza köçmüş xanım Füruzəndəgildə keçiriləcəkdi.

Gözlərimi bağladım. Heç nə fikirləşməyib yatmaq istəyirdim, lakin Seyid Rza Musəvinin, Salman Baharın, Xosrəvinin, Rübabə Hurisinin və Bəhmənin fikri məni rahat buraxmırdı. Heç kim heç nə demirdi, amma baxışlarından bilirdim ki, hamı Bəhməndən ötrü narahatdır. İki həftə idi itkin düşmüşdü, çoxlu axtarışlara baxmayaraq, heç kim izini tama bilmirdi. Səmimi dostları olan Salman Baharla İsmayıl Xosrəvinin şəhadətindən sonra hamının narahatlığı çoxalmışdı. Salman Bahar Bəhmənlə bir yerdə vuruşurdu.

Dayım dedi: "Nənin, Əhvaza gedək, yoxsa Mahşəhrə?" Cavab verməyə hövsələm yox idi. Məhəmməd dayım Gəmiçilik şirkətinin icraçı direktoru idi, limanlarda işləyirdi. Arvad-uşaqlarını Mahşəhrə aparmışdı. Karvanda yaşayırdılar. Karvanlar Amerika istehsalı olan lüks daşınan evlər

idi, içində kondisioner, divan-kreslo, hamam və tualet vardı, bütün imkanlarla təchiz olunmuşdu. Ona dedim: "Gedək Əhvaza. Seyid Rzanın yasında iştirak etmək istəyirəm".

Abadan-Əhvaz yolu atəş altında idi. Məhəmməd dayı maşını hərdən ziqzaq şəklində sürməyə məcbur olur, bəzən də yolun torpaq çiyni ilə gedirdi. Düşmən qırıcıları dalımıza düşmüşdülər. Magistralı bombalayır, mərmiləri qurtaranda pulemyotla atəş açırdılar. Həm də yolda tıxac vardı, təcili yardım maşınları ilə, döyüş yerinə hərbçi aparan avtobus, mikroavtobus və hərbi avtomobillərlə dolu idi.

Məhəmməd dayı dedi: "Füruzəndə xanımın oğlu Məhəmməd Füruzəndə Əhvazın valisi təyin olunub". Biz üç ildən sonra yenə görüşəcəkdik. Qonşu olanda səhərdən-axşama qədər bir yerdə idik. Füruzəndə xanım bizə xala kimi idi, uşaqları ilə dost idik, bir yerdə oynayırdıq. Evləri Kiyan-parsda yerləşirdi.

Biz digərlərindən tez çatdıq. Füruzəndə xanım bizi görüb sevindi, ağlaya-ağlaya dedi: "Bu qədər ayrılıqdan sonra bir-birimizi belə görməli idik?!"

Ev böyük idi, bir neçə qədim kondisioneri vardı. Mənim halım pis idi. Qonaqlar böyük qonaq otağında oturmuşdular. Mənimsə ürəyim bulanır, başım gicəllənirdi. Əli də qucağımda qalmırdı. Füruzəndə xanım mənə bir otaq verdi, kondisioneri yandırıb dedi: "Bu otaq sənin. Rahat ol".

Öz-özümə danışıb Əlini yuyur, əyninə təmiz paltar geyindirə-geyindirə Bəhmənin harada olduğunu fikirləşirdim. Düşünürdüm ki, görəsən, dostlarının bir-bir getdiyindən xəbəri var?

Siddiqə xala, anam və digərləri gəldilər. Evə girən hər kəs əvvəlcə Füruzəndə xanımla qucaqlaşıb bir neçə dəqiqə ağlayırdı. İsmayıl dayı ilə Məhəmməd Füruzəndə işləri idarə edirdilər. Günortaya restorandan yemək aldılar. Anam Füruzəndə xanımı əziyyətə saldığımıza görə narahat idi.

Həmin gün Əhvazda bizi tanıyan və Seyid Rza Musəvinin şəhadətindən xəbər tutan hər kəs başsağlığına gəldi. Sonra bir-bir Qum və Şirazdan qohumlar gəldilər; Rəhmət və yoldaşı, Röya və yoldaşı, Sağər, Füruzan və digərləri. Şəhid Rza Musəvinin yas mərasimi korpus, valilik və digər idarələr tərəfindən keçirildi. İsmayıl dayı bir plakat çap etdirib üzərinə qırmızı xətlə belə yazdırmışdı: "Bu, Rəbbimin lütfündəndir!"[1]

Dayım axşamlar bizi Mahşəhrə aparır, səhərlər qaytarırdı. Məhəmməd dayının evində rahat idik, Əliyə yaxşı baxa bilirdim.

Seyid Rza Musəvinin şəhadətindən üç gün sonra Rübabə Hurisinin uşağını dünyaya gətirdiyini eşitdik. Allah Şəhid Xosrəviyə qız uşağı vermişdi. O, şəhadətindən öncə vəsiyyət etmişdi ki, övladı qız olsa, adını Vədiə qoysunlar. Deyirdilər ki, korpusda xidmət edən bacılar onun üçün qızıl kulon düzəltdiriblər; bir tərəfinə atasının adı və qan qrupu həkk olunmuşdu, digər tərəfinə də Vədiənin öz adı. Həmin gün Şəhid Musəvinin ürək parçalayan bir fotosunu gətirdilər. Şəkildə şəhidin bütün daxili orqanları bayıra tökülmüşdü. Şəklə baxmaq çətin idi. Biz bir tərəfdən

---

[1] Nəml surəsi, ayə 40.

Şəhid Musəviyə əza saxlayırdıq, bir tərəfdən də Vədiənin və şəhidin yoldaşının kimsəsizliyinə ağlayırdıq.

Axşamlar bir yerə toplaşıb Xürrəmşəhrdən, onun işğalından öncə və sonra şəhid olan uşaqlardan danışırdıq. Beytülmüqəddəs əməliyyatı keçirilirdi, sınıq qəlblə arzulayırdıq ki, Xürrəmşəhr tez azad olunsun, şəhərimizə qayıdaq və yenidən bir yerdə yaşayaq.

# Onuncu fəsil

Müharibə başlayandan sonra Abadanın Neftayırma zavodu bağlandı və işçiləri digər şəhərlərə göndərildilər. Xark adası əmimin yeni iş yeri təyin olundu. O, iki həftə Xark Neftayırma zavodunda işləyirdi, bir həftə Qumda qalırdı. Lakin bu dəfə Quma istirahətə getmək yerinə Abadana yollanıb Bəhməni axtarmağa başladı.

Mayın 23-ü idi. Səhər saat 11-də radiodan hərbi marş səsləndirildi. Hərdən ağır marş səsi kəsilir və aparıcı ucadan deyirdi: "Əziz dinləyicilər! Az sonra sizə cəbhədən çox mühüm xəbər verəcəyik!"

Həyəcanlanır, bir yerdə otura bilmirdim. Günorta yeməyini yemişdik. Səidlə Həmid dərslərini yazırdılar. Əli bir yerdə qalmır, tərslik edirdi. Hiss edirdim ki, boğuluram və evdən çıxmalıyam. O zaman ağa Mürtəzayifərin "Allahu-əkbər" səsi çox məşhurlaşmışdı, camaatın səsi ilə montaj edilib radiodan yayımlanırdı və biz nə baş verdiyini bilmirdik. Ayağa qalxıb Səidlə Həmidə dedim: "Gedək bayırda havamızı dəyişək!"

Uşaqlar tez hazırlaşdılar. Günorta saat iki idi. Şəhərin bütün radioları açıq idi. Saat üç dəfə çalındı. Bir məktəbin səsucaldanından xəbərlər proqramından öncəki "Əncəzə vədəh və nəsərə əbdəh" (vədinə əməl və bəndəsinə kömək etdi) marşı səsləndirildi. Diktor saatın 14:00 olduğunu elan etdi və cəbhələrdən mühüm bir məlumat vermədən gündəlik xəbərləri söylədi. Xəbərlər bitmək üzrə ikən başqa bir diktor ucadan dedi: "Əziz dinləyicilər! Diqqət! Diqqət! Əziz dinləyicilər! Diqqət! Diqqət! Şəhidpərvər İran ümməti! Az sonra sizə cəbhədən çox mühüm bir xəbər verəcəyik!" Diktoru tanıyırdım. İran və Kirmanşah radiosundan müharibə xəbərləri, əməliyyatlardan öncə çoxlu qəhrəmanlıq şeirləri oxuyan ağa Ələvicə idi. O, üç dəfə dedi: "Əziz dinləyicilər! Diqqət! Diqqət!" Sonra isə xəbəri elan etdi: "Qan şəhəri, qanlı şəhər azad olundu! Salam olsun qan və şəhadət şəhərinə, qanlı şəhər Xürrəmşəhrə! Salam olsun qəhrəman İslam fatehlərinə! Sonsuz salam olsun şəhidpərvər İran ümmətinə! İmama və ümmətə mübarək olsun!"

Gözəl bir deklamasiya oxuyub Xürrəmşəhri vəsf edirdi. Bədənimin tükləri biz-biz oldu, bütün bədənimdə soyuq tər hiss etdim. Birdən qeyri-ixtiyarı olaraq, yerə oturub ağlamağa başladım. Şəhadətindən bir neçə gün sonra qızı dünyaya gələn İsmayıl Xosrəvi, anasının bircə oğlu olan Salman Baharı xatırladım. Bacılarının şivəni hələ də qulaqlarımda idi. Seyid Rza Musəvi və Siddiqə xalanın dözümlülüyü, hələ yaşayıb-yaşamadığını bilmədiyim Bəhmən yadıma düşdü. Abadanda Hacı ağa Məkkinin

evindəki tənhalığımı, Beytülmüqəddəs əməliyyatından öncəki qorxularımı və gecə yuxusuzluqlarımı xatırladım. Əli ilə yaşadığımıza hələ də inana bilmirdim. İtlərin hürüşmə səsi də hələ qulaqlarımda idi. Mehriban Hübabə Zəhra, qızının ölümü və digər qızının qəribcəsinə izdivacı yadıma düşdü. Ucadan qışqırmaq, əynimdəki qara paltarımı parçalamaq istəyirdim. Ürəyim istəyirdi ki, bu dünyadan müharibədən öncəki dünyaya hoppanım. Xürrəmşəhrdəki ata evimiz üçün darıxırdım. Ürəyim əmimgilin evini istəyirdi; xörək ətri, əmim oğlu və əmim qızlarının gülüş səsləri... Mən ağlayırdım, vücudumdakı başqa bir Nəsrin isə qışqırırdı: "İlahi! Mən daha bəla istəmirəm. Rahatlıq istəyirəm. Sevinc və eşq istəyirəm. Mən Siddiqə xala kimi güclü deyiləm. Mən Əlini atasız böyüdə bilmərəm. Mən bütün bu kədəri, Seyid Rzanın məsum və gözəl qızı Fatiməni görməkdən boğuluram. İlahi! Bəs öz yetim uşağımı görməyə necə dözə bilərəm?! İlahi! Bəhməni bizə qaytar. Mən də bu camaat kimi yaşamaq istəyirəm!"

Bir kişi mağazadan bir neçə qutu şirniyyatla çıxdı. Qutuların birini açıb Əliyə uzatdı və uşaq dili ilə dedi: "Götür, əmi can, Xürrəmşəhrin azadlığının şirniyyatıdır!" Soruşdum ki, ağa, siz Xürrəmşəhrdənsiniz? Kişi təəccüblə baxıb dedi: "Yox, xanım, mən tehranlıyam, iranlıyam; Xürrəmşəhr hamımızındır!" Kişi gülürdü, mənsə gülə bilmirdim. Kişi həmin sevinc içində Səidlə Həmidin əllərini şirniyyatla doldurdu. Onun bu hərəkəti mənə

Xürrəmşəhri, onun şən, istiqanlı və əliaçıq insanlarını xatırlatdı.

Səid dedi: "Nənin, gedək Beynəlxalq otelə". Seyid Xəndan körpüsünün yaxınlığında bir otel vardı, onu qaçqınlara vermişdilər. Xuzistanlıların çoxu orada qalırdı. Anam aşura günləri və qədr gecələri oraya gedirdi. Uşaqlar sevinsin deyə razılaşdım.

Avtobusa mindik. Camaat küçədə əl çalırdı. Sürücülər maşınlarının şüşə təmizləyənlərinə salfet bağlamışdılar və siqnal verirdilər. Yarım saat ərzində küçələr adamla doldu. Camaat şərbət və şirniyyatla maşınların arasında gəzirdi. Mən ağlamağa başladım. Əmim oğlu Şəhriyarı və onun uca boyunu xatırladım. Yazıq Əhməd Şəhriyarın cansız cəsədini çox çətinliklə, bombalar altında Xaksütundan Abadana gətirmişdi. Şəhriyarın toyundakı güzgü və şamdan yadıma düşdü. Zavallı Müjdə onları başına qoyub ağı deyə-deyə təzə bəy olan qardaşının məzarı başına aparmışdı. Əmim, əmidostum və digərləri nə çəkmişdilər! Əmidostu Behcət yadıma düşdü. Şəhriyarın qırxından sonra Tehrana qohumlara baş çəkməyə gedəndə gecə idi, qırmızı vəziyyət elan olunmuşdu. Risalət meydanında bir maşın onu görməyib vurdu və müsibəti ürəyimizi odladı. Əmimin tənhalığına və qəm-qüssələrinə ürəyim yanırdı. Abadandakı ev yoldaşımız Əhməd Qəndəharini xatırladım. Bəhmən deyirdi ki, itkin düşüb. Bir-bir bunları yadıma salıb ağlayırdım. Səidin 14 yaşı vardı, Həmidin isə 12. Narahat halda mənə baxır, dayanmadan deyirdilər: "Nənin, ağlama, Əli kədərlənər!"

Şəhərdəki bütün səsucaldanlardan diktorun səsi gəlirdi:

– Şəhidlər Rəbbinin adı ilə! Qanlı şəhərdə bəasçi işğalçıların fitnəsinə son vermək üzrəyik...

Maşın siqnallarının səsi getdikcə artırdı. Seyid Xəndan körpüsünün altına çatdıq. Qaçqınlar sevinc içində oteldən çıxıb küçənin ortasında xuzistanlılara xas şəkildə şənlənir, atılıb-düşürdülər. Uzun ağ paltar geyinmiş bir dəstə ərəb kişi kiçik yük maşınının arxasında dairəvi şəkildə atılıb-düşür, əllərini havada əsdirirdilər. Bir nəfər də ortada dayanmışdı. Xanımları maşının içində sıx oturmuşdular. Ortadakı kişi əllərini göydə yelləyib oxuyurdu: "Xürrəmşəhr azad olundu!" Digərləri təkrarlayırdılar: "Azad olundu! Azad olundu!"

– Qan şəhəri azad olundu!

– Azad olundu! Azad olundu!

– Allaha şükür! Allaha şükür!

– Xürrəmşəhr azad olundu!

Ərəb qadınlar da ağızları ilə xüsusi səslər çıxarıb şənlənirdilər. Uzun ərəb paltarı geyinmiş iki-üç oğlan uşağı bir maşının banının üstünə çıxıb ərəb rəqsi etməyə başladı. Üçrəngli İran bayrağı camaatın əlində yellənirdi. Şirniyyat mağazasının işçiləri şirniyyat dolu podnosları camaatın arasında gəzdirirdilər. Uşaqlar camaatın sevindiyini görüb sevinirdilər.

Axşamüstü evə qayıtdıq. Anam küçəyə çıxıb ağlayırdı. Bizi görən kimi dedi: "Rza can, haradasan, gəl Xürrəmşəhrin azadlığını gör!" Yadıma düşdü ki, həmişə anama belə deyirdik: "Ana, əgər Xürrəmşəhr azad olunsa, gərək bizim üçün rəqs edəsən". İndi isə

qara geyinmiş əzalı anama "mübarəkdir, şəhərimiz Xürrəmşəhr azad olundu" – deməyə də üzüm gəlmirdi.

Baba sevinir, əllərini göyə qaldırıb ərəb ləhcəsi ilə deyirdi: "Şükr! İlahi, şükr!" Səidlə Həmid qaçıb anamı qucaqladılar. Səid dedi: "Ay can! Xürrəmşəhrə qayıdacağıq. Orada hamımız bir yerdə idik, Tehran kimi bir-birimizdən uzaqda deyildik". Həmid dedi: "Doğru deyir. Burada hamımız tək qalmışıq. Gedək Xürrəmşəhrə, öz evimizə. Gedək, Əli də babanın həyətində oynasın, onu küçəyə futbola aparaq..."

Baba paltarlarını dəyişdi, Səidlə Həmidin əlindən tutub dedi: "Məscidə şükür namazı qılmağa gedirik". Anam da çadrasını götürüb dedi: "Mən də Nəsrinlə gedim Xürrəmşəhr Korpusunun qərargahına zəng vurum".

Küçədə o qədər adam vardı ki, iynə atsaydın, yerə düşməzdi. Hamı bayram edirdi, noğul, şirniyyat, dondurma və sendviç paylayırdılar. Hamı dəyişmiş, sanki bir-birinə qohum olmuşdu. Persiya otelinə zəng vurub Bəhməndən xəbər öyrənmək üçün poçta getdik. Bir neçə saat xətdə gözlədik. Telefonlar məşğul idi. Narahat və məyus halda geri qayıtdıq.

Axşam Hüseyn əmi oğulları və Məryəmin bibisi oğlu Əlirza ilə gəldi. Bibisi Şirazda qalırdı, Əlirza isə Tehranda tələbə idi. Uşaqlıqdan riyaziyyatda güclü istedadı vardı. Xürrəmşəhrdə olanda bir-birimizin halından xəbərdar idik. Qohumlarda hansı uşaq imtahandan kəsilirdisə, hamı bilirdi. Əlirza ilə Nəğmə babagildə uşaqlara dərs keçirdilər. Həmin axşam Məhəmməd dayı da Mahşəhrdən qayıtmışdı.

Dayıdostu Şahnazla və uşaqlarla birgə gəldi. Mahmud dayı da orada idi. Hamımız bir yerə toplaşıb Xürrəmşəhrdən və keçmiş xatirələrimizdən danışmağa başladıq. Hüseyn əmi Şəhriyarı və yoldaşını yada salıb ağlayırdı. Deyirdi ki, Şəhriyarın yoldaşı Mənsurə ilə danışıb, Əhməd üçün elçiliyə getməyə razı salıb. Biz onları və Seyid Rza Musəvini yada salıb ağlayır, Bəhməni düşünürdük. Məhəmməd dayı deyirdi ki, bir neçə gün öncə Mahşəhrdə Bəhmən Baqiri adlı bir şəhid dəfn olunub. Oradakı bir neçə qohumumuz öz Bəhmənimizin xatirəsinə qara geyinib dəfndə iştirak edib, dənizə gül atıblar.

Televizor açıq idi. Şəhid Cahanaranın foto və filmlərini göstərirdilər. Sonra dağılmış şəhərimizdən səhnələr yayımlandı. Xürrəmşəhr came məscidinin dəlik-deşik olmuş günbəzi ekranda görünəndə anam ağlamağa başlayıb dedi: "Bu televizoru söndürün! Söndürün! Xürrəmşəhr hanı?! Bunlar nədir?! Bunlar qan dolu xarabalıqlardır, Xürrəmşəhr deyil! Hanı Şəhriyar?! Hanı Seyid Rza?! Hanı bizim Bəhmənimiz?!" Anamın nalələrindən sonra evdə matəm başlandı.

İki-üç gündən sonra Mahmud dayı evə gəlib qapını açanda dedi: "Muştuluq istəyirəm!" Üzü gülürdü. İxtiyarsız olaraq anamla bir-birimizə baxıb qışqırdıq: "Bəhmən!" Dayım məni qucaqlayıb dedi: "Hə, Bəhmən tapılıb, sağdır".

Anam sevindiyindən ağlayır, əllərini havada yelləyib ağzı ilə şənlik səsi çıxarırdı. Mən ağlaya-ağlaya dayımı öpməyə başladım. Anam soruşdu: "Mahmud, indiyə qədər bizi xəbərsiz qoyub haraya

gedibmiş?" Dayım məni qucaqladığı halda dedi: "Bəhmənşir cilliklərində qalıbmış. Bunlar əməliyyatdan öncə yolu öyrənmək üçün çox əziyyət çəkirlər, əməliyyat zamanı şəxsi heyət arasında rabitə əlaqəsini təmin edirlər, quruda və suda kabel çəkirlər, səhra telefonunun kabellərini çəkməkdən ötrü dirək basdırırlar. Bəhmən qamışlıqda bu işlərlə məşğul imiş. Suya girib kabel çəkdiyi yerdə birdən düşmən mövqeyinə çatıb və yolu tanımadığına görə azıb. Bu müddətdə yanındakı az qida məhsulu, şor su və palçıqla sağ qalıb. Bəxti gətirib. İndi də xəstədir. Nəsrinin Hacı Məkkinin evində olduğu kimidir".

Göz yaşları içində soruşdum: “Bəs indi haradadır?” Mahmud dayı alnımdan öpdü, sonra yerdə oturub, əl çalan Əlini qucağına götürüb dedi: “Xürrəmşəhrdə. Bu axşam Əli ilə Quma - əmigilə gedirsiz. Bəhmən sizinlə danışmaq üçün Şeyx Hüseyn Bəhreynigilə zəng vuracaq”.

Təzəlikcə Mitranın, uzaq qohumlardan olan və Bəhreyndə yaşayan ərəb əsilli bir oğlanla izdivacından söz gedirdi. Şeyx Hüseyn Bəhreyni onun elçisinin qohumu idi. Maddi vəziyyəti yaxşı idi. Qaçqın olduğumuza görə də nə bizim telefonumuz vardı, nə də əmimgilin. Tez hazırlaşmağa başladım.

Axşam Həsən Müvəhhidi ilə Rza Baqiri bizi aparmağa gəldilər. Əmim hələ Xürrəmşəhrdə idi; Bəhməni tapmış və Şeyx Hüseyn Bəhreyninin telefon nömrəsini vermişdi ki, bizə zəng vursun.

Şeyx Hüseyn Bəhreynigilə çatdıq. Telefon qonaq otağında idi. Hamımız otaqda oturduq. Telefonu ortaya qoydular. Əmidostum Mitranın elçisinin

qohumundan utanırdı. Çox keçmədən telefon çaldı. Şeyx Hüseyn təbəssüm və sevinclə salamlaşanda bildik ki, Bəhməndir. Şeyx dəstəyi əmidostuma verdi. Mən onun yanında oturmuşdum. Həyəcandan əmidostumun nəfəsi güclə gəlirdi, Bəhmənə tez-tez "qurban olum" deyirdi. Bir qədər sonra göz yaşlarını ərəb çadrasının ucu ilə silib dəstəyi mənə verdi. Şeyx telefonu kabel çatıncaya qədər mənə yaxınlaşdırdı. Bəhmən dedi: "Salam". Yavaşca cavab verdim: "Salam. Necəsən?" Hamının gözü mənim ağzıma dikilmişdi. Bəhmən dedi: "Nəsrin banu, sənsən?" Dedim: "Hə. Necəsən? Bəs haradaydın?" Bəhmən ağlamağa başladı.

- Sənə qurban olum, məni bağışla. Eşitdim ağa Məkkinin evində çox çətinlik çəkmisən. Məni bağışla. Əli necədir?

Digərlərinin yanında yoldaşımla danışmağa utanırdım. Yavaşca cavab verdim: "Yaxşıdır".

Qayınanam hirsləndi.

- Nəsrin, ərinlə yaxı danış, halını soruş. Gör nə vaxt gələcək, bu qədər vaxtı harada olub? Uşağımla danış.

Bəhmən o tərəfdən soruşurdu: "Nəsrin, bir şey olub? Nə olub? Nə üçün narahatsan?" Kövrəlmişdim. Ona çoxlu suallarım vardı. Qorxurdum ki, ağzımı açsam, ağlayaram. Dodağımı dişləyib dəstəyi Əlinin qulağına yaxınlaşdırdım. Qayınanam dedi: "Əli can, atadır. Ataya şeir oxu: Mehdi, cəl..." Bəhmən də Əli ilə danışırdı. Əli nəfəs almadan təəccüblə qulaq asır, gah kövrəlir, gah da gülürdü. Nə billah etdimsə, şeir oxumadı və "ata" demədi.

Qayınanam dəstəyi alıb mənim Bəhmənə verəcəyim sualları verdi. Bir qədər sonra "alo... alo..." dedi və bildim ki, əlaqə kəsilib. Şeyx Hüseyn də dəstəyi alıb bir neçə dəfə "alo... alo..." dedi, dəstəyə üfürdü və dedi: "Kəsilib. İndi yenidən zəng vurar". Dəstəyi telefona qoydu. Bir saat oturduq, amma daha zəng vurmadı.

Qayıdanda qayınanam sevindiyindən dayanmadan danışırdı. O, Bəhmənin bu müddətdə cillikdə azdığını söyləyərək dedi: "Bilmirəm uşağım Salman Baharın şəhid olduğunu bilir, yoxsa yox. Hey deyirdi ki, Salmanla birlikdə Bəhmənşirə kabel çəkməyə getmişdik". Sonra ah çəkib dedi: "Cilliklər palçıqla və ağcaqanadla dolu olur, camışlar gedib oradan su içirlər. Uşağım əsir düşübmüş, gecə-gündüz ot yeyib, su içirmiş". Qayınanam həm sevinir, həm də ağlayırdı.

Xürrəmşəhrin azadlığından bir neçə gün keçsə də, camaat hələ də şənlik edirdi, gənclər çay və şirniyyat qutuları ilə maşınların arasında gəzirdilər. Bir neçə küçədə çadır qurulmuşdu və cəbhələrə yardım toplanırdı. Onların birinin yanına çatanda qayınanam Həsən Müvəhhidiyə avtomobili saxlamasını söylədi. O, qutuların birinə bir qədər pul saldı. Oradakı bir şüşə qutuda bir neçə qızıl üzük, qolbağı və saat vardı, işığın altında parlayırdı.

Bir neçə həftədən sonra Xürrəmşəhrə getmiş Rza Baqiri qayıtdı. O, Bəhmələndən bir məktub gətirmişdi. Sevinc dolu gözəl məktub idi. Salamlaşıb halımızı soruşandan sonra Xürrəmşəhrin azadlığı münasibətilə təbrik etmişdi, came məscidinin qəlpə dəymiş

günbəzinin şəklini də göndərib yazmışdı: “Yadındadır, motosikletlə came məscidinin önündə gəzir, dondurma yeyir və kimsə bizi görər deyə tez küçələrə girirdik”.

Dondurma qəşəng büllur qablarda verilirdi; kiçik çərəz kasalarına oxşayırdı. Həm kasada satılırdı, həm də stəkanda. Qapaqları germetik idi. Əmidostum dondurmaların oval kasalarını saxlayırdı, anam isə stəkanlarını sevirdi. Hərəsində bir neçə dəst vardı. Dondurmalar vanil, çiyələk və banan dadlarında olur, Xürrəmşəhr və Abadanın əksər mağazalarında satılırdı.

Fikirləşirdim ki, Bəhmən mütləq gedib evlərimizə baş çəkib. Çox istəyirdim ki, tez gəlib bizi Xürrəmşəhrə aparsın.

Bəhmən iyulun 27-də gəldi. Təsadüfən, Mitranın toyu idi. Mən Tehranda idim. Orada olduğumuz bir neçə gündə ev axtardıq. Kirayələrin qiyməti yüksək idi. Ona dedim: “Bəhmən, sən ki burada deyilsən. Biz də anamgildə daha rahatıq”. Dedi: “Yox, Xürrəmşəhr azad ediləndən sonra müharibənin taleyi məlum oldu. Artıq biz də yerbəyer olmalıyıq”. Dedim ki, Abadana gedərik. Dedi: “Yox, ora hələ döyüş bölgəsidir. Mömin bir dəlikdən iki dəfə sancılmaz. Keçən dəfə səhv etdim. Allaha şükür ki, yaxşı qurtardı”. Dedim ki, heç olmasa, məni apar, Xürrəmşəhri görüm. Ah çəkib dedi: “Xürrəmşəhrdən bir şey qalmayıb”. Soruşdum: “Evimiz... Otağımız... Anamın aldığı o qədər cehiz... Qızıllar, paltarlar…” Dodağını dişləyib başını yellədi.

- Heç nə! Heç nə qalmayıb. Əgər bacarsaydılar, evlərimizin kafel və metlaxlarını da söküb aparardılar. Babanın evi yerlə-yeksan olunub. Nə vardısa, qarət ediblər. Divarda bir mismar da qalmayıb. Müqbil meydanı, Milanian və Herisçi xiyabanları birləşib. Daha nə küçə var, nə xiyaban. Xürrəmşəhr hamar bir yerə dönüb. Əclaflar şəhəri şumlayıblar. Əhvaz, Qum və Tehrandan birini seçməlisən. Biz də gərək yaşayaq. Nə vardısa, müharibədən və Xürrəmşəhrin işğalından öncədə qaldı. O vaxt Şiraza, Abadana - haraya gedirdiksə, ətrafımız dolu olurdu. Bir dəfə rahat şəkildə bir yerdə oturub görə bilmədik ki, həqiqətən, bir-birimizə qovuşmuşuq, yoxsa yuxu görürük. Əlini ayaqlarımın üstünə qoyub ona şeir oxumaq istəyirəm, amma böyüklərdən utanıram. Gərək biz də müstəqil olaq. Ev tutaq, əşya və avadanlıqlar alaq; qaz ocağı, xalça, taxt, şkaf... Bəlkə müharibə hələ uzanacaq.

Mahmud dayı Məhəmmd dayının baldızı ilə ailə qururdu. Yoldaşını baba ilə bibinin yanına, Sədi xiyabanına aparmaq istəyirdi. Siddiqə xala ilə Fatimə də Mirdamad dördyolunda qalırdılar. Əlirza Qumda idi, hövzədə təhsil alırdı. Rəhmət ailə-uşaqlarını Abadana aparmışdı. Bəhmən Hacı Məkkinin evinin açarını onlara vermişdi. Röya ilə hövzə tələbəsi olan yoldaşı da Qumda yaşayırdılar. Mitra toydan sonra Şiraza gedəcəkdi. Rəna hələ ailə qurmamışdı. Füruzan və Sağər hələ də Şirazda idilər. Yeri-yurdu bilinməyən yeganə ailə biz idik. Nəhayət, qərara gəldik ki, Quma gedək. Həm əmim və əmidostum

orada idilər, həm də Röya. Röya ilə münasibətimiz yaxşı idi.

Qum dindar şəhər idi. Əhali qaçqın olmasa da, bizim kimi sadə və dəbdəbədən uzaq yaşayırdı. Şeyx Fazillə Bəhmən axtarıb bir ev tapdılar. Şeyx Fazilin dostu olan ev sahibimiz ağa Huşməndi imanlı və mehriban adam idi. Yoldaşı da mehriban və əziz qadın idi; qısaboy, incə, ağ üzlü və azəri dilli idi. Dərziliklə məşğul olur, özünə və uşaqlarına gözəl paltarlar tikirdi. İki ədəb-ərkanlı qızı və bir oğlu vardı. Aralarındakı yaş fərqi az idi: dörd yaş, iki yaş və bir yaş. Axırıncısı oğlan idi. Mən ömür boyu naz-nemət içində yaşadığıma görə kirayənişinlikdən və ev sahibi ilə yaşamaqdan qorxurdum.

Ağa Huşməndinin evi Stansiya məhəlləsində yerləşirdi. Evin iki qapısı vardı. Özləri əsas prospektə açılan qapıdan gedib-gəlirdilər, bizsə həyətin küçəyə açılan qapısından. Bizə iç-içə iki otaq vermişdilər, mətbəx və hamam yox idi, tualet də həyətdə idi. Otaqları kirayə vermək üçün yeni tikmişdilər. Otaqlar kiçik olsa da, onları doldura bilmirdik.

Məişət əşyamız yox idi. Müqaviləni imzalayan gün oraya yerləşdik. Ev sahibinin xanımı bizə suhan halvası ilə çay və çəhrayı gülləri olan şamdangülü dibçəyi gətirdi. Gülü pəncərənin taxçasına qoydum.

Günorta yeməyini yeyəndən sonra Bəhmən Əlini ayaqlarının üstündə uzadıb dedi: “Oğlumu yatırtmaq istəyirəm”. Gözləri qızarmışdı. Şeir oxuyanda boğazını qəhər tuturdu. Bütün əmlakından yalnız Əlinin balışı və ədyalı həmişə yanında olurdu. Əli yatandan sonra onu götürüb yatağına qoymaq istədim,

ancaq Bəhmən qoymadı. Balışı alıb uşağın başının altına qoydu və ədyalı üstünə çəkdi. Sonra isə kövrək səslə dedi: "Nəhayət, neçə ildən sonra yerbəyer olduq!"

Sonra saymağa başladı: 80-cı ilin avqustundan 82-ci ilin avqustuna qədər. Mənə dedi: "İki il necə keçdi?! Nəsrin, həyatımızın iki ili keçdi!" Bilmirəm səsi nə üçün qəhərli idi. Məni ağlamaq tutdu. Yavaşca ağlayırdım ki, Əli oyanmasın. Mənə dedi: "İzdivacdan heç nə anlamadıq; nə bal ayı, nə ayaqaçdı... Ancaq didərginlik gördük". Güclə təbəssüm etdi. Dodaqları əsirdi. Sonra əlavə etdi: "Allaha şükür ki, heç birimizin başından bir tük əskik olmayıb. Hamımız salamatıq". Ağlaya-ağlaya dedim: "Bəs Şəhid Musəvi?! Zavallı Şəhriyar, Deyrani əminin arvadı, Salman Bahar, Şəhid Xosrəvi, Şəhid Qəndəhari..." Bəhmən dedi: "Doğru deyirsən. Çox pis oldu. Çoxlu dostlarımızı, əzizlərimizi itirdik".

Başını divara çevirdi. Onun ağlamağına dözə bilmirdim. Yanında oturub başımı çiyninə qoydum. Çiyni titrəyirdi. Ona dedim: "İki il keçdiyinə inana bilmirəm. Uşağımız da oldu. İlk dəfədir ki, öz evimizdəyik və daha heç nədən qorxmuram; nə bombardmandan, nə tank səsindən. Bura çox yaxşıdır, hər şey sakitdir". Bəhmən ağlamağa təzə başlamışdı. Mənə dedi: "Şəhid Musəvinin də arzusu vardı. O da istəyərdi ki, Fatiməni beləcə ayaqları üstündə yatırtsın, amma heç vaxt qismət olmadı". Ayağa qalxıb dedim: "Gərək əsaslı bir şey fikirləşək. O otağı uşaq otağı edərik. Gedib Tehrandan uşaq mebelini gətirərik, rəngli pərdə, xalça və oyuncaq alarıq. Bu

otağa da bir pərdə və şkaf lazımdır. Bu gün bazara gedib evimizə alış-veriş edək". Bəhmən mənə baxıb gülümsədi və dedi: "Gedək".

Qayınanamın vəziyyəti hamımızdan yaxşı idi. Bizə bir xalça və kovrolit gətirdi. Rza Baqiri ilə dostları da kömək etdilər, qazan, stəkan, nəlbəki, qaşıq və bıçaq gətirdilər. Qayınanam bizə bir dəst yorğan-döşək də aldı. Pərdə və bellik almağa pulumuz yox idi. Müvəqqəti olaraq, pəncərələrə köhnə çadra və mələfə vurduq. Bir dəfə Qumda yaşamağı təcrübə etmişdik. Bir samovar aldıq. Bilirdim ki, hava soyuyanda samovar qazı və sobanı əvəzləyir.

Bəhmən çox vaxt Xürrəmşəhrdə və Abadanda olsa da, müstəqil həyatımızdan razı idik. Qayınanamla Röya mənim qayğıma qalırdılar. Həftəsonları Tehrana gedirdim, anamı, babamı, bibimi, Səidi və Həmidi görüb sevinirdim.

Qumun qışı soyuq olur. Səhər tezdən samovarı yandırırdım. Samovarın üstünü açıb ocağının üstündə Əliyə qayğanaq bişirir, sonra üstünü bağlayırdım. Suyu qaynadıb xuruşu samovarın üstündə dəmə qoyurdum. Yenidən üstünü götürüb ocağın üstündə düyü asırdım. Həm ev qızırdı, həm də bişir-düşür edirdim. Paltarlarımızdan həmişə xörək iyi gəlirdi.

Tehranda olanda anam da hamilə olduğumu bildi. Qayıdanda mənimlə birgə Quma gəldi. Aşı çox xoşladığımı bilirdi. Bir gün dedi: "Qızım, birdən mən burada olmayanda ürəyin aş istəyər, qoy nə qədər ki buradayam, bişirim". Qərara gəldik ki, Xürrəmşəhr və ya Şiraz aşı bişirsin. Kəvər soğanı, keşniş və ət aldı. Düyümüz də vardı. Gecədən bir qədər noxud və

qırmızı lobya islatmışdı. Aş bişirməyə nə qaz vardı, nə də böyük qazan. Anam bir neçə dəfə ev sahibigilə gedib-gəldi. Bir dəfə səyyar qaz aldı, bir dəfə böyük qazan; sonra çömçə almağa getdi, daha sonra isə böyük tava istədi.

Evi gözəl ətir bürümüşdü; təzə göyərti, qızarmış soğan və sarımsaq ətri. Pəncərənin yanındakı dibçək şamdangülü ilə dolu idi. Təzə budaqlarından qoparıb başqa bir dibçəyə əkmişdim. Pəncərənin arxasını güllə doldurmaq istəyirdim. Pəncərəni buxar örtmüşdü. Əli otaqda kiçik topu ilə oynayırdı. Onun gülüşü, anamın danışıq səsi və aşın ətri evi isitmişdi. Ürəyim istəyirdi ki, Bəhmən də orada olub rahatlığımızı və sevincimizi tamamlayaydı.

Günorta aş hazır oldu. Anam ev sahibindən böyük bir sini və bir neçə kasa aldı. Kasaları aşla doldurub üstünə qızılı soğan, qara istiot, yağ və limon tökdü. Siniyə əl boyda çörək və bir boşqab təzə göyərti qoyub onlara apardı.

Nahardan sonra üçümüz də yatdıq. Yuxudan oyananda gördüm ki, anam boşqabları hovuzda yuyub, qurulayıb və qonşunun otağın küncündəki səyyar qazının yanına qoyub. Təzə dəmlənmiş çay da hazır idi. Çayı içəndən sonra anam dedi: "Nəsrin can, mən artıq getməliyəm. Yolüstü xanım Huşməndinin əşyalarını verərəm. Qorxuram Səidlə Həmid dəcəllik edərlər, Nəğməni incidərlər". Əlini yatdığı yerdə öpüb getdi.

***

Ertəsi gün ev sahibinin xanımı qapını döyüb içəri girdi. Əlində kiçik bir çanta vardı. Mənə dedi: "Nəsrin

xanım, bunu sənə tikmişəm”. Çantada bir neçə dəst körpə qız paltarı vardı: qısa klyoş yubkalı kiçik bir köynək, balağına rezin tikilmiş iki-üç pambıq şalvar, önlük, kiçik yaylıq, bir neçə köynək, kombinezon və üzünü cırmaqlamasın deyə pambıq əlcək. Gözəl rəngli və gözəl şəkilli pambıq parçalardan tikilmiş o qədər paltarı görüb çox sevindim. Dedim ki, bunlar çox qəşəngdir, nə zaman tikdiniz? Gülümsədi. Onun gözəl ləhcəsi vardı, xüsusən q və k səslərini şirin tələffüz edirdi. Mənə dedi: “Bir şey deyil. Ananız aş gətirəndə... Doğrudan, sağ olsun, çox dadlı idi. Uşaqların günorta yeməyini verib yatızdırandan sonra başladım. Gecəni səhərə qədər oyaq qaldım. İnşallah bəyənərsiz”. Utanıb dedim: “Çox zəhmət çəkdiniz, xəcalət verdiniz”. Qadın yavaşca və nəzakətlə danışırdı.

- Bizim adətimizdir, ehsan və ya yerikləmə qonaqlığının qabını boş qaytarmarıq.

- Yox əşi, yerikləməyə görə deyildi, bu aşı sevdiyimə görə bişirmişdi, - dedim, sonra gülüb əlavə etdim: “Əgər bu qədər əziyyətə düşəcəyinizi bilsəydik, sizə aş verməzdik!”

O da gülüb dedi: “Yox, təsadüfən, yaxşı etdiniz. Mən xürrəmşəhrlilərin aşından yeməmişdim. Çox dadlı idi. Uşaqların xoşu gəldi, hacı ağa da çox ləzzətlə yedi”. Dedim: “Nuş olsun! Bu dəfə anam gələndə deyəcəyəm sizə ayrıca bir qazan bişirsin”.

Ev sahibinin xanımı uşaqlarını yoldaşının yanına qoymuşdu. Bir saat oturdu və birlikdə söhbətləşdik. Zarafata ondan soruşdum:

- Əgər oğlan olsa, paltarları neyləyim?

- Mən əminəm ki, uşağınız qızdır. Əgər oğlan olsa, bir dəst yerinə ona iki dəst paltar tikərəm.

Qadın o qədər sevimli idi ki, tez getməsini istəmirdim. Müsbət aurası vardı. Ayağa qalxdım, pəncərəyə asdığımız çadranı kənara çəkib ona baxdım. Qısa addımlarla qapıya doğru gedirdi. Evinin pəncərələrinin arxası şamdangülü dibçəkləri ilə dolu idi. Qırmızı və çəhrayı şamdangülülərin hamısı gül açmaqda idi. Fikirləşdim ki, gələn dəfə onu görəndə qırmızı güllərindən birinin budağını alaram.

# On birinci fəsil

Hamiləliyimin son günləri idi. Əli bərk soyuqlamışdı. Bəhmən də Vəlfəcr-1 və Vəlfəcr-2 əməliyyatlarına hazırlaşırdı. Artıq öyrənmişdim ki, hər əməliyyatda bir-iki ay ciddi işi olacaq. Anamın da başı Nəğmənin toyuna qarışmışdı. Nəğmə iş yoldaşı ilə ailə qurub şimala gedəcəkdi. Belə bir vəziyyətdə Əlini çətinliklə həkimə apardım. Gözləmə salonunda oturmuşduq. Uşağın qızdırması vardı, vəziyyəti pis idi. Yanaqları qızarmış, istiləşmişdi. Növbəmiz çatana qədər onu oturacağın üstünə uzandırdım. Bu zaman korpus geyimli bir pasdar içəri girdi. Əli onu görüb başını qaldırdı, uşaq sevinci ilə dedi: “Ata! Ata!” Kişi yerində donub qaldı, Əliyə baxmağa başladı. Salonda hamı ağladı. Mən də kövrəlib ağladım. Pasdar yaxınlaşıb Əlini qucağına götürdü, öpdü və növbəmiz çatana qədər onunla oynadı.

Axşamüstü anam gəldi. Dedi ki, Nəsrin, səhv eləməsəm, sabah səhərə qədər uşağın dünyaya gələcək. Əliyə qulluq etdi, tez-tez evi səliqəyə salıb yeni doğulacaq körpənin çantasını hazırladı. Axşam ağrım başladı. Anam Əlini ev sahibəsinin yanına

qoydu, bir taksi tutub məni Nekuyi xəstəxanasına apardı. Xəstəxananın şəraiti yaxşı deyildi. Doğum şöbəsində xəstə çox, imkanlar az idi. Həkim və tibb bacılarının da sayı az idi, çatdıra bilmirdilər. Çarpayılarda uzanıb gözləyən bəzi xanımlar doğuş halında idilər, ancaq başları üstə heç kim yox idi. Yazıqlar ağrıdan qışqırırdılar. O vəziyyəti görüb qorxdum. Anama dedim ki, məni buradan apar. Bir çarpayıda uzanmışdım. Məni öpüb dedi: “Bir şey olmaz. Bu qədər adamdan artıq deyilsən. Gərək dözəsən”.

Bir tibb bacısı gəlib iynə vurdu. Ağrım aradan qalxdı. Əliyə görə narahat idim. Anamı zorla evə uşağa baxmağa göndərdim. Hələ Təcili yardım şöbəsində olanda tibb bacısı gəlib dedi: “Bir kişi ilə bir xanım israrla sizi görmək istəyirlər. Bu şöbəyə kişilərin girişi qadağandır. Xanımlar da görüş vaxtı gələ bilərlər. Onlar sizə bir kağız göndərdilər”. Tibb bacısından kağızı alıb sevincək açdım. Bəhmənin xəttini görmək istəyirdim, ancaq xətti tanımadım. Kağıza belə yazılmışdı:

“Salam, xanım Baqiri. Biz qapıda dayanmışıq. Əsla narahat olmayın. Rza Baqiri və banu”.

Kağızı oxuyub ürəkləndim, ümidim artdı. Siddiqə xala Şəhid Rza Musəviyə məclis keçirirdi. Əmim, əmidostum, Röya və digərləri Tehrana getmişdilər. Qumda heç kimim qalmamışdı. Bəhmənin dostlarının maraqlanması mənə yaxşı təsir etdi. Günortadan sonra Rza Baqirinin yoldaşı Pərvin xanım bir qutu şirniyyatla yanıma gəldi. Dedi ki, gecədən xəstəxananın həyətində olmuş, sonra uşağın dünyaya

gəldiyini anama xəbər verməyə getmişlər. Əlini də gətirmişdilər. Dedi ki, Əli ilə qızım Ətiyyə ağa Rzanın yanında maşındadırlar. Pərvin xanım xəstəxanadan buraxılmağım üçün lazımi işləri görüb uşağı təhvil aldı. Yol yeriməyə çətinlik çəkirdim. Pərvinsə cəld və çevik idi. Uşağı və çantanı ağa Rzaya verib qayıtdı, qolumdan tutub məni ehtiyatla maşına apardı. Korpusun nissan patrol SUV avtomobilinin yan pilləsi hündür idi, çətinliklə və sızlaya-sızlaya mindim. Əli məni görüb çox sevindi.

Anam həyətdə üzərlik yandırıb bizi gözləyirdi. Məni qucaqlayıb öpdü. Ev sahibəsi həyəti sulayıb süpürmüş, şamdangülü dibçəklərini həyətin ortasındakı hovzun ətrafına düzmüşdü. Təmiz və kiçik uşaqları ədəb-ərkanla dayanıb mənə baxırdılar. Ağa Rza Əlini, Ətiyyəni və uşağın çantasını əlində tutmuşdu. Pərvin xanım körpəni içəri apardı. Hava yaxşı idi, ancaq anam pəncərələri bağlamışdı. O bizə Əlinin otağında təmiz və səliqəli yataq sərmiş, uşağa balaca dəmir beşik almışdı.

Ağa Rza içəri girmədi, Pərvin xanımla birgə alış-verişə getdi. Bir neçə kilo ət, meyvə, ciyər, bir paket də püstə, badam və fındıq alıb gəldilər. O vaxt simli pultu olan oyuncaq maşınlar təzə çıxmışdı. Əliyə ondan da almışdılar. Əli maşını görüb çox sevinir, qutusunu qucaqlayıb öpürdü. Anam onlardan şam yeməyinə qalmalarını xahiş etdi. Ağa Rza narahat idi, ev sahibigilə getdi. Onunla Hacı ağa Huşməndinin yeməyini oraya göndərdik.

Ertəsi gün ağa Rza da cəbhəyə getdi. Pərvin xanım səhərdən gəlib anama kömək edirdi. Ev sahibəsi də

kömək edir, uşaqlarını Əli və Ətiyyə ilə oynamağa gətirirdi. Erkəndən radionu açıb qulaq asırdıq. Diktor hərdən cəbhədən xəbərlər verirdi. Pərvinlə narahat idik, amma üz vurmurduq.

Qızım ongünlük idi, amma hələ ad qoymamışdıq. Anam hovuzun yanında uşağın əsgilərini yuyurdu. Pəncərəni açıb taxçanın üstündə oturmuşdum və oradan anamla danışırdım. Həyətdəki ip balaca qız paltarları ilə dolu idi. Günəş də həyətə saçırdı. Bu zaman qapı açıldı və korpus geyimində bir kişi içəri girdi. Bəhmən idi; əlində çantası, qara və sıx bığ-saqqalı vardı. Anam köpüklü əllərini ləyəndən çıxarıb özündən aralıda tutdu, Bəhmənə doğru qaçdı, onu qucaqlayıb öpdü. Bəhmən anamın yanından pilləkənə qədər qaçdı. Çəkmələrinin bağını açmağa kömək etdim. Həmin halda başımdan öpürdü. Sonra Əlinin və qızımızın yanına qaçdı. Üzü gülürdü. Mənə dedi: "Nəsrin, necə də qəşəng qızdır! Özün kimidir". Sevindiyindən Əlinin dili tutulmuşdu. Nə qədər oyuncaq vardısa, gətirib Bəhmənə göstərirdi. Bəhmən soruşdu ki, uşağın adı nədir? Gülüb dedim: "Uşaq... Qız... Noxudçu... Bilmirəm… Ağzımıza nə gəlsə…" Hər ikimiz gülüşdük. Bəhmən dedi: "Hacər necə addır?" Dedim: "Hacər?! Çox yaxşıdır".

Qaynanamın göyçək xalası vardı. Həqiqətən gözəl idi. Uca boyu, sarışın saçı vardı. O qədər ağ idi ki, günəşin altında otura bilmirdi. Buşehrdə yaşayırdılar. Adı Hacər idi, qaynanamı o böyütmüşdü. Bəhməni də çox istəyirdi. Özü demişdi ki, Bəhmənin uşağına mənim adımı qoyarsız.

Bəhmən Hacərin doğum şəhadətnaməsini alıb dedi: “Hacər Baqiri. Doğum tarixi: 02.05.1983. Bu, anama və Hacər xalaya hörmət üçündür. Ancaq sübh azanı vaxtı dünyaya gəldiyinə görə özümüz onu Səhər çağırarıq”.

Bəhmən Abadandan Quma qədər 16-17 saat yol gəlirdi. Qışda qar yolları bağlayanda bir neçə dəfə yarıyoldan qayıtmağa məcbur olmuşdu. Buna görə bizdən xahiş etdi ki, bir neçə həftəlik Abadana gedək. Özü bizi aparmağa gəldi. Əli ilə Səhərin bütün isti paltarlarını geyindirdik. Səhəri qalın bir ədyala bükdük, yalnız nəfəs almağa kiçik bir yer qalmışdı. Yola düşdük. Təhlükəli döngə və dolanbaclardan keçdik, Qız körpüsünü, Məmulan və Məlavini arxada qoyub düz yola, Əndimeşk-Abadan magistralına çatdıq. Yolun hər iki tərəfindəki tank, istehkam və səngərlər arasında yaşıl əkin sahələri görünürdü, xiyar, pomidor və kahı əkmişdilər. Əkinçilər öz məhsullarını yolun kənarında satırdılar. Bəhmən bir neçə dəfə maşını saxlayıb xiyar və pomidor aldı. Maşının baqajındakı su ilə yuyub yeyirdik. Təzə pomidorlar üçün duza ehtiyac yox idi. Təzə xiyarlar isə duzla daha ləzzətli olurdu.

Abadanda bir həftədən artıq davam gətirə bilmədik. Su və elektrik enerjisi yox idi, əsgərlərin gətirdiyi sular Səhərlə Əlinin paltar və əsgilərini yumağa yetmirdi. Bəhmən bizi Mahşəhr düşərgəsinə aparmağa məcbur oldu. Oranın vəziyyəti də ürəkaçan deyildi. Tualetlər həmişə dolu olurdu, uşaqlara görə çox vaxt tualet növbəsində dayanmağa məcbur qalırdıq. Səhərin əsgilərini yumaq müsibət idi.

Düşərgədə get-gəl edən o qədər kişinin arasında qollarımı çırmayıb ləyəndə paltar yuya bilmirdim. Buna görə köhnə və cırıq corablardan özümə qolçaq və ayaqlıq tikdim. Qolçaqlar üçün iki dəlik qoymuşdum. Baş barmağıma keçirirdim ki, yuxarı qalxmasın. Beləcə Əli ilə Səhərin paltar və əsgilərini yuyur, işim bitəndən sonra qolçaqları suya çəkib ipdən asırdım. Düşərgədəki digər adamlar kimi bizim də bircə otağımız vardı. Bəzən çoxuşaqlı ailələr də bir otaqda qalırdılar. Fikirləşirdim ki, elə kiçik və dar yerdə gecələr necə yatırlar. Həmin düşərgədən, şəhid vermiş bəzi ailələrin otaqlarından gecədən sübhədək gələn ağlaşma və zarıltılar yadımda qalıb.

Mahşəhr qalmalı yer deyildi. Bəhmən Quma qayıtmağımızı istəyirdi. Lakin Səhər dünyaya gələndən sonra bu nəticəyə gəlmişdim ki, gərək hamımız bir yerdə olaq; ya birlikdə ölək, ya da yaşayırıqsa, bir-birimizdən uzaq qalmayaq. Mənim qalmağa dair israrlarım Bəhməni başqa seçimlər barədə düşünməyə vadar etdi.

Bir qədər sonra Əhvazı seçdi. Korpus Kiyan-parsın Kiyanabad prospektində bizə birmərtəbəli həyət evi verdi. Əmim işini Xarkdan Əhvaza köçürdü. Qumda çox da əşya və avadanlığımız yox idi. Qayınanamdan xahiş etdik ki, onları toplayıb ev sahibinə təhvil versin. Kiyan-parsdakı evə kovrolit döşənmişdi, az da olsa, yaşayış imkanları vardı. Oranı təhvil aldığımız gün rahat nəfəs aldım. Özümə söz verdim ki, nə qədər müharibə bitməyib, Əhvazda qalacağam.

Əhvaz cəbhəyə yaxın idi. Gündəlik bombardman olsa, qırmızı vəziyyəti bildirən həyəcan siqnalları

verilsə də, həyat davam edirdi, su və elektrik enerjisi vardı. Əhvazda qərara gəldik ki, yavaş-yavaş məişət avadanlıqları alaq. Bir yerdə olduğumuza görə Bəhmənin maaşına plan cızdıq. Qaz sobası, çarpayı, qab-qacaq və mətbəx servisi almaq həvəsi ilə ayları arxada qoyurduq. Əmim bir həftə Əhvazda qalırdı, bir həftə Qumda. İş növbəsi olanda bizə gəlirdi. Hərdən qayınanam da onunla gəlirdi. Anam 14-16 yaşlarında olan Səid və Həmidlə tez-tez bizə baş çəkirdi. Bizim evimiz qohumların görüşü üçün yaxşı məkana çevrilmişdi; xüsusən dayılar, xalam və baba üçün. Onda Bəhmən İmam Hüseyn (ə) qarnizonunun Su hövzəsinin Rabitə bölüyünün komandiri idi.

# On ikinci fəsil

Hamilə olduğumu anama söyləməyə qorxurdum. Səhərin bir yaşı vardı. Bir axşam süfrə başında oturmuşduq. Anam da oradaydı, Səidlə Həmid də. Səhər mənim qucağımda idi. Bəhmən Səid, Həmid, Səhər və Əliyə tez-tez süfrədən yemək çəkirdi. Anam dedi: “Maşallah! Bəhmən, nə yaxşı səbirlisən!” Bəhmən cavab verdi: “Bibi, mən uşaqları çox sevirəm, istəyirəm yeddi oğlum, yeddi qızım olsun”. Anam güldü. Bəhmən dedi: “Süfrəyə oturanda biri çörəyi o birinin əlindən alsın, biri yanındakının qabağından qatığı götürsün... Çox yaxşı olar, bibi!” Anam gözaltı mənə baxıb dedi: “Qarşıda çox işiniz var. Hələlik əlinə bir oğlan, bir qız keçib”. Bəhmən şıltaqcasına dedi: “İki oğul, bir qız; ya da iki qız, bir oğul”. Anamın yediyi tikə boğazında qaldı, tez üzünü çevirib mənə baxdı. Başımı aşağı salıb Səhərə yemək yedizdirməyə başladım.

Həmin axşamdan anamın mənə qayğısı çoxaldı. Mənə yazığı gəlir, deyirdi: “Nəsrin can, məgər sənin neçə yaşın var?! İyirmi yaşın tamam olub? Bir az da özünə fikir ver. Qoy uşaqların əmələ gəlsinlər. Belə

bir-birinin ardınca olanda zəifləyərsən, dişlərin, saçın tökülər”.

Bir söz demədim. Sevinirdim ki, Bəhmən aylarla ürəyimdə qalmış sözü anama dedi. Anam mənimlə həkimə gedəndə bildi ki, uşaq iyulda doğulacaq.

# On üçüncü fəsil

1985-ci ilin iyul ayı gəldi. Rəna Mitranın yoldaşına uzaq qohum olan bir oğlanla ailə qurmuşdu. Oğlanın ailəsi Bəhreyndə yaşayırdı, şiə olduqlarına, İran İslam İnqilabını dəstəklədiklərinə görə Bəhreyn dövləti tərəfindən təzyiqə məruz qalmış və bir qismi İrana köçmüşdü. Qayınanam oğlan evini qonaq çağıracaqdı. Bəhmənə zəng vurub demişdi ki, hamılıqla Quma gedək. Bəhmən bugün-sabah uşağımız olacağını bildiyi üçün üzr istəmişdi. Lakin qayınanamın çoxlu israrından sonra həmin vəziyyətdə Quma getməli olduq.

Bəhməndə land cruiser avtomobili vardı. Maşının arxasını yeyinti məhsulları və digər əşyalarla doldurdu. Hətta Əli ilə Səhərin üçtəkərli velosipedlərini də qoydu. Əndimeşkə çatanda uşaqlar parkda velosiped sürdülər, Bəhmən onlara şirniyyat aldı. Məndən soruşdu: "Halın necədir? Çətinliyin yoxdur ki? Əgər uşağın vaxtıdırsa, burada xəstəxanaya gedək".

Hələ ki uşaqdan xəbər yox idi. Dua və salavatla yola düşdük. Xürrəmabadda bir neçə saat dayandıq,

gecəni Bürucerddə yatdıq. Ərakda da bir neçə saat qaldıq. Nəhayət, Quma çatdıq.

İyulun doqquzu idi. Rənanın qayınanasıgil ertəsi gün gələcəkdilər. Günorta yeməyindən sonra qabları yumağa kömək etdim, mətbəxi yuyub-təmizlədim. İstirahət etmək istəyəndə uşağın dünyaya gələcəyini hiss etdim. Bəhməni çağırıb dedim: "Elə indicə məni xəstəxanaya apar!"

Bəhmən özünü itirdi. İlk dəfə idi ki, uşağımız olanda yanımda idi. Qayınanamı səslədi. Qoluma girib məni maşına mindirdilər. Xəstəxanaya çatanda maşından düşə bilmədim. Bəhmən qaçıb xərək gətirdi. Bir neçə nəfərin köməyi ilə xərəyin üstünə uzandım. Məni Doğum şöbəsinə apardılar və az sonra ikinci oğlum dünyaya gəldi. Qayınanam uşağı ilk dəfə görəndə demişdi: "Sanki 25 il öncəyə qayıtdım. Bu uşaq Bəhmənə necə də oxşayır!" Bəhmən də uşağı görmüşdü.

Həmin axşam qərara gəlmişdik ki, qonaqları şam yeməyinə çağıraq, yüngül xörək hazırlayıb parka gedək. Lazım olan ərzağı almaq üçün Bəhmənə bir siyahı vermişdim. Yazmışdım ki, kartof, duzlu xiyar, mayonez, sendvic çörəyi və digər şeylər alsın. Bəhmən uşağı görüb sevindiyindən həmin kağızın arxasına bir söz yazıb mənə göndərmişdi. Tibb bacısı da alış-veriş siyahısını görüb təəccüblənmişdi. Bəhmənin kağızını mənə verdi və zarafata dedi: "Bu siyahını ərin verdi. Dedi ki, tez ayağa qalxıb bazara getsin, bunları alıb gəlsin. Axşama qonağımız var".

Bəhmən kağızın o biri üzünə belə yazmışdı:

“Əzizim, ümidvaram ki, bu mübarizədə qələbə çaldığın kimi nəfsə qarşı mübarizə olan böyük cihadda da qalib gələsən.

Səni sevən Bəhmən”

Kağızdan Bəhmənin ətri gəlirdi və bu mənə yaxşı təsir edirdi.

Bəhmən uşağın adını Səccad qoydu. O deyirdi: “Namazın müxtəlif hissələri arasında ən çox səcdəni sevirəm. Səcdə Allaha eşq yeridir. Adam səcdədə Allaha birləşir”. Doğru deyirdi. Bəhmənin namazının səcdələri uzun olurdu, çox vaxt səcdədə ağlayırdı.

Qayınanam Səccadı sevirdi. O deyirdi: “Nəsrin, gül doğmusan: dörd kilo yarımlıq bir uşaq!” Bəhmən uşağın yeddinci günü bütün qohumları dəvət edib qonaqlıq verdi.

Bir neçə həftədən sonra Əhvaza qayıtdıq. O günlərdə Əhvazda vəziyyət ağır idi, digər şəhərlərdən oraya gedib-gələn az idi. Hər həftə şəhər əhalisinin bir qismi ya cəbhələrdə, ya da bombardman nəticəsində şəhid olurdu. Lakin biz Əhvazdan tərpənmək fikrində deyildik. Qırmızı vəziyyət elan olunanda uşaqları qucağıma götürür, birinci mərtəbədə pilləkənin altında otururduq. Gözləyirdik ki, hamımız birlikdə şəhid olaq. Bəhmən evdə olanda onu da özümüzlə aparırdıq. O, gülüb qışqırırdı: “Mən ölmək istəmirəm. Mən yaşamaq istəyirəm”. Beşimiz də qucaqlaşanda yaxşı hisslər keçirirdik.

Bəhmən Əhvaz, Şiraz, Xürrəmşəhr və Abadan yollarında idi. Lakin ən azı həftədə 2-3 gün bizimlə qalırdı. Səhəri qucağına götürüb ona oxuyurdu:

*Ay arı, arı, arı! Xürrəmşəhr və qızları!*
*Ay həri, həri, həri! Xürrəmşəhr və gözəlləri!*
*Ay iri, iri, iri! Abadan və dilbərləri!*
*Səhər də gülməkdən uğunurdu.*

Əli cizgi filminə baxmağı çox sevirdi. 14 inç ölçüsündə bir ağ-qara televizorumuz vardı. Axşamüstülər onun qabağında oturub uşaq verilişini izləyirdi. Ən çox «Balaca Əlinin nağılları» verilişini sevirdi. Verilişin musiqisi başlayanda onunla birlikdə oxuyurdu:

*Li-li-li, li-li-li, Əli kişi!*
*Balaca Əli, bambalaca bir kişi!*
*Balaca Əli çox mehribandır,*
*Yaxşı anası bilir bunu haçandır.*
*Bu da atasıdır, yeri həmişə dolsun!*
*Cəbhəyə gedib. Allah ona yar olsun!*

Bəhmən evdə olanda Əli atasına baxıb fərəhlənirdi. Yəqin fikirləşirmiş ki, özü televizordakı balaca Əli, Bəhmən də onun cəbhəyə gedən döyüşçü atasıdır.

Bəhmən bir turnik alıb qapıların birinə vurmuş, ip və taxta ilə uşaqlara yelləncək düzəltmişdi. Səhərlə Əlini növbə ilə yelləncəyə qoyur, onlara şeir oxuyurdu:

*Qüdsü azad etmək üçün*
*Kərbəladan keçmək lazımdır!..*
*Kefi kök olanda da belə oxuyurdu:*
*Ay qalan! Geri qalan!*
*Səni görəsən qara ilan!*

Mən mətbəxdə bişir-düşürlə məşğul olanda Bəhmən uşaqları yelləyir, onlarla oynayırdı.

Korpusun Yardımlaşma şirkətinin üzvü idik. Bir gün Bəhmən bir televizor gətirdi. Püşkdə adı çıxmış, aşağı qiymətə rəngli televizor almışdı.

Uşaqların müşayiətilə 21 inç ölçüsündə rəngli televizoru qutusundan çıxardı. Uşaqlar televizorda rəngli adamları, cizgi filmlərini görüb çox sevinirdilər. Təsadüfən, həmin gün Səidlə Həmid bizə gəldi. Onlar da rəngli televizoru görüb sevindilər. Biz didərgin düşəndən sonra Səidlə Həmid tez-tez anama deyirdilər ki, get Xürrəmşəhrdən televizorumuzu gətir, ya da bizə böyük bir televizor al. Rəngli televizor gələndən sonra Səid, Həmid və digər uşaqlar səhərdən axşama qədər onun qarşısından tərpənmirdilər. Səidgil hərdən anama deyinirdilər: "Ya Allah... Bizə televizor al. Bunlarda var, bizdə niyə yoxdur?"

Bir gün anam Səid və Həmidlə birgə harasa getdi. Bəhmən Səhəri dizinin üstə oturtdu, Əlini də çağırıb dedi: "Baxın, uşaqlar, bizim iki televizorumuz var, Səidlə Həmidgilin isə bir dənə də yoxlarıdır. Televizorumuzun birini onlara vermək barədə fikriniz nədir?" Əli bir qədər fikirləşdi. Səhərin iki, Səccadın isə bir yaşı vardı. Yalnız Əli qərar qəbul edə bilərdi. Birdən dedi: "Verək, ata!" Bəhmən güldü, Əlinin başını sığallayıb dedi: "Bərəkallah, oğlum! Bəs səncə, hansını verək?" Əli tez cavab verdi: "Balacanı, ağ-qaranı". Səhər də qardaşını yamsılayıb dedi: "Balacanı!" Bəhmən dedi: "Mənsə deyirəm rənglini

verək. Sən dostunun ad gününə gedəndə xarab olmuş köhnə maşınını hədiyyə aparasan, yoxsa təzə və qəşəng bir maşın alarsan?” Əli ağıllı uşaq idi. Atasının məqsədini anlayıb dedi: “Yox, ata... Mən rənglini çox istəyirəm. O bizimdir”. Bəhmən Əli ilə danışdı. Bəzi sözlərinə acığım tutsa da, müdaxilə etmirdim. Görürdüm ki, uşaqları yaxşı tərbiyə edir. Fikirləşirdim ki, yaxşısı budur işini görsün. Hərçənd mən istəyirdim ki, rəngli televizor özümüzə qalsın.

Şam yeməyi hazır idi. Bəhmənlə Əli mətbəxə girdilər. Əli dedi: “Ana, sən də icazə verirsən rəngli televizorumuzu Səidlə Həmidə verək?” Bəhmən öz işini görmüşdü, qalib görkəmdə gülürdü. Nə cavab verə bilərdim?! Həmin axşam 21 inçli rəngli televizor qutusuna girdi və bir neçə gündən sonra anamgillə birgə Tehrana getdi.

***

Səccad altıaylıq idi. Həmədanlı ailə ilə bir evdə qalırdıq. Xanımın hamiləliyinin son ayı idi. Bəhmən kimi onun əri ağa Fəzli də Vəlfəcr-8 əməliyyatında iştirak edirdi. Əmim və qayınanam bizdə idilər. Həmin xanımın Səid adlı biryaşlı oğlu vardı. Qayınanam çox vaxt onu bizim uşaqların yanına gətirirdi ki, anasını incitməsin. Birdən xanımın ağrısı çoxaldı, qayınanamla əmim onu xəstəxanaya apardılar. Uşaq dünyaya gəldi, lakin nə əri gəldi, nə də Bəhmən. Əmi bazara gedib xanıma püstə, badam və ciyər aldı. Qayınanam ona xəşil bişirdi. O, yaxşılaşana qədər qayınanamla köməkləşib işlərini gördük.

Bu müddətdə Bəhmən hərdən bizə məktub yazırdı. Bir dəfə bizimlə zarafatlaşmaq və Əlini sevindirmək üçün dostundan bizə bir qeyd göndərdi. Əliyə belə yazmışdı: "Əli can, biz düşmənin bir təyyarəsini vurduq. Pilotu tutmağa gedəndə gördük ki, güllə adamın burnunu qoparıb". Əli gülməkdən uğunub deyirdi: "Ana, bir də oxu!"

Gecənin yarısı idi. Səccada süd vermək üçün oyanmışdım. Birdən bir səs eşitdim. Qalxıb gördüm ki, Bəhməndir, amma necə?! Qorxumdan yavaşca qışqırdım. Bəhmən sakitcə dedi: "Qorxma! Qorxma, mənəm". Qaralmış üzündə kiçik və böyük suluqlar vardı. Saç-saqqalı uzanmışdı, toz-torpağın içində idi. Nə baş verdiyini soruşanda dedi: "Heç nə, düşmən kimyəvi silah tətbiq edib". Öskürməyə başladı. Danışa bilmirdi. Gözüm əllərinə sataşdı. Yaralı idi.

- Xəstəxanaya getmədin? Həkim sənə baxmadı?

Laqeyd halda cavab verdi:

- Bir şey deyil, sağalacaq. Rəhmət də mənim kimi olub, ağa Fəzli də.

- Bəs əleyhqaz taxmamışdız?

- Yox əşi, bombardman olanda bilmədik. Sonra gördük ki, səma rəngli buludlarla dolub; sarı, narıncı və yaşıl rəngli narın zərrəciklər idi.

Paltarlarını çıxarmasını söylədim. Onları bir kənara qoyub özünü hamama göndərdim. Suluqları daha da pisləşdi.

Ertəsi gün gördüm ki, xanım Fəzli yoldaşının paltarlarını yuyub həyətdəki ipdən asıb. Bəhmən dedi: "Mənim paltarlarımı yandır. Uşaqlara bir şey olmasın". Ağa Fəzlinin vəziyyəti Bəhməndən də pis

idi. Heç biri yaxşı deyildi. İki-üç dəfə həkimə getdilər, amma sağalmadılar. Nəfəsləri gəlmirdi, bədənlərində yara əmələ gəlmişdi. Müalicə üçün Şiraza getdik. Orada həkim Bəhməni müayinə edib təəssüflə başını yellədi və dedi: “Hələ başınıza nə gəldiyini bilmirsiz. İyirmi ildən sonra başa düşəcəksiz!”

# On dördüncü fəsil

1986-cı ildə Əhvazın Millət küçəsində Rəhmətlə birgə ikimərtəbəli bir ev kirayə etdik. O, həyat yoldaşı və uşaqları ilə birinci mərtəbəyə yerləşdi, biz də ikinci mərtəbəyə qalxdıq. Evin böyük həyəti vardı. Sol tərəfdə böyük bir bağça yerləşirdi. Rəhmət payızda bağçada xiyar, pomidor, göyərti, bamiyə və bibər əkib üstünü neylonla örtdü. Məhsul o qədər bol oldu ki, həmin il qışda həmin məhsullardan ötrü bazara getmədik. Həyətin sağ tərəfində iki böyük dördkünc bağça vardı, bir neçə oleandr, kağızgülü və sarmaşıq əkilmişdi. Gözəl gülləri acı yasəmən ətri verirdi. Ortada maşın saxlamağa yer vardı. Bəhmən datsun markalı kiçik ağ yük maşını almışdı, onu həyətin ortasında saxlayırdı. Onda Rəhmət peykan sürürdü. Həmin evdə telefonumuz da vardı.

May ayı idi. Anam dördüncü uşağımı dünyaya gətirməkdən ötrü məni Tehrana aparmağa gəlmişdi. Bəhmən qəbul etməyib dedi: "İstəyirəm ki, uşağım Əhvazda dünyaya gəlsin, qarabuğdayı və göyçək bir qız olsun, ona "Əhvazlı qız" deyək". Bir neçə gün

qabaq Həlimənin uşağı dünyaya gəlmişdi. Adını Məhəmməd qoymuşdular.

Bəhmən iyirmi gün idi evə gəlmirdi, ancaq Rabitə bölüyünün komandiri olduğuna görə əlinin altında telefon vardı və hər gün bizimlə danışırdı.

Bir gün anam günortadan sonra uşaqları yatızdırdı, yanımda uzanıb mənə nəsihət verməyə başladı.

- Nəsrin, Allah eləsin, övladın qarabuğdayı qız olsun; iki qız, iki oğlan. Daha bəsdir, deyilmi?

Güldüm.

- Ana, sən də, əmidostu da hərəniz altı uşaq dünyaya gətirmisiz. Məgər biz pis uşaqlarıq?! Əgər biz olmasaydıq, nə edəcəkdiz? Bəlkə atamdan sonra ərə getmək istəyirdin?!

Anam bu zarafatı xoşlamırdı. Dodağını dişlədi.

- Utan. Heç mənə dəxli yoxdur. Mənə deyən yoxdur ki, axı sənə nə?! Nə üçün özünü pis edirsən?! Başqası ağrı çəkir, doğur, başqa birisi xərcini verir - bu ortada sən nəkarəsən?!

Əyilib onu öpdüm, qucaqlayıb dedim:

- Sənə də, sənin qaşqabağına da qurban! Yaxşı, ana, söz verirəm, daha uşaq istəməyəcəm.

Anam üz vurmasa da, sevindi. Özünü yatmışlığa vurmuşdu.

- Hə, sən yuxudasan, əməlli-başlı yuxuda! Mən də inandım. Əgər yatmısansa, bəs nə üçün göz qapağın tərpənir?

Əlimlə onu qıdıqladım. Gözlərini açdı.

- Sənin əlindən nə edim, Nəsrin? Yaxşı, Allah necə istəyirsə, elə olsun!

Mətbəxə keçib çay dəmlədi. Şirniyyatımız da vardı. Uşaqlar yuxudan oyandılar. Anam onları bir-bir tualetə aparıb əl-üzlərini yudu. Əli televizoru açdı. Özümü pis hiss eləməyə başladım. Belim və böyrəklərim ağrıyırdı, amma hiss etdirmədim. Anam, "görüm axşam yeməyinə neyləyirəm" - deyib mətbəxə girdi.

Maşın səsi gəldi. Fikirləşdim ki, bəlkə Bəhməndir. Həmişə istəyirdim ki, gündüz gəlsin. Nə vaxt gəlsəydi, ertəsi gün səhər gedirdi. Uşaqlar pəncərəyə sarı qaçıb dedilər: "Ata... Ata gəldi".

Az sonra Bəhmən qapını açdı. Əlində qara sellofan torba vardı. Sevincək qalxıb onu qarşılamağa getdim. Anamdan gizli başımdan öpdü. Uşaqlar onu dövrəyə aldılar. Səccadı qucağına götürüb öpdü. Onu yerə qoyub Səhəri götürdü. Anam mətbəxdən gəlib dedi: "Salam, əzizim". Bəhmən Səhəri yerə qoyub anamı qucaqladı, yanaqlarından və alnından öpdü. Əyilib əllərindən öpmək istəyəndə anam qoymadı. Səccad ağlayır, Bəhmənin qucağına getmək istəyirdi. Bəhmən torbanı anama verib dedi: "Bibi, ciyərdir. Nəsrin banu üçün aldım". Sonra gödəkcəsinin içindən bir paket çıxardı, mənə verib dedi: "Ye, püstədir. Sənə yaxşıdır". Uşaqlara da şokolad və vafli almışdı. Anam mətbəxə keçmişdi. Onu çağırıb dedi: "Bibi, siz zəhmət çəkməyin, indi gəlib bişirəcəyəm". Anam dedi: "Şama bişirim, yoxsa nahara?" Bəhmən dedi: "Bu axşam uşaqları pizza yeməyə aparacağam". Uşaqlar sevindilər.

- Ay can! Pizza! Ata, gedək pizza yeməyə.

Ağrım get-gedə çoxalırdı. Öz-özümə dedim ki, gərək güclü olasan. Bəhmən çoxdandır evə gəlmir. Gərək elə edəsən ki, uşaqlar çox gözəl vaxt keçirsinlər.

Bəhmən hamama girdi. Paltarlarını mətbəxin qabyuyanında yudum. Bəhmən məni çağırıb dedi: "Uşaqları göndər hamama". Əvvəlcə Səccadı göndərdim. Onu geyindirəndə Əli özü soyunub duşun altına qaçdı. Atası ilə oynayır, Bəhmən onu yuyundurdu. Əlidən sonra Səhərin növbəsi idi. Səhəri də geyindirəndə artıq belim ağrıdan sınmağa qalmışdı. Lakin öz-özümə deyirdim ki, Nəsrin, güclü olmalısan, uşaqlar yazıqdırlar, qoy sevinsinlər.

Uşaqlar sevincək maşına mindilər. Ağrıdan pillələri enə bilmirdim, amma səsimi çıxarmırdım. Kiçik yük maşını idi, üç nəfər otura bilirdi. Bəhmən Səccadı dizinin üstə oturtdu. Səhər mənim, Əli də anamın dizi üstə oturdu. Əli mənə görə narahat idi, sanki halımın yaxşı olmadığını üzümdən oxuyurdu. Arabir dönüb soruşurdu: "Sən rahatsan?" Deyirdim ki, rahatam, əslində isə ağrıdan qıvrılırdım. Pizza restoranı Kiyan-parsda idi.

Anam Bəhməndən soruşdu ki, nə vaxta qədər buradasan? Bəhmən cavab verdi ki, gecə gedəcəyəm. Hər dəfə gələndə qorxurdum ki, birdən bu, axırıncı gəlişi olar. Ağrı gəlib-gedirdi. Öz-özümə dedim ki, gərək dözəsən; bir neçə saatdan sonra gedəcək, qoy uşaqlar şənlənsinlər. Hər tramplindən keçəndə sanki qarnıma və belimə bir ovuc iynə batırdı.

Nəhayət, çatdıq. Restoran təmiz və yaraşıqlı idi, böyük mobliran mağazasının qarşısında yerləşirdi.

Bəhmən qucağında Səccad maşından endi. Hündür maşından yerə enmək mənim üçün böyük müsibət idi. Bəhmən mənə yaxınlaşdı. Əlimi çiyninə qoydum, amma düşə bilmədim. Səccadı sağ əli ilə tutmuşdu. Bir hərəkətlə məni qucağına götürüb yerə qoydu, sonra kanaldan keçirmək üçün əlimdən tutdu. Səccadla Əli sevincək restorana qaçdılar. Bəhmənin diqqəti anamla məndə idi. Qoluma girib içəri girməmə kömək etdi.

Pizza iyi və salonun istiliyi ürəyimi bulandırırdı. Nəfəsim çatmırdı. Buna baxmayaraq, oturdum. Bəhmən üç böyük pizza sifariş verdi. Dedim ki, mən yeyə bilməyəcəyəm, ağırdır, gecə yata bilmərəm. Bəhmən dedi ki, olmaz, gərək yeyəsən.

Oradan tez çıxmaq istəyirdim. Restoranın ağır havasından ürəyim bulanırdı. Bayırda buludlu hava vardı. İstəyirdim ki, tez yağış yağsın və yağış altında gəzim. Uşaqlar iştahla pizza yeyib dodaqlarını yalayır, mənə baxırdılar. Bəhmən nə qədər etdisə, bir dilim də yemədim. Dedim ki, gedək körpünün altına, mən samosa yeyəcəyəm. Bəhmən gülüb dedi: "Hə, xürrəmşəhrli qız, samosa və falafel yeyən olduğunu göstər!" Dedim: "Hə, bu nədir yeyirsiz?! Pizzanın yalnız görkəmi var".

Danışmağa halım yox idi. Nəhayət, uşaqlar razılaşdılar və oradan çıxdıq. Bəhmən maşını döndərdi, həqiqətən də Karun körpüsünün altına getdik. Orada bir neçə samosaçı vardı. Bir neçə nəfər də təkərin üstündə samosa satırdı. İkisini alıb qayıtdı. Samosaları görəndə ürəyim bulanmağa başladı.

Bəhməndən gizlicə onları tikə-tikə bölüb uşaqlara verdim.

Korpusun binasının yaxınlığında bir sərgi açılmışdı. Camaat oraya toplaşmışdı. Bəhmənlə uşaqlar orada bir dövrə vurdular, qarğıdalı alıb gəldilər.

Artıq taqətim tükənmişdi. Yalandan gülümsəyirdim. Bəhmən "Asfaltın axırı" deyilən məhəlləyə getdi. Orada Kəramət adlı məşhur bir süd məhsulları mağazası vardı. Məhsulları etibarlı və keyfiyyətli idi. Uşaqlara dondurma, səhər yeməyinə də südlə qaymaq aldı. Anam maşından düşməyimə kömək etdi. Narın yağış yağırdı. Anam vəziyyətimin pis olduğunu anlayıb soruşdu: "Nəsrin, sən yaxşı deyilsən?" Dedim ki, yaxşıyam. Dedi: "Yox, mənə yalan söyləmək lazım deyil. Sən bu axşam azad olacaqsan". Dedim ki, yox əşi, hələ qalıb. Bəhmən bizə yaxınlaşıb dedi: "İstəyirsizsə, uşaqları düşürüm, hamımız piyada gəzək". Anam dedi: "Yox, tez evə gedək. Nəsrin yaxşı deyil". Bəhmən mənə baxdı və narahat halda soruşdu: "Doğrudan? Sən yaxşı deyilsən? Bəs nə üçün demirsən?" Heç nə demədim. Bəhmən dedi: "Onda gedək. Mən bu gecə qayıtmalıyam. Uşaqları yatızdırım ki, sizi incitməsinlər".

Anam əlimdən tutub dedi: "Gedək. Bu qızın halı çox pisdir, ancaq dözür ki, uşaqlarla şənlənəsiniz". Bəhmən dedi: "Hə, Nəsrin can? Sənin ağrın var?" Dedim: "Yox, yorğunam. Səhərdən çox işləmişəm. Maşında da Səhər dizimin üstə olub. Yəqin ondandır".

Səccad yenə Bəhmənin dizi üstə oturdu. Sükanı fırladır, sevinirdi. Elə bilirdi ki, maşını o sürür. Səhər mənim qucağımdan əyilib Bəhmənin əlini və üzünü öpürdü. Əli dedi: “Ata, sağ ol ki, bizi gəzməyə çıxardın. Çox əyləndik”.

Uşaqların razı qaldığını görüb sevindim. Bəhmən evimizin sevinci idi. Gələndə hamını hərəkətə gətirirdi. Buna görə ovqatlarını təlx etməməli idim. Dözə bilərdim və dözdüm. Lakin ağrıdan ilan vurmuş kimi qıvrılırdım. Evə çatanda Bəhmən Səhəri tualetə apardı və dişlərini fırçalamasını gözlədi. Əli işlərini özü görürdü. Səhər sakit qız idi. Hamımızı öpüb yatmağa getdi. Səccad Bəhmənə çox bağlanmışdı. Yatağında uzanmışdı, Bəhmən yanından keçən kimi gözlərini açıb ağlamağa başladı. Onun yuxuya getməsi çox çəkdi.

Bəhmən gedirdi. Mənim ağrılarım da son həddə çatmışdı. Bəhmən uniformasını geyindi. Əvvəlkindən ucaboy və yaraşıqlı olmuşdu. Ona baxıb yavaşca salavat çevirdim. Halımı soruşdu. Nəfəsim gəlmirdi, ağrıdan dodağımı dişləyirdim.

- Pisəm.

- Əgər narahatsansa, gedək xəstəxanaya. Ya da səni o xanımın yanına aparım. Adı nə idi?.. Sənə baxsa, pis olmaz.

- Xanım Müntəzimi. Yox, o, bahadır.

- Sən puluna görə narahat olma. Mən doğuşdan ötrü 20 min tümən kredit götürmüşəm. Get, özün üçün xərclə. Anan da ki, buradadır. Mən də buradayam. Daha nə istəyirsən?! Gəl, gedək xanım Müntəziminin yanına.

Anam güldü.

- Elə danışırsan ki, elə bil, xarici səyahətə gedir. Uşağım ağrı çəkməyə, uşaq dünyaya gətirməyə hazırlaşır.

Evimizin yaxınlığında doğuş mütəxəssisi olan çox yaxşı bir kişi həkim vardı. Ancaq kişi həkimə getmək istəmirdim. Əlbəttə, onda doğuş mütəxəssislərinin çoxu kişi idi. Təsadüfən, evi bizim küçədə yerləşən mama həmin kişi həkimin köməkçisi idi. Bir neçə dəfə onun yanına getmişdim. Adı Xədicə Müntəzimi idi. Bir həftə qabaq gedəndə uşaqları da özümlə aparmışdım. Xanım Müntəzimi onda dedi ki, istəsən, doğuş üçün də buraya gələrsən. Pulu barədə soruşanda dedi: "20 min tümən". Dedim ki, bu məbləğ bizə ağırdır. Mənə və uşaqlara baxıb dedi: "Maddi vəziyyətiniz yaxşı görünür". Soruşdum ki, nədən? Dedi ki, özünüz də, uşaqlarınız da yaxşı geyinmisiz. Ona dedim: "Bu, zahiri görkəmdir. Mənim yoldaşım pasdardır, döyüş bölgəsindədir. Bu pul onun bir neçə aylıq maaşı deməkdir". Yenidən mənə və uşaqlara baxıb dedi: "Əgər ərin döyüşçüdürsə, heç nə. Mən döyüşçülərdən pul almıram". Dedim ki, yox, belə də olmaz. Üz-gözündən rahatlıq yağırdı. Dedi: "Niyə olmaz?! Mən razıyam. Sən gəl, yoluna qoyarıq".

Yağış bərkimişdi, pəncərələri döyəcləyirdi. Anam dedi: "Tez olun, cəld getməliyik. Mən uşağımı tanıyıram. İndi taqəti bitəcək". Bəhmən gedib Rəhməti gətirdi ki, uşaqların yanında yatsın. Rəhmət soruşdu: "Tez qayıdacaqsız? Mən səhər işə

getməliyəm”. Anam dedi: “Sənə qurban, işimiz uzansa, uşaqları Həlimənin yanına qoyarsan”.

Güclü yağış yağırdı. Qısa müddət ərzində həyət və bağçalar su ilə doldu. Maşın həyətdə idi. Anamla Bəhmənin köməyi ilə maşına mindim. Gecə saat 12 idi. Küçə çaya dönmüşdü.

Müntəzimi xanımın evi üç qapısı olan böyük həyətli bir ev idi. Zənglərin birinin üstünə belə yazılmışdı: “Təcili yardım üçün”. Axırıncı dəfə yanına gedəndə demişdi ki, gecə yarısı ağrın tutsa, bu zəngi basarsan; yatmış olsam da, oyanacağam.

Evi bizə yaxın idi. Bəhmən maşını qapının qarşısında saxlayıb təcili yardım zəngini basdı. Yağış o qədər güclü idi ki, su kanala girə bilmirdi, küçələrdə sel axırdı. Yağış Bəhmənin paltarlarını və üz-başını islatdı. Maşının işıqları yanırdı, onu görürdüm; su dizinə qədər qalxmışdı.

Daha dözə bilmir, qapının dəstəyindən bərk yapışıb ağlayırdım. Bəhmən gəlib qapını açdı və dedi: “Halın pisdirsə, gedək xəstəxanaya. Birdən burada lazımi şərait olmaz”. Anam dedi: “Bunun cüssəsinin balacalığına baxma, maşallah, canı bərkdir”. Bəhmən narahat idi. Başımı saxlancın üstünə qoyub hər iki əlimlə oturacaqdan yapışdım. Bəhmən hirslənib dedi: “Bu da qapını açmır. Birdən Əli dünyaya gələndə olduğu kimi olar”. Anam əminliklə dedi: “Onda Nəsrin uşaq idi, 14-15 yaşı vardı. İndi isə 20 yaşı var”. Sonra çiyinlərimdən tutub başımı öpdü. Bu zaman xanım Müntəzimi qapını açdı. Uzun köynək geyinmşdi, ayaqlarında ağ çəkələk vardı, qara saçını arxadan yığmışdı. Bəhmən məni qucağına götürdü.

Özü dizə qədər suyun içində idi. Məni girişdə yerə qoydu. Xanım Müntəzimi dedi: “Salam. Necəsən xanım Baqiri?” Cavab verə bilmirdim. Soruşdu ki, ağrın nə qədər çəkir? Çətinliklə cavab verdim: “Heç nə. Dayanmadan ağrıyır, fasiləsiz”. Bəhmən başını aşağı salmışdı, xanım Müntəzimiyə baxmağa utanırdı. Xanım Müntəzimi: “Bəs nə üçün bu qədər gec gəldin?” - dedi və cavabı gözləməyib əlavə etdi: “Tez olun, girin içəri”.

Hamımız içəri girdik. Xanım Müntəzimi qapını bağladı. Bəhmən hələ də başıaşağı dayanmışdı. Xanım Müntəzimi dedi: “Bax, mənim üçün belə ədalar çıxarma. Hələ ki sənə ehtiyacımız yoxdur. Əgər narahatsansa, burada, gözləmə otağında otur. Ola bilər dərmana ehtiyacımız oldu, ya bir problem yarandı və Apadana xəstəxanasına getmək istədik. Hələ vəziyyətin nə yerdə olduğunu və necə olacağını bilmirəm”. Bəhmən bu sözləri eşidib qorxdu. Bizim arxamızca otağa qaçıb dedi: “Bibi, Nəsrinə heç nə olmasın! Mən buna dözə bilmərəm”. Xanım Müntəzimi anama dedi: “Sən bu qızı burax, o təzə atadan muğayat ol”. Sonra gülüb dedi: “Təzə də deyil, dördüncü uşağıdır. Düzdür?” Başımla təsdiqlədim.

Xanım Müntəzimi çarpayıda uzanmağıma kömək etdi. Anamla Bəhmənin səsini eşidirdim:

- Bəhmən can, sən nə danışırsan?! Sən ki hər gün nə qədər şəhid və yaralı görürsən. Bu sözlər nədir?!

- Mən Nəsrinin burnunun qanamasına belə dözə bilmərəm.

Sonra içəri girdi. Rəngi qaçmışdı. Dodaqları üzü ilə eyni rəngdə idi. Məndən soruşdu: "Necəsən, Nəsrin banu?" Birtəhər gülümsədim.

- Yaxşıyam.

Gödəkcəsinin cibindən zəncir ilgəkli kiçik Quranı çıxarıb başıma fırlatdı və dodaqlarımın qarşısında saxladı. Quranı öpdüm. Dedi: "İmamları çağır, həzrət Zəhraya (ə) təvəssül elə". Sonra gedib gözləmə otağında Quran oxumağa başladı. O qədər ucadan oxuyurdu ki, səsini eşidirdim.

Ağrı amanımı kəsmişdi, qışqırmaq istəyirdim, ancaq Bəhmənin eşidib qorxmasını istəmirdim. İmamları çağırmağa başladım, həzrət Zəhraya (ə) çatanda məni ağlamaq tutdu. Ürəyimdə ona təvəssül elədim ki, bərkdən qışqırmayım. Öz-özümə deməyə başladım: "Ya həzrət Zəhra! Ya həzrət Zəhra!"

Xanım Müntəzimi ağ xalatını geyindi, əlinə əlcək taxıb müayinəyə gəldi. Ayaqlarım titrəyirdi. Ucadan dedim: "Ya həzrət Zəhra!" Bəhmən Quran oxuyurdu, səsini eşidirdim. Xanım Müntəzimi güldü:

- Qız, sənin ki uşağın dünyaya gəlib, niyə bu qədər sakitsən?

Anam özünü itirib yaxınlaşdı, başımı öpüb dedi: "Sənə qurban olum! Başına dönüm! Xanım doktor, bu qızım həmişə belə dözümlüdür. Nənəsi ölsün! Qəriblik, müharibə və qaçqınlıq onu bərkidib".

Həkim isti su gətirdi. Anamla danışa-danışa işini görürdü. Ürəyim istəyirdi ki, danışmasınlar və mən Bəhmənin Quran səsini dinləyim. Birdən uşağın ağlamaq səsi otağı bürüdü.

Uşağın səsi gələndə Bəhmən də dayanıb ucadan dedi: “Xanım doktor, uşaq dünyaya gəldi? İçəri girə bilərəm?” Xanım Müntəzimi məşğul idi. Dedi: “Yox, sən yerində otur. İçəri gəlsən, uşaq gözündən düşər. Hələ yumamışam”.

Xanım Müntəzimi uşağı sol tərəfindəki ağ qəşəng vannada yuyub dedi: “Necə də qəşəng qızdır! Anasına çəkib. Paxıllıq etməyəsən, atası, sən də yaraşıqlı oğlansan”. Sonra uşağı ağ mələfəyə büküb tərəzidə çəkdi.

- Maşallah! Necə iri qızdır; 4 kilo 100 qram!

Üzünü mənə çevirib dedi: “Belə rahat bacaracağını düşünməzdim”. Anam sevindiyindən ağlamağa başlayıb dedi: “Xanım doktor, qızım çox məzlumdur!”

Xanım Müntəzimi uşağı çarpayının üstünə qoyub mənimlə məşğul olmağa başladı və anama dedi: “Daha ağlama. Get soyuducudan meyvə şirəsi gətir, içsin, təzyiqi düşməsin. Təzə bəyə cavab verə bilmərik”. Otaqda kiçik ağ soyuducu vardı. Daha ağrım yox idi, ancaq yatmaq istəyirdim. Doktor maqnitofonu açmışdı, mülayim musiqi çalınırdı. Ud da yandırmışdı. Yavaş-yavaş ətrafımı görməyə başlayırdım. Əla təmirli gözəl və təmiz otaq idi. Divarların biri mavi rəngdə idi, biri çəhrayı. Mavi divardakı bütün avadanlıqlar mavi idi, o tərəfdəkilərin də hamısı çəhrayı. Tavan səma rəngində idi, bir neçə gümüşü ulduz gözə dəyirdi. Ürəyim istəyirdi ki, hamı getsin və mən həmin gözəl ətirli otaqda musiqini dinləyə-dinləyə sakitcə yatım.

Anam meyvə şirəsini gətirib mənə verdi. Bəhmən içəri girdi. Hələ rəngi özünə gəlməmişdi. Ona yazığım gəldi. Anama işarə ilə meyvə şirəsini Bəhmənə verməsini bildirdim. Doktor Müntəzimi bunu duyub dedi: "Bundan ötrü narahat olmağa dəyməz. İç, qız, kişilərə heç nə olmur". Sonra anama dedi: "Lütfən təzə bəyə də bir meyvə şirəsi gətir, ana vicdan əzabı çəkmədən içsin". Sonra əlcəklərini çıxarıb əllərini yudu. Anam Bəhmənə meyvə şirəsi verib körpənin paltarlarını geyindirdi. Xanım Müntəzimi uşağı qucağıma verib dedi: "Ona süd ver".

Xanım Müntəziminin dediyi kimi, uşaq toppuş, ağ və göyçək idi. Səhəri dünyaya gətirmək üçün çəkdiyim bütün əziyyətlər yadıma düşdü. Əlini dünyaya gətirərkən çəkdiyim ağrıları, çətin şəraiti, qaçqınlığı, Bəhmənsiz ağlamalarımı, həmçinin Qum xəstəxanasını və oradakı tənhalığımı xatırladım.

Qızımı öpüb ona süd verdim. Ağzında sormağa güc yox idi, amma çalışırdı. Bir qədər içəndən sonra yorulub yuxuya getdi. Anam onu qucağına götürüb yenidən taxtın üstünə qoydu. Bəhmənin, anamın, soyuqqanlı və peşəkar hərəkətlərilə hamımızı arxayınlaşdıran xanım Müntəziminin yanımda olduğuna görə yaxşı hisslər keçirirdim.

Bu doğuş digərlərindən daha rahat və yaddaqalan oldu. Çəhrayı və mavi rəngli gözəl otaqdan çıxmaq istəmir, orada yatmaq istəyirdim. Düşünürdüm ki, bu ud iyi heç vaxt burnumdan getməyəcək, ürəkaçan musiqi səsi ömür boyu qulaqlarımda qalacaq. Bu anda xoşbəxtlik və rahatlıq hissi bütün vücudumu doldurdu. Fikirləşdim ki, artıq çətinlik dövrü başa

çatıb və həyat, axır ki, o biri üzünü mənə göstərməkdədir. Düşündüm ki, bu gecə qızımın dünyaya gəlişi ilə xoşbəxtlik quşu çiynimə qondu. O anda fikrləşirdim ki, necə yaxşı gün və möhtəşəm gecə keçirmişəm. Uşaqların da yaxşı əyləndiyinə görə məmnun idim. Nə yaxşı ki, dözdüm, ağrımı gizlətdim və uşaqlar sevindilər. Nə yaxşı ki, əyləncələrini pozmadım.

Xanım Müntəzimi sığorta dəftərçəmə dərman yazırdı. Bəhmən hələ də başını aşağı salmışdı və dayanmadan təşəkkür edirdi. Çoxlu isrardan sonra xanım doktoru razı salıb ona müəyyən məbləğdə pul verdi, sonra başımın üstə gəlib halımı soruşdu. Məgər halım ondan da yaxşı ola bilərdi?! Başımı yelləyib onu əmin etdim ki, yaxşıyam. Eləcə dayanıb mənə baxırdı. Dedi: “Bir söz de”. Anam həyəcanlı idi.

- Sən yanında olduğuna görə o qədər sevinir ki, deməyə söz tapmır.

Sevincdən kövrəlmişdim, amma özümü saxlayırdım. Anam uşağın çantasını hazırladı, özünü bir neçə ədyalın arasına qoyub yaxşıca bükdü. Doktor təzyiqimi ölçüb soruşdu: “Başın gicəllənmir? Halın necədir?” Dedim ki, yaxşıyam. Oturmama kömək etdi. Paltarlarımı Bəhmən geyindirdi.

Xanım Müntəzimi yenidən soruşdu: “Yaxşısan? Çətinliyin yoxdur?” Cavab verdim ki, yaxşıyam. Gülüb dedi: “Qız, “yaxşıyam” nədir?! Bir qədər ərinə naz elə, yalandan de ki, başım gicəllənir, yol yeriyə bilmirəm...” Bəhmənin rəngi hələ özünə gəlməmişdi. Ona yazığım gəlirdi. Fikirləşdim ki, əgər yol yeriyə bilmədiyimi və ya ağrıdığımı söyləsəm, ayaqları əsər,

oradaca özündən gedər. Birtəhər təbəssüm etdim. Anam uşağı götürdü. Xanım Müntəzimi ilə sağollaşıb oradan çıxdıq. Hələ də güclü yağış yağırdı. Bəhmən maşının qapısını açdı. Əvvəlcə anam oturdu ki, uşağa soyuq dəyməsin. Sonra Bəhmən məni qucağına götürüb maşında oturtdu və qapını bağladı.

Evə yaxınlaşanda qapının ağzında Rəhməti gördük. Qucağında uşaq vardı. Bir ədyalı öz başına atmışdı, birini də uşağın. Ağlamaq səsindən Səccadı tanıdım. Bəhməni görən kimi dedi: "Ata... Ata Bəhmən!" Rəhmətin qucağından Bəhmənin qucağına atılmaq istəyirdi. Bəhmən qaraj qapısını açmağa qaçdı. Rəhmət Bəhməni danlamağa başladı: "Bu nə vəziyyətdir?! Sən ki heç vaxt evdə tapılmırsan, nə üçün uşağı bu qədər özünə öyrəşdirmisən?! Allah bilir, yazıq Nəsrin bunun əlindən nə çəkir. Hər axşam qucağına götürüb pilləkənin başında gəzdirir ki, yatsın". Bəhmən heç nə demədi. Qapını tam açandan sonra onlara yaxınlaşdı. Səccad Rəhmətin qucağından Bəhmənin qucağına hoppandı. Onu havada tutdu və gəlib sükanın arxasında oturdu. Həyətə girəndən sonra Rəhmət maşının qapısını açıb soruşdu: "Hə, gəlin, nə oldu?" Bəhmən mənim əvəzimə cavab verdi: "Dedilər ki, gedin evinizə, sabah gələrsiz. Gecənin yarısı uşaq doğular?!"

Rəhmət həyətin qapısını bağlamağa kömək edirdi. Yağışın şırıltısında səsini eşidirdim: "Aha, gecənin yarısı bizi avara etmək istəyirdin?!" Bəhmən maşının qapısını açdı və mənim enməmə kömək etdi. Sonra sevincək dedi: "Hə, dadaş, qızım oldu!" Rəhmət inanmadı. Anam qucağında uşaq evə girdi. Rəhmət

Səccadı qucağına götürüb qaçdı. Bəhmən də qoltuğuma girdi.

Güclü yağış yağır, göy guruldayır, şimşək çaxırdı. Səccad yenə ağlamağa başladı. Biz çətinliklə pillələri qalxandan sonra yenidən Bəhmənin qucağına hoppandı. Boynundan möhkəm yapışmışdı. O qədər ağlamışdı ki, boğulmaq üzrə idi.

Anam uşağa yerdə yataq sərdi. Rəhmət körpənin yanında oturub onunla oynamağa başladı. Uşaq kimi sevinirdi. Bir qədər sonra sağollaşıb getdi. Bəhmən mənim yatağımın yanında özünə döşək sərdi və tez yuxuya getdi. Səccadın gözləri isə hələ açıq idi. Əllərini Bəhmənin boynuna dolayıb ona yapışmışdı ki, heç bir yerə getməsin.

Əhvazlı qız səhərə qədər sakitləşmək bilmədi. Ac idi, amma süd əmə bilmir, hirslənib ağlayırdı. Küçədəki məsciddən sübh azanının səsi gəlirdi. Bəhmənlə anam namaza oyandılar. Namazdan sonra Bəhmən uşağı götürdü və mən yatdım.

Səccadın gülüş səsinə oyandım. Üçtəkərli velosipedi ilə başım üstə gəlib deyirdi: “Ana, gör bəbə bizə nə alıb!” Bəhmənin işi idi. Səhər tezdən Nadiri küçəsinə getmiş, mağazalar açılana qədər gözləmişdi. Qəşəng üçtəkərli velosiped idi. Sükanın önündəki ağ metal səbəti şokolad, vafli və peçenye ilə dolu idi. Bəhmən ona çəhrayı bir çanta da alıb səbətin içinə qoymuşdu. Bir dəri ayı da alıb stulun üstündə oturtmuş, məftillə möhkəm bağlamışdı. Gülümsəyib dedim: “Bəbəyə təşəkkür elədin?” Səccad əyilib körpənin üzündən öpdü və dedi: “Sağ ol, bəbə”.

Bəhmən Əlinin əlindən tutdu, birlikdə alış-verişə getdilər. Əli qayıdanda krevet, ciyər, ət və balıq torbalarını ləhləyə-ləhləyə pillələrdən yuxarı dartırdı. Qalxıb pəncərədən həyətə baxdım. Yağış kəsilmişdi, amma bağçaların yeri, ağaclar və həyətin plitələri yaş idi. Yağış divarları da islatmışdı. Maşının arxası yemiş və meyvə torbaları ilə dolu idi. Çətinliklə mətbəxə girdim. Anam qab yuyurdu. Dedim: "Ana, bu Bəhmən nə iş görür?! Gör nə alıb!" Anam gülüb dedi: "Hə, qızım, kişilər belədirlər, övladlarını dünya və axirət malı hesab edirlər. İndi sevindiyindən bilmir nə etsin". Dodaqaltı mızıldandım: "20 min tümənin axırına çıxmayınca belə olacaq". Anam gülüb dedi: "İşin olmasın, qoy sevinsin". Bəhmən yuxarı qalxandan sonra soruşdum: "Bəhmən can, o qədər yemiş nə üçündür? Satacaqsan?" Gülüb dedi: "Uşaqlar deyirlər ki, yemişin şəkəri yüksəkdir, adamı kökəldir. Sənə aldım ki, kökələsən". Dedim ki, köklükdən acığım gəlir. Dedi: "Arıqlayanda pis görünürsən".

Yazıq Əli meyvə sellofanlarını yuxarı dartırdı. Məni görən kimi sevincək dedi: "Ana, gör nə qədər meyvə almışıq. Atam deyir ki, bunların hamısını verərik, ana yeyər". Məni gülmək tutdu. Dedim: "Məgər anan divdir?!"

Bəhmən paltarlarını dəyişdi. Ciyəri yuyub balkona keçdi, manqalda kömür yandırmağa başladı. Əli də yanında dolanırdı. Anam mətbəxdə meyvə, ət, toyuq və balıqları yerbəyer edirdi. Səccadla Səhər zalda və otaqlarda velosiped sürürdülər. Səccad hərdən bir

ovuc smartis şokoladı gətirib qarşımda tutur və deyirdi: "Ana, şmartiş yirsən?"

Səhər bəbəni çox istəyirdi. Hərdən velosiped sürürdü, hərdən körpənin yanında oturub ona baxırdı.

Ciyər kababının iyi evi bürümüşdü. Acından mədəm sivrilirdi. Bəhmən ciyər şişlərini çörəyin arasına qoyub yatağımın yanında oturdu. Dedim ki, əvvəlcə anamla uşaqlara ver. Anamı səsləyib üç şiş ciyər verdi. Anam uşaqları toplayıb mətbəxə apardı. Bəhmən şişdən bir neçə tikə ciyər çıxarıb duzladı, çörəyin arasına qoyub mənə verdi. Çox dadlı idi. Qol və ayaqlarımın yenidən cana gəldiyini hiss etdim. Bir tikə də düzəldib özü ağzıma qoydu və dedi: "Nəsrin, çox sevinirəm. Nə yaxşıdır: bizim iki qızımız, iki oğlumuz var!" Sonra yavaşca dedi: "Amma mən istəyirəm ki, üç qızımız, üç oğlumuz olsun. Uşaq çox olsa, yaxşıdır. Qız uşağı adamı çox istəyir, sən də oğlanı istəyirsən; böyüdürsən, bir də görürsən ki, kişi olub. Əli ilə Səccadı istədiyim kimi böyütmək, uşaqlıqdan tərbiyə etmək istəyirəm. Gərək hər işdə peşəkar olsunlar".

Bəbə ağlamağa başlayanda anam qaçıb altını dəyişdirməyə başladı. Bəhmənin sözü ağzında qaldı. Anam uşağın yaş əsgisini barmaqlarının ucu ilə götürüb torbaya atdı. Kəskin sidik iyi otağı bürüdü. Dedi: "Canım, daha bəsdir, inkubator fabrikini tətil edin, getsin. İki qızınız var, şükür Allaha, gül kimi. Min dəfə Allaha şükür edin ki, iki kəkilli bəyiniz də var. Daha bəsdir".

Anam bəbəni təmizləyib yenidən bələdi, torbanı götürüb tualetə getdi. Bəhmən yavaşca dedi: "Altı

oğul, altı qız. Amma yox, yeddi oğul, yeddi qız olsa, çox əla olar". Dodaqlarımı dişləyib yavaşca dedim: "Bəsdir, Bəhmən, anam yazıqdır!"

Anam əllərini yuyub mətbəxə keçdi. Bir qədər sonra bayıra çıxıb dedi: "Hə, qızım, deyirəm şam yeməyinə Həlimə də uşaqları ilə birgə yuxarı qalxsın, bir tikə çörək yeyib uşağa ad qoyaq. Mən bundan artıq qala bilmərəm. Bir-iki günə gedim, Səidlə Həmid təkdirlər".

Bəhmənin etirazı yox idi. Hər ikisi mətbəxə keçdi. Anam şam yeməyinə xürrəmşəhrlilərin üsulu ilə balıq qarnı doldurmuş, plov bişirmişdi. Göyərti, sarımsaq və balıq iyi bir-birinə qarışmışdı. Həlimə də təzəlikcə uşaq dünyaya gətirmişdi. Anam bizə xurma şirəsi və doğuş məcunu ilə qarışmış xəşil də hazırladı. Bəhmənlə anam köməkləşib qonaqlığı yola verdilər.

Həlimə yanımda oturdu. Anamla Bəhmən mətbəxdə plov və balıq çəkib süfrəyə gətirir, Əli ilə Rəhmət süfrəyə düzürdülər.

Bəhmən şam yeməyindən sonra uşağı götürüb anama verib dedi: "Bibi, qulağına azan oxuyursan?" Anam azan və iqamə oxuyub dedi: "Adını nə qoyaq?" Bəhmən mənə baxıb dedi: "Sacidə". Anam digərləri duymadan ehtiyatla mənə baxdı. Razı idim. Gülümsəyib dedim: "Sacidə Səccadla da uyğun gəlir". Bəhmən sevindi və məmnun halda dedi: "Bu iki adı çox sevirəm, adama Allahı – namazı, duanı və səcdəni xatırladır".

Rəhmət, Həlimə və uşaqları gedəndən sonra anam Sacidəni təmizləyib dedi:

- Nəsrin, Sacidə adından xoşun gəlir?

- Hə, çox qəşəngdir. Ana, yəni pisdir?

- Yox, pis deyil, amma deyirəm ki, başqa bir addan xoşun gəlirsə, utanma.

- Biz öncədən razılığa gəlmişdik.

Sonra öz-özümə düşündüm ki, mən Bəhmənə aşiqəm; nə iş görürsə, nə alırsa, hansı qərarı verirsə, qəbul edirəm. Anama demək istəyirdim ki, mən həmişə Bəhmənə görə narahatam. Hər dəfə gedəndə deyirəm ki, bu, axırıncı gedişidir; gələndə deyirəm ki, İlahi, şükür, onu bir də gördüm. Odur ki, sonra peşman olacağım bir iş görmək istəmirəm. Anam bir söz demədi, mənsə özümü saxlaya bilməyib ağladım.

***

Anam hər gün deyirdi ki, sabah gedəcəyəm. Biz də hər gün onun sabahını bir bəhanə ilə o biri günə salırdıq. Bir gün Bəhmən dedi: “Təklif ediblər ki, Tehrana köçək, Qəsr-Firuzəyə, komandanlığa. Deyirlər ki, Şəhid Tündquyan küçəsində bizə müvəqqəti ev verəcəklər. Deyəsən, İmam Xomeyninin fikri belədir ki, quruculuq işləri üçün mütəxəssislərdən daha çox istifadə olunsun”. Sevincək dedim: “Bəhmən, gedək. Bu qədər sərgərdanlıq və qəriblik yetər. Gedək anamgilin yanına. Uşaqlar çoxalıblar, mən də təkəm, bu qədər işin öhdəsindən gələ bilmirəm”. Anam məndən də çox sevinib dedi: “Hə, gəlin yanıma, bizə yaxın bir yerdə ev tutun. Özüm gəlib kömək edərəm, əşyalarınızı apararam Tehrana. Cehizindən də bir qədəri bizdədir. Tehrana gəlsən, özüm yerbəyer edərəm”. Bəhmən tərəddüd edirdi. Anam dedi: “Bəhmən can, mən qalıram, birlikdə gedərik”.

Bəhmən həmin günlərdə bildi ki, İmam Xomeyni ilə görüş üçün Cəmarana dəvət olunub. Sevindiyindən yerə-göyə sığmır, deyirdi: "İmam Xomeyninin yanına gedib bir qərara gələcəyəm; imam nə desə, onu da edəcəyəm".

Sacidə tez böyüyürdü. Qəşəng qız idi. Qara kirpikləri çıxmışdı. Gözləri iri və qara idi, sanki bir şüşə sürmə çəkmişdilər; Bəhmənin gözləri kimi. Üzü yumru və iri idi. Qönçə və bir qədər tünd dodaqları vardı, üzü qarabuğdayıya çalırdı. O qədər göyçək idi ki, hamamdan çıxandan sonra ona baxmaq olmurdu. Çöhrəsi sanki rəsm əsəri idi. Bəhmən deyirdi: "Lap istədiyim kimi oldu: qarabuğdayı və sevimli əhvazlı qız".

***

Tehrana gedəcəyimiz gün Bəhmən səhər tezdən oyandı, yerli xama, pendir və kərə yağı aldı. Evdə bir qutu boş butulka vardı. Onu verib bir qutu sarı qazlı içki aldı. Anam kiçik yük maşınının arxasını döşəyib divarına bellik düzdü. Buz qablarını buzla doldurdu, üstünə bir qədər meyvə və bir neçə qazlı içki düzdü. Maşının arxasına bir neçə kanistr su da qoydu. Bizdə bir silah qutusu vardı. Paltarlarımızı həmişə onun içinə qoyurduq. Anam maşının arxasında özünə əməlli-başlı mətbəx düzəltdi. Bir neçə taxta meyvə qutusu gətirdi, onların içərisinə qazan, boşqab, süfrə, qaşıq, çəngəl, ədviyyat və səfərdə lazım olacaq hər şeyi yerləşdirdi. Termosu da çayla doldurdu. Evi səliqəyə salıb Sacidəni bələdi. Qapını kilidləyib aşağı düşdük. Rəhmət və Həlimə ilə sağollaşıb maşına

mindik. Anam Əli və Səhərlə birgə arxada oturdu, mən də Sacidə və Səccadla birgə qabaqda.

Sübh çağı hava gözəl və təmiz idi. Açıq yaşıl yarpaqları yolun hər iki tərəfinə tökülmüş çılpaq ağaclar, ağlar söyüdlər kimi nazik budaqlarını küləyin ixtiyarına buraxmışdılar. Əndimeşkin yaxınlığında başıaşağı lalələri, sarı və bənövşəyi gülləri olan yaşıllıq hamını vəcdə gətirdi. Anam arxadan maşının şüşəsinə vurub dedi ki, burada dayanaq.

Bəhmən yarpaqsız ağacların yanında maşını saxladı. Hələ günəş qalxmamışdı. Yerə palaz sərdi. Anam bellikləri gətirib ağaclara söykədi, kanistrlərin suyu ilə uşaqların əl-üzlərini yuyub saçlarını daradı. Süfrə sərdi və hamımız oturduq. Ağacların altında, sarı və bənövşəyi güllərin arasında təzə çörək, isti çay, bal, qaymaq, yerli kərə yağı və pendir hamının iştahını açdı. Nə qədər yeyirdiksə, doymaq bilmirdik. Anam Sacidəni bələyib maşında oturacağın üstünə qoymuşdu. Yerindən tərpənə bilməsə də, maşının qapısını açıq qoymuşduq və diqqətimiz onda idi. Bəhmən danışır, biz gülürdük. Hərdən Səccad ayağa qalxıb atasının üzünü öpürdü.

Hər yer sakit idi; nə bomba səsi gəlirdi, nə raket səsi. Bəhmən yanımda olduğundan həyəcanım yox idi. Bir anlığa bütün vücudumu xoşbəxtlik hissi bürüdü, rahat nəfəs alıb dedim: “Məncə, bu il bizim xoşbəxtlik ilimizdir. Artıq mən də bacılarım kimi yaşayacağam”. Səhər yeməyini yeyəndən sonra süfrəni yığmaq üçün ayağa qalxdım. Bəhmən dedi: “Sən tərpənmə, get maşında otur. Özüm həll

edəcəyəm. Nə işin olsa, mənə de". Oturub Sacidəni qucağıma götürdüm.

Günorta çağı Xürrəmabada çatdıq. Bir parkın yanında dayanıb maşından endik. Anam axşamdan nahar yeməyini bişirmişdi. Yenidən palaz sərdik, bellikləri ağaclara söykədik. Anam səyyar qazı çıxarıb yeməyi qızdırdı. Onun bişirdiyi lobya-plovun ətri orada hazırladığı çoban salatının iyi ilə qarışıb hamını iştaha gətirdi.

Axşam Quma çatıb qayınanamgilə getdik. Bizi və Sacidəni görüb sevindilər. Qayınanam Sacidəni öpüb deyirdi: "İlahi! Bu uşaq necə çirkindir! Bu kimə oxşayıb?!" Bilirdim ki, göz dəyməsin deyə bu sözləri deyir. O qədər yorğun idim ki, Sacidəni Mitraya verdim; aparıb yudu və təmiz paltarlarını geyindirdi. Qayınanam deyirdi: "Nəsrin, bu necə uşaqdır; nə incidir, nə ağlayır!"

Ertəsi gün günorta qayınanam apardığımız balıqla bizə balıq qəlyəsi bişirdi. Günortadan sonra Tehrana yola düşdük. Bəhmən həmin gün işlərinin ardınca getdi. İmam Xomeyni ilə görüşün təxirə düşdüyünü bilib qanı qaraldı, hirsindən dedi ki, gedək şimala. Nəğmə ailə qurandan sonra onu görməmişdik. Bu, yaxşı fürsət idi.

Səidlə Həmid yük maşınının arxasına mindilər. Böyümüş olsalar da, anam üçün darıxdıqları bəlli olurdu. Sevincək başlarını anamın dizlərinə qoyub uzandılar. Anam onları öpür, saçlarını tumarlayırdı. Gilasla əriyin novbarlığı idi. Bəhmən bir neçə kilo alıb buzların yanına qoydu. Çalus yolunun gözəl mənzərələrini görüb ağlayırdım. İnsanlar necə şən və

rahat idilər! Əhvazdan necə də fərqli idi! Sanki başqa bir ölkəyə getmişdik. Özümə və uşaqlarıma yazığım gəlirdi. Biz ən az imkanlarla bombardman altında yaşayırdıq. Danışmaya bilməzdim.

- Bəhmən, biz yeddi il sərgərdanlığa necə dözmüşük?! Çox çətinlik çəkmişik.

- Biz təhlükənin içində olduğumuza görə bu haqda fikirləşmirik, elə bilirik ki, həyat elə belə də olmalıdır.

- İlahi, Sənə şükür! Bəhmən, mən artıq xoşbəxtəm, qorxu dolu həyat bitdi. Allah məni xilas etmək istəyibmiş. Sən Allah, elə et ki, həyat sakitləşsin.

Cavab vermədi. Sükutu yenidən qəlbimi odladı.

- Bax, uşaqlar sevinirlər. Yazıqlar ilk dəfədir dəniz görürlər. Əli ilə Səccad çox həyəcanlıdırlar. İnana bilmirlər. Elə bilirlər ki, yuxu görürlər.

Nəğmənin şəraiti yaxşı idi. Yoldaşı müəllim idi. Bir neçə gün onlarda qaldıq. Hər gün günortadan sonra dənizə gedirdik. Uşaqlar sevinir, axşama qədər sudan çıxmırdılar.

Tehrana qayıdanda Bəhmən işlərinin ardınca getdi. İmam Xomeyni ilə görüş başqa bir vaxta salınmışdı. Biz gedib-qalmaq barədə düşünərkən Bəhmənə korpus tərəfindən biraylıq bir tapşırıq verildi. Bu tapşırıq Türkiyədə ratsiya sistemi kursunda iştirak etmək və rabitə avadanlıqları alıb gətirməkdən ibarət idi. Bəhmən mənə demişdi ki, ratsiyalarımız inqilabdan öncəki ordudan qalanlardır, köhnəlib və daha müasir ratsiyalara ehtiyacımız var. Gedəndə 20 minlik kreditdən bir qədəri qalmışdı. Ciblərini boşaldıb dedi: “Orada bir şey almağa imkanım

olmayacaq. Sən bu müddətdə uşaqlara nə istəsən al, saxla, mən qayıdanda hədiyyə yerinə onlara verərəm".

Bəhmən gedəndən sonra anam daha da ümidvar oldu.

- Nəsrin, mən qalıram. Bilirəm, indi bir xarici ölkəyə gedəcək, insanların ailə-uşaqları ilə rifah içində necə xoşbəxt yaşadıqlarını görəcək. Sonra da gəlib Tehranda qalacaq. Görərsən!

Mən fürsətdən istifadə edib anamgilin yaxınlığında bir neçə evə baxdım, birini bəyəndim və Bəhmən qayıdana vaxt təyin etdim. Bəxtimizdən o günlərdə bir neçə toy və qonaqlıq keçirildi, başımız qarışdı, uşaqlar əyləndilər. Hansı toya dəvət olunurduqsa, gəlinin ayağını mən yuyurdum. Xürrəmşəhrlilərin adəti belədir ki, toy gecəsi qohumlar arasında ən xoşbəxt qadın gümüş bir bakalla gəlinin ayağını yuyur. Mən gəlinin ayağını yuyanda digərləri arzu və dua edirdilər ki, gəlinləri mənim kimi xoşbəxt olsun.

Tehranda ətrafımız adamla dolu olurdu. Uşaqlar şən idilər. Günün haradan gəlib keçdiyini bilmirdik. Ürəyim bu rahatlığı, heç bir qorxu və həyəcan olmayan bu şənliyi istəyirdi. Nə qırmızı vəziyyət elan olunurdu, nə evimizin üstündə bomba partlayırdı, nə tənhalıq qorxusu vardı, nə yoldaşımı döyüşdə itirmək qorxusu.

Bir ay ildırım sürətilə keçdi və Bəhmən qayıtdı. Çoxu mənə aid olan böyük bir çanta dolu hədiyyə gətirmişdi: odekolon və fendən tutmuş köynəyə, koftaya, şalvara, dikdaban ayaqqabıya, şampuna, şokolada, sabuna və kosmetikaya qədər. Şal və köynək kimi bəzi şeylərdən iki ədəd almışdı. Eyni

rəng və modeldən nə üçün iki ədəd aldığını soruşanda dedi: “Xoşum gəldi. Fikirləşdim ki, biri köhnəlsə, o birini geyinərsən”. Anam Bəhməni ələ salıb soruşurdu: “Oğlum, sən ki başını qaldırıb bir qadına baxmırsan, oradakı yarıçılpaq qadınlarla necə alış-veriş edirdin?” Bəhmən gülüb deyirdi: “Bibi can, əvvəl dostlarıma tapşırdım. Gəzib gələndən sonra dedilər ki, biz nə bilək, sənin yoldaşın kökdür, ya arıqdır, qısaboydur, yoxsa ucaboydur; biz ala bilmərik, get, özün nə istəyirsən, al”.

Bir neçə gündən sonra Rəhmət Həlimə və uşaqları ilə birgə Tehrana gəldi, sayımız çoxaldı. Qərara gəldik ki, Sacidə ilə Rəhmətin oğlu Məhəmmədin dünyaya gəlməsinə şükür əlaməti olaraq, qonaqlıq verək və bütün qohumları dəvət edək. Şirazdan Füruzan və Sağər də yoldaşları və uşaqları ilə gəldilər. Dayılar da ailəvi gəldilər, baldız və qayınlar da ailəvi, həm də qayınata və qayınanaları ilə. Hamımız Quma, qayınanamgilə getdik. Yetmişə yaxın qonağımız vardı. Bəhmən Türkiyə ezamiyyətinin maaşını almışdı və yaxşıca bədxərclik edirdi.

Anamla əmidostu gecədən oyandılar, səhər və nahar işləri üçün qab-qaşıqları hazırlayıb həyətə yığdılar. Kişilər yuxudan oyanandan sonra əşyaları maşınların baqajına qoydular. İstirahət üçün gedəcəyimi ye Qumun Veşnəvə kəndi oldu. Hava qaranlıq idi. Oraya qədər yatdım. Günəş yenicə qalxmışdı ki, kəndə çatdıq.

Şeyx Fazilin dostlarından birinin atasının orada böyük bir meyvə bağı vardı. Bağda ev, tualet, su və

elektrik xətti vardı. Qərara gəldik ki, ağacların altında oturub bağın sərinliyindən, ağacların yaşıllığından və ürəkaçan mənzərədən həzz alaq. Kişilər çadır qurub uşaqların yatması üçün yer hazırladılar.

Uşaqlar bağda gəzib quru ağac budaqlarını toplayır, kişilərin yandırdığı ocağa atırdılar. Qayınanamın belə yerlərə məxsus qara su və dəm çaydanları vardı. Suyu ocağın üstündə qaynadıb çayı dəmlədi. Səhər yeməyi süfrəsini sərib ətrafında oturduq. İki avtobus adam idik. Bir nəfərin zarafat etməsi və ya gülməli bir söz deməsi bağın gülüş səslərindən titrəməsinə kifayət edirdi.

Səhər yeməyini yeyəndən sonra Bəhmənlə Rəhmət kəndə gedib bir qoyun aldılar. Qəssab oradaca qoyunu kəsdi. Anam və qayınanam əvvəlcə günorta yeməyinə bir qədər ət götürüb ocaqda bozbaş bişirdilər. Sonra da ətin qalanını bölməyə başladılar. Kişilər bir neçə kilo salatlıq göyərti də aldılar.

Uşaqlar bağda qaçır, oynayırdılar. Kişilərin bir dəstəsi voleybol oynayır, bir dəstəsi də ocağı sönməyə qoymurdu. Bizim də önümüzə bir topa göyərti tökdülər, təmizləməyə başladıq. Bəhmən şuxtəb, zarafatcıl idi. O dedi: “Tez bu göyərtiləri yığın. İndi bir dəstə şirazlı kahı və iskəncəbi ilə gəlib süfrə sərəcəklər”. Belə bir məsəl var ki, şirazlılar bir çəmənlik görən kimi kahı və iskəncəbi götürüb gedir, orada çalıb-oynayır, əylənirlər.

Anam uşaqlar üçün yığılıb-açılan çarpayı, Sacidə üçün hətta miçətkə də gətirmişdi.

Nahar yeməyini yedik. Ləzzətli bozbaş idi. Yeməkdən sonra hərə bir ağacın altına palaz sərib

yatdı. Uşaqlar hələ də oynayırdılar. Bəhmənlə Rəhmət ət bağlamalarını və qalan yeməkləri kəndin yoxsul camaatına payladılar.

Bəhmən meyvə qutusundan hədəf düzəltdi, ov tüfəngini gətirdi, uşaqları və gəncləri səsləyib dedi: "Diqqət! Diqqət! Atıcılıq təlimi pulsuzdur!" Anam qışqırdı: "Bu nə işdir?! Təhlükəlidir! Bir də gördün atəş açıldı, Allah eləməsin, dəydi birinin göz-başına. İstirahətimiz burnumuzdan gələr". Bəhmən dedi: "Bibi, narahat olma. Bizim qohumlarımız silahdan istifadəni öyrənməlidirlər. Gördünüzmü müharibə başlayanda nə qədər inqilabçı və mübariz qız Xürrəmşəhri müdafiə etdi?!"

Meyvə kartonunu dairəvi kəsmiş, üstünə qələmlə bir neçə iç-içə dairə çəkmişdi. Ən kiçik dairənin içini hədəf üçün qaraltmışdı. O deyirdi: "Yaxşı nişan alın. Kim bu dairəni vursa, mükafat alacaq".

Axşama yaxın kənd əhalisindən bir neçəsi bağa gəlib israrla bizi şam yeməyinə dəvət etdilər. Sayımızın çox olduğunu və əziyyət vermək istəmədiyimizi nə qədər söylədiksə, qəbul etmədilər. Meyvə, çərəz, mürəbbə, xaş - nəyimiz vardısa, götürüb onlara getdik.

Evin daşla döşənmiş böyük eyvanı, taxta nərdələri və dirəkləri vardı. Hamımız eyvanda oturub yüngül şam yeməyindən yedik. Cırcıramaların səsi, itlərin hürüşü və kənd lampalarının fısıltısı hamını şənləndirirdi. Oradan tərpənmək istəmirdik. Ev sahibəsi israrla gecə qalmağımızı söylədi. O deyirdi: "Hamınıza yetəcək təmiz yatağımız var".

Əvvəlcə qalmağa həvəsləndik. Xüsusən də kişilər plan cızmışdılar ki, damda yatsınlar. Lakin bəzisi səhər tezdən işdə olmalı idi. Bu səbəbdən kənd gecəsinin sərinliyindən, hüzur dolu sükutundan keçib maşınlara mindik və Quma yola düşdük. Uşaqlar o qədər oynamışdılar ki, maşına oturan kimi yuxuya getdilər.

Gözümü qaranlığa qərq olmuş yola və çöllərə dikib necə xoş bir gün yaşadığımı düşünürdüm. Çox gözəl gün idi, toy günümdən geri qalmırdı.

Ertəsi gün səhər Tehrana qayıtdıq, Bəhmən işi barədə son söhbətlərini etmək üçün Qəsr-Firuzəyə yollandı. Anamla o qədər sevinirdik ki, tez-tez bir-birimizi qucaqlayıb öpürdük. Anam deyirdi: "İlahi, Sənə şükür! Artıq sən də yerbəyer oldun, qız". Əzizlərimə yaxın olacağıma və anamın uşaqları böyütməyimə kömək edəcəyinə görə sevinirdim.

Bəhmən gələndə günorta yeməyini təzə yemişdik. Sevinirdi. Mənə dedi: "Nəsrin banu, nə vaxt hazırsan, gedək?"

- Nə vaxt desən. Uşaqları anamın yanına qoyaram. Yəqin ki bir-iki günə qayıdarıq.

Əlimdən tutdu.

- Yox, uşaqları da aparmalıyıq.

- Məgər əşyalarımızı toplayıb qayıtmırıq?! Bircə televizorumuz var, bir stolüstü qaz və soyuducu. Qalanı uşaqların xırım-xırdası, pal-paltar və bir neçə dəst yataqdır.

Əlimi möhkəm sıxdı.

- Biz daha Tehrana qayıtmayacağıq. Əhvaza, evimizə gedirik.

Mən danışmazdan öncə əlavə etdi:

- Əgər istəyirsənsə, sən uşaqlarla qal, amma mən gedirəm.

Yerimdə donub qaldım, danışa bilmədim. Bir neçə dəqiqə ona baxdım. Anam da evin ortasında dayanıb mat-məəttəl baxırdı. Uşaqlar bizə fikir vermədən oynayır, qışqırışırdılar. Bəhmən dedi:

- Bax, Nəsrin banu, əslində, mən Tehrana gələn deyiləm. Belə bir vaxtda cəbhəni, şəhərimizi buraxa bilmərəm. Düzü, əvvəldən belə düşünürdüm, gəlmək istəmirdim. Lakin fikirləşdim ki, bəlkə vəzifəm bu olar. Bu gün yolda çox fikirləşdim. Qəsr-Firuzəyə gedəndə söylədiyim ilk söz bu oldu ki, mənim yerimi dəyişdirməyin. Bilirsən bu sözü deyəndən sonra necə rahatlaşdım?! Sanki çiynimdən bir dağ götürüldü. İndi çox rahatam, qalıb müharibənin sonuna qədər vuruşacağam. Tehrana gəlmək müharibədən qaçmaq deməkdir. Mən qaçan adam deyiləm. Hələ Xürrəmşəhrin əsarətdə olduğu zaman yadımdan çıxmayıb. Elə bilirdim ki, bacılarım, anam, sən - şəhərimizin bütün qızları əsir düşüblər. Gecə-gündüzüm yox idi. Mənə çox çətin keçdi. Yata bilmirdim. Yadında deyil Xürrəmşəhri necə çətinliklə geri aldıq?! Ən yaxşı dostlarımı itirdim: Əhməd Qəndəhari, İsmayıl Xosrəvi, Salman Bahar, Musəvi... Bilirsən bu müharibədə necə əzizlərimi itirmişəm?! Biz Xürrəmşəhri ürəyimizin qanı ilə azad etdik. Mən şəhərimizin başı üstə qalmalıyam. Gələ bilmərəm. Mən aşiqəm; Xürrəmşəhr və Abadan aşiqi.

Bu sözləri eşidib pis oldum. Bəhməndən fərqli olaraq, qayıtmaq istəmirdim. Lakin bilirdim ki, biz

getməsək də, o, mütləq gedəcək. Nə edəcəyimi bilmirdim. Etiraz etmədim, amma başqa bir söz də demədim. Yenidən depressiyaya düşdüm. Adətən belə idi, bir problem yarananda və ya pis bir hadisə baş verəndə bir küncdə uzanır, heç kimlə danışmırdım. Yazıq anam! Bəhməni razılaşdırmaq üçün oturub onunla danışdı. Bəhmənsə sözündən dönmürdü. Anama dedi: “Bibi, mən gəlsəm, digərlərinə pis nümunə olacağam. Əgər onlar da mənim ardımca yola düşüb gəlsələr, adət olacaq. Bu zaman yenə pis bir hadisə baş verə bilər. Biz indiyədək torpaqlarımızın bir qarışını da düşmən əlində qoymamışıq”. Anam daha heç nə demədi. Uşaqları hamama aparıb çimdirdi, təmiz paltarlarını geyindirdi, əşyalarımızı topladı.

Bəhmən bir neçə saatdan sonra uzandığım otağa gəldi, yavaşca dedi: “Nəsrin banu can, sözümə görə narahat oldun?” Yuxulu halda cavab verdim ki, yox.

- Mənimlə Əhvaza gedirsən? Bu axşam çıxmaq istəyirəm.

- Gəlirəm.

- Əgər istəyirsənsə, qal. Etirazım yoxdur. Arabir gəlib sizə baş çəkərəm.

Cavab vermədim.

- İstəyirsən gəlmə. Ən azı, sentyabra qədər ananın yanında qal.

- Yox, gəlirəm. Gərək Əlini məktəbə yazdıraq.

- Mənə xəcalət verdin. Bilmirəm sənin yaxşılıqlarının əvəzini necə çıxacağam. Sən xanım deyilsən, mələksən.

Bərkdən ağlamağa başladım. Anam qorxub otağa qaçdı, məni qucaqlayıb öpdü. Mən qışqırırdım: “Lənət olsun bu müharibəyə! Lənət olsun Səddama! Mən həyatımı istəyirəm. Mən rahatlıq istəyirəm. Yoldaşımdan ayrı qalmaq istəmirəm. Mən istəyirəm ki, atalarının kölgəsi uşaqlarımın başı üstə olsun!

Bəhmən yaxınlaşıb əllərimi tutdu, öpüb dedi: “Nəsrin can, Xürrəmşəhr də bizim uşağımızdır; qızımız, bacımız... Onu tərk edə bilmərik”.

Əllərim göz yaşımdan islanmışdı. Bəhmən əllərini xalçanın və alnını əllərimin üstünə qoydu. Anam saçımdan öpüb deyirdi: “İnşallah hər şey əvvəlki kimi olar. İnşallah tezliklə müharibə bitər, bu kafirlər, bu Səddam bizdən əl çəkər”.

Qəhərdən boğulurdum. Qışqırdım: “Uşaqlıqdan atam olmayıb, uşaqlarımın da atasız böyüməsini istəmirəm”. Boğula-boğula qışqırdım: “Ata... Ata... Ata can...”

# On beşinci fəsil

Həmin depressiyadan çıxıb normal həyata qayıdınca çox çəkdi. 1987-ci ilin sentyabrında Əli birinci sinfə getdi. Sacidə gözəl və toppuş qız olmuşdu. Yaxşı inkişaf edirdi. Beşaylığında diş çıxardı, altıaylığında danışmağa başladı. Anam hər dəfə zəng vuranda uşaqları, xüsusən də Sacidəni tapşırırdı. O deyirdi: "Qızım, bu uşağı götürüb dost-düşmən yanına aparmayasan. İki gözü var, maşallah, ceyran gözüdür. Allahu-əkbər! Sən Allah, onun üçün üzərlik yandır".

Füruzanın yoldaşı Dubaydan qızı Səmanəyə böyük və gözəl bir uşaq arabası gətirmişdi. Səmanə artıq böyümüşdü. Füruzan arabanı bizə verdi. Səhərlər Əlini məktəbə aparanda Sacidəni arabaya mindirirdim. Səccad tərslik edib özünü yerə vurur, yorulduğunu bildirirdi. Məcbur qalıb onu qucağıma götürürdüm. Əli bir əli ilə çantasını tuturdu, o biri əli ilə arabanı itələyirdi. Səhər də ona kömək edirdi.

Əligilin məktəbi bombardmanda dağılmışdı. Həyətin ortasına bir neçə konteyner qoymuşdular. Uşaqlar orada dərs oxuyurdular.

Yağış yağanda küçələr çaya dönürdü və mən Əlini də qucağıma götürməyə məcbur olurdum.

Sacidə həyatımızın gülüşü idi. Tez yeməyə başladı. Süfrənin başında oturub bizim kimi hər şey yeyirdi. Boğazında bir şey qalmasından qorxub deyirdim: "Qızım, yemə, qoy anan sənə süd versin". Qulaq asmırdı.

1987-ci ildə müharibə şəhərlərdə gedirdi. Hətta Tehran da düşmən bombardmanının siyahısına əlavə olunmuşdu. Əhvaz güclü bombardman altında idi. Düşmən cəbhələrdə məhdudiyyətsiz kimyəvi bombalar tətbiq edirdi, insan haqları təşkilatları da heç bir müdaxilə etmirdilər. Bəhmən Əhvaza az gəlirdi. İmam Hüseyn (ə) adına rabitə qarnizonuna komandirlik etməkdən əlavə, CBRN təlimlərini də ona tapşırmışdılar. Çoxlu döyüşçülər bu sahədə lazımi kursları görmədiklərinə görə kimyəvi hücum zamanı özlərini müdafiə edə bilmirdilər. Bəhmənin özü hələ də kimyəvi silahdan aldığı yaralardan əziyyət çəkirdi.

Bəhmən dekabrda Şiraza gedəcəkdi. Təmirə ehtiyacı olan bəzi rabitə avadanlıqlarını və elektron cihazları aparmalı idi. Uşaqlar məni incidirdilər. Ona dedim ki, Səhəri də özü ilə Sağərgilə aparsın. Bacımın üç qızı vardı: Əfifə, Fatimə və Atifə. Əfifə Səhərdən beş yaş böyük idi. Fatimə ilə Atifə isə onunla tay-tuş idilər. Səhər onlarla oynayırdı.

Səhər gedəndən sonra arxayınlaşdım. Bilirdim ki, Şirazda yaxşı əylənəcək və əhval-ruhiyyəsi dəyişəcək.

***

Bir gün səhər çağı Əlini məktəbə qoyub evə qayıtdım. Günorta yeməyini bişirmək barədə

fikirləşdiyim yerdə qırmızı vəziyyət elan olundu. Adət üzrə Sacidəni qucaqlayıb Səccadın əlindən tutdum. Pilləkənə tərəf getmək istəyəndə ev titrədi, qapı-pəncərələr bərk açıldı və evə isti hava doldu. Boğuq partlayış səsi gəldi, şüşələr qırılıb-töküldü.

Belə vaxtlarda Səccad qorxub ağlayırdı. Onun dili tutuldu və məndən yapışdı. Sacidəninsə rəngi ağardı, gözləri çəp oldu. Özümü itirdim. Onu qucağımda silkələdim. Əvvəl elə bildim ki, ölüb. Üzünə yavaşca iki sillə vurdum. Birdən tərpənib qusdu, ağzından yaşıl maye töküldü. Səccad yadımdan çıxdı, Sacidə ilə məşğul olmağa başladım. Tualetə qaçıb üzünü yudum. Qusması dayanmırdı. Bədəni də titrəyirdi. Bu halda mənə dedi: “Çiş! Çiş!” Şalvarını aşağı çəkmək istəyəndə gördüm ki, bulayıb. Dayanmadan qusur və bayıra çıxırdı. Qorxmuşdu, tez-tez deyirdi: “Su... Su...”

Birinci mərtəbəyə qaçıb Həliməyə dedim: “Deyəsən, qorxudan uşağımın öd kisəsi partlayıb. Gəl bax. Dayanmadan qusur və bayıra çıxır”. Həlimədə ORS pudrası vardı. Bir məhlul hazırladı və şüşəyə tökdük. Sacidə susuz idi, amma nə etdiksə, məhlulu içmədi. Həlimə dedi: “Sinəni ağzına qoy.” Uşağın əl-ayağı əsirdi. Dodaqları da elə titrəyirdi ki, sinəmi yaxşı tuta bilmirdi. Küçədən təcili tibbi yardım maşınlarının səsi gəlirdi. Həlimə oğlu Məhəmmədin pamperslərindən birini gətirib Sacidənin altına sərdi. Uşağın ishalı dayanmırdı.

Ağa Rəhmət həyəcanla evə girib dedi: “Raket küçənin başına düşüb, siz salamatsız?” Ağlaya-ağlaya dedim: “Ağa Rəhmət, uşağım ölür”. Həlimə dedi:

“Narahat olma, sən bizim uşaqlara bax, Rəhmətlə onu xəstəxanaya apararıq”.

Sacidənin ayaqlarına bir neçə pampers və əsgi bağladım, onu öpüb Həliməyə verdim. Bir tərəfdən Əlidən narahat idim, digər tərəfdən Səccadın ağlamaq səsi evi başına götürmüşdü. Çox qorxurdum. Ev alt-üst olmuşdu. Həyətə böyük bir qəlpə düşmüş, bağçamızdakı parnik cırılmış, oleandrın budaqları qırılıb yerə tökülmüşdü. Həyətə bir neçə kərpic parçası və qırıq kabel də düşmüşdü. Küçədən camaatın qışqırıq səsi gəlirdi. Sacidə ilə Əliyə görə narahatlığım məni dəli edirdi. Uşaqları tək qoyub Əlinin ardınca gedə bilmirdim. Onun yaşayıb-yaşamadığını da bilmirdim.

Səccad deyinir, nə edirdimsə, sakitləşmirdi. Məhəmməd də qalmırdı. Onu qucağıma götürdüm, Sacidəni xatırlayıb sinəmi ağzına qoydum. Oturub uşaqları başıma topladım və dedim: “Uşaqlar, gəlin dua edək. İlahi! Sacidə tez sağalsın! İlahi! Əliyə heç nə olmasın! İlahi! Bəhmən sağ-salamat qayıtsın!”

Uşaqlar narahat halda mənə baxırdılar. Nə etdiyimi bilmirdim. Məqsədsiz halda otaqlarda gəzişirdim. Rəhmət pəncərələrimizin şüşələrinə qara lent yapışdırmışdı. Şüşələr sınsa da, yerə tökülməmişdi. Hərçənd pəncərə çərçivədən çıxmışdı və bir tükə bənd idi.

Küçədə çoxlu adam vardı. Kimsə qapını bərk döyürdü. Qaçıb qapını açdım. Əli idi. Onu qucaqlayıb öpdüm və ağlamağa başladım. Soruşdum ki, kiminlə gəldin? Tövşüyə-tövşüyə dedi: “Özüm gəldim. Qırmızı vəziyyət elan olunanda bizi sığınacağa

apardılar. Bombardmandan sonra ata-analar dostlarımın ardınca gəldilər. Siz gəlmədiyinizə görə qorxdum. Elə bildim, bizim ev bombalanıb. Müəllimə məni gəlməyə qoymurdu, əlindən qaçdım". Yenidən Əlini qucaqlayıb öpdüm. Mənə dedi: "Ana, siz yaxşısız? Qonşuların evi dağılıb".

Əlindən tutub qapını bağladım. Dedim: "Hə, oğul, biz yaxşıyıq". Əlini yuxarı çıxarıb uşaqlara yüngül yemək hazırladım.

Bir-iki saatdan sonra Rəhmətlə Həlimə gəldilər. Sacidənin ağa Rəhmətin qucağında yatdığını və Həlimənin əlindəki dərman torbasını görüb rahat nəfəs aldım. Vəziyyətini soruşanda Həlimə dedi: "Heç nə. Bilirsən xəstəxanada nə qiyamətdir?! Həkim yox, şərait yox! Təcili tibbi yardım şöbəsində bir neçə tibb bacısı vardı. Ona serum qoşdular, dedilər sağalacaq". Rəhmət dedi: "Narahat olma, yaxşıdır. Bax, gülür".

Sacidəni qucağıma götürüb yuxarı apardım. Vəziyyəti dəyişməmişdi. Hələ də güclü təzyiqlə qaytarırdı. Düşündüm ki, hər an bağırsaqları və ürəyi qopub bayıra tökülə bilər. Hələ də bayıra çıxırdı. Gözlərinin vəziyyəti dəyişmişdi; hərdən sağa əyilirdi, hərdən sola. Hərdən də sanki başının üstünə baxırdı. Qorxub deyirdim: "Sacidə can, əl çal". Eşitmirdi.

Hava qaraldı. Elektrik enerjisi kəsilmişdi. Uşaqlara yemək verib yatızdırdım. Boruların suyu da bitmişdi. Yalnız hamamın kranından tük nazikliyində su gəlirdi. Bilmirdim uşağı necə yuyum. Səhərə qədər qaytardı və qarnı getdi. Daha ona əsgi bağlamırdım.

Nə qədər sellofan vardısa, gətirib altına qoydum. Hər biri bulananda götürürdüm. Səhərədək yata bilmədim.

Sübh namazı vaxtı qonşumuz xanım Rzayiyə zəng vurdum. Onunla dost idik, səhərlər tez oyandığını bilirdim. Onun beş uşağı vardı, axırıncısı körpə idi. Deyirdi ki, həmişə səhər tezdən uşaqları oyadıram, ataları ilə səhər yeməyi yeyirlər ki, Allah eləməmiş, bir hadisə baş versə, ata məhəbbətini dadmış olsunlar. Xanım Rzayinin yoldaşının işlədiyi qərargah evimizə yaxın idi. Gündüzlər müxtəlif cəbhələrə gedir, əksər gecələr evə gəlirdi. Zəng vuran kimi dəstəyi götürdü. Sevindim. Sacidənin vəziyyəti haqda danışıb dedim: “Ağa Rəhmət onu Çaharşir xəstəxanasına aparıb, ancaq orada mütəxəssis həkim olmayıb. Onu Gülüstan xəstəxanasına aparmaq istəyirəm. Rəhmət işə gedəcək, ona bir də əziyyət vermək istəmirəm...” Sözümü bitirməyə qoymayıb dedi: “Mən uşağın altını dəyişdirib yatızdırana qədər hazır ol”.

Əlinin səhər yeməyini verdim və razılaşdıq ki, özü məktəbə getsin. Səccadı da hazırladım. Sacidə üçün pampers və paltar dolu bur çanta götürdüm. Onu qucağıma alıb, Səccadı da arxamca dartdım. Dayanmadan ağlayırdı. Fikir vermədim. Gedəndə onu Həliməyə tapşırıb dedim: “Mən xəstəxanaya gedirəm. Əgər gec gəlsəm, Əlinin məktəbinə zəng vur, de ki, özü gəlsin”.

Xanım Rzayi yoldaşı ilə birgə maşında gözləyirdi. Maşına minəndən sonra küçənin nə günə qaldığını gördüm. Hər şey alt-üst olmuşdu. Sacidə qucağımda qaytarırdı, ishalı da kəsilmirdi. Ağa Rzayi qaza basıb ildırım sürəti ilə məni Gülüstan xəstəxanasına

çatdırdı. Qapının önündə xanım Rzayini yola salıb dedim ki, bir işim olsa, zəng vuraram.

Gülüstan xəstəxanası da adamla dolu idi, amma nə həkim vardı, nə də kimsə adamı dinləyirdi. Gənc idim, danışmağa cəsarətim yox idi. Xəstələr çarpayıların üstündə Allahın ümidinə buraxılmışdılar. Biri qışqırırdı, biri zarıyırdı, biri tibb bacısını çağırırdı... Gənc bir qız çadramı tutub dedi: "Xanım, sən Allah, de ki, tibb bacısı gəlsin. Halım pisdir. Çox ağrıyıram". Dedim ki, yaxşı, mütləq deyərəm. Təcili tibbi yardım şöbəsinə qaçdım. Qapının yanında tibb bacısını görüb dedim: "Xanım, dünənki bombardmandan sonra uşağımın qusması və ishalı dayanmır. Nə etməliyəm?" Tibb bacısı Sacidəyə baxıb dedi: "Sığorta dəftərçəsini ver". Paltarlarının arasından dəftərçəni çıxardım. Tibb bacısı ona bir şey yazıb dedi: "Get, ağciyərinin şəklini çəkdir". Deyə bilmədim ki, uşaq susuzluqdan tələf olur, ağciyər şəkli nə üçündür. Danışmağa üzüm gəlmədi. Qışqırıb, "mənə kömək edin" də deyə bilmirdim. Ancaq çantanı bacardığım qədər paltar və əsgi ilə doldurmuşdum. Bir əlimlə Sacidəni, o biri əlimlə çantanı, dişlərimlə də çadramı möhkəm tutmuşdum. Kömək edəcək bir kimsə yox idi.

Rentgen növbəsinə dayandım. Sinəmi Sacidənin ağzına qoymuşdum. Sorurdu, ancaq nə sinəmdə süd vardı, nə də uşağın sormağa taqəti. Gözləri çəp halda başının yuxarısına baxırdı. Onu uzandırmağa çarpayı yox idi. Bir adam da yox idi ki, onu müayinə etsin. Qəşəng qızım dayanmadan qaytarırdı, ishalı da kəsilmirdi. Rentgen şöbəsində ağciyərin şəklini

çəkdilər. Şəkil hazır olana qədər gözləməli idik. Bu müddətdə təcili yardım şöbəsinə qaçdım. Orada bir tibb bacısı vardı. Birtəhər ona yaxınlaşdım, utana-utana dedim: "Xanım, bağışlayın, qızımın ishalı və ürəkbulanması var. Ona serum qoşa bilərsiz?" Tibb bacısı Sacidəyə baxdı və deyəsən, yazığı gəldi. Bir serum çıxarıb mənə verdi, iynəsini Sacidənin toppuş qoluna keçirdi. Çantanı yerə qoyub xəstəxananın soyuq daşları üzərində oturdum.

Özümə də yazığım gəlirdi. Kaş yanımda kimsə olaydı! Sacidəni tapşırıb həkim dalınca gedərdim. Həmin tibb bacısı yanımdan keçəndə acizanə səslə dedim: "Xanım... Uşağımı qoymağa çarpayı yoxdur?" Tibb bacısı getdi, bir qədər sonra paslı və laxlayan çarpayı ilə gəldi. Çarpayının iki tərəfinin nərdələri xarab olmuşdu, qalxıb-yatmırdı. Əyilib nərdələrin üstündən uşağı çarpayıya uzatdım. Bilirdim ki, gözəl qızım əldən gedir. Analıq təcrübəm deyirdi ki, uşağın vəziyyəti böhranlıdır, ayağa qalx, bir iş gör. Uşaqlarımın heç biri elə ishal və ürəkbulanmaya yoluxmamışdı. Digər tərəfdən, rentgenin cavabını almalı idim. Çarəm yox idi. Tibb bacısından steril bint alıb Sacidənin qollarını iki tərəfdən çarpayıya bağladım. Hərçənd zavallının tərpənməyə taqəti də yox idi. Çox təşviş içində idim, fikirləşirdim ki, Sacidə tezliklə bir göyərçin kimi əlimdən uçub gedəcək.

Rentgen şöbəsi başqa binada idi. Həyətdən keçməli idim. Keçdiyim zal əl-ayaqları, üz-başları kimyəvi silahlardan suluqlamış yaralılarla dolu idi. Yazıqlar xəstəxananın soyuq döşəməsində uzanıb ağrıdan

zarıyırdılar. Bəhmən və onun suluqlamış yaralı bədəni yadıma düşdü. Yol uzun, özüm də cansız və taqətsiz idim. Ağlaya-ağlaya qaçıb rentgenin cavabını aldım. Həyətdə ümumi telefon vardı. Evə zəng vurdum. Əliyə görə narahat idim. Həlimədən halını soruşdum. Səccad onu çox incitmişdi.

- Bu ərköyün o qədər ağladı ki, bir də gördüm saat birdir. Yazıq Əli məktəbin qapısı önündə dayanıbmış. Qorxudan özünü islatmışdı. Məktəbinə zəng vurdum. Məktəbin bir işçisi motosikletə mindirib gətirdi.

Əzablı halımla dedim: "Zəhmət olmasa, paltarını dəyişdir, birdən soyuqlayar".

- Maşallah, Əli kişidir. Özünü yudu, Süməyyənin şalvarını verdim, geyindi.

Əsəblərim korlanmışdı. Ağlamağa başladım.

- Həlimə, Sacidə ölür. Ağa Rəhmətə de ki, nə olursa-olsun, özünü buraya çatdırsın. Üstümdə pul da yoxdur. Mütləq gəlsin.

Telefonu kəsdim. Bilmirəm nədənsə Sacidənin öləcəyini düşünürdüm. Bəhmənin tövsiyələri yadıma düşdü. O deyirdi: "Heç vaxt bir yerə tək getməyin. Əgər getsəniz, beşiniz də gedin. Allah eləməsin, bir hadisə baş versə, beşiniz üçün də olsun". O, başımıza nə gəldiyindən xəbərsiz idi.

Təcili yardım şöbəsinin zalında 17-18 yaşında üzü suluqlu, bədəni yaralı bir oğlan uzanmışdı. Yanından keçəndə sızlayıb dedi: "Ana... Ana..." Bədənim titrədi. Dayanıb ona baxdım. Hiss etdim ki, son nəfəslərini verir. Sanki kimsə qulağıma pıçıldadı və mən belə dedim: "Can! Nə olub, oğlum?" Oğlan gülümsəyib dedi: "Ana... Haqqını halal elə..."

Əlimdən heç nə gəlmirdi. Dedim: "Oğlum, indi həkim gələcək". Yanımdan bir tibb bacısı keçirdi. Xalatını dartıb dedim: "Xanım, sən Allah, oğluma kömək elə!" İxtiyarsız olaraq, ağlayırdım. Tibb bacısı bir mənə, bir də gənc oğlana baxdı, əyilib nəbzini yoxladı. Oğlanın gözləri tavana dikilmişdi. Dözə bilmədim. O qədər yaralının arasından sürətlə keçə bilmirdim. Gərək ehtiyatla gedəydim ki, heç kimin əl-ayağını tapdamayım. Gözüm hansı yaralıya sataşırdısa, ürəyim kabab olurdu. Gənc oğlanın üzü gözlərim önündən getmirdi. Özümə hirslənirdim. Kaş əyilib əlini tutaydım! Kaş bir qədər yanında oturub başını dizim üstə qoyaydım! Halı o qədər pis idi ki, məni anası zənn edirdi. Kaş anasının yanında olduğunu bilib bu dünyadan rahat köçəydi!

Sacidənin yanına çatanda elə bildim ki, o da ölüb. Serum damcı-damcı damarlarına axırdı. Gözləri bağlı idi, ayaq dırnaqları göyərmişdi. Sanki aşağıdan yuxarıya yavaş-yavaş göyərməyə başlayırdı. Orada ilk dəfə utanmağı kənara qoyub qışqırdım: "Uşağım... Uşağım öldü! Mənə kömək edin!" Göyərti yuxarı qalxıb baldırına çatdı. Zala qaçdım, bir tibb bacısının əlindən tutub uşağın başı üstə gətirdim, ağlaya-ağlaya dedim: "Uşağım öldü, ayaqlarına bax... Ayaqları göyərib. Sən Allah, bu serumu çıxar. Nə üçün serumdan sonra belə oldu?" Tibb bacısı hirslə mənə baxıb dedi: "Xanım, seruma dəxli yoxdur. Bayıra çıx! Qulağımın dibində bu qədər səs-küy salma. Get, görüm nə edirəm".

Özümdə deyildim. Özümü vururdum. Kimi görürdümsə, elə bilirdim ki, Sacidənin xilaskarıdır,

onu mənə qaytara bilər. Odur ki, yalvarırdım: "Siz Allah, kömək edin. Gözəl qızım, qıvrımsaç gəlinciyim ölür". Bu zaman otaqdan bir səs eşitdim:

- Xanım, gəl, muştuluq ver. Uşağınız sağaldı.

Sacidənin başının üstə getdim. Göyərti aradan qalxmış, tibb bacısı serumu çıxarmışdı. Uşağımı qucaqlayıb öpdüm. Gözlərini açmışdı, amma bəbəkləri hələ yuxarıda idi. Onu yenidən öpdüm:

- Sacidə... Sacidə can... Əzizim... Sənin qəşəng gözlərinə qurban olum! Anasının əhvazlı qızı!

Uzun buruq saçını səliqəyə saldım. Gözlərini tam açıb dedi: "Ana". Dedim: "Can ana! Anan sənə qurban, gəlincik xanım!" Çətinliklə dedi: "Su..." Sinəmi ağzına qoydum, iştahla əmməyə başladı. Tibb bacısı dedi ki, onu çarpayıya qoy. Dedim: "Çarpayının nərdələri xarabdır, orada süd verə bilmərəm". Tibb bacısı bir qədər çarpayı ilə əlləşdi, amma düzəlmədi. Dedi ki, mənimlə gəl.

Təcili yardım şöbəsinin sonunda kiçik bir otaq, otağın ortasında da bir çapayı vardı. Uşağımı onun üstünə uzatdım. Tibb bacısı Sacidənin bütün paltarlarını çıxardı, altına bir neçə steril bint qoydu, sonra bir neçə aparat gətirib uşağa qoşdu. Dedi ki, gəl, uşağına süd ver.

Stul yox idi. Taxtın üstünə əyilib sinəmi ağzına qoydum. Sormağa taqəti yox idi. Bununla yanaşı, bir qədər əməndən sonra yenidən dırnaqları göyərdi. Tibb bacısı getmişdi. Qaçıb onu tapdım. Bir neçə nəfərlə birgə gəlib Sacidəni həyata qaytarmağa başladılar. Onların biri məni bayıra çıxarıb qapını bağladı. Az sonra həmin tibb bacısı məni səslədi: "Sacidənin

anası, gəl içəri”. Tələsik içəri girdim. Dedi ki, bədəninin suyu azalıb ona süd ver. Əyilib yenidən süd verdim. Ağzı qurumşdu, sora bilmirdi. Bədəni yenə göyərdi və bu dəfə həm də soyudu.

Bu zaman Rəhmət içəri girdi. İşdən təzə gəlmişdi, korpus geyimi hələ əynində idi. Məni görən kimi hər şeyi başa düşdü. Sacidənin başı üstə dayandı. Sacidənin başını əymişdik, başının altına qoyduğumuz steril tənzifə ağzından su axırdı. Altından da təzyiqsiz sidik və sulu nəcis tökülürdü. Çantamın dibindən iki sellofan tapıb əlcək əvəzi geyindim, bir az pambıq isladıb uşağın ayaqlarının arasını yudum ki, yara olmasın.

Sanki toppuş qızıma bir iynə batırmışdılar, get-gedə havası boşalırdı. Uzun qıvrım saçı üzünə və başının altına səpələnmişdi. Yeddiaylıq olsa da, boyu uca idi, iri və yumru üzü, qəşəng barmaqları vardı.

Rəhmətdən sonra bir həkim də içəri girib soruşdu: “O qəşəng qız buradadır?” Tibb bacıları həkimin ətrafına toplaşdılar. Həmin tibb bacısı yaxınlaşıb tez-tez danışmağa başladı ki, həkim Çaharşir xəstəxanasından gəlib; növbəsi qurtarıb, istirahətə getmək istəyəndə zəng vurublar ki, gəlib Sacidəyə baxsın. Doktor mənə baxıb dedi: “Anasını bayıra çıxarıb bir serum qoşun. Kömək edin uşağın onurğa mayesindən nümunə götürüm”. Tibb bacılarından biri məni otaqdan çıxarıb qapının yaxınlığındakı çarpayıya uzatdı, bir serum çıxarıb qoluma qoşdu. Bir neçə tibb bacısı bayıra qaçdı, bir qədər sonra iş stolu ilə içəri girdilər. Rəhmət də bayıra çıxdı. Ona dedim ki, sən Allah, kimsəsiz uşağımın yanında qal. Dedi:

“Qoymadılar. Onurğasından nümunə götürmək istəyirlər”.

Hər an gözləyirdim ki, iynə vuranda nazlı körpəmin qışqırtısını eşidəcəyəm. Amma səs çıxmadı. Tibb bacılarından biri bayıra çıxıb nümunəni Rəhmətə verdi və dedi: “Çox tez Çaharşir xəstəxanasına aparın və analizin cavabını gətirin”.

Həkim bir-iki tibb bacısı ilə birgə hələ otaqda idi. Rəhmət gedəndən sonra tibb bacısından soruşdum: “Xanım, uşağımın xəstəliyi nədir?” Tibb bacısı dedi: “Güclü ishal və qusmaya görə bədəninin suyu qurtarıb. Bu uşaqda qalan yeganə maddə natriumdur. Təəssüf ki, haraya getmisizsə, ona şəkərli, duzlu serum qoşublar. Təsəvvür edin, bir stəkanın içinə nə qədər duz töküblər, azca su. İndi görün suyu da boşaldanda nə qalar!” Mənim cavabımı gözləməyib əlavə etdi: “Duz. Bu məsum uşaqda da belə olub və komaya girib”. Sonra əlavə etdi: “Əlbəttə, tibb bacısı təcrübəli olsa, bunu başa düşər. Lakin burada xəstə və yaralılar çox olduğuna, işlər aşıb-daşdığına görə həkimlər və tibb bacıları səhvə yol verirlər. Elə bilirlər ki, uşağın meningiti var və ya çirkli havaya görə ağciyəri iltihab edib”. Soruşdum ki, sağalacaqmı? Cavab vermədi. Çox həyəcanlandım. Qolumda serum ayağa qalxıb otağa qaçdım.

Uşağıma çoxlu aparat qoşmuşdular. Başının üstə heç kim yox idi. Çarpayıya əyilib sinəmi ağzına qoydum. Göz bəbəkləri yenə yuxarı baxırdı. Gözü ağappaq idi, qarası görünmürdü. Dedim: “Xanım... Ananın balı... Atasının qəşəng qızı... Necəsən?” Məsum körpə yavaşca sinəmi sorurdu. Yenə dırnağı

göyərdi və göyərti yuxarı qalxmağa başladı. Fikirləşdim ki, artıq bitdi. Yaralı oğlanı, onun utancaq baxışlarını xatırlayıb qışqırdım: “Xanım, uşağım öldü!” Tibb bacıları yenidən Sacidənin başı üstə qaçdılar. Bir qədər sonra Rəhmət ləhləyə-ləhləyə gəldi. Qabağına qaçıb dedim: “Nə oldu?” Məni itələyib otağa girdi, qışqırıb dedi: “O lənətə gəlmiş serumu çıxarın, natriumu ensin. Həkim dedi ki, tez bu iynəni vurun, yoxsa öləcək”.

Məni içəri buraxmadılar. Otaqdan bayırda ağlayırdım. Serumunu çıxarmışdılar. Həkim yenidən gəlib otağa girdi, amma bir neçə dəqiqədən sonra tibb bacıları ilə birgə bayıra çıxdı. Həkimin ayağına düşüb yalvarmaq istəyirdim. Soruşdum: “Uşağım... Uşağım necə oldu? Yaxşılaşdı?” Birinci tibb bacısı üzünü yana çevirib ağlamağa başladı. Digərləri də ağladılar. Otağa qaçdım. Balaca mələyimdən aparatları ayırmışdılar. Nazlı qızımın qəşəng gözləri bağlı idi, daha ağzından su gəlmir, altını islatmırdı. Ağzı quru, bədəni göy idi. Onu qucaqladım. Soyumuşdu.

Serumu qolumdan qoparıb yerə atdım, dəli kimi qışqırdım: “Mən qızımı istəyirəm... Qəşəng əhvazlı qızı... Qıvrımsaç gəlinciyimi... Atasına nə cavab verəcəyəm?! Onu evə aparmaq istəyirəm. Qardaşları onu gözləyirlər. Əli bacısı üçün darıxıb. Səccad evimizin bəbəsi ilə oynamaq istəyir”. Rəhmət mənə baxıb ağlayırdı. İki tibb bacısı gəlib uşağı məndən aldılar. Üzümə vururdum. Çadram başımdan düşmüşdü. Bəhmənin xalası oğlu Sirus da gəlmişdi. Ağlayıb çadranı başıma atırdı. Rəhmət uşağımın ardınca otaqdan çıxdı. Qışqırdım: “Ağa Rəhmət.

Uşağımın paltarlarını geyindir, soyuqlayar”. Bir tibb bacısı qoltuğumdan tutub qapıya qədər apardı. Sirus dedi ki, maşın gətirmişəm. Tibb bacısı mənimlə birlikdə ağlayırdı. Məni maşına mindirib qayıtdı.

Evə qədər ağladım. Sirusun səsi çıxmırdı. Evə çatanda gördüm ki, Əli ilə Səccad yuxarı qalxıb qaranlıqda oturublar. Ürəyim sıxıldı. Bütün lampaları yandırdım. Qorxurdum ki, xəstəliyim yenidən başlayar. Tez dərmanlarımı içdim.

Həmin gün cümə axşamı idi. Həlimənin harada olduğunu bilmirdim. Uşaqlarını bizim Əli yaşda olan Süməyyəyə tapşırmışdı. Uşaqlara yazığım gəldi. Bəhmənin rövzələri yadıma düşdü. Necə yanıqlı oxuyurdu! Yadımda bir şey qalmamışdı, ancaq səsinin yanğısı qulağımda idi. Səfərə çıxanda maşının maqintofonuna bir kaset qoyur, onunla birlikdə oxuyurdu.

Ürəyim kabab olmuşdu. Nazlı qızımı, günahsız körpəmi morqa qoyub gəlmişdim. Fikirləşdim ki, balaca gəlinciyim indi soyuqdan donur. Məni ağlamaq tutdu.

Bəhmənin aşura günü axşamüstü bizə oxuduğu bir rövzə yadıma düşdü. İşıqları söndürüb hüznlə deyirdi: “Həzrət Səkinə xəstə idi. Aşura günü günorta atasının yanına gedə bilmədi. İmam Hüseyn (ə) bir neçə gün qabaq ona demişdi ki, qızım, tezliklə yanına bir quş gəlib ağlayacaq, göz yaşının yerinə gözlərindən qan damacaq. O quşu görsən, bil ki, mən şəhid olmuşam”.[1]

[1] Hadisənin tarixi əsası yoxdur. (müt.)

Heç vaxt rövzə deyiləndə ağlaya bilmirdim. Çünki çox da dindar deyildim. Əlbəttə, Bəhmənlə ailə qurandan sonra o, bir müəllim qayğıkeşliyilə mənə çox şey öyrətmişdi. Həmin axşam Bəhmən yox idi, amma səsi və rövzəsi qulağımda idi. Uşaqlarıma baxıb qəriblər axşamını və aşura gününü xatırladım. Həmin quş kimi Bəhmənin yanına uçub qan ağlamaq istəyirdim. Ürəyimdə qorxu vardı: uşağımın şəhid olduğunu Bəhmənə necə deyəcəkdim?

Əli Səccadı ayaqlarının üstünə qoyub yatızdırmaq istəyirdi. İlk dəfə həzrət Səkinəni və Rüqəyyəni xatırlayıb ağladım. Beynimdə bu fikir dolaşırdı ki, İlahi, İmam Hüseynin (ə) ailəsi necə duruş gətirdi? O faciəyə necə dözdülər?

Əmin idim ki, Əli məsələdən xəbərdardır, amma özünü saxlayır. Fikirləşdim ki, mən bu uşaqlardan əskik deyiləm, mən də dözməliyəm. Televizorun səsini artırdım. Əli Süməyyənin şalvarını geyinmişdi. Öz şalvarını şkafdan çıxarıb verdim. Soyuducuda yemək vardı. Onu qızdırdım. Uşaqlar sükut içində xörəklərini yedilər.

Sacidənin beşiyi otağın küncündə idi. Elə bilirdim ki, körpəm orada yatıb. Hətta "Su... Su..." deməsi də qulaqlarımda idi. Maneji də qapının önündə idi. Bombardmandan bir neçə dəqiqə qabaq ona minib pillələrin yanına qədər getmişdi; tutmasaydım, başı üstə yıxılacaqdı.

Həlimə yuxarı qalxdı. Məni görən kimi ağlamağa başladı. Əlindən tutdum, birlikdə mətbəxə keçdik. Onu qucaqladım və hər ikimiz zar-zar ağlamağa başladıq. Birdən özümə gəlib tez gözlərimi sildim və

dedim: “Həlimə can, Əli bilməsin. Ağıllı və qapalı uşaqdır, üzülər”. Həlimə dedi: “Rəhmət əmiyə zəng vurdu. Şirazdadır. Hadisəni danışdı. Dedi ki, Bəhmənə söyləmə, amma bu axşam onu da götür, gəl”.

Bədənimin tükləri dik durdu. Bəhmənə kim deyə bilərdi ki, gözəl qızın ölüb?! O, uşaqlara qarşı həssas idi. Mən yorulanda, hövsələm tükənəndə və uşaqlarla kobud danışanda narahat olurdu. İndi necə deyə bilərdik ki, əhvazlı qızın dünyadan köçüb?!

İxtiyarsız halda qaçıb maneji, beşiyi və bütün oyuncaqları otaqların birinə yığdım. Həlimə ardımca gəldi. Otağın qapısını bağladım. Maneji və oyuncaqları öpüb bərkdən ağladım. Paltarları otağa səpələnmişdi. Onları toplayıb qoxuladım. Nazlı Sacidəmin ətri gəlirdi. Bütün bu hadisələrin yuxu olmasını arzulayırdım. Kaş oyanıb əziz qızımın gülüş səsini eşidəydim, oturub uzun buruq saçını ayıraydım! Onun kiçik qırmızı dodaqları, qara uzun kirpikləri, toppuş yumru üzü üçün darıxırdım.

Həlimə dedi: “Gəlin, gedək bizə, gecəni tək qalmayın”. Yadıma düşdü ki, tualet çirkli və yuyulmamış əsgilərlə doludur. Hamısını vedrəyə qoymuşdum ki, imkan olanda yuyum. Vedrəni mətbəxə apardım, bütün əsgiləri zibilqabıya atdım. Əli Səccadı yatızdırmışdı, Sacidənin əzdiyi dəftərin vərəqlərini düzəldirdi. Ürəyim qan oldu. Gözucu ona baxırdım. Kağızları düzəldəndən sonra yatdıqları otağın divarına vurdu.

Evin hər tərəfindən Sacidənin əşyalarını toplayıb anbar elədiyimiz otağa qoydum. Evə qonaq gələndə

bütün əşyaları oraya tullayırdıq. Otağın qapısını kilidlədim. Səccadı qucağıma götürüb Həlimə və Əli ilə birgə aşağı düşdüm. Bacımın verdiyi uşaq arabası girişdə ayaqaltının üstündə idi. Səccadı həliməyə verib Əlini otağa göndərdim və heç kim görmədən arabanı qucaqlayb öpdüm. Arabanın kiçik stolunun üstündəki rəngli fiqurları qoxuladım. Sacidənin balaca toppuş əllərinin ətri gəlirdi.

Bir anda hər şey gözümdən düşdü, Bəhməndən acığım gəldi. Fikirləşdim ki, Sacidə ona və seçdiyi yola qurban getdi; Xürrəmşəhrə, Abadana, Bəhmənin məqsəd və amallarına fəda oldu. Müharibəyə nifrət edir, Əhvazdan getmək istəyirdim. İstəyirdim uşaqlarımı götürüb elə bir yerə gedim ki, Bəhmən bizi tapa bilməsin. Nə üçün Tehranda qalmağımızı qəbul etmədi?! Yaxşı vəzifəni, çoxlu maaşı və korpusun evini buraxıb buraya gəldi, uşağımı ölümə verdi. Tehranda qalsaydıq, indi Sacidə həyatda idi. Bir anlığa xəstəxananın yerinə uzanmış kimyəvi yaralılar yadıma düşdü, məni anası sanan gənc oğlanı xatırladım. Kaş onu qucaqlayaydım! Kaş başını dizlərim üstə qoyaydım! Kaş suluqlarının üstünə yaş dəsmal qoyaydım! Kaş ölməzdən öncə ona bir stəkan su verəydim ki, susuz ölməsin! Xəstəxanadan necə pis qoxu gəlirdi! O rəngli fiqurların necə yaxşı ətri vardı; firni ətri, ana peçenyesinin ətri, konfet ətri...

Rəhmətlə Həlimə otaqlarından çıxdılar. Məni görüb hər ikisi ağlamağa başladı. Həlimə uşaq arabasını əlimdən aldı, aparıb gizlətdi. Uşaqlar yatmışdılar. Gözüm Məhəmmədə sataşdı. Qaçıb onu

qucaqladım. Uşaq diksinib yuxudan ayıldı. Onu öpdüm, nazladım və süd verdim.

Həlimə uşaqlar yatan otaqda mənə bir yataq sərdi. Özü də həmin otaqda yatdı. Mən Məhəmmədi qucaqlayıb öz yanımda yatızdırdım. İşıqlar sönəndən sonra isə ağlamağa başladım.

Rəhmət zalda namaz qılırdı. Namazdan sonra Quran oxumağa başladı. Səsi kövrək idi. Səsinin titrəyişi ürəyimi parçalayırdı. O, Sacidəni çox sevirdi. Həmişə deyirdi: "Bu uşaq balığa bənzəyir, adamın əlində qalmır, sürüşür". Doğru deyirdi. Mənim göyçək balığım axırda sürüşüb dənizə getdi. Rəhmət zalda və qonaq otağında gəzişərək ağlayırdı.

***

Pis bir cümə səhəri idi. Bəhmən gecə gəlmiş, Rəhmət ona hər şeyi danışmışdı. Gün çıxmamış xəstəxanaya gedib qızını təhvil almış, yolda ona Rüqəyyə rövzəsi oxumuşdu.

Oyaq idim, ancaq yataqdan qalxmaq istəmirdim. Həlimə başım üstə oturub dedi: "Qalx, xanım Rzayi gəlib. Bəhmənlə Rəhmət səhər tezdən Sacidənin işlərindən ötrü qəbristanlığa gedriblər. İndi gələcəklər".

Xanım Rzayi yoldaşı və uşaqları ilə gəlmişdi. Məni görən kimi qucaqlayıb səssizcə ağlamağa başladı. Həlimə bizə çay gətirdi, sonra yavaşca xanım Rzayiyə danışmağa başladı: "Rəhmət dünən telefonda atasına hər şeyi danışmışdı. Bəhmənə isə demişdilər ki, Sacidənin halı pisdir, Əhvazdakı həkimlər bir iş görə bilmirlər; gəl, uşağı Şiraza və ya Tehrana apar.

Bəhmən səhər tezdən evə çatanda isə Rəhmət həqiqəti söyləmişdi”.

Ağa Rzayi ilə əmi həyətdə dayanmışdılar. Həlimənin uşaqları Səccad və Əli ilə oynayırdılar. Məhəmməd mənim qucağımda idi, süd əmirdi. Əli Sacidənin öldüyünü bilir, amma üz vurmurdu. Yadıma düşdü ki, Bəhmən Əlini məktəbə aparanda Sacidəni qucağıma götürüb pəncərənin arxasında dayanır, körpənin əlindən tutub yelləyə-yelləyə Əli ilə sağollaşırdıq. Bəhmən olmayanda Sacidəni manejə qoyub işlərimi görürdüm. Sacidə pilləkənin başına yaxınlaşanda həmişə qorxurdum ki, oradan yıxılar. Əli səhər yeməyini yeyə bilmirdi, bütün diqqəti Sacidədə idi, ona görə narahat olurdu. Son dəqiqədə qalxıb qaçır, onu maneji ilə birgə yataq otağına gətirir və deyinirdi: “Ana, nə üçün Sacidəyə fikir vermirsən? Uşağı manejə qoyma, pilləkəndən yıxılar”.

Uşaqlar həyətə düşdülər. Əlinin gözü məndə idi. Ağlamadığımı görəndə məmnun olurdu. Uşaqlar həyətə çıxandan bir qədər sonra Süməyyə ilə Məhəmmədmehdinin ağlamaq səsi gəldi.

- Əmi... Saci öldü... Saci öldü...

Rəhmətin uşaqları Sacidəyə Saci deyirdilər. Ayağa qalxıb pəncərənin arxasında dayandım. Səhər Bəhmənin qucağında idi. Rəhmətin uşaqları onun başına yığışıb ağlayırdılar. Əmi də orada idi. Qayıdıb oturdum. Onu görmək istəmirdim. Həlimə ilə xanım Rzayi həyətə qaçdılar. Məhəmmədi qucağıma götürüb pəncərədən uzaqda dayanmışdım ki, heç kim Bəhmənə baxdığımı görməsin. Ayaqlarını tərpədə bilmirdi. Səhəri Həliməyə verib Məhəmmədmehdi ilə

Süməyyəni qucağına götürdü və qışqırdı: “Saci... Ata gəlib... Sənə konfet gətirmişəm... Qaqa gətirmişəm...”

Yaxınlaşmaq istəmirdim. Rəhmətlə əmi qollarına girdilər. Çətinliklə yeriyirdi. Ayaqları düzəlmirdi. Ağa Rzayi və Bəhmənin bir neçə dostu bir tərəfdə dayanıb ağlayırdılar. Əgər yaxında olsaydım, Bəhmənin bütün bədəninin necə titrədiyini görərdim. Onun halını görən hər kəs ağlayırdı. Boyu 184 sm olan adam mənimlə eyni boyda olmuşdu. Onu pilləkəndən necə qaldırdıqlarını görmədim. Həliməni çağırıb dedim: “Əli ilə Səccadı yanıma göndər”. Həlimə dedi: “Sənə demədim axı... Bəhmən səhər tezdən Sacidəni gətirib beşiyinə qoydu, ona rövzə oxudu. Özünü öldürürdü. Get onun yanına”.

Donmuş Sacidəni və Bəhmənin beşiyin yanında zar-zar ağlamasını görmək istəmirdim. Həlimə Məhəmmədi alıb Səhəri qucağıma verdi. Səhərin dörd yaşı vardı. Nazlanıb üzümdən öpdü. Oturdum. Əli ilə Səccadı da dizlərimin üstə oturtdum. Uşaqlarımı öpüb qoxulayırdım. Bəhmənin ağlamaq səsi gəlirdi. Mən ucadan danışır, uşaqları güldürmək istəyirdim. Bəhmən rövzə oxuyurdu; səfərə getdiyimizdə oxuduğu kimi. Boş yollarda rövzə və mərsiyə oxumaqdan xoşu gəlirdi. Həlimə gözləri qızarmış halda aşağı düşdü. Bildim ki, Bəhməni görüb əzab çəkmişdir. Mətbəxə keçib ucadan ağlamağa başladı. Sonra Rəhmət gəldi. Gözləri qan qoymuşdu. Quş əhvalatı yadıma düşdü. Fikirləşdim ki, Rəhmət də qan ağlayır. Aydın danışa bilmirdi. Mənə dedi: “Nəsrin, qalx, gedək Behiştabada. Səhər tezdən Bəhmənlə gedib işlərini gördük... Qəbri hazırdır”.

Daha danışa bilmədi, başını divara qoyub ucadan ağlamağa başladı. Sonra üzünü mənə tutub dedi: "Nəsrin, get Bəhməni gətir. Özünü öldürdü". Getmək istəmirdim. Həlimə dedi: "Hə, Nəsrin, yazıqdır, get gətir. İndi ürəyi dayanacaq". Getmədim. Bir qədər sonra xanım Rzayi tələsik gəlib dedi: "Nəsrin xanım, gəl, gör ağa Bəhmən nə edir! Biz öhdəsindən gələ bilmirik. Sən get, bəlkə onu sakitləşdirəsən".

Uşaqları Həliməyə tapşırıb könülsüz halda yuxarı çıxdım. Beşik evin ortasında idi. Ona baxa bilmədim. Amma gözəl Sacidənin üstünə ağ bir parça atıldığını gördüm. Bəhmən başını beşiyə dayamışdı, başı ilə onu yelləyir, ağlayır, rövzə oxuyurdu. Əmi, ağa Rzayi və Bəhmənin dostları məni görən kimi aşağı düşdülər. Axırıncı pillədə dayanıb Bəhmənə baxırdım. Əlindən yanıqlı idim. Fikirləşirdim ki, nə üçün Tehranda qalmadı, nə üçün?

Rəhmətin səsini eşidirdim. Kiminləsə danışa-danışa yuxarı çıxırdı. İş yoldaşı idi. Soyadını bilmirdim, amma bir neçə dəfə görmüşdüm. Kişi salam və başsağlığı verdi. Sonra Rəhmətin köməyi ilə Bəhmənin qoluna girib qaldırdılar. Mən onlardan qabaq aşağı düşdüm.

Hamı həyətə toplaşmışdı. Otağa girdim. Nə axtardığımı bilmirdim. Bəhmənin getməsini gözləyirdim. Ancaq yenidən səsi gəldi. Hamı küçəyə çıxdı. Qaçdım. Bəhmən öz maşınımızda oturmuş, Sacidəni dizlərinin üstünə qoymuşdu. Maşının qapısı açıq idi, hər şeyi görürdüm. Əmi Sacidəni götürmək üçün maşına doğru əyildi. Bəhmənsə uşaqdan bərk yapışmışdı. Əmi qışqırırdı: "Bu vəziyyətdə getsən,

qəza törədəcəksən. Dikbaşlıq eləmə”. Bəhmənin qışqırtısı küçəni bürüdü:

- Ağa, sən Allah, məni burax.

Əlini tapıb dedim ki, get atanın yanına. Əli getdi. Mən Həlimə və uşaqlarla birgə Rəhmətin maşınına oturdum. Əlini görürdüm, yavaşca Sacidəni Bəhmənin dizlərinin üstündən götürüb öz dizlərinin üstünə qoydu. Maşının şüşəsini aşağı çəkdim. Əmi dedi: “Mən öhdəsindən gəlmədim. Maşallah Əliyə! Nəsrin, daha qəm eləmə, Əli artıq kişi olub. Bəhmənə deyirdi ki, ata, yadındadır, bir yerə gedəndə Sacidə hey sükanı tutur, səni sürməyə qoymurdu. Mən həmişə onu qucağıma götürüb başını qarışdırırdım. İndi də səni sürməyə qoymur. Ver mənim qucağıma, ona nağıl danışacağam”.

Həlimə ağlamağa başladı. Maşının ön oturacağında kişi kimi oturmuş Əliyə mat-məəttəl baxırdım. Bəhmən gedəndən sonra hamımız ardınca yola düşdük.

***

Behiştabadda sakitlik idi. Əmi ilə Rəhmət kəfən və dəfn işləri ilə məşğul oldular. Bəhmən Sacidəni qucağına götürüb mürdəşirxananın qarşısında dayanmışdı. Həlimə dedi ki, gəl, girək içəri. İlk dəfə idi mürdəşirxanaya girirdim. Uzun plaş geyinmiş ortayaşlı bir ərəb qadın qara rezin çəkmə və qara əlcəklə bayıra çıxıb dedi: “Ölünüz hanı?” Bəhmən bizim arxamızca gəlirdi. Ərəb qadın qışqırdı: “Gəlmə! İçəri gəlmə! Bura qadınlar üçündür. Belə şeyləri bilmirsən? Naməhrəm qadın var”. Bəhmən yazıqcasına dayanıb qadına baxırdı. Səhərdən onunla

bir kəlmə də danışmamışdım. Yaxınlaşıb soyuq şəkildə: “Sən çıx bayıra!” – dedim və uşağı aldım. Bəhmən ikiəlli başına vurub qışqırdı: “Mən naməhrəm deyiləm. Atasıyam. Bu, mənim uşağımdır, ürəyimin parçasıdır”. Ağa Rzayi qaçıb əllərini tutdu və onu kənara apardı. Bəhmənin “ya Hüseyn” səsi mürdəşirxananın içinə gəlirdi.

Bəhmənin bu uşağa bu qədər bağlandığını düşünməzdim! Ayaqlarım boşalmışdı, çətinliklə addım atırdım. Fikirləşirdim ki, nə qədər rəhmsiz olmuşam. Yadıma düşdü ki, uşaqlıqda bir cücəm və ya quşum ölsəydi, onu qəfəsdən çıxarmağa, basdırmağa ürəyim gəlməzdi. İndi isə öz qəşəng qızımı yuyub basdırıram. Bir əlimi başının altına qoymuşdum, bir əlimi də iki ayaqlarının altına. Sacidə dübbədüz qalmışdı, boyu da uca görünürdü; iki-üç yaşlı uşaq kimi. Anam həmişə deyirdi ki, bu uşağın gözəlliyi qeyri-adidir, Nəsrin, ehtiyatlı ol, göz dəyməsin. İndi isə gəlib gözəl nəvəsinin morqda soyuqdan donduğunu görməli idi.

Qadın məni görən kimi ərəbcə danışmağa başladı, amma başa düşmədim. Hirsli idi, deyəsən, söyürdü.

Mürdəşirxananın içi çox böyük idi. Xanım Rzayi içəri girdi. Həlimə iki addım atıb oturur, özünü vurur və deyirdi: “Sacini buraya gətirdiyim yerdə ayaqlarım sınaydı! Belə bir günü gördüyüm üçün gözlərim kor olsun!”

Ayaqlarım titrədi. Daha yeriyə bilmirdim. Yerə oturdum. Ərəb qadın məni görüb yenidən qışqırdı: “Dayanma! Gəl!” Çətinliklə ayağa qalxdım. Xanım Rzayi qolumdan tutdu. Mürdəşirxana soyuq idi, pis və

ağır qoxusu vardı. Ürəyim bulandı, qaytarmaq istədim. Xanım Rzayi Sacidəni alıb yuyucu yerinə apardı. Ürəyim zəif döyünürdü, nəfəsim gəlmirdi. Sacidəni yuyucu stolunun üstünə atanda səsini eşitdim. Sanki bərk və quru bir taxtanı yerə atdılar. Dönüb baxdım. Ərəb qadın cəld və kobud hərəkət edirdi. Uşağın üstündəki mələfəni bir tərəfə tulladı. Qorxu bütün vücudumu sarımışdı. Uşağım necə gözəlləşmişdi! Sanki ötən gecədən kirpiklərinə bir neçə sıra əlavə olunmuşdu; qara, uzun və üzüyuxarı. Gözləri bağlı idi. Uşağım yatmışdı. Toppuş qollarındakı serum iynələrinin yeri göyərmişdi. Ərəb qadın ciyərparəmi rəhmsizcəsinə stolun üstündə çevirdi: "Taqq!" Sağ tərəfə: "Taqq!" Üzü üstə: "Taqq!"

Ürəyim bulandı. Zibilqabıya tərəf qaçdım. Zibilqabının dibində bir neçə pambıq vardı. Deyəsən, hansısa ölünün ağız, burun və qulaqlarından çıxarmışdılar. Həliməyə dedim ki, mən bayıra çıxıram. Həlimə ardımca gəlib qolumdan tutdu.

Bəhmən pilləkənin üstündə oturub başını dizlərinə qoymuşdu, rövzə oxuyurdu. Bizi görmədi. Mən də heç nə demədim. Mürdəşirxananın həyətində bir bağça vardı. Oraya yaxınlaşıb qusdum.

Ağa Rəhmətlə əmi uzaqdan gəldilər. Bizə çatanda Rəhmət dedi: "Saci hanı? Qəbir hazırdır". Həlimə dedi: "Nəsrinin ürəyi bulandı, bayıra çıxardım". Rəhmət su gətirdi, əl-üzümü yudum. Dərmanlarımı soruşdu. Dedim ki, içmişəm.

Mürdəşirxanaya qayıtmaq istəyəndə Həlimə dedi ki, sən gəlmə. Getdi və ağ bələyə bükülmüş Sacidə ilə

qayıtdı. Bəhmən dəli olmuşdu. Həlimənin ardınca düşüb üz-başına vurur, deyirdi: “Saci... Qızım... Saci əlimdən getdi. Ya İmam Hüseyn!” Beləcə özü üçün oxuyurdu. Gedə-gedə uşaq məzarlığına çatdıq. Kiçik bir məzarın başında qəbirqazan dayanmışdı. Başqa iki-üç kişi də vardı, tanımadım. Yəqin Bəhmənlə Rəhmətin dostları idilər. Uşaqlar o tərəfdə skamyada səssizcə oturmuşdular.

Rəhmət Bəhmənlə mənə dedi: “Gedin, orada oturun, mən çağıranda gələrsiz”.

Uşaqlardan bir qədər aralıda, skamyaların birində Bəhmənlə yan-yana oturduq. Həlimə Sacidəni gətirib dizlərimizin üstünə qoydu. Başı mənim dizlərim üstə qaldı, ayaqları Bəhmənin. Bəhmən uşaqlığında Əliyə oxuduğu laylayı oxumağa başladı:

*Laylay! Laylay! Gülüm, laylay!*
*Əli, laylay! Saci, laylay!*
*Sabah üçün qəm yemə,*
*Bil ki, başın üstə kölgə var.*
*Laylay! Laylay! Gülüm, laylay!*
*Munisim, həmdəmim, laylay!*
*Niyə belə narahatsan?*
*Nə üçün bu axşam yatmırsan?..*

Birdən dayandı, sızlamağa başladı. Bir qədər sonra dedi: “Nəsrin, haqqını halal elə. Üzüm qaradır, məni halal elə. Səni tək qoydum. Bu neçə gündə nələr çəkmisən! Məni bağışla, hamınıza qarşı pislik etdim; sənə, uşaqlarıma, Saciyə. Bunun əvəzini heç vaxt çıxa bilmərəm. Sacim əldən getdi”. Sonra qışqırdı:

“Xudaya... Məni apar. İlahi! Məndən razı ol. Nəsrin, dua et, mən də ölüm. Dua elə, Allah məndən razı qalsın!” Əmi yaxınlaşıb qeyzlə dedi: “Bəsdir! Qurtar, Bəhmən, nə olub?!” Rəhmət yaxınlaşıb Bəhmənin çiyinlərindən tutdu, qulağına nəsə dedi.

Əmi Sacidəni dizlərimizin üstündən götürdü, aparıb qəbrə qoydu. Bəhməni od götürdü. Qaçıb Sacidənin kiçik qəbri yanında uzandı. Ovuc-ovuc torpaq götürüb başına tökürdü. Dostları onun qollarını tutdular. Əmi qəbrə əyilib Sacidənin üzünü açdı. Mən hələ skamyada oturub heyrətlə baxırdım. Qəbirqazanlar Sacidənin üstünə torpaq tökməyə başladılar. Bəhmən qışqırdı: “Tökməyin! Uşağım qorxur. Ora qaranlıqdır. Torpaq uşağımın gözlərinə girər”.

Əmi əyilib qəbirdən bir qədər torpaq götürdü və Bəhmənin başına tökdü. Özü də başına ovuc-ovuc torpaq töküb qışqırırdı: “Nə qədər torpaq varsa, tökün mənim başıma. Uşağımın başına tökməyin. İlahi! Məni yer üzündən apar!”

Özümü pis hiss edirdim. Fikirləşirdim ki, bundan sonra məni heç nə sevindirə bilməz. Bəhmənə qarşı da heç bir şey hiss etmirdim. Ona yazığım da gəlmirdi. Həmişə ən çətin anlarda məni sakitləşdirən, müəllim kimi həyatın yaxşı-pis dərslərini yadıma salan, evimin dirəyi olan Bəhmən özgə kimi görünürdü. O dirək ortadan qırılmış, iki bölünmüşdü.

Qəbirqazanlar qazıb-çıxardıqları bütün torpağı Sacidənin üstünə tökdülər. O qədər tökdülər ki, alçaq daxma əmələ gəldi. Rəhmətlə əmi Bəhmənin qoluna girib yanıma gətirdilər. Dodaqaltı dedim: “İlahi!

Mənə rəhm elə!" Xanım Rzayi, Həlimə və Bəhmənin dostları yaxınlaşdılar. Hərə bir söz deyirdi:

- Allah sizə səbir versin! Allah kömək olsun!

Bəhmən cavab verirdi: "İlahi... İlahi..."

Gəldiklərinə və yanımızda olduqlarına görə bütün dostlarına, habelə xanım Rzayiyə, yoldaşına, Həliməyə, Rəhmətə və əmiyə təşəkkür etdim.

Bəhmən öz-özünə oxumağa başladı: "Sənə qurban olum, İmam Hüseyn! Qəlbinə qurban! Səbrinə qurban! Dözümünə qurban! Ağa, uşaqlarının boğazına oxlar dəyəndə necə dözə bildin? Kömək elə, mənə də öyrət".

Ağa Rzayi yaxınlaşıb Bəhmənə dedi: "Xəcalət çək! Daha bəsdir. Bu nə vəziyyətdir?! Biz hər gün cəbhədə neçə-neçə igid itiririk. Hər biri ata-analarının əzizidir. Meyitləri yolun kənarına qoyuruq ki, gəlib aparsınlar. Amma belə etmirik. Sən bir uşaq üçün nə müsibət qoparmısan?! Artıq bəsdir! Ayağa qalx, şəhidlərin ata-analarından xəcalət çək!"

Bunları deyən kimi Bəhmən sakitləşdi, başını aşağı saldı. Ancaq hələ ağlayırdı, çiyinləri tərpənirdi. Yazığım gəldi, qalxıb ona yaxınlaşdım. Bütün paltarları və üz-başı toz-torpağın içində idi. Paltarlarını çırpıb yanında oturdum. Dostları mənim orada oturduğumu görüb maşınlarına tərəf getdilər.

Yanımızda heç kim yox idi. Həlimə uşaqların əlindən tutub apardı. Bəhmənin başını qucaqlayıb öpdüm. Hələ də ağlayır və ağı deyirdi. Çiyinlərimdən tutub silkələdi və dedi: "Nəsrin, ciyərim od tutub yanır; Peyğəmbərin vaxtında kəsilən dəvə kimiyəm; ciyərim suluqlayıb tikə-tikə olub. Camaat dedi ki,

bəlkə dəvə xəstədir, əti haram olub. Peyğəmbər oradan keçirdi. Buyurdu ki, bu suluqlar övlad dağıdır. Bu dilsiz heyvan çox bala doğub, hamısı ölüb. İndi mən də həmin dəvə kimi olmuşam, ciyərim parçalanıb". Dedim: "Bəsdir, Bəhmən. Qalx ayağa. Hamı getdi. Uşaqlara görə artıq qurtar. Əli yazıqdır. Səhərlə Səccad da fikir çəkir. Qalx, gedək evə. Bizim Əlimiz var, Səhərimiz var, Səccadımız var".

Bəhmən ayağa qalxıb yenidən Sacidənin məzarı üstünə uzandı. Torpağı öpür, üzünü torpağa sürtüb deyirdi: "Qızım, məni bağışla. Qızım, haqqını halal elə. Saci can, atanı bağışla". Əyilib Bəhmənin başından öpdüm, onu ayağa qaldırdım. Başını çiynimə qoydu. Sonra yavaşca yola düşüb qulağıma dedi: "Nəsrin, məni tək buraxma. Haqqını halal elə. Bilirəm ki, məndən çox incimisən. Fikirləşirsən ki, Sacinin ölümündə mən günahkaram. Səhərdən mənimlə danışmamısan, məndən küsmüsən. Bilirəm, fikirləşirsən ki, bütün bu bəlaları mən başına gətirmişəm. Necə istəyirsən, fikirləş, amma məndən küsmə, məni tək qoyma, kömək elə sakitləşim". Bir söz demədim.

Maşına çatanda dayanıb məzarlığa baxdım.

\- Bəhmən, bütün bu məzarların altında yatanların ata-anaları var. Onlar da ailələrinin əzizi olublar. Dünyanın qaydası belədir. Dözməkdən başqa çarəmiz yoxdur. Bizim də qismətimiz bu imiş. Bizi bir ovuc torpaqdan yaradan və yenidən torpağa qaytaran Allahdan istə, dözmək üçün bizə kömək etsin. Biz Şəhid Musəvinin valideynlərindən artıq deyilik;

Əhməd Qəndəharinin, Salman Baharın, İsmayıl Xosrəvinin yoldaşından və körpəsindən artıq deyilik.

Maşına mindik. Bəhmən dedi: “Nəsrin, yenə danış. Səhərdən atam, Rəhmət və digərləri mənimlə o qədər danışıblar, heç biri məni sənin kimi sakitləşdirə bilməyib”.

Ürəyim qanlı idi. Elə mən də uşaqlarının müsibətinə görə ciyəri parçalanmış dəvə kimi idim...

***

Evə çatanda Həlimə uşaqları hazırlamışdı və bizi gözləyirdi. Dedi: “Ağa Rzayi nahara dəvət edib. Deyib ki, evdə tək qalmasaz, yaxşıdır”.

Ağa Rzayinin evi yaxınlıqda, küçənin o tərəfində idi. Piyada getdik. Bizdən başqa ağa Abdullah Nurani, ağa Söhrab və ağa Fəzli də ailəvi gəlmişdilər. Ağa Rzayinin ikiyaşlı qızı Raziyə qəşəng namaz çadrasını başına atmışdı. Gəlib qucağımda oturub dedi: “Xala, Sacidə hanı?” Başını öpdüm. Sacidənin ətri gəlirdi. Hamı mənə baxırdı. Bilirdilər ki, Sacidəni xatırlayıb öpürəm. Evə gələnə qədər uşağı qucağımdan yerə qoymadım.

Oturandan bir qədər sonra Bəhmən ayağa qalxıb dəstəmaz aldı, başqa bir otağa namaz qılmağa getdi. Qayıdanda gözləri qızarmışdı. Kişilər onu dövrəyə aldılar, söhbət, zarafat və gülüşlə halını yaxşılaşdırmağa çalışdılar. Mənim halım Bəhməndən yaxşı deyildi. Ondan əlavə, iki gün idi düz-əməlli yemək yeməmiş, yaxşı yatmamışdım. Evdə oturanda bildim ki, paltarlarım bulaşıqdır. Hətta meyit qüslü almağa da vaxt tapmamışdım. Fikirləşdim ki, bəs Bəhmən qüslsüz necə namaz qıldı. Halı yaxşı deyildi,

yadına düşmürdü. Nahar yeməyindən bir-iki saat sonra hamımız ayağa qalxıb sağollaşdıq. Raziyəni özümlə evə aparmaq, gecə yanımda yatırtmaq istəyirdim. Lakin yazıq uşağın nə günahı vardı?! Qaçıb atasının qucağında oturdu, biz də evə gəldik.

Əmi Bəhmənlə məni yuxarı, evimizə qalxmağa qoymurdu. Bəhmənsə israrla öz evimizə getmək istəyirdi. Əmi qışqırdı: "Ay uşaq, bu işlər nədir?! Xəcalət çək!" Əminin əlindən tutub otağa apardım və dedim: "İşin olmasın, qoy istədiyi qədər ağlayıb yüngülləşsin. Onu tək buraxsan, daha yaxşı olar".

Həlimə israrla aşağıda duş almağımı söyləyirdi. Hamamdan çıxanda gördüm ki, Əli yoxdur. Uşaqlardan soruşdum. Dedilər ki, yuxarı çıxıb. Əmi ilə Rəhmət yatmışdılar. Həliməyə dedim ki, gedib yuxarıdan Əlini gətirsin.

Ata-oğul Sacidənin beşiyini evin ortasına qoymuş, oyuncaqlarını, gəlinciyini, paltarlarını içinə tökmüşdülər. Bəhmən başını beşiyin nərdəsinə söykəyib yelləyir, rövzə oxuyurdu. Beşik divara dəyib taqqıldayırdı. Rövzəyə o qədər qapılmışdı ki, mənim gəldiyimi hiss etmədi. Belə oxuyurdu:

*Quş, nə üçün pərişansan?*
*Kimin qəmindən belə nalə və fəqan edirsən?*
*Mən axı əzalıyam, atan səfərdədir,*
*Onun ayrılıq qəmindən qəlbimin qanı gözümdədir.*
*Nə atandan xəbərin var, nə qardaşından,*
*Gecə-gündüz Əkbəri görmək arzusundayam.*

Zavallı Əli məsum baxışları ilə Bəhmənə baxıb ürəkdən ağlayırdı. Onlara yaxınlaşıb qışqırmaq istəyirdim ki, axı mən bu beşiyi və əşyaları götürmüşdüm, nə üçün yenidən gətirdiz. Lakin mənə yer açdılar, ortalarında oturdum, onlara qoşulub sinə vurdum və həmin bir neçə gün qədərincə ağladım. Sacidənin paltarlarını götürüb qoxuladım, balışını qucaqladım, oyuncaqlarını öpdüm. Əli qolunu boynuma salıb üzümdən öpdü. Özü ağlamaqdan pis vəziyyətdə olsa da, mənə dedi: "Ana, daha bəsdir, ağlama. Yenə halın pis olar".

Həlimənin ürəyinə dammışdı ki, yuxarıda əzadır. Bir qədər sonra gəlib beşiyi əlimizdən aldı, Əlinin köməyi ilə həyətdəki anbara qoyub qapısını qıfılladı. Səhərlə Səccad ağlaya-ağlaya yuxarı qaçdılar. Daha hər şeyi bilirdilər. Səhər ağlayıb deyirdi: "Ana, biz Şiraza gedəndən sonra nə üçün Sacini öldürdün?" Səccad hıçqırır, bir an da sakitləşmirdi.

Cümə günü qürub çağı idi. Ev matəmxanaya dönmüşdü. Bir anlığa uşaqlarımın hər birinin üzünə diqqətlə baxdım. Fikirləşdim ki, onlara kömək etməsəm, bir-bir gedəcəklər. Həlimə nə qədər israr etsə də, aşağı düşmədim, ayağa qalxıb bütün lampaları yandırdım, bir neçə gün qabaqkı bombardmandan qalan şüşə qırıqlarını topladım, evi süpürdüm, televizoru açıb səsini artırdım. Uşaqları televizorun qabağına çağırdım, Bəhməni hamama göndərdim, Səccadı soyundurub dedim: "Get, atanla oyna". Bəhmənin Türkiyədən aldığı köynəyi geyindim, üz-başıma əl gəzdirdim. Axtarıb Sacidənin bütün əşyalarını topladım və şkafların birində

gizlətdim. Onun bütün şəkillərini albomlardan çıxarıb döşəyin altına qoydum. Yalnız birini pul çantamda saxladım. Fikirləşdim ki, gərək Bəhmənə başqa bir Sacidə gətirim. Gərək o şəklə baxım ki, gələcək qızım ona oxşasın. Səhərə təmiz qonaqlıq paltarı geyindirdim, mətbəxi silib şam yeməyi bişirməyə başladım.

Əmi aşağıdan zəng vurub dedi: "Nəsrin, gəlin aşağı, birdən orada özünüzü öldürmək istəyərsiz!" Dedim: "Yox, əmi, Allaha and olsun ki, ağlamırıq. Bəhmən hamama girib, uşaqları da yuyundurur. Mən də yemək bişirirəm".

Yenidən mətbəxə qayıtdım. Qəhərli idim, amma Allaha yalvarırdım ki, kömək etsin, dözə bilim. Bəhmən məni çağırıb Səccadı verdi. Bədənini qurulayıb əyninə təzə paltar geyindirdim. Bəhmən hamamdan çıxanda azan verirdilər. Dəstəmaz alıb namazlarını qıldı. Kövrək səsini eşidirdim, qünutda bu duanı oxuyurdu: "İlahi! Bizə Öz yolunda şəhidlik qismət elə!" Tərsliyim tutdu, yanında dayanıb dedim: "Bunun yerinə Allahdan istə ki, bizə başqa bir Sacidə versin". Sonra onu sevindirmək üçün dedim: "Nəzir edirəm ki, Allah bizə bir qız da versə, onu Saci çağıracağam".

Həmişə deyirdim ki, Sacidəni Saci çağırmayın. Uşaqların adlarının düzgün tələffüz edilməsini istəyirdim. Bəhmənsə Saci adını sevirdi.

Bombardman vaxtı uşaqların otağındakı lampa sınmışdı. Namazdan sonra Bəhməni Rəhmətlə lampa almağa göndərdim.

Əmi şam yeməyinə yuxarı çıxdı. Məni görüb sevindi və dedi: "Başınız sağ olsun! Allah Sacinin yerinə sizə bir neçə gözəl uşaq versin!"

Qohumlarımız cümə günü Qum və Tehrandan yola düşmüşdülər, şənbə günü səhər çatdılar. Qayınanam, anam və Röya bizi görüb təəccübləndilər. Mənim rəngli paltar geyindiyimə inana bilmirdilər. Ev təmiz, uşaqlar səliqəli idilər, mətbəxdən xörək ətri gəlirdi. Pilləkənə çatan kimi öz adətləri üzrə əzaya başladılar. Saçlarını dartır, üzlərinə vurur, ağı deyirdilər. Qabaqlarına qaçıb onları qucaqladım və dedim: "Siz Allah, belə etməyin. Mənə yazığınız gəlmirsə, uşaqlarımı düşünün. Uşaqlarım dəli olarlar". Sonra anama dedim: "Ana can, bu işlərin yerinə Səhəri qucağına götür, Səccadı öp". Qayınanam ağlayıb deyirdi: "Axı Saci nəvəm idi, onu sevirdik. Bizim də uşağımız idi. Onun üçün darıxmışıq". Dedim: "Düzdür, əmidostu, amma bizi də istəyirsizsə, qayğımıza qalın. Biz o qədər əzab çəkmişik ki, daha qəm-qüssəyə taqətimiz yoxdur. Digər uşaqlarımın əzasını saxlamaq istəmirəm".

Bunları deyirdim, amma sinəm dağlı, ürəyim dolu idi. Fikirləşirdim ki, yəqin indi Sacidə acdır, süd əmmə zamanıdır. Kaş yanımda olaydı, qucaqlayıb ona süd verəydim!

Bəhmən anasının yanında da ağlamaq istəyirdi. Onu çağırdım, "evdə heç nə yoxdur" - deyib süd, meyvə və ət almağa göndərdim. Mənə dedi: "Yolüstü başdaşı da sifariş verə bilərəm. Gecə səhərə qədər yata bilməmişəm. Qızım üçün yaxşı bir şeir tapmışam".

Bəhmən gedən kimi qayınanamla anam evin ortasında oturub ağı deməyə başladılar. Səhərlə Səccad kövrəlmiş, ağlamağa qalmışdılar. Dedim: “Ana, eləmə. Bəhmənlə məni öldürmək istəyirsən?! Səhərin keçinməsini, Səccadın qəm-qüssəyə batmasını istəyirsən?! Ürəyiniz əzadarlıq istəyib, demisiz ki, Nəsrinin evindən yaxşısı hara ola bilər?! Yaxşı, edin. Amma qoyun bu iki məsum körpə, Bəhmən və mən də ölək, sonra oturub qiyamətə qədər əza saxlayın ki, ürəyinizdə həsrət qalmasın!”

Birdən qəhərim açıldı, başımı divara çırpıb ağlamağa başladım. Məni o vaxta qədər sakit görmüş qayınanam qorxdu. Gəlib məni qucaqladı, saçımı, üz-başımı öpüb dedi: “Yaxşı. Yaxşı, Nəsrin can, ağlamarıq, qəm-qüssəmizi ürəyimizə tökərik. Axı Nəsrin, sən bilirsən ki, mən Sacini necə sevirdim! Ona ürəyim yanır!” Dedim: “Yəni mən ana deyiləm?! Ürəyim yanmır?! Ürəyimin parçasını sevmirdim?! Vallah, məhv olmuşam. Məzlum və nazlı balam gözlərim önündə can verdi. Amma nə edim?! O qədər əzab çəkmişik... Uşaqlarıma yazığım gəlir. Bu körpələrin nə günahı var?!”

Bir neçə saatdan sonra Əlirza yoldaşı Fatimə ilə gəldi. Onlara çay, peçenye və xurma gətirdim. Fatimə özünü saxlaya bilməyib dedi: “Vay... Nə yaxşı, Nəsrin can! Mən hazırlaşmışdım ki, səni qara paltarda, ev-eşiyini tör-töküntülü halda görüm. Bu qədər yüksək əhval-ruhiyyədə olacağını düşünməzdim. Afərin!”

Analar, bacılar və qardaşlar gələndə hamının əhval-ruhiyyəsi dəyişdi. Ancaq onlar bir neçə gündən

artıq qalmadılar. Anamla qayınanam Səccadla Səhəri apardılar ki, uşaqlar bir qədər şənlənsinlər, kədərli ev mühitindən uzaqlaşsınlar. Mən Əli və Bəhmənlə qaldım. Onların getdiyi axşam qızdırmam qalxdı. Bəhmənlə xəstəxanaya getdik. Sinəmdə süd qalıb iltihab etmişdi. Həkim südümün tədricən quruması üçün bir neçə penisillin iynəsi yazdı.

Hər gün Əlini məktəbə aparıb-gətirirdim. Evdə heç kim olmayanda Sacidəmin əşyalarını saxladığım şkafı açırdım. Sındırdığı bəzi əşyaları yapışdırmışdıq. Onları çıxarıb öpür və ağlayırdım. Çantamı çıxarıb şəklinə baxırdım. Hərdən ona şeir oxuyur, onunla danışırdım. Günorta olan kimi üzümü yuyur, özümü səliqəyə salır, Əlini gətirməyə gedirdim. Günorta yeməyini birlikdə yeyir, sonra bir otaqda yatırdıq. Yuxudan ayılandan sonra peçenye ilə çay içirdik, dərslərini yazmağına kömək edirdim. Sonra televizoru açırdıq. Onda cəmi iki kanal vardı, axşamüstü saat beşdə uşaq verilişi verilirdi. Əli “Yenə məktəbə gecikdim” serialını çox sevirdi.

Axşama yaxın mətbəxə keçib yemək hazırlayırdım. Bəhmən adətən, axşamlar evə gəlirdi. Özümə gəlməkdən ötrü hər gün fərqli yemək bişirməyə çalışırdım. Evin dekorasiyasını dəyişdirirdim, tort bişirirdim, qaynımın yarısı dağılmış parnikindən gül dərib evdə güldana qoyurdum. Eşitmişdim ki, gül ətri depressiyanı və qəm-kədəri aparır. Əliyə və Bəhmənə israrla gülləri iylətdirirdim. Bəhmən hərdən axşamlar bizi maşınla şəhərə gəzməyə aparırdı.

Axşamlar televizordan toxuculuq və aşpazlıq verilişləri yayımlanırdı. O günlərdə bir köynək

toxunuşunu öyrədirdilər. Köynəyin toxunuşu yaxadan başlayırdı, bir neçə şam ağacı şəklində bəzək toxunurdu, şamlardan sonra yuxarısından krujeva qoyulurdu. Bu modeldən xoşum gəlirdi. Toxucu mili və bir neçə yumaq qırmızı ip aldım. Özümə bənövşəyi rəngdə parça da alıb dərziyə köynək tikməyə verdim.

Çox fikirləşəndən sonra qərara gəldim ki, özümü yeknəsəq həyatdan çıxarım, Bəhmənlə Əlini də sevindirim. Eşitmişdim ki, Abadanın məşhur və peşəkar Şimşad gözəllik salonu Əhvaza köçüb. Bəhmənlə maşınla gəzəndə bir neçə dəfə plakatını da görmüşdüm.

Bir gün səhər çağı Əlini məktəbə qoyanda ona dedim: "Əli can, bu gün günorta özün qayıdarsan. Mən gözəllik salonuna gedəcəyəm". Evə qayıdıb tez işlərimi gördüm, yemək bişirib getdim. Salonun sahibi qapını açdı. Gözəllik salonu evin kiçik qarajında yerləşirdi. Bir neçə stol, güzgü və bir bərbər oturacağı qoymuşdu. Abadanda tərifini eşitdiyim salon kimi deyildi. Bir anlığa şübhələndim.

- Siz Abadandakı Şimşad gözəllik salonunun sahibisiz?

Qadın gülümsədi.

- Bəli.

- Mən Xürrəmşəhrdənəm, əmim Abadanda yaşayırdı. Mən əmim oğlu ilə ailə qurmuşam. İki ildir Əhvaza gəlmişik. Abadana və o günlərə darıxmışam. Sizin tərifinizi də çox eşitmişəm. Ona görə buraya gəldim.

Qadın gənc, göyçək, ucaboy idi, bəzənmişdi. Mənə dedi: "Yaxşı etmisiz. Nə işin olsa, qulluğundayam".

- Qızım bir neçə gün qabaq şəhid oldu. Cəmi yeddiaylıq idi. Mən matəm saxlamalı, qara geyinməliyəm, lakin bu işlərlə heç nə dəyişməyəcək, uşağım yenidən dirilməyəcək. Yalnız özümü, ərimi və üç uşağımı qəm-qüssəyə salacağam.

Xanım təəccüblə mənə baxırdı. Məndən başqa müştərisi də yox idi.

- Sizi anlayıram.

- Ölüm haqdır, hamımız öləcəyik. Biri mənim balaca qızım kimi tez, biri də yüz yaşında. Hər halda, gedəcəyik. Heç kim əbədi qalmayacaq ki, "niyə mənim uşağım tez getdi" deyim. Yəqin Allahın istəyi belə imiş, mütləq bir hikmət var imiş.

Gözləri dolmuş halda dinləyirdi.

- Amma uşağıma darıxıram. Ürəyim onu istəyir. Çəkdiyi əzablara görə ürəyim yanır, ciyərim kabab olur. Onun gözəl gözlərindən ötrü ölürəm.

Dözə bilməyib ağlamağa başladım. Az sonra özümü toparladım.

- Amma nə etməli? Diriləri də tərk edimmi?! Yoldaşımın halı çox pisdir. Əgər Allah eləməmiş, ona bir şey olsa, sonra nə edərəm?! Uşaqlarım necə?! Yazıqlar qüssəyə batıblar.

- Daha bu barədə fikirləşmə. Mühüm odur ki, düzgün qərara gəlib buraya gəlmisən.

Sonra əlimdən tutub əlavə etdi:

- Bilirsən, mənim ərim də əsir düşüb. Qasimlə bir-birimizi çox sevirdik. Bir-birimizə qovuşmaq üçün çox çətinlik çəkmişdik. Amma birlikdə bir neçə aydan artıq yaşaya bilmədik. Müharibə başladı, cəbhəyə getdi. Mən Abadandan çıxmaq istəmirdim. Özü məni

Əhvaza gətirdi. Gedəndə sanki ürəyinə dammışdı. Dedi ki, əgər şəhid olub qayıtmasam, nə edərsən? Hər ikimiz ağladıq. Ona dedim: "Sən ölməyəcəksən, əminəm ki, qayıdacaqsan. Amma Allah eləməsin, bir şey olsa, vallah, səni gözləyəcəyəm".

Gözlərimizdən sel axırdı. Stolun siyirməsini çəkib bir neçə məktub çıxardı.

– Bunlar onun məktublarıdır. Birinci məktubumda ona yazdım ki, sözümün üstündə varam, səni gözləyəcəyəm. Sən də özündən muğayat ol və salamat qayıt.

İkimiz də ağlayırdıq. Stolun üstündəki şüşə qabdan bir neçə pambıq parçası çıxarıb göz yaşlarını sildi. Mənə də bir qədər pambıq verib dedi: "Daha bəsdir, qalx, bu stulda otur".

Qalxıb orada oturdum. Dedim ki, nə etmək istəyirsiz. Güldü.

- Saçını rəngləyəcəyəm.

- Qızım Səhərin məndən acığı gəlir. Balaca əlləri ilə tez-tez qarnıma vurub deyir ki, bacımı sən öldürdün. Depressiyaya düşəcəkdi, anam Tehrana apardı.

- Deməli, başqa bir ana istəyir; arıq, ucaboy, qıvrımsaç ana. Gərək əsaslı dəyişiklik edək.

Özü də ucaboy qadın idi. Soruşdu: "Eyni boydayıq?" Güzgünün qabağında yan-yana dayandıq. Dedi: "Sən azca hündürsən". Dedim ki, mənim boyum 170 sm-dir. Dedi: "Məndən 1-2 sm hündürsən".

Mən evə çatanda Əli tapşırıqlarını yazırdı. Günorta yeməyini yemiş, qabyuyandakı bir neçə qabı da

yumuşdu. Çadramı və yaylığımı çıxardım. Ağzı açıq qalmışdı. Boyanın və ağartmanın iyi burnumda idi.

- Ana, necə gözəlləşmisən!

Onu qucaqladım və bir-birimizi öpdük. Birdən Bəhmən o biri otaqdan çıxdı və sevincək mənə baxmağa başladı.

- Bəh-bəh! Nəsrin banu, necə gözəl olmusan!

Harada olduğunu və niyə bu qədər tez gəldiyini soruşmaq istəyirdim, amma birdən həyət qapısı döyüldü. Həlimənin uşaqları qaçıb qapını açdılar. Gözümə inanmadım. Sağər Səhərlə həmyaşıd qızı Atifə, Bəhmən dayı və qadın həkimi olan yoldaşı ilə gəlmişdi. Tez başımı örtüb çadramı başıma saldım. Gözəllik salonundan yenicə gəldiyimə görə kiminsə başsağlığına gəlməsini istəmirdim. Nə düşünərdilər?! Bütün vücudumu xəcalət hissi bürüdü, yaylığımı qaşlarımın üstünə qədər çəkdim, pilləkənə yaxınlaşıb onları qarşıladım. Sağər başdan-ayağa qara geyinmişdi, gözləri şişmiş və qızarmışdı. Məlum idi ki, maşında çox ağlayıb. Məni görən kimi ağlamağa başladı.

- Sənə qurban olum, Nəsrin! Sənin o kabab olmuş ürəyinə qurban!

Bəhmən yaxınlaşdı, Atifəni qucaqlayıb öpdü. Mən Sağəri qucaqlayıb ağzımı qulağına yaxınlaşdırdım.

- Sağər can, sən Allah, ağlama. Mən Bəhməni yenicə sakitləşdirmişəm. Əli də yazıqdır. Xahiş edirəm səs-küy salma. Mən güclə su üstündə ev tikmişəm, sən Allah, onu uçurma.

Sağər bir qədər aralanıb təəccüblə mənə baxdı.

- Nəsrin, bu sənsən? Özünsən?

Bir qədər dayanıb əlimdən tutdu.

- Sən nə vaxt böyüdün? Bu sözləri sənə kim öyrətdi? Əzizim, sən çox uşaq idin, uşaq kimi danışırdın, gəlinciklə oynayırdın...

Sonra Bəhmən dayıya, yoldaşına baxdı, kənara çəkilib onlara yol verdi və dedi: "Mən qəmə batmışdım ki, səninlə necə üzləşərəm".

Qonaqlara çay, şirniyyat və meyvə gətirdim. Sağər sanki rahatlığa qovuşmuşdu.

- Səni təbrik edirəm. Bu qədər güclü bir xanım olduğuna görə sevinirəm. Dünənə qədər bir uşaq idin. Səni mən böyütmüşəm, indi isə məndən də ağıllı olmusan.

Atifə qaçıb bütün otaqların qapısını açdı. Səhəri axtarırdı. Sağər çantasını açıb bir məktub çıxardı və dedi: "Bunu Əhməd ağa sənə yazıb".

Sağərin yoldaşı duyğusal və ədəbiyyatçı bir adam idi. Hafizin qəzəllərini gözəl oxuyur, çoxlu şeir bilirdi. Bəzən müxtəlif münasibətlərə görə ədəbi mətnlər yazırdı. Məktuba belə başlamışdı:

Qaralmış şəhərimizə çirkin zəhər töküləndə,
Uçdu səhər quşları hadisə yerindən dəstə-dəstə.

Salamlaşandan və hal-əhval tutandan sonra yazmışdı: "Sacidə gözəl cənnət quşu idi, mövla Əli (ə) aşiqlərinin cərgəsinə qoşuldu. O, şübhəsiz, sizin üçün qalan saleh əməldir, əbədi evdə sizə şəfaətçi olacaq".

Təsirli məktub idi, məni qərarımda daha da ciddiləşdirdi. Sağər normal həyata qayıtmağa çalışdığımı görüb sevindi. Səhərə toxuduğum köynəkdən xoşu gəldi. Dedi ki, ona da öyrədim,

Atifəyə toxusun. Bazara gedib toxucu mili və kələf aldıq.

Cümə axşamı idi. Axşamüstü Sağər və dayım yoldaşı ilə birlikdə oturub söhbətləşir, köynək toxuyurduq. Axşama az qalırdı. Dedim: “Bu toxuculuq da adamı boşanmağa sürükləyir. Şam yeməyimiz yoxdur!” Ayağa qalxıb qısa milləri yumağa sancdım və zaldakı şkafın yanına qoydum. Sağərlə və dayım yoldaşı ilə birgə mətbəxə keçib yemək bişirməyə başladıq. Əli ilə Atifə zalda oynayırdılar. Bəhmənlə dayım Sacidənin qəbri üstə getmişdilər. Başdaşı təzə qoyulmuşdu. Bəhmən başdaşının üstünə belə yazdırmışdı:

Məsum körpə Sacidə Bəhmən qızı Baqiri

26.04.87 – 26.11.87

Nalə edirəm ki, övladım yanımda deyil!

Səfalı kölgəsi başımda, canımda deyil!

Adətini bilirdim. Sacidənin məzarını ziyarətə gedəndə məzarı gülabla yuyur, şam yandırır, ləçək-ləçək güllərlə məzarına “Saci” yazır, hava qaralana qədər orada otururdu.

Salat hazırladığımız yerdə Bəhmənlə dayı gəldi. Mətbəxdən Bəhmənə fikir verirdim. Pəncərənin taxçasına çıxıb şkafın üstündə nəsə axtarırdı. Telefon zəngini eşidib oradan yerə hoppandı və birdən qışqırdı. Hər üçümüz zala qaçdıq. Qısa toxucu milləri hər iki ayağına batmışdı. Ayaqları qanayırdı. Dayım yoldaşı dedi: “Nəsrin, ilkin tibbi yardım ləvazimatından nəyin varsa, gətir”. O, Bəhməndən soruşdu: “Bu yaxınlarda tetanus iynəsi vurdurmusan?” Bəhmən utanırdı. Ayağını yığıb dedi

ki, yox. Dayım yoldaşı dayımı aptekə tetanus iynəsi almağa göndərdi, sonra Bəhmənə dedi ki, pəncərənin ağzında otursun. Bir sini istədi. Gətirdim. Ayaqlarının yarasını yuyub bintlə bağlamağa başladı. Bəhmən ayağını çəkib deyirdi: "Bax, dayıdostu heç nə olmayıb. Lazım deyil!" Dayım yoldaşı hirslənib dedi: "Oyun çıxarma, mən indi dayın yoldaşı deyiləm, həkiməm. Az danış, görüm qan dayanacaqmı".

Yenidən telefon çaldı. Bəhmən axsaya-axsaya qaçıb dəstəyi götürdü. Dayım yoldaşı onun arxasınca qışqırdı. Bəhmən dedi: "Xanım Rzayi, sizsiz? Nə üçün ağlayırsız? Nə olub?" Dayım yoldaşı da əlində maqqaş və savlon kremi bir tərəfdə oturub gözünü Bəhmənin ağzına dikdi. Bəhmənin rəngi qaçdı, dodağını dişlədi. Sözlərindən anladım ki, Raziyəni maşın vurub, qonşular onu Gülüstan xəstəxanasına aparıblar. Bəhmən dedi: "Siz narahat olmayın, bu saat gəlirəm".

Bəhmən dəstəyi yerə qoyan kimi dayım yoldaşı ayaqlarını sarımaq üçün onun yanına qaçdı. Bəhmən axsaya-axsaya köynəyini və maşınının açarını axtarırdı. Dayım yoldaşı da ardınca qaçıb deyirdi: "Hara gedirsən? Qoy işimi bitirim. Yara açıqdır, iltihab edər. Qoy onu bağlayaq". Bəhmənsə bizə fikir vermirdi. Maşının açarını götürüb o vəziyyətdə getdi. Dayım yoldaşı təngə gəldi, maqqaşla binti siniyə qoyub dedi: "Nəsrin, sənin bu ərinə nə deyim?!"

Bəhmən yarım saatdan sonra zəng vurdu. Səsi aydın gəlmirdi. Ratsiyasını ev telefonuna birləşdirdiyinə görə səsi qırıq-qırıq gəlirdi. Çətinliklə

başa düşdüm ki, deyir: "Dayımı və dayım yoldaşını götür, gəl xəstəxanaya. Rəhmətə də de".

Tələsik özümüzü xəstəxanaya çatdırdıq. Gülüstan xəstəxanasından acığım gəlirdi. Sacidənin orada yatdığı günün xatirələri gözlərim önündə canlandı. Xəstəxana adamla dolu idi. Ayağımı içəri qoymaq istəmirdim. Raziyənin beyni silkələnmiş, komaya girmişdi. Uşağı CCU və ya ICU şöbələrinə də aparmamışdılar. Onun yanına çatanda daha ayaqlarım üstə qala bilmirdim. Raziyəni uşağımı yatızdırdıqları palataya salmış, ICU aparatlarını oraya gətirmiş, Sacidəm kimi onun da bədəninə qoşmuşdular. Raziyə balaca və incə qız idi, o yaşında mənim Sacidəm boyda idi. Bir tibb bacısı içəri girdi. Sacidəyə baxan tibb bacısı idi. Məni tanıdı. Təəccüblə baxıb soruşdu: "Bu kimdir?" Qorxmuşdu. Rənginin qaçdığını, əllərinin titrədiyini asanlıqla sezmək olurdu. Ona yazığım gəldi.

- Dostumuzun qızıdır. Atası cəbhədədir.

Nəfəsini buraxıb dedi: "Vay... Elə bildim, o biri qızınızdır". Soruşdum ki, halı necə olacaq. Dedi: "Bizim lazımi avadanlıqlarımız yoxdur. İki-üç dəfə oyatmağa çalışdıq, alınmadı. Gərək aparata girsin, o da yoxdur".

Raziyə çarpayıda sakitcə uzanmışdı. Başı sarıqlı idi. Elə bilirdim Sacidədir. Onu qucaqlayıb öpmək istəyirdim. Çox məzlumcasına yavaşca nəfəs alırdı. Sacidə kimi çılpaq idi. Dedim: "İlahi! Bu uşaq çox atacanlıdır. Ağa Rzayi buna tab gətirməz. Əgər bilsə, nə olar?! Anası haradadır?" Bəhmən, dayım və dayım yoldaşı Raziyənin başı üstə dayanmışdılar. Bəhmən

ağlayırdı. Xanım Rzayinin Raziyədən sonra başqa bir qızı da olmuşdu. Əksərən həmin körpə ilə məşğul olurdu. Raziyə də təklikdən baş barmağını sorurdu. Uşağımı torpağa tapşırandan sonra nahar yeməyinə onlara getməyimizi xatırladım. Sacidəmi yada salıb onu çox öpürdüm. Ağ güllü çadrası ilə çox nazlı olmuşdu. Həmişə həyət qapısının yanında oturub atasını gözləyərdi.

Dayım yoldaşı da bizə yaxınlaşdı. Tibb bacısı aparatın üstündəki monitora baxırdı. Birdən, “vay!” - deyib bayıra qaçdı. Bir qədər sonra bir həkim və bir neçə tibb bacısı gəldi. Bu səhnəni görməyə taqətim yox idi. Monitorun üstündəki düz xətlərin mənasını bilirdim. Ağlamağa başlayıb otaqdan çıxdım. Dodaqaltı dedim: “İlahi! Ağa Rzayinin dadına çat!”

Tibb bacısı bayıra çıxdı. Soruşdum ki, nə oldu? Başını yelləyib yavaşca dedi: “Çox təəssüf!” Xanım Rzayi təşviş içində ağlaya-ağlaya bizə doğru gəlirdi. Onun qabağına qaçdım. Bilirdim ki, indi uşağın üstünə ağ mələfə çəkiblər və morqa aparırlar. Anasının bu səhnəni görməsinə ürəyim gəlmədi. Əlindən tutub dedim: “Gəl, çıxaq bayıra. Raziyəni əməliyyat otağına apardılar”.

Xəstəxana bir neçə həftə qabaq olduğu kimi çirkli və adamla dolu idi. Həyətdə kaktus və oleandr gülləri ilə dolu bağçanın qarşısındakı sement skamyada oturduq. Əlindən tutub soruşdum: “Danış, görüm nə oldu?” Danışa bilmirdi. Dili tutulmuş, rəngi qaçmışdı. Qırıq-qırıq səslə dedi: “Bir əsgər var. Ayda bir dəfə bizə neft gətirir”. Dodaqları ağarmışdı.

- Korpus forması geyindiyinə görə Raziyə elə bilib ki, atasıdır. Ona doğru qaçıb. Əsgər neft kanistrini həyətə qoyub getmək istəyirmiş. Mən bədbəxt də otaqda idim. Raziyə əsgəri atasının sürücüsü sanıb dalınca qaçıb. Əsgər iki-üç dəfə Raziyəni qucağına götürüb həyətə gətirib. Lənətə gəlmiş nə qapını bağlayıb, nə də uşağı mənə verib. Maşını işə salıb geriyə sürməyə başlayıb.

Xanım Rzayi bura çatanda ikiəlli başına vurdu.

- Kafir görməsin, müsəlman eşitməsin! Uşağım... Uşağım... Raziyəmə nə oldu?

Əlimi möhkəm tutub dedi: "Nəsrin can, sən bilirsən. Hə, sən bilirsən. De görüm, nə oldu? Yaşayır? Tibb bacıları deyirlər ki, beyni zədələnib".

Bir söz demədim. Mənə and verdi.

- Səni and verirəm Sacinin ruhuna, danış. İndi bilirəm ki, sən nə çəkmisən. Ürəyinə qurban olum, mənim ürəyim də kabab olub.

Gözlərimdən yaş axırdı. Allah köməyimə gəldi, dayım, dayım yoldaşı və qonşularımızın bir neçəsi bizə yaxınlaşdılar. Dodağımı dişləyib işarə ilə dayım yoldaşına başa saldım ki, xanım Rzayi uşağın öldüyünü bilmir. Qonşularımın yanında yaşlı və səliqəli geyinmiş bir qadın da vardı. O, hadisəni görmüşdü. Dedi: "Uşağı yoldaşımla biz buraya gətirdik. Yerə yıxılmışdı. Əsgər uşağı xəstəxanaya aparmaq əvəzinə özünü vurub qışqırırdı ki, camaat, gəlin məni öldürün, mən camaatın uşağını öldürdüm. Yoldaşım maşını işə saldı və uşağı Çaharşir xəstəxanasına apardıq. Orada şərait olmadığından buraya gəldik".

Xanım Rzayi dözümsüzlük edirdi. Bəhmən gəlib onu gördü və dedi: "Allah səbir versin! Həzrət Zeynəb yardımçınız olsun! İndi nə çəkdiyinizi bilirəm..." Nə qədər dodağımı dişləyib işarə verdimsə, faydası olmadı. Xanım Rzayi özünü yerə atdı. Qonşular onu dövrəyə aldılar. Ona yaxınlaşdım. Ağlamaq amanımı kəsmişdi. Onu öpdüm, qolundan tutub dedim: "Xanım Rzayi can, ayağa qalx. Bu işlərlə Raziyə dirilməyəcək. Əgər dirilsəydi, mən özümü öldürərdim ki, uşağım qayıtsın".

Bəhmən qaçıb maşından xanım Rzayiyə meyvə şirəsi gətirdi. Əlimi ürəyinin başına qoyub salavat dedim, həmd və surə oxudum. O vaxtacan nə qədər yaxşı söz eşitmişdimsə, qulağına söylədim. Ona dedim: "Raziyə balaca bir mələk idi, qanad çalıb səmaya uçdu, dünya qəfəsindən qurtulub getdi".

Bəhmən bu müddətdə ratsiya ilə ağa Rzayi ilə danışdı. Ağa Rzayi təmas xəttində idi. Xanım Rzayini maşınla evinə apardıq. Qayınanası yaxınlaşıb gəlinini qucaqladı. Qonşular xanım Rzayiyə gülab və şərbət gətirdilər.

Hara baxırdımsa, Raziyəni görürdüm. Sacidədəki təcrübəmə əsasən, axtarıb onun bütün oyuncaq və paltarlarını yığışdırdım, hamısını karton qutuya töküb həyətə qoydum. Qabları yudum, evi süpürüb-təmizlədim, çay dəmlədim. Kiçik qızı özünü bulamışdı. Onu yuyub paltarlarını dəyişdirdim.

Xanım Rzayinin halı pis idi. Dayım yoldaşı bizə getmək istəyirdi. Xahiş etdim qalsın. Bilirdim ki, o şəraitdə ev boşalmamalıdır. Xanım Rzayi ilə qayınanası dayanmadan ağlayırdılar, dedikləri sözlər

hamının ürəyini yandırırdı. O müddətdə Bəhmən bir neçə dəfə gəlib-getdi, meyvə, xurma və tapşırılan digər şeyləri alıb gətirdi.

Axşam ağa Rzayi də gəldi. Bəhmən axsayırdı. Bununla yanaşı, şam yeməyi alıb gətirdi, qonşuları şama dəvət etdik. Dayım yoldaşı evə getdi. Ağa Rzayinin göz yaşları dayanmırdı. Bəhmən dedi: "Ağa Rzayi əvvəlcə polisə gedib, əsgərin azad edilməsinə razılıq verib, sonra evə gəlib".

Şam yeməyindən sonra əsgər atası ilə gəldi. Yaşı az idi. Ağa Rzayinin əl-ayaqlarını öpüb deyirdi: "Ağa, mən qiyamətə qədər üzüqarayam, bundan sonra heç vaxt rahat yata bilməyəcəyəm".

Ağa Rzayi ayağa qalxıb Raziyəyə aid bir şey tapmaq üçün evi axtardı. Həyətə düşüb karton qutunu maşınımızın arxasına qoydum. Qapını bağlamaq istəyəndə uşağın yerə düşmüş güllü namaz çadrasını gördüm. Küçəyə çıxıb çadranı üzümə qoydum, qoxulayıb ağlamağa başladım. Fikirləşirdim ki, Raziyə qucağımda oturub və şirin dillə deyir: "Xala, Sacidə hanı?"

Çox keçmədən Bəhmən qapını açıb küçəyə çıxdı. Məni o halda görüb təəccübləndi. Çadranı üzümdən götürdü, amma heç nə soruşmadı. Dedi ki, gedək. Dedim: "Gedim sağollaşım, sonra". Çadranı qatlayıb oyuncaq qutusunun içinə qoydum, sonra gedib hamı ilə sağollaşdım.

Bəhmən başını sükana qoyub rövzə oxuyurdu. Maşının qapısını açanda dayandı. Dedim: "Kaş qalaydıq! Ev boşalanda bunlar özlərini öldürəcəklər". Bəhmən açarı fırlatdı, maşın yerindən tərpəndi.

Dedim ki, sənin vəziyyətin onlardan yaxşı deyil. Ötürücünü neytral vəziyyətə keçirib: "Hə... Bilirəm ki, bu axşam onlara çox ağır gecə olacaq. Çox çətindir. Allah kömək olsun!" - dedi və zarımağa başladı: "Saci... Məni bağışla, qızım. Mən Sacini öldürdüm. Kaş tezliklə onun yanına gedəydim!" Bir söz demədim. Qəm-qüssə içində idi.

- Nəsrin, mən necə gönüqalınam! Nə üçün mənə bir qəlpə, bir bomba, bir güllə dəymir ki, ölüb rahat olum?!

Çox pis olurdum.

- Daha bəsdir, xahiş edirəm. Sacidə sənin üçün ölübsə, mənim üçün yaşayır. Yalnız bir müddətə qədər yanımızdan gedib. Onu Səccad və Səhərlə birgə anamgilə göndərmişəm. Əminəm ki, gələn il bu vaxt qucağımda süd əməcək, əminəm.

Bəhmən heyrətlə mənə baxdı. Əlimi qarnıma qoydum.

- İnşallah! Saci buradadır, əminəm. Saci bizi tək qoymayacaq.

Xəstəxanaya getdik. Təcili yardım şöbəsi yaralı və xəstə ilə dolu idi. Xəstəxanadan acığım gəlirdi. Son iki həftədə orada acı hadisələr yaşamışdım. Bir tibb bacısı Bəhmənin ayaqlarının yarasını bağladı, ona penisillin iynəsi vurdu. Penisillin pudrası da yazıb təkidlə tapşırdı ki, hər 24 saatdan bir yaraları dezinfeksiya etsin və sarığı dəyişdirsin.

Həyəcanlı idim. Ürəyim istəyirdi ki, Raziyənin mərasimi çox tezliklə bitsin, Bəhmən cəbhəyə dönüb bu böhranı arxada qoysun. Lakin çarə yox idi. Çünki ertəsi gün dəfnə getməli idik.

Səhər tezdən Bəhmənlə ağa Rzayi kəfən və dəfn işlərinin ardınca getdi. Dayım yoldaşı sükanın arxasına keçdi. Xanım Rzayi ilə mən arxada oturduq, qayınanası da öndə. Çatana qədər xanım Rzayini qucaqlayıb oturdum. Öz halımı yaxşılaşdırmış hər bir sözü onun qulağına söyləyirdim. Uşaqlarını Sağərlə Həliməyə tapşırmışdıq. Uşaqlarımın Sacidənin dəfnində yaşadıqlarını xanım Rzayinin uşaqlarının da yaşamısını istəmirdim. Ağa Rzayi çox ağlayırdı. Raziyə atacanlı olduğu qədər o da qızcanlı idi. Onunla birgə Bəhmən də ağlayırdı.

Raziyəni yuyub kəfənlədilər. Bütün səhnələr mənə Sacidəni xatırladırdı. Sanki iki həftə öncəyə qayıtmışdım; uşağım yenidən ölmüşdü və biz onun dəfninə gəlmişdik.

Zaman ağır keçirdi. Sacidənin məzarının yuxarısında qəbir qazmışdılar. Raziyə Sacidənin qonşusu olacaqdı.

Ağa Rzayi özünü Sacidənin qəbri üstünə atmışdı. Onun ah-nalələri daşı dilləndirirdi.

- Saci, qızım, məni bağışla. İki həftə qabaq burada, bu məzarın başında atanla dalaşıb dedim ki, ağlama, bir uşaqdan ötrü bu qədər ağlamazlar. Məni bağışla, qızım, indi bilirəm ki, atan nə çəkirmiş.

Xanım Rzayi Raziyənin məzarının başına gedib sanki qəbirdə yatmış bələkli körpəsini çıxarmaq istəyirdi. O səhnələrə baxa bilmirdim. Arxamı çevirib bir tərəfə çəkildim. Çadramı başıma çəkib bacardığım qədər ağladım. Bir qədər sonra ağa Rzayi ilə yoldaşının səsi kəsildi. Çadramı kənara çəkdim. Bəhmən Raziyənin məzarının torpağından götürüb

ağa Rzayinin başına tökür, deyirdi: "Torpaq soyuqdur, Raziyənin məhəbbətini ürəyinizdən çıxaracaq". Ağa Rzayi ağlaya-ağlaya və hirslə torpağı başına töküb deyirdi: "Yəni Sacinin məhəbbəti ürəyinizdən çıxıb?" Mən də ağlaya-ağlaya dedim: "Yox... Yox... Allaha and olsun ki, çıxmayıb, çıxmayacaq..." Bəhmən mənim sözümü eşidib Sacidənin məzarını qucaqladı və dedi: "Yox... Yox... Saci, Allaha and olsun, məhəbbətin qəlbimizdən çıxmaz. Mən səndən doymamışam. Atasının bəbəsi... Atasının əhvazlı qızı..."

Gördüm ki, Bəhmən yenə əldən çıxır. Ayağa qalxıb ona sarı qaçdım. Dayım yoldaşı da gəldi. Qollarından tutub ayağa qaldırdıq. Sacidənin dəfn gününü xatırlayıb bütün qonaqları öz evimizə apardıq. Bacımla Həlimə yaxşı xörək bişirmiş, parnikdən gül dərib güldanlara qoymuş, Rzayi ailəsi üçün başsağlığı plakatı yazdırıb divara vurmuşdular.

Yeməklər süfrəyə gələnə qədər xanım Rzayini ikinci mərtəbəyə aparıb hamama, meyit qüslü verməyə göndərdim. Bəhmən də ağa Rzayini birinci mərtəbədə hamama saldı. Nahar yeyəndən sonra dedi ki, bir az istirahət edin. Qəbul etmədilər. Dedilər ki, öz evlərində istirahət edəcəklər. Uşaqlarını saxladıq ki, Atifə ilə Həlimənin uşaqları ilə oynasınlar. Ertəsi gündən tək qalmasınlar deyə, hər gün onlara baş çəkdik. Kişilər olmayanda səhərlər uşaqların məzarı başına gedir, gül aparır, şam yandırır, laylay çalırdıq. Mən Sacidədən özü kimi bir qız istəyirdim.

Bəhmən cəbhəyə gedəndən sonra davamlı tənhalıqlar başladı və mən yenidən depressiyaya

düşdüm. Bekar olan kimi bir tərəfdə oturub Sacidəyə laylay çalır, ağlayırdım. Bir gün fikirləşdim ki, bu vəziyyət davam etsə, mütləq dəli olacağam. Nadiri bazarına gedib mağazalara baxdım, özümə və uşaqlara rəngli paltarlar aldım. Hərdən Şimşad gözəllik salonuna da gedirdim. Xanım müştərilərini yola salırdı, mən də oturub onların söhbətlərini dinləyirdim. Qadınların bombardman altından gəlib saçlarını boyatdıqlarını, deyib-güldüklərini görəndə ruhlanırdım. Qayıdanda bir cüt duzqabı, dəsmal və ya qazangötürən əlcək alıb əhvalımı qaldırırdım. Nəhayət, hamilə olduğumu bildim, başqa bir Sacidənin yolda olduğunu düşünüb şənləndim. Bəhmən də çox sevinib deyirdi: "Elə edəcəyəm ki, Sacinin indi dünyaya gəldiyini düşünəcəksən. Kredit götürüb səni həmin mamanın yanına aparacağam, icazə alıb başın üstə dayanacağam. Sacidədə nə etmişdimsə, yenə edəcəyəm.

Həmin günlərdə prezident ağa Xamenei cəbhəyə getmiş, komandirlərə iki ədəd Azadlıq baharı qızıl sikkəsi hədiyyə aparmışdı. Bəhmən qızılların birini müavininə vermişdi. Mənə dedi: "Gör Sacimizin ayağı necə bərəkətlidir! Doğuş pulunu özü gətirdi".

Axşamüstü Nadiri xiyabanındakı qızıl mağazasına gedib sikkəni satdıq. Bəhmən bir cüt qolbağı aldı, puldan artıq da qaldı. Zərgərə dedi: "Bu pula neçə qolbağı götürə bilərik?" Zərgər dedi: "Gərək çəkim. Qolbağıların çəkisi fərqlidir. Siz neçə ədəd istəyirsiz?" Bəhmənə göz vurub dedim: "Daha bəsdir, sonra alarsan". Bəhmən narahat halda dedi: "Nəsrin,

bunlar çox olsa, yaxşıdır. Qoy alım”. Dedim: “Yox, pulu bizə daha çox lazımdır. Gəl gedək, paltar alaq”.

Şən halda bazarda gəzdik. Əliyə mandarin yaxalı gözəl bir yaşıl köynək, Bəhmənə gödəkcə, mənə də güllü hamilə köynəyi aldıq”.

Fevral ayında Əhvazın havası gözəl olsa da, bazarın ortasında halım pisləşdi. Maşına minib Kiyan-parsa getdik. Əli pizzanı çox sevirdi. Bir pizza alıb üçnəfərə yedik. Sonra dondurma yeməyə getdik. Bunlarla özümüzü şənləndirirdik. O zaman korpusun Hərbi Dəniz Qüvvələrinin komandanı Hüseyn Əlayi, müavini də Mürtəza Səffari idi. Cənab Səffari ağa Əlayiyə təklif etmişdi ki, özünün və ailəsinin əhval-ruhiyyəsini qaldırmaqdan ötrü Baqirinin işini Tehrana köçürək. O da qəbul etmişdi. Lakin Bəhmən bu dəfə də qəbul etmədi. Mənə deyirdi: “Dedim ki, müharibə bitməyincə buradan tərpənən deyiləm. Mən Şəhid Cahanaranın anasının üzünə necə baxaram?! Yoldaşımın xalası oğlu Xürrəmşəhrin azadlığına görə şəhadətə qovuşub. Mən qızımın və yoldaşımın üzünə necə baxaram?!”

# On altıncı fəsil

Müharibə Tehrana da çatmışdı. Anam, qayınanam və dayılar 1988-ci ilin martında Əhvaza gəldilər. Gülüb deyirdilər ki, camaat bombardmanın qorxusundan təhlükəsiz yerlərə gedir, bizsə döyüşün ortasına gəlmişik.

Novruz tətilləri bitənə qədər bizdə qaldılar. Onlar gedənə qədər hamının əhval-ruhiyyəsi yüksək oldu. Baharın on üçüncü günü əvvəlcə Əhvaz körpüsünün altına, Karunun sahilinə getdik. Çox adam vardı. Bir saat oturduq, gördük ki, uşaqlar qaçıb-oynaya bilmirlər. Bəhmən dedi ki, gedək Atəşgaha. Əşyalarımızı toplayıb yola düşdük. Qədim torpaq yolla getdik. Şəhərdən bayırda geniş bir torpaq sahəsində bir neçə yanar qaz məşəli vardı. Adətən, camaat soyuq qış gecələrində ailəvi şəkildə oraya toplaşır, şam yeyir, çay içirdilər, uşaqları işıqlıqda futbol oynayırdılar. İnqilabdan öncə orada pulla minmək üçün bir neçə at da vardı. Ərazi geniş idi, uşaqlar oynaya bilirdilər.

Bəhmən yenə bir taxta parçası tapıb hədəf düzəltdi və atıcılıq yarışına başladı. Səbzi-plovla balıq kababı bişirmişdim. Kahı ilə iskəncəbi də aparmışdıq.

Gülüşürdük ki, bir qədər yaşıllıq və təmiz hava görən kimi yenə evdən qaçdıq.

Qonaqlar gedəndən sonra tək qaldıq. Həmin günlərdə Bəhmənin xalası qızı bizi görməyə gəldi. Uşağı suçiçəyi tutmuşdu. Eşitmişdim ki, ana bətnindəki uşaq suçiçəyinə yoluxsa, kor olar. Bir neçə gündən sonra Əli bu xəstəliyə tutuldu. Mən o vaxta qədər suçiçəyi tutmamışdım. Tehrana zəng vurub anamdan nə edəcəyimi soruşdum. Anam narahat oldu, Tehrana qayıtdığı üçün özünə qarğış etməyə başlayıb dedi: "Qızım, qəm eləmə, sabah-birigün qayıdıram yanına".

18.04.88 tarixi ramazan ayının ilk gününə təsadüf edirdi. Bəhmənlə birgə obaşdana durduq, ona xörək qızdırdım. Mənə dedi: "Bu gün Xürrəmşəhrə gedəcəyəm. Allah kömək olsun, oruclarımı tuta bilim".

Sübhün alaqaranlığı, saat dörd idi. Mətbəxdə obaşdan qablarını yuyurdum. Bəhmən getməyə hazırlaşırdı. Ratsiyanın səsini eşidirdim. Kimsə belə məruzə edirdi: “Düşmən gecə hücuma keçib. İndi irəliləyir. Tam hazırlıqlı vəziyyətdəyik”. Ratsiya xışıldayırdı, sözləri tam eşitmirdim. Zala girdim. Bəhmən dedi: "Nəsrin can, əks-hücuma məruz qalmışıq. Düşmən Fav rayonunu geri alıb. Oradakı dostlar şəhid olublar. Əksəriyyəti əsgər idi. Çoxlu şəhid və əsir vermişik. Hadisə gecənin yarısı baş verib, qardaşlar yuxuda olublar". Sonra tələsik ratsiya ilə bir neçə yerə zəng vurdu. Əsgər Qulampuru axtarırdı. O bizim uzaq qohumumuz idi, Favda xidmət edirdi. Bəhmənin qərargahı da orada idi. Gecə Bəhmənin evdə olduğuna görə sevinirdim.

Sağollaşıb tələsik çıxdı, birdən qayıdıb dedi: "Sən də get, yat". Əlavə etdi: "Sacidən ehtiyatlı ol. Qalxıb paltar yumayasan! Özüm hamısını yuyacağam. Qoy Saci

əziyyət çəkməsin". Bətnimdəki uşağa işarə ilə - "Saci, anandan muğayat ol!" - dedi və tez pilləkəndən endi.

Yatağımda uzandım. Gözlərim ağırlaşmışdı. Şirin bir yuxuya getmək istəyərkən zəngin səsinə qalxdım. Elə bildim, Bəhmən nə isə unudub. Ayağa qalxıb pillələrdən qaçdım. Anam idi. Dəmiryol vağzalından taksi ilə gəlmişdi. Maşının baqajından çanta və qutularını çıxarırdı. Kömək etməyə qoymadı, dedi ki, sən əl vurma. Sürücünün köməyilə çanta və çamadanları, yapışqan lentlə bağlanmış və içi qida məhsulları ilə dolu olan karton qutuları gətirib həyətə qoydu. Halı yaxşı deyildi, ağlayırdı. Çantaların bir neçəsini yuxarı gətirdi, qalanını pilləkənin aşağısına qoydu. Gördüyü səhnələrdən narahat olmuşdu.

- Vay! Nələr gördüm, nələr! Əclaf Səddam gecə hücuma keçib. Bilmirsən necə boylu-buxunlu gənclər yerə sərilmişdilər. Ürəyim parça-parça oldu. Analarına halal olsun! Dəmir yolunun kənarında uzanıb qatar gözləyirdilər. Bütün bədənləri yanmışdı, suluq içində idi. Qatar yox idi. Anasıölmüşlər dayanmadan zarıyırdılar, vallah...

Birdən uşaqlar yadına düşdü.

- Qız, neçə dəfə dedim ki, onlara cücə alma. Aldın, xəstələndilər.

- Ana can, cücədən deyil, Ferinin uşağından tutublar. Bir neçə gün qabaq bizə gəlmişdilər. Oğlu xəstə idi. Sızaqları qurumamışdı. Deyirdi ki, quruyub, daha başqasına keçməz. Mən də təcrübəsiz idim, bilmirdim. Həyətdə onunla nə qədər oynadılar!

- Bəhmən hanı?

- Səndən öncə ratsiya ilə xəbər verdilər, Fava getdi.

Anam başına vurdu.

- Qız, Allah xeyrini versin, sən atanın ruhu, ona zəng vur. Ürəyim odlanıb. Onunla danışım, sakitləşim.

- Ana, olmaz. Mən ona zəng vura bilmirəm. Özü ratsiya ilə bizimlə danışır.

Vağzalda gördüyü yaralılardan ötrü çox narahat idi, ağlayırdı.

- Vay, nənə... Bu alçaq bəəsçi düşmən kimyəvi silah işlədib, Favı geri alıb. Bilmirsən camaatın məsum balaları necə yanmışdılar, necə zarıyırdılar! Yiyəsizlik idi, aləm bir-birinə dəymişdi, deyirdilər ki, Əhvazın xəstəxanalarında yer qalmayıb.

Anama səhər yeməyi gətirdim. Namazının qəzasını qıldı, səhər yeməyini birlikdə yeyib yatdıq.

Səhərlə Əlinin səsinə oyandım. Anamı görüb sevinir, bir-birinə deyirdilər: "Həmid dayıda olan nənəmiz gəlib!" Anam oyandı, uşaqları qucaqlayıb öpdü, onlara səhər yeməyi hazırladı. Sonra Əlini hamama apardı. Aptekdən bir məhlul almışdı, onunla bədənini yudu. Deyirdi ki, Əhvazda bunlardan yoxdur, olsa da, bahadır.

Halım yaxşı deyildi, ürəkbulanmam vardı. Xörək iyi pis təsir edirdi. Otağa girdim, kondisioneri yandırıb uzandım. Anam Əlini həyətə oynamağa göndərib dedi: "Ona xörək qoxusu dəyməməlidir". Otağa girib dedi: "Qızım, sən uzan, gəlmə. Mən uşaqlara bir şey hazırlayacağam". Yenə yaralılar yadına düşdü, yaylığını üzünə çəkdi. Əllərini havada yelləyib oxuyurdu: "Vay balam, balam! Allah bizə rəhm eləsin! Başımıza nələr gəldi! Qatarda o qədər cavan vardı. Hamısı bu alçaq kafirlə vuruşmağa gəlirdi. Hamısı boy-buxunlu gənclər idilər. Maşallah olsun! Koridorda dayanıb səhərə qədər ucadan danışdılar, yatmağa da qoymadılar".

Anam mətbəxə girdi. Oradan ucadan danışıb deyirdi: "Sadə bir şey hazırlayım, həm uşaqlar yesinlər, həm özümüz. Yumşaq olsun. Turş və istiotlu etməyək. Sızaq çıxarmış uşağa qızarmış yemək iyi dəyməməlidir. Göyərtidən-zaddan bişirək ki, sərin olsun". Dedim: "Yox, ana, balıq bişir. Buzluqda skumbriya balığı var. Bəhmən təzə alıb".

Həmişə talonla düyü alırdıq. Anam şimala Nəğməyə baş çəkməyə gedəndə bizə bir kisə gözəl ətirli İran düyüsü almışdı. Səsini eşidirdim, mətbəxdə qab yuya-yuya ağlayır, “Balam! Balam!” deyirdi. Uzandığım otaqda mətbəxə açılan kiçik bir taxta pəncərə vardı. Ona baca deyirdik. Anam vağzalda gördüyü döyüşçülərə dəşti oxuyurdu.

Ayağa qalxıb bacanı açdım və dedim: "Ana, ağlama. Səhər tezdən müharibə otağından Bəhmənə ratsiya ilə zəng vurdular. Dedilər ki, daha müharibə bitir, gəlin onu sonlandırın". Anam ağlaya-ağlaya dedi: "Sən mənim vağzalda nə gördüklərimi bilmirsən; skamyalarda, yerdə, vağzalda... Vay nənə! Ürəyim kabab oldu. Bilmirsən necə cavan idilər! Hər yan kimyəvi yaralılarla dolu idi. Gənclər gül dəstəsi kimi ləçək-ləçək olub kimsəsiz qalmışdılar!"

Donu açılsın deyə balığı qabyuyana qoymuşdu. Soruşdu ki, kişmişiniz varmı. Yoxumuz idi. Dedi: "Sən get, başını yerə qoy, bir az rahatlaş. Bunun iyi canına keçməsin. Mən bir qədər gətirmişəm. Durum, görüm hara qoymuşam".

Səhərlə Səccad anamın əl-ayağı altda oynayırdılar. Əli həyətdə Məhəmmədmehdi ilə futbol oynayırdı. Zəfəranlı plovla qızarmış balıq iyinə oyandım. Evdən gözəl ətir gəlirdi. Mətbəxin pəncərəsindən baxdım.

Anam ortaya kiçik bir palaz sərmişdi, Səhər, Səccad və Əli oturmuşdular. Anam yemək bişirə-bişirə, mətbəx işlərini görə-görə uşaqlarla danışırdı. Dedim: "Ana can, xörəklərinin nə gözəl ətri var!" Dönüb məni gördü, gülümsəyib dedi: "Sən nə qədər yatırsan, Nəsrin!" Dedim: "Uşaqların yeməyi sarıdan arxayınlaşdım, yuxuya getdim".

Anam süfrəni uşaqlara verdi. Mən əl-üzümü yuyub qayıdana qədər sərmişdilər. Anam da gözəl ətirli plovunu çəkmişdi. Balığın qarnını doldurmuşdu. Mən bu xörəyi çox sevirdim. Soruşdum: "Qarnını nə ilə doldurdun? Bir şey var idi?" Dedi: "Xoşladığın kimi, kişmiş, qızarmış soğan, zəfəran və qozdur". Bizdə soğandan başqa heç biri yox idi, həmişəki kimi, özü gətirmişdi. Əliyə buxarda balıq bişirmişdi. Gözəl və dadlı nahar idi. Çox yedik. Anam mətbəxə keçdi, bacadan süfrəni və qabları ona verdik. Kondisioneri yandırdım və hamımız yatdıq.

Yenə gözəl ətrə oyandım. Mətbəxdən anamın səsi gəlirdi. Bacanı açdım. Qabları yumuş, çay dəmləmişdi. Duxovkamız yox idi, stolüstü üçgözlü qazımız vardı. Abadanda zəncəfilli keks bişirdiyim kimi, anam da tavada gəlincik və ayı şəkilli şirniyyatlar bişirmişdi. Mənə dedi: "Orada otur, sənə çayla şirniyyat gətirim. İstiyə çıxma, halın pisləşər".

Kondisionerin altında oturub çayla şirniyyat yedik. Uşaqlar gəlincik və ayı üstə dalaşırdılar. Dedim ki, səs salmayın, atanıza da saxlayın. Bunu dedim, amma ürəyim pis oldu. Ayağa qalxıb həyətə baxdım. Anam uşaqların paltarlarını yuyub ipdən asmışdı. Fikirləşdim ki, Bəhmən axşama mütləq gələr, şəhərə çıxıb gəzərik, asılı körpünün altında otururıq. Bu fikirlə axşamüstülər

körpünün metal qurğuları üstündə yol yeriyən gəncləri xatırladım. Onları görəndə qorxub deyirdim: "Bəhmən, nə üçün bunlara belə təhlükəli işlər görməyə icazə verirlər?" Bəhmən deyirdi: "Gəncdirlər, əyləncələri yoxdur". Bir neçə gün öncə eşitmişdim ki, həmin gənclərin biri oradan suya yıxılmış və yerindəcə keçinmişdir. Öz-özümə dedim ki, Nəsrin, dəli olubsan?! Bu fikirlər nədir?! Bu pis fikirlər yerinə de ki, gedək Karunun sahilində falafel, samosa və camış südündən dondurma yeyək. Dedim: "Ana, şam yeməyinə heç nə bişirmə". Ancaq sözümü bitirə bilmədim. Sanki bir nəfər deyirdi ki, Bəhmən bu axşam gəlməyəcək. Anam Əlini yenidən hamama aparıb bədənini dərmanla yudu.

Axşam düşəndə anam dedi: "Bəlkə də Bəhmən gəlməyəcək. Bibisi ölsün! İndi döyüşün ortasındadır. Allah saxlasın! Qalxım bir şey hazırlayım. Sabah oruc tutacağam".

Anamın xörəklərini çox sevirdim. Nişasta, gülab və şəkərlə dadlı bir firni bişirdi. Bir kasa da Əliyə verib dedi: "Bunu apar aşağı. Həlimə orucdur. Yazıqdır, iftarını açsın". Əli qayıdanda dedi: "Ana, kasanı Rəhmət əmiyə verdim". Təəccübləndim ki, nə üçün Rəhmət cəbhədən qayıdıb, Bəhmənsə yox.

Anam obaşdana fisincan bişirmək istəyirdi ki, sabah günortaya da qalsın və istidə yemək bişirməyə məcbur olmasın. Qozları əzməyə həvəngdəstəmiz yox idi. Həmişəki kimi ağa Rzayigilə zəng vurdum. Ağa Rzayi özü dəstəyi götürdü. Təəccübüm daha da artdı. O, komandir idi. Fikirləşdim ki, əgər döyüş gedirsə, nə üçün bunlar qayıdıblar. Deməli, əməliyyat bitib. Həyəcanlanmağa başladım.

Əlinin vəziyyəti pisləşmiş, boğazından da sızaq çıxmışdı. Anam xakşir yuyub Əliyə və uşaqlara verdi. Yatmazdan öncə Əlinin bədənini yenə dərmanla yudu və fisincan bişirməyə başladı. Uşaqlar şama firni yedilər. Mən pəncərənin arxasında dayanıb Bəhməni gözləyirdim. Uşaqlar yorulmuşdular, tez yatdılar. Anam xuruşu bişməyə qoyub namaza başladı. Namazda ağlayırdı. Başım gicəllənməyə başladı. Ürəkbulanmadan əlavə həyəcanım da vardı. Səccad yuxuda qışqırır, qalxıb oturur, təəccüblə ətrafa baxıb deyirdi: "Bəs atam hanı?" Onu öpüb deyirdim: “Get yat. Yatıb yaxşı bir yuxu görsən, oyananda ata gələcək".

Kondisioneri yandırıb çarpayıya uzandım. Anamın namazı uzun çəkdi. Hərdən gəlib pəncərənin arxasında dayanır, bayıra baxırdı. Təsbeh əlində, ağ başörtüyü və çadrası başında idi. Sanki Bəhmən gələnədək namaz qılmaq istəyirdi. Mələfəni başıma çəkib yavaşca ağlamağa başladım.

Obaşdan idi. Anam yemək yeyib başında çadra süfrənin kənarında, səccadə üzərində yuxuya getmişdi. O, kondisioner altında yatmırdı, sümükləri ağrıyırdı. Uşaqlar soyuqdan mələfənin altına girmişdilər. Kondisioneri söndürüb üstlərinə ədyal atdım. Ürəyim bulanırdı, hirsli idim. Həyəcandan bir yerdə qərar tuta bilmirdim. Telefonu götürüb o biri otağa keçdim ki, heç kim səsimi eşitməsin. Birinci mərtəbəyə zəng vurdum. Bilirdim ki, əmi oyaqdır. Bir neçə gün idi Əhvaza gəlmişdi, gecələr oyaq olurdu. Dəstəyi özü götürdü. Qısa salamlaşmadan sonra dedim: "Əmi, maşallah, oğlun qayıdıb. Gözlərin aydın olsun! İndi ki yol uzaqdır və yuxarı çıxa bilmirsən, olmaz ki, bir zəng vurub bizim halımızı soruşasan? Görəsən ki, o biri oğlun da qayıdıb,

yoxsa yox". Bir söz demədi. Dedim: "Səccad səhərə qədər məni dəli edib. Tez-tez oyanıb atasını soruşurdu. Öyrənə bilərsənmi nə üçün Bəhməndən başqa hamı qayıdıb?" Yenə cavab vermədi. Əl çəkmədim, yenidən soruşdum: "Olmazdı bizə bir zəng vurub Səccadla danışaydın, təskinlik verəydin?! Özünüz yaxşı bilirsiz ki, atasını necə istəyir". Əmi bu dəfə də sakit qaldı. Bu sükutdan inciyib ağlamağa başladım. Hirsimi əmiyə boşaltdığıma görə özümü pis hiss edirdim. Ağlamaq səsimə anam oyandı, gəlib dedi: "Vay... Nəsrin, əl çək, səhər tezdən yemək yeməmiş nə edirsən?! Qalx! Qalx!" Sonra soruşdu: "Rəhmət də evdədir?" Dedim: "Hə, səsi gəlirdi. Həmişə səhər tezdən gedirdi, bu gün nə üçünsə getməyib".

Səsimə uşaqlar oyandılar. Anam əl-üzlərini yudu, çaydanın altını yandırdı. Onlara yemək hazırladı, çaylarına şəkər tökdü. O qədər sözdən sonra nə Rəhmət yuxarı çıxdı, nə də əmi. Bir qədər sonra Həlimə gəldi. Burnu və gözləri qızarmışdı. Dedim ki, nə olub, niyə ağlamısan? Dedi: "Yox, soyuqlamışam. Dedim birdən yuxarı çıxmadığıma görə narahat olarsan. Həm sən hamiləsən, həm də uşaqların suçiçəyi tutublar. Mənim soyuqdəyməm də keçsə, çox pis olar".

Axırıncı pillənin üstündə dayanmışdı. İçəri girmədi. Hərdən yalandan asqırırdı ki, soyuqladığına inanaq. Dedi: "Səccadı verin, aparım aşağı, əmi ilə Rəhmətin yanına". Dedim ki, paltarları çirklidir. Dedi: "Paltarlarını ver, Rəhmət dəyişdirər". Qəlbim sındı. Dedim: "Necə olur, əmi ilə ağa Rəhmət bizə şərəf verib bir yuxarı çıxmır, halımızı soruşmurlar? Demirlər ki, evimizdə kişi yoxdur, xəstə uşağımız var, anam təzə gəlib. Əgər əyər-əskiyimiz olsa, bu halımla necə gedib

alaram? İndi gərək gedib süd alım. Xakşirimiz də qurtarıb". Həlimə özünü itirdi, dedi: "Şey... Sən hələ Səccadı ver qucağıma". Səccad nazlanmağa başladı.

– Mən Rəhmət əmigilə getmək istəyirəm.

Həlimə Səccadın əlini tutdu, amma başını aşağı salmışdı. Üzünü tutdu ki, gözlərini görməyək.

- Nə istəyirsizsə, yazın. Rəhmət indi gedəcək, deyərəm, alar. Verin, Əli gətirsin.

Dedim ki, Əli xəstədir. Dedi: "Ver, Səhər gətirsin".

Həlimə gedəndən sonra anam dedi: "Qız, sən də razılaş artıq. Nə istəyirsən, yaz, alsınlar".

Bir siyahı yazıb Səhərlə aşağı göndərdim. Qayıdanda dedi: "Ana, babam oturmuş, gözlərinin üstünə bir dəsmal qoymuşdu və "Ahum! Ahum!" deyirdi. Rəhmət əmi də ağlayırdı". Anamla bir-birimizə baxdıq, amma bir söz demədik. Yəni deməyə cürət etmədik.

Bir qədər sonra Bəhmənin maşınının səsi gəldi. Öz maşını ilə getmədiyini bilsəm də, qeyri-ixtiyari olaraq, qalxıb pəncərədən baxdım. Rəhmət idi. Bizim maşınımızda kondisioner olduğuna görə onunla gedib-gəlirdi. Səccadı dizinin üstə oturtmuşdu. Bəhmən də bayıra gəzməyə gedəndə belə edərdi. Əmi də maşına minirdi. Sanki beli ağrıyırdı, çox əyilmişdi, həmişəki kimi qıvraq deyildi. Əlini maşının açıq qapısından tutub özünü yuxarı çəkdi. Belə şeylər barədə fikirləşmək istəmirdim. Uşaqlarla məşğul olmağa başladım.

Bir-iki saatdan sonra Rəhmətlə Həlimə çoxlu ərzaqla yuxarı çıxdılar. Sanki bir kiçik yük maşını dolu alış-veriş etmişdilər. Tapşırdığımız hər şeydən iki-üç dəfə artığını almışdılar. İki şüşə süd tapşırmışdım, onlarsa beşini almışdılar; bir qab yağ tapşırmışdım, onlarsa dörd qab almışdılar. Niyə belə etdiklərinə görə narahat idim.

Fikirləşirdim ki, yazıq Bəhmən bunların pulunu necə verəcək. Digər tərəfdən, Rəhmətin gözləri də qızarıb kiçilmiş, bambalaca olmuşdu. Soruşdum ki, Həlimə, Rəhmətə nə olub? Çiyinlərini çəkdi.

- Bir şey deyil, oruc tutmaqdandır.

Fikirləşdim ki, Rəhməti tanıdığım gündən oruc tutub; 10 yaşından, Abadanın istisində, cəbhədə... amma heç vaxt belə olmayıb. Evdə kondisionerin altında nə üçün belə olmalı idi?! Bir hadisə baş verdiyinə inanmaq istəmirdim.

Günorta yaxınlaşırdı. Rəhmətlə Həlimə gedəndən sonra anamla alınanları yerbəyer eləməyə başladıq. Soyuducu və şkaflar süd, pendir, ət, yağ, şəkər, qənd və digər ərzaq məhsulları ilə doldu. Anam axşam bişirdiyi fisincanı tələsik qızdırdı və biz plovla yedik. Uşaqları yatızdırdım. Anamın yanında uzandığım yerdə dedim: "Ana, gördün Rəhmət necə olmuşdu?" Anam dodağını dişlədi və bir söz demədi. Dedim: "Deyəsən, ağlamışdı. Gözlərini gördün? “Fənculək” boyda olmuşdu".

Səccad hələ yatmamışdı. Dedi: “Ana, fənculək istəyirəm”.

Fənculək Xuzistanda bir çərəz növüdür. Çox kiçik, qabığı bərk, içi isə dadlıdır. Qabığını çətinliklə qırıb xırda və dadlı içini yeyirlər. Anam yenidən dodağını dişləyib dedi: "Nəsrin, bəsdir, ağzımı açma. Başıma xeyir! İşin-gücün yoxdur?! İndi haradan fənculək tapım?" Anam gələndən bəri ilk dəfə gülüşdük.

Axşamüstü Səhərin qızdırması qalxdı və sızaq çıxardı. Əlinin səpgiləri də çoxaldı. Ağzını açıb bir şey yeyə bilmirdi, boğazı suluqla dolu idi. Səccadın da qarnı gedirdi. Anam dedi: "Səccad da sabaha səpəcək. Bu, onun əlamətidir".

Anamla növbə ilə uşaqları tualetə aparırdıq, qayıdan kimi görürdük ki, biri də ixtiyarsız halda özünü bulayıb.

Anam yüngülvarı qəlyanaltı hazırladı. Uşaqlar yeyə bilmədilər. Bir tərəfdə halsız uzanmışdılar. Anam iftar bişirmək üçün mətbəxə keçdi. Mən uşaqlarla birgə otaqda kondisionerin altında uzandım. Anama yazığım gəldi. Əhvazın havası isti idi. Qalxıb bacanı açdım. Mətbəxin isti havası üzümə vurdu, yemək iyi ürəyimi bulandırdı. Qaytarmaq istədim. Anam gəlib bacanı bağladı və dedi: "Vay... Bu zəhrimar pəncərəni bağla. Mənim dözümüm çoxdur, uşaqlıqdan cəhənnəmdə nəfəs almışam". Bir neçə dəqiqədən sonra əlavə etdi: "Mən iftar hazırlayıram. Həliməgilə de, gələrlər yuxarıya". Dedim: "Ana can, özünü boşuna yorma. Həlimə gəlməyəcək. Qorxur ki, uşaqları suçiçəyi tutarlar". Bir söz deməyib mətbəxə girdi. Həmişə narahat və hövsələsiz olanda ya başını bir işlə qarışdırır, ya özünü qarğıyır, ya da dodaqaltı deyinirdi.

Nahar yeməyinin qablarını yudu. Mətbəxin yerinə sərdiyimiz kovrolitin üstündə oturub şkafa söykəndim. Dodaqaltı danışa-danışa bir qədər xurma yudu, əzdi, un qızartdı, darçın, püstə və qoz əzməsi ilə qarışdırdı, əzilmiş xurmalara bələdi. Anlaşılmaz deyinmələri hələ də eşidilirdi. Soyuducudan bir süd şüşəsi götürüb özümə bir stəkan süzdüm. Anam dedi: "Bir şüşə süd ver, uşaqlara firni hazırlayım. Onlara yaxşıdır".

Yarımçıq südü və əlavə iki dolu süd şüşəsini soyuducudan çıxarıb anama verdim. Anam hazırladığı halvanı buluda çəkib firni bişirməyə başladı. Səccad ağlayır, Səhər deyinirdi. Tualetdə idilər, yenə özlərini bulamışdılar. O ağır sükutdan qaçmaq üçün yaxşı bəhanə idilər.

İftardan qabaq anam böyük bir kasaya firni töküb üstünü darçın və kakao tozu ilə bəzədi və siniyə qoydu. Yanına bir neçə xurma ilə bir nəlbəki halva da qoydu, çadrasını başına atıb dedi: "Mən aşağı düşüb bunları Həliməgilə verim. Yazıqdırlar. Səhər deyirdilər ki, bibi, axşam bişirdiyin firni çox dadlı idi. Aparıb verim, iftara qədər sərinləşsin".

Anam pilləkəndən enirdi. Səhər də o vəziyyətdə arxasınca qaçdı. Özümə hirsləndim: “Kaş deyəydim, yuxarı gələydilər!”

Anamın gəlişi çox çəkdi. İftara yarım saat qalırdı. Yeməyə qiymə xuruşu asmış, kartof qızartmış, düyünü islatmışdı. Xakşir şərbəti də hazırlamışdı. Bir neçə qızarmış kartof götürdüyüm yerdə Səhər ağlaya-ağlaya mətbəxə qaçdı. Məni görən kimi dedi: "Ana, əmidostu mənimlə dalaşdı. Əmidostu dedi ki, get yuxarı. Qapını bağlayıb dedi ki, get ananın yanına, sən xəstəsən". Səhəri qucaqlayıb öpdüm. Nazlanıb yalan-doğru danışmağa başladı:

- Əmidostu məni vurdu. Bütün qapıları bağladı. Baba "Ahum! Ahum!" deyirdi. Rəhmət əmi ilə əmidostu da ağlayırdılar. Nənəm özünü vurdu və saçını yoldu. Rəhmət əmi onu qucaqladı, dedi ki, bibi, ağlama.

Aman Allah! Hər şey fikirləşdiyim kimi olmuşdu. İndi də mənim ağlamaq növbəm idi. Saçımı yolmalı, üzümə vurmalı, Bəhməni sevdiyim qədər ona yas saxlamalı idim. Amma yox, Bəhmən ölə bilməzdi. Öz-özümə dedim ki, Nəsrin, ağlamaq olmaz, inanma, Bəhmən heç vaxt bizi tək qoymaz.

Nə danışdım, nə ağladım, nə inandım. Səhərə dedim: "Ata yoldadır, indi gələcək və hamısı ilə dalaşacaq". Səhər gülümsəyib dedi: "Ata gəlsin, ona deyəcəyəm ki,

əmidostu məni vurdu". Dedim ki, hə, deyərsən. Onu qucaqlayıb öpdüm.

Çox keçdi, amma anam yuxarı qalxmadı. Azan veriləndən sonra qapı döyüldü. Pəncərədən həyətə baxdım. Məhəmmədmehdi qapını açdı. Qumda yaşayan ailəvi bir dostumuz idi. Qızı Ruhəngiz ailə qurub Əhvaza köçmüşdü. Bir müddət idi anası ona kömək etməyə gəlmişdi. O, korpus uşaqlarının və hövzə tələbələrinin arasında Möhsünün anası kimi məşhurlaşmışdı. Ağıllı və düşüncəli, açıq fikirli və şirindil qadın idi. Hamı ilə əlaqə saxlayır, kimin problemi olsaydı, kömək etməyə çalışırdı. Özü, gəlini, Ruhəngiz və digər subay qızı Əfsanə ilə birgə yuxarı çıxdılar. Anam iftarı bəhanə edib mətbəxə girdi, sonra gəlib süfrə sərdi. Çay, xurma, çörək, pendir və göyərti gətirdi, süfrəyə bir dolça xakşir, halva və firni qoydu. Hamı süfrəyə oturub orucunu açdı. Hər şeyi bilirdim, ancaq əksini düşünməyə çalışırdım. Möhsünün anası və Ruhəngiz danışa-danışa mövzunu şəhadətə gətirdilər. Möhsünün anası deyirdi: "Filankəs şəhid olanda yoldaşı necə də yüksək əhval-ruhiyyədə idi!" Ruhi deyirdi: "Şəhidin dəfni zamanı uşaqlarını elə sakitləşdirirdi ki, sonradan şəhid ailələrinin örnəyinə çevrildi". Sonra gülməli söz danışdılar. Növbə ilə xatirə danışır, gülüşür, zarafatlaşır və yemək yeyirdilər.

Birdən Möhsünün anası ağzından belə bir söz qaçırdı: "Həlimə telefonda uşaqlarının suçiçəyi tutduğunu dedi. Onlara bir bitki gətirmişəm. Ruhinin uşaqları da tutmuşdular, ondan verdim. İndi çox yaxşıdırlar. Al, qızım, dəmlə, uşaqlara ver". Həlimənin uşaqları da gəldilər. Fikirləşdim ki, bir saat öncə Səhərə

görə yuxarı çıxmadılar, indi isə öz ayaqları ilə gəlib Səhərin, Əlinin və Səccadın yanında oturublar!

Anam mətbəxə girib düyünü dəmə qoydu. Səssizcə işlərini görürdü. Yuxarı çıxandan bir kəlmə də danışmamışdı. Bir məcməyi aldı, əmi ilə Rəhmətin yeməyini Həlimədən aşağı göndərdi. Səccad da onunla getdi.

Məhəmmədmehdi nadinc və tərs uşaq idi. Ona bir söz danışmamasını deyəndə inadkarlıq edib danışırdı. Cingiltili səsi də vardı. Həlimə gələndə Məhəmmədmehdi qışqırırdı. Həlimə onu danladı. O da tərslik etsin deyə qarşımda dayanıb dedi: "Əmidostu, sənə deyim kim şəhid olub?" Həlimənin rəngi qaçdı, özündən çıxdı, üzüklü əli ilə uşağın qulağının dibindən ilişdirdi. Məhəmməd ağlaya-ağlaya evlərinə getdi.

Ürəyimdə tufan idi. Sanki hərə bir cür hirsini boşaltmaq istəyirdi.

Uşaqların qızdırması yüksəldi. Anam şam süfrəsi sərdi. Yataq otağına keçib uşaqları yatırtmağa çalışdım. Xatırladığım qədərincə, anam iftarını çay, xurma, çörək, pendir və göyərti ilə açardı. Xürrəmşəhrdə olanda çay yerinə camış südü alıb qızdırır, böyük bir qazana töküb süfrənin ortasına qoyurdu. Qazanın içinə bir çömçə də qoyurdu ki, hər kəs istədiyi qədər süzüb içsin. İftardan sonra oturub televizora baxardıq. Anam bir-iki saatdan sonra şam süfrəsi sərərdi və oturub yemək yeyərdik.

Anam bir neçə dəfə çağırdı. Dedim: "İştahım yoxdur, siz yeyin. Uşaqların qızdırması var”. Onlar şam yeməklərini yeyib süfrəni topladılar və qabları yudular.

Möhsünün anası gəlini və qızları ilə birgə gecəni bizdə qaldılar. Hava isti idi. Kondisionerləri yandırdıq. O qədər iydən ürəyim bulanırdı; şam iyindən,

qonaqların ətrinin iyindən, paltarlarının iyindən... Mələfəni başıma çəkib yatmağa çalışdım. Əfsanə mənimlə həmyaşıd idi. Otağa bizim yanımıza gəldi. Qalanı mətbəxə bacası olan otaqda yatdı. Həlimə aşağı düşdü. Əfsanə yatağa uzanan kimi yuxuya getdi.

Nə qədər pis fikir vardısa, beynimə gəlirdi. Onları bir-bir silməyə çalışırdım. Gördüm ki, dəli oluram. Qalxıb otaqda gəzməyə başladım. Uşaqlar yatmışdılar. Çərçivəsi dəlik-dəlik olan qəhvəyi rəngli bir kvadrat saatımız vardı. Korpusun yarmarkasından 500 tümənə almışdıq. Fonu ağ, əqrəbləri fosforlu idi, qaranlıqda da görünürdü. Gözümü saatdan çəkmirdim. Ancaq əqrəblər də hərəkət etmirdi. Fikirləşdim ki, yəqin batareyası bitib. Saatı yavaşca divardan götürdüm. Saniyə əqrəbi tərpənir, taqqıltısı gəlirdi. Saatı dizimin üstünə qoyub oturdum. Fikirləşdim ki, bir neçə saat öncəki xəbərlərdə cəbhələrdə heç bir əməliyyat və hücumun olmadığını, hər iki tərəfdə sabitliyin hökm sürdüyünü demişdilər. Həlimə Rəhmətin sözünü demişdi ki, iranlılar Favdan geri çəkiliblər. Deyirdilər ki, ağa Rəfsəncani hələlik müharibənin dayandığını bildirib. Əgər heç bir bölgədə döyüş getmirsə, bəs Bəhmən haradadır? Favda deyil; onu geri veriblər. Məsudiyyədən də geri çəkiliblər. Mərkəzi komandanlığın yerləşdiyi qolf meydanında da deyil. Çünki heç vaxt gecələr oraya getməzdi. Üstəlik, ora evə yaxın idi, ən azı, zəng vurardı. O hətta döyüş xəttindən də gündə iki-üç dəfə mənimlə danışardı. Ratsiya və telefon həmişə yanında olurdu. Deməli, başına bir iş gəlib. Mütləq şəhid olub. Harada? Hansı formada? Nə üçün açıq demirlər? Əgər Allah eləməmiş, şəhid olubsa, cəsədini gətirərdilər və iş bitərdi. Bəlkə əsir düşüb? Fikirləşə-fikirləşə saata baxırdım. Hamı

yatmışdı. Hər yer sakit idi. Atışma səsi də gəlmirdi. Bir qədər sonra fikirləşdim ki, mütləq sağdır. Əgər bir şey olsaydı, ürəyimə damardı, mənsə ağlaya bilmirəm. Ürəyim onun yaşadığına əmindir. Bəs nə üçün yata bilmədim? Nə üçün bu lənətə gəlmiş saat hərəkət etmir? Ayağa qalxdım və saat qucağımda otaqda gəzişməyə başladım. Sonra otaqdan çıxdım. Anam zalda yatmışdı, o biri otaqdan kondisionerin motorunun səsi gəlirdi. Qaranlıqda Bəhmənin gözləri qarşımda canlanırdı. Dodaqaltı dedim: "Bəhmən, o qəşəng gözlərinə qurban!" Sonra fikirləşdim ki, kirpik dolu o gözlər indi qapalıdır, yoxsa açıq?

Mətbəxə girib soyuducunun qapısını açdım. Soyuducuda yemək dolu qablar vardı: plov, xuruş, firni. Arzuladım ki, kaş indicə gələydi, özüm ona yemək qızdırardım, mətbəxdə oturub birlikdə yemək yeyərdik!

Zala keçib qaranlıqda pilləkənə baxdım. Həmişə ona bir qapı, nərdə və ya başqa bir şey düzəltdirmək istəmişdim. Həmişə bir yerə gedəndə və uşaqlar evdə qalanda qorxurdum ki, birdən yıxılarlar. İndi ürəyim istəyirdi ki, həmin pillələrdə oturum, bir azdan Bəhmən gülərüzlə, uzun ayaqları ilə pillələrdən yuxarı qaçsın.

Axırıncı pillənin üstündə oturub yavaşca dedim: "Bəhmən can, haradasan? Mən səni düşünürəm. Əgər sən də məni düşünürsənsə, bir əlamətlə mənə bildir. Sən Allah, zəng vur; elə indi. Axı ratsiya həmişə əlindədir. Nə üçün zəng vurmursan?”

Anamın səsi gəldi: "Kimdir orada? Nəsrin, sənsən?" Ayağa qalxıb zala girdim.

- Hə, mənəm. Bəhməni gözləyirəm.

Anam ayağa qalxıb salavat çevirdi, məni qucaqlayıb öpdü.

- Gözəl balam, ümidin Allaha olsun. İnşallah gələr.

Sonra tez soruşdu: "Dərmanlarını içdin? Halın yaxşıdır?" Dedim ki, hə, ana, içdim.

Anam dodaqaltı zikr deyir, salavat çevirirdi. Yeməkləri qızdırmaq üçün mətbəxə girdi. Mən də otağa keçdim. Əfsanə oyandı. Özüm saatla yatağa uzanıb mələfəni başıma çəkdim. Yavaş-yavaş yuxum gəlirdi.

Məscidin səsucaldanından gələn azan səsi küçəni bürüdü. Ayağa qalxdım, dəstəmaz alıb namaz qıldım. Əfsanə gedib anasının yanında yatdı. Saata baxdım. Yəni Bəhmən indi namaz qılır? Obaşdan yeyib? Bəlkə Xürrəmşəhrə gedib və biraylıq qalmaq niyyəti edib? Bəlkə ramazan ayının axırına qədər orada qalmaq istəyir? Bəs nə üçün zəng vurmur? Bəhmən, sən mənim canım, sən Əlinin, Səccadın, Səhərin və Sacidənin canı, zəng vur. Telefonun yanında oturdum və birdən beynimə gəldi ki, ağa Rzayiyə zəng vurum. Bilirdim ki, bu vaxt telefon çalanda anası həyəcanlanır. Oğlu üçün həssas idi. Ağa Rzayinin korpus forması ilə bayıra çıxmasından və vaxtsız telefon zənginə cavab verməsindən acığı gəlirdi. Buna baxmayaraq, dəstəyi götürüb nömrəni yığdım. Ağa Rzayinin anası cavab verdi, lor ləhcəsi ilə və çox hirslə dedi: "Bəli, buyurun". Salamlaşıb hal-əhval tutandan sonra dedim: "Mən Nəsrinəm, ağa Bəhmən Baqirinin yoldaşı". Tanıyıb dedi: "Salam, qızım. Ölərəm Sacidən ötrü. Uşaqlarının başı sağ olsun!"

O zaman kiməsə boşuna hacı demirdilər, həccə gedənlərə deyirdilər. Ağa Rzayi iki il qabaq Məkkəyə getmiş, ehsan da vermişdi. Soruşdum ki, hacı evdədir? Dedi: "Hə, evdədir. Nə olub? Xeyirdir?" Dedim: "Bəhmən gəlməyib. Mən nigaran qalmışam.

Uşaqlarımın da hər üçü suçiçəyi tutub". Dedi: "Vay nənə... Allah kömək olsun. Bax bir, güclüdür?" Dedim ki, hə, güclüdür. Dedi: "Qızım, onlardan muğayat ol. Sən təzə müsibət görmüsən. İstəyirsən hacı ilə gəlim, onları həkimə aparaq?" Dedim: "Yox, inşallah yoldaşım gələr, apararıq. Düzü, soruşmaq istəyirdim ki, hacı onun harada olduğunu bilir? Ondan bir xəbəri var və ya ratsiya ilə zəng vurub nigaran qaldığımızı söyləyə bilər?" Dedi: "Gəl, özün de. Mən belə şeyləri başa düşmürəm".

Ona dəstəyi hacıya verməsini söyləməyə utanırdım. Buna görə özü çağıranda sevindim. Əlbəttə, yad bir kişi ilə danışmaq çətin idi, telefonla olsa da, əziyyət çəkirdim. Ağa Rzayi ilə salamlaşanda özüm də bilmədən əyilib mələfəni götürdüm və başıma atdım. Soruşdum ki, hacı, bağışlayın, ağa Baqiri gəlməyib, ondan xəbəriniz var? Ağa Rzayi bir söz demədi. Boğazımı qəhər tutmuşdu, nəfəsim gəlmirdi. Ağlamağa qalmışdım.

- Ağa Rəhmət evdədir. Siz də evdəsiz. Bəs Bəhmən haradadır? Sizin xəbəriniz yoxdur?

Hacı yenə bir söz demədi. Yenidən dedim: "Ratsiya ilə ondan bir xəbər öyrənə bilərsiz? Deyin ki, bizə zəng vursun". Ağa Rzayi yavaşca və tələsmədən dedi: "Vallah, mən Bəhməni ayın 19-da günorta namazında görmüşəm. Biz Favda bir-bir qərargahları əldən verib bu tərəfə keçdik. Mən sonuncu qərargahda suyun kənarında sistemin arxasında oturmuşdum, xəbərləri ötürürdüm. Bəhmən qərargaha gəldi, yanımda oturub vəziyyəti soruşdu. Dedim: "Görürsən ki, Favı əldən verdik. Hər şeyi buraxıb bu tərəfə gəldik”. Mən danışırdım, amma Bəhmənin fikri başqa yerdə idi. Ratsiyadan xəbər

verdilər ki, Fav bölgə komandiri ağa Mürtəza Səffari bizim yanımıza gəlir. Mən onu qarşılamağa hazırlaşdım, Bəhmənin nə vaxt haraya getdiyini bilmədim. Bir az, bəlkə də 15-20 dəqiqə sonra güclü bir partlayış səsi gəldi. Uşaqlar dedilər ki, Besət körpüsünü partlatdılar və bizim Favla əlaqəmiz kəsildi. Biz şəxsi heyəti və hərbi texnikanı toplayıb həmin qərargahdan da geri çəkildik. Bəhməni görmədim. Bəlkə də rabitə qovşağını partlatmağa getmişdi; bəlkə də körpünün üstündə idi. Eşitdiyim qədərincə, bəziləri körpüdən keçmək istəyəndə körpü bağlanmış, düşmən körpünün üstünü atəşə tutmuşdu. Hətta körpünün bu tərəfində də yaralananlar oldu. Mən Bəhmənə və uşaqlara görə nigaran idim. Ratsiyadan onları soruşdum, heç kimin xəbəri yox idi. Körpünü bir neçə dəfə güclü bombardman etdilər".

Soruşdum ki, yəni nə demək istəyirsiz? Yenə sükut etdi. Bu dəfə ucadan və bir qədər hirslə soruşdum: "Hacı, bu nə deməkdir?!" Ağa Rzayi bu dəfə də tutuq səslə cavab verdi: "Məncə, o andan sonra heç kim Bəhməni görməyib. Günəş batanda biz Ərvəndin bu tayında idik, öz torpaqlarımızda. Məlumat verdilər ki, Nuh qərargahından Bəhmən Baqiri yoxdur".

Nə etməli olduğumu bilmirdim. Ağlamağa başladım. Ağa Rzayi də ağlayırdı. Sağollaşıb dəstəyi yerinə qoydum və dərhal Abdullah Nuraninin nömrəsini yığdım. Bəhmənin müavini idi. Ağa Rzayinin sözlərinə inanmaq istəmir, ümidverici söz eşitmək üçün başqa biri ilə danışmaq istəyirdim. Hacı Abdullah dəstəyi özü götürdü. O, bir il öncə Suriyaya getmişdi.

- Hacı, səni həzrət Rüqəyyənin zərihinə and verirəm, düzünü de, Bəhməndən xəbərin varmı? Mən uşaqlarla

birlikdə ölmək üzrəyəm. Səni iki şəhid qardaşının ruhuna and verirəm. Səni Rəsulun ruhuna and verirəm, düzünü de.

Ağa Nurani əvvəlcə sakit qaldı. Yenidən and verib yalvarmağa başladım. Sözlərimdən bəzi şeyləri başa düşüb dedi: "Xanım Baqiri, deyəsən, ağa Rəhmət sizə heç nə deməyib". Sanki bədənimin bütün damarları parçalandı, vücudumda heç nə qalmadı. Ürəyimin səsini eşidirdim.

- Yox, mən heç nə bilmirəm.

- Bəhmənlə ağa Səffari qərargahdan çıxdılar. İraq Favı geri almışdı. Onlar texnika və imkanları toplamaq istəyirdilər. Bəhmən körpüyə yollandı. Düşmən həmin gecə hücuma keçmişdi. Oradakıların çoxu əsgərlər, əsasən öz qohumlarımız, dost-tanışlarımız idi. Hücum vaxtı yuxuda olmuşdular. Onlar ya şəhid oldular, ya da əsir düşdülər. Bəhmən orada yoxa çıxdı. Körpünü atəşə tutdular. Ağa Səffari ağır yaralandı. Nə qədər gəzdiksə, Bəhməni tapmadıq. Güman ki ağa Rəhmət sizə deməyib. Özü helikopterə minib bütün bölgəni, hətta cillik və qamışlıqları axtardı, bütün xəstəxanaları alt-üst etdilər. Əllinəfərlik bir komanda ölkənin bütün xəstəxanaları ilə əlaqə saxladı. Dünən axşam ağa Rəhmət sürünə-sürünə İraq tərəfə keçmək istəyirdi, biz qoymadıq. Dedik ki, axmaqlıq eləmə, orada adamlarımız var, deyərik, axtararlar. Bəlkə də əsir düşüb.

Ağlaya-ağlaya dedim ki, hə, bəlkə də əsir düşüb. Ağa Nurani yavaşca dedi: "Lakin bizim qənaətimiz budur ki, şəhid olub".

Səsi qəhərli idi. Dedim: "Yox... Yox... Belə deməyin, Hacı Abdullah. Siz Allah, deməyin, tapılacaq".

Hacı Nurani daha heç nə demədi. Sağollaşdım və heç nə düşünmədən ağa Xosrovanigilə zəng vurdum. Bəhmənin bütün dostlarının telefon nömrəsini əzbər bilirdim. Qərarsız idim. Bəhmənin yaşadığını söyləyib məni ümidvar edəcək bir adam axtarırdım. İstəyirdim desin ki, mən onu son dəfə filan yerdə gördüm, yaxşı idi, əsir düşüb və qayıdacaq. Ağa Xosrovani də evdə idi, dəstəyi özü götürdü. Salam verib özümü təqdim etdim. Məni tanıyandan sonra ağlamağa başladı. Dedim: "Hacı ağa, nə olub? Sən Allah, nə bilirsinizsə, deyin". Heç nə demir, yalnız ağlayırdı. Əli ilə başına vurduğu sillələrin səsini eşidirdim.

- Ağa Xosrovani, əmanətim hanı? Həmişə deyirdim ki, bizim Bəhməndən muğayat olun. Niyə Bəhməni qoyub gəldiz?

Ağa Xosrovani cavab vermir, ancaq ağlayırdı. Dəli olmuşdum.

- Hacı, nə üçün ondan muğayat olmadız? İndi mən Səccada nə cavab verim?! Səhər dözə bilmir. Əli ilə nə edim?! Səccad gecəni səhərə qədər yata bilməyib. O qədər "atamı istəyirəm" dedi ki, az qaldı bağrım partlaya!

Ağa Xosrovani hıçqırırdı. Bir neçə dəqiqə hər ikimiz sakit qaldıq. Onun ağlamaq səsinə mən də ağlayırdım. Yanıqlı ağlaması ürəyimi yandırırdı.

Telefonu kəsib Rəhmətə zəng vurdum. Deyəsən, telefonun önündə yatmışdı, ilk zəngdən sonra dəstəyi götürdü. Ağlamaqdan səsi tutulmuşdu. Narahat idi. Dedim: "Ağa Rəhmət, çox sağ ol. Nə üçün Bəhməni qoyub gəldin?" Səsimi eşidən kimi ağlamağa başladı və dəstəyi kənara çəkdi. Səsi uzaqdan gəlirdi: "Ya həzrət

Abbas! Ya Əbəlfəz! Ağa, bədbəxt olduq. Gəl, Nəsrindir". Əmi dəstəyi aldı, amma danışa bilmədi.

Ucadan ağlayırdım. Dəstəyi yerinə qoyub yerə oturdum. Üzümə vurur, saçımı dartırdım, amma ağlaya bilmirdim. Həlimə yuxarı çıxdı. Otağa girən kimi hələ əlimdə olan saatı divara çırpdım. Saatın şüşəsi sındı. Nə etdiyimi bilmirdim. Ağzım da kilidlənmişdi, nə danışa bilirdim, nə də ağlaya. Anam yaxınlaşıb dedi: "Nəsrin can, ağla, qışqır!" Yenidən saatı götürüb möhkəm yerə çırpdım. Anam dedi: "Yaxşı, ürəyin nə istəyirsə, elə. Səninlə işim yoxdur".

Həlimə eləcə dayanıb ağlayırdı. Əfsanə və digərləri danışmır, yalnız mənə baxırdılar. Bəhmənlə birgə həyatımın başa çatdığına inanmırdım. O anda fikirləşib qərara gəldim ki, cəsədini görməyincə inanmayacağam. Bəhmən həmişə bizdən nigaran idi. Uşaqları sevirdi. O bizi tək qoymazdı; necə ki o illərdə mən onu tək qoymamışdım. Özü həmişə deyirdi: "Hara getsəniz, birlikdə gedin, bir hadisə baş versə, hamınız üçün olsun". İndi isə özü bizsiz, təkbaşına getmişdi. Yox, mümkün deyildi. İnanmamalı idim. Sakit halda bir küncə qısıldım. Evdə çox adam vardı. Anamın bir əli uşaqlarda idi - dərmanlarını verirdi, paltarlarını dəyişdirirdi - bir əli də qazanda.

Yavaş-yavaş Şiraz, Qum və Tehrandan bacı və qardaşlar gəldilər. Siddiqə xala əlindən gələni edirdi ki, məni danışdırsın və ya boğazıma bir damcı su töksün. Anam zarıyıb deyirdi: "Vay! Öldüm bu Nəsrinin əlindən! Özünü öldürəcək. Üç-dörd gündür nə su içir, nə də bir qaşıq xörək yeyir. Bunun əlindən bağrım çatlayacaq. Qorxuram yenə özündən gedər, o zəhrimar

xəstəlik qayıdar, əlimdə qalar. Gərək bir nəfər bu zavallını həkimə aparsın".

Səccadın vəziyyəti hamımızdan pis idi. Bir tərəfdən Bəhməni istəyirdi, səhərdən axşama qədər ağlayırdı, digər tərəfdən də gözlərində və boğazında sızaq çıxmışdı. Anam hərdən onu qucağına götürüb aşağı aparır, Rəhmətə verirdi. Lakin əmi ilə Rəhmət Səccadı görən kimi ağlamağa başlayırdılar. Əmi Səccadı qucaqlayıb elə nalə edirdi ki, səsi yuxarı gəlirdi. Rəhmət deyirdi: "Bu uşaq birdən-birə niyə bu qədər Bəhmənə oxşadı?!"

Qayınanam gəldi. Ona demişdilər ki, əmi infarkt keçirib. Küçəyə çatanda əmini qara paltarda qapının önündə görüb hər şeyi başa düşdü. Küçədə yerə oturub qışqırmağa başladı: "Bəhmən... Oğul... Qəşəng gözlərinə qurban olum! Əzizim! Canım! İgid oğlum! Anasının Bəhməni, hardasan? Gəl, qonağın gəlib, səxavətli oğlum!"

Qonşular bayıra çıxdılar. Qiyamət qopdu. Bütün ev adamları ağlaya-ağlaya küçəyə qaçdılar. Qayınanam şivən qoparıb ağı deyirdi, digərləri ağlayırdılar. Əmi də ağı deyirdi: "Ya həzrət Məhəmməd! Mən uşaqlarımı sənə tapşırmışdım. Hacı Mənijə xanım, gördün, oğulsuz qaldıq?! Gördün, bədbəxt olduq?!" Pəncərənin arxasında dayanıb mat-məəttəl bayıra baxır, öz-özümə deyirdim: "İnanma, Nəsrin, sən yuxu görürsən. İndi yuxudan oyanacaqsan, Bəhmən gələcək, görəcəksən ki, hər şey yalan imiş".

Qayınanamı yuxarı gətirəndə təxminən huşsuz vəziyyətdə idi. Mən də fikirləşirdim ki, indicə yuxudan oyanacağam. Sakit şəkildə bir tərəfdə oturmuşdum. Hətta yaxınlaşıb salam da vermədim. Füruzan məni

görüb dedi: "Nəsrinə kömək edin... Bacım əldən getdi... Deyəsən, bu yazıq biz olmayanda qəşş edib!"

Saat hələ də qucağımda idi, əqrəblərinin hərəkət etməsini gözləyirdim. Füruzan rəhimsizcəsinə üzümə bir neçə sillə vurub dedi: "Nəsrin, bədbəxt oldun! Yoldaşın şəhid oldu! Uşaqların yetim qaldı! Ağla, ayağa qalx. Bədbəxt, sabahdan yetim böyüdəcəksən". Sağər qışqıra-qışqıra yaxınlaşdı.

- Füruzan, sən nə qədər rəhmsizsən! Əl çək, yazıq öldü.

Üz-başımı öpür, dəsmalla ağzımın ətrafını silirdi. Mən o vaxta qədər dözmüş, hər şeyi inkar etmişdim. O anda saatı yenidən divara çırpdım. Bu dəfə bir neçə parçaya bölündü və hər parçası bir tərəfə düşdü. Birdən ayağa qalxıb qışqırdım və pillələrə tərəf qaçdım. Ora həmişə kabusum idi, fikirləşirdim ki, uşaqlar oradan yıxılarlar. Qışqırırdım: "Bəhmən... Bəhmən... Mən Bəhməni istəyirəm".

Ayağımı birinci pilləyə qoyanda müvazinətimi itirdim və bir anın içində pillələrdən sürətlə aşağı yıxıldım. Siddiqə xalanın, Sağərin və Füruzanın səsi qulaqlarımda idi:

– Aman Allah! Özün rəhm elə! Ya həzrət Abbas... Uşaqlarına rəhm elə... Nəsrin can...

***

Gözlərimi açanda musiqi səsi və ud iyi gəlirdi. Çarpayının üstündə uzanmışdım. Mavi tavan yanıb-sönən ulduzlarla dolu idi. Bir tərəfin divarı mavi rəngdə idi, digər tərəf çəhrayı. Fikirləşdim ki, nə üçün Bəhmənin Quran səsi gəlmir. Qolumda serum iynəsi vardı, xanım Müntəzimi başım üstə dayanmışdı.

– Nəsrin xanım, necəsən? Məni eşidirsən?

Elə bildim doğuşa gəlmişəm.

- Uşağım necədir? Qızdır? Adını Saci qoymaq istəyirəm.

Anamın ağlamaq səsi gəldi. Qaçıb gəldi.

– Nəsrin can, yaxşısan? Sənə qurban olum! Gözlərinə qurban! Qızım... Hər şeyim...

Əyilib alnımdan öpdü. Başıma gələnləri yenicə xatırlamağa başladım. Əlimi qarnımın üstünə çəkib dedim: "Uşağım... Sacimə bir şey olmayıb?" Xanım Müntəzimi dedi: "Deyirlər bir neçə gündür heç nə yemirsən. Bu qədər şok və streslə özün güclə davam gətirmisən, uşağı bilmirəm". Sonra yavaşca əlimi tutub dedi: "Abort şərtlərinə maliksən. Əməliyyat olunmaq istəyirsən?" Başımı qaldırdım, əlimi qarnıma qoyub dedim: "Yox... Yox... Bu, Bəhmənin Sacisidir. Bəhmənə söz vermişəm ki, ona bir Saci də gətirəcəyəm". Xanım Müntəzimi yavaşca çiyinlərimdən tutub məni çarpayıya uzatdı.

- Yaxşı... Yaxşı... Amma Sacini belə saxlaya bilməzsən. Əzizim, 10-12 pillədən aşmısan. Bəxtin gətirib ki, özün sağ qalmısan.

- Xanım doktor, Bəhmən haradadır?

Xanım Müntəzimi mənə baxıb bir söz demədi. Anam əyilib üzümdən öpdü.

- Yaxşıdır, Nəsrin can. Sən yaxşı ol, darıxma, Bəhmən də gələcək.

Xanım Müntəzimi iti baxışla anamı süzüb dedi: "Xanım, onun inkar mərhələsindən çıxmasına kömək edin. Qoyun həqiqəti qəbul etsin". Sonra soyuqqanlı halda yavaşca dedi: "Nəsrin can, sən güclü olmalısan: möhkəm, cəsarətli, sağlam. Qarnındakının və digər üç

uşağının sağlam və güclü anaya ehtiyacı var. Gərək həqiqəti qəbul edəsən. Uşaqların sağlam ana istəyir".

Yenidən halım pisləşdi. Qışqırmaq və iynəni qolumdan çıxarmağa çalışırdım. Sacidənin ölümünü xatırladım, sonra Şəhid Musəvini, Şəhriyarı, Qəndəharini, Salman Baharı. Atam yadıma düşdü, ürəyimdə ondan kömək istədim. Gözlərimdən yaş axdı. Həmin otaqda tək-tənha yatmaq istəyirdim; işıqları söndürsünlər, sakit musiqi və ud ətri ilə baş-başa qalım. Dedim: "Xanım doktor, mənə kömək edin. Məni burada saxlayın. Mən o evə getmək istəmirəm".

Anam dedi: "Sənə qurban olaram! Ürəyim, özüm səni Tehrana apararam. Mənim yanımda qalarsan. Sən yaxşılaş. Dərdin mənə gəlsin!" Xanım doktor gülümsəyib dedi: "Ürəyin nə qədər istəyir, burada qala bilərsən. Ancaq Allah eləsin, kimsə doğuşa gəlməsin".

Axşamüstü Füruzanla Sağər gəlib kömək etdilər, birlikdə evə qayıtdıq. Hamı qara geyinib ağlayırdı, mən gələn kimi dayandılar. Uşaqlarımın hərəsi bir nəfərin qucağında idi. Həlimə mətbəxdə ucadan danışırdı. Qardaşları Əhvazın bütün xəstəxanalarını gəziblər ki, birdən Bəhmənin cənazəsini səhvən başqa şəhərə göndərərlər. Zəng vurub deyiblər ki, Nəsrin bir neçə naməlum cəsədə baxmağa gəlsin. Bu sözü eşidəndə qışqırdım, özümü yerə atıb üz-başıma vurmağa başladım.

– Bəhmənə heç nə olmayıb! Necə ürəyiniz gəlir belə sözlər danışmağa?! Bəhmən şəhid olmayıb. O, uşaqlarına görə narahatdır. Bilir ki, Səccad onsuz yaşaya bilməz. Bu axşam mütləq qayıdacaq.

Füruzan bir dolça gətirdi, yenidən özümdən getməyim deyə, üzümə bir ovuc su tökdü.

Qoltuqlarımdan tutub məni yataq otağına apardılar, zorla yerə uzatdılar. Uşaqlar məni görüb yanıma gəldilər. Səccad hələ də atasını istəyir, Səhər yumruqla qarnıma vurur, Əli yazıq-yazıq baxırdı. Onda bildim ki, Əli hər şeyi başa düşür. O axşam heç nə yemədən uşaqları qucaqladım və dördümüz yan-yana yatdıq. Ağır və qəmli gecə idi. Gözlərimə yuxu gedən kimi Bəhmənin səsini eşidib diksinir, ancaq görürdüm ki, hər yer sakitlikdir, Bəhməndən əsər-əlamət yoxdur.

Eşitdiyimiz xəbərlərdən Bəhmənin yaşamasına ümidimizi üzdük. Dostları onun şəhid olduğunu əminliklə söyləyirdilər. Yavaş-yavaş itkin şəhid sözü dillərə düşdü.

May ayı idi. Əlinin imtahanı vardı. Bir azdan imtahanlar bitdi, məktəblər tətil oldu. Qonaqlar çox idi, bizdə hamıya yetəcək yataq və qab-qacaq yox idi. Anam uşaqları hər gün qonşulara bir şey almağa göndərirdi. Qonaqlar bu şəraiti görüb getmək fikrinə düşdülər. Rəhmət iki mikroavtobus tutdu. Çox olmayan əşya və avadanlıqlarımızı həmin iki silah qutusuna yığdılar, hamımız maşınlara minib Quma yola düşdük. Kişilərsə Bəhməni axtarmaq üçün Əhvazda qaldılar.

Mikroavtobusa oturan kimi ürəyim bulanmağa başladı. Anam mikroavtobusun dar koridoruna kovrolit sərib məni uzandırdı. Kiçik bir zibilqabı tapdı. Qusanda onu ağzıma yaxınlaşdırırdı. Səccadla Səhər dəcəllik edib anamla mənim saçımı qoparırdılar. Qayınanam hərdən ağı deyib ağlayırdı.

Mikroavtobus günorta Xürrəmabadda bir restoranın önündə dayandı. Məndən başqa hamı yerə endi. Anam mənə sərin ayran gətirdi. İçə bilmirdim, boğazımdan heç nə keçmirdi. Bir qədər içim deyə ağlaya-ağlaya

ayranı ağzıma yaxınlaşdırırdı. Ayran öz işini gördü və mən mikroavtobusun ortasında yuxuya getdim.

Quma çatanda Bəhmən üçün daha çox darıxmağa başladım və hisslərim dəyişdi. Elə bilirdim ki, cəbhədədir, qayıdacaq. Ertəsi gündən Şəhid Cahanaranın və Şəhid Rza Musəvinin anası, habelə Əhvaza başsağlığına gələ bilməyən çoxları bizi görməyə gəldilər: Rza Baqiri və yoldaşı, Şəhid Zeynəddinin anası... Hələ ürəyimizdə ümid işartısı qalmışdı.

Bir neçə gündən sonra mənə və uşaqlara da qara geyindirdilər. Qonaqlar başsağlığına gəlirdilər, biz də əzadarlıq edirdik. Əhvaz xəbərləri telefonla bizə çatırdı. Günlər ötdükcə Bəhməndən xəbər gəlmədi. Nəhayət, hamı qəbul etdi ki, şəhid olub, cəsədi itkin düşüb, gərək tapılmasını gözləyək.

# On yeddinci fəsil

17 may, fitr bayramı idi. Əmimlə qayınanam fitr bayramı namazına getdilər. Mən yatmışdım. Birdən bir səs gəldi. Qalxıb yatağımda oturdum. Pəncərədən həyət qapısı görünürdü. Gördüm ki, qapı açıldı, Bəhmən həyətə girib qapını bağladı və məni səsləməyə başladı: "Nəsrin, haradasan? Nəsrin banu, yatmısan? Qalx, gedək məqbərəyə, namaz başlayır".

Həyəcanla qalxıb zala qaçdım. Bəhmən dayanmadan çağırırdı. Ayaqlarım yerə yapışmışdı. Nə etdimsə, yaxınlaşa bilmədim. Hətta danışıb cavabını da verə bilmirdim. Biz Abadanda Hacı Məkkinin evində olanda, Bəhmən cillikdə azıb qalanda da belə olmuşdu. Düşündüm ki, indi özümdən gedəcəyəm. Bir xeyli sonra özümə gəlib həyətə qaça bildim. Həyət qapısı bağlı idi. Qışqırdım: "Bəhmən... Bəhmən..."

Bəhmən yox idi. Bilmirəm necə oldusa, o anda inandım ki, Bəhmən şəhid olub və heç vaxt qayıtmayacaq. Halım pis idi. Yenidən, "Bəhmən" – qışqırıb evə qaçdım. Bir-bir bütün otaqların qapısını açıb onu çağırırdım. Uşaqlar mənim səsimə yuxudan

oyandılar. Əvvəl təəccüblə baxdılar, sonra mənim kimi atalarını çağırmağa başladılar. Səccad hamıdan çox ağlayıb deyirdi: "Atam hanı? Mən atamı istəyirəm".

O günə qədər özünü saxlamış Əli yatağına girdi, mələfəni üstünə çəkib ucadan ağlamağa başladı. Səhərin halı da bəlli idi. Uşaqlarla birlikdə evi boş görüb şivən qoparırdıq. Bir qədər sonra əmimlə qayınanam qayıtdılar. Bizi o vəziyyətdə görüb əvvəlcə sakitləşdirməyə çalışdılar. Ağlamağım dayanmırdı. Qışqırır, yaxamı cırır, sinəmə vurub deyirdim: "Bəhmən gəlmişdi. Məni çağırıb dedi ki, gedək namaza. Bəhmən burada idi".

Səhərin nəfəsi gəlmirdi, şirin dili ilə: "Atam axşam gəlmişdi, buramı öpdü" - deyib kiçik və toppuş barmaqları ilə alnını göstərirdi. Səccad heç vəchlə yola gəlmirdi, dayanmadan ağlayıb deyirdi: "Mən atamı istəyirəm. Atam hanı?"

Qayınanam Səhəri qucağına götürüb yataq otağına Əlinin yanına getdi. O qədər ağlamışdım ki, başım ağırlaşmış, nəfəsim təng olmuşdu. Əmim telefon olan otağa girib qapını bağladı. Səsini eşidirdim, kiminləsə danışırdı. Yarım saatdan sonra otaqdan çıxıb dedi: "Hacı Mənijə xanım, qalx, samovarı yandır. Qonağımız var".

Səhər hələ qayınanamın qucağında idi, nəvaziş edir, başını qarışdırmaq üçün onunla nə gəldi danışırdı. Əmim əyilib Səccadı qucağına götürdü və öpdü. Səccad yumruqla əmimin üz-başına vurur, yerə düşmək istəyirdi. Zavallı Əli də qalxıb yataqlarımızı toplayırdı. Əmim yoldaşı onu sakitləşdirmişdi.

Əmi dedi: "Rəhmət və digər uşaqlar bu bir ayda özlərini həlak edib hər yeri axtarıblar; Əhvaz və Mahşəhrin xəstəxanalarından tutmuş Tehran, Şiraz və Məşhəd xəstəxanalarına qədər. Qırmızı Xaç Cəmiyyəti ilə də əlaqə saxlayıblar. Onlar da deyiblər ki, Bəhmən əsirlərin arasında deyil. Mən Allahın məsləhətinə razıyam. Bəhmən artıq gedib. Mən daha oğlumu görməyəcəyəm. Görüş qaldı qiyamətə!"

Bunu deyəndə qayınanam ağlamağa başladı. Əmimin gözləri qızarmışdı, amma ağlamırdı. O dedi: "Zəng vurdum. İndi ağa Səffari gəlir. O, Bəhmənin qayığında olub, hadisəni görüb. Sözü hamıya qanundur. Dedim ki, buraya gəlsin. Yazıq bir aydır Bəhməni tapmaq üçün çox əziyyət çəkir. İndi gəlib hər şeyi danışacaq. İstəyirəm ki, Nəsrinin işi bilinsin. Belə olmaz; bu qız həmişə qorxu ilə ümid arasındadır".

Bunları deyib həyətə çıxdı. Bilirdim ki, vəziyyəti hamımızdan pisdir. Qayınanam cəld evi səliqəyə saldı, çay dəmlədi və buluda xurma düzdü.

Günortaya yaxın ağa Mürtəza Səffari Nuh qərargahının Su hövzəsinin Rabitə bölüyünün komandir müavini Qasim Yasavolla və tanımadığım bir neçə nəfərlə gəldi. Uşaqlarla birgə oturub gözlərimizi ağa Səffarinin ağzına dikdik. Çox narahat və kövrək idi, başını aşağı salmışdı.

– Biz bir aydır bu məsələ ilə məşğuluq. Uşaqlar çox çalışdılar, amma təəssüf ki, Şəhid Baqiridən heç bir nişan tapa bilmədik.

Udqunub əlavə etdi: "Həmin gün Favı əldən vermişdik. Mən maşında oturmuşdum. Şəhid Baqiri

körpüyə çıxdı. Bir dəstə döyüşçü qayıqda oturmuşdu. Maşından enmək istəyəndə salxım bombası atdılar. Mən ağır yaralandım. Deyəsən, bir neçə nəfərdən başqa heç kim oradan sağ çıxmadı. Qayıqdakı uşaqların hamısı yanıb şəhid oldu. Körpü dağıldı. Körpünün üstündəkilərin hamısı şəhid oldu, pak cəsədləri Ərvənd çayına töküldü və su apardı".

Füruzanın həyat yoldaşının Küveytdə yaşayan qohumlarından birinin bir neçə gün öncə danışdığı əhvalat yadıma düşdü. Onlar bir köpəkbalığı ovlamışdılar, qarnından bizim döyüşçülərin bir neçəsinin kimliyi yazılmış nişan çıxmışdı. Doğru-yanlış olduğunu bilmirəm, amma o anda inandım və Bəhmənin də hansısa köpəkbalığına yem ola biləcəyindən qorxdum.

Ağa Səffari cibindən bir kağız çıxarıb dedi: "Məncə, Bəhmən yüz faiz şəhid olub. Bu da vəsiyyətnaməsidir. Rza Baqiriyə bir nüsxəsini vermişdi. O da surətini çıxarıb bizə verdi. Yəqin ki orijinalı sizdədir. Kimsə vəsiyyətnamənin saxta olduğunu düşünməsin deyə, özü surətini çıxarıb bir neçə nəfərə vermişdi. Şəhid Baqiri vəsiyyət etmişdi ki, Qumda dəfn olunsun. Biz sabah bir simvolik tabut götürüb ona mərasim keçirəcəyik ki, ailəsinin gözü yolda qalmasın. Uşaqlar əmin olmalıdırlar ki, ataları şəhid olub. İndiki vəziyyət yaxşı deyil. Onlar atalarının məzarı başına gedib ağlamalı, bir qədər sakitləşməlidirlər".

Ortamın ab-havası birdən-birə dəyişdi. Əmi ağlamağa başladı. Qayınanam da özünü itirdi. Ayağa qalxıb otaqdan çıxdım. Bütün həyatım qayınanamın

otağının küncündən - iki silah qutusunun arasından ibarət idi. Qutuları açdım, Bəhmənin uniformasını çıxarıb üzümə tutdum. Hələ onun ətri gəlirdi. Ətri çox sevirdi, döyüşə gedəndə də ətir vururdu. Toyumuzun ildönümü münasibəti ilə aldığım günəş eynəyini öpdüm. Vəsiyyət etmişdi ki, hərbi geyimlərini korpusa qaytarım, yalnız çox köhnəlib cırılanları saxlayım. Bir neçə dəfə qərara gəlmişdim ki, köhnə formalarını dərziyə verib uşaqlar üçün kiçildim. O zaman çoxu belə edirdi. Paltarları Əliyə verib dedim: "Oğul, bunları küçənin başındakı dərziyə ver, sənin və qardaşının əyninə kiçiltsin. De ki, atamın dəfni üçün istəyirəm, axşama hazır olsun".

Bunları deyəndə ağlayırdım. Əli paltarları qoltuğuna qoydu, Səccadın əlindən tutub getdi. Səhəri qucağımda oturdub saçını öpdüm, ona növhə oxudum. Fikirləşdim ki, indi ata nəvazişi olmadan bu qızı necə böyüdəcəyəm? Səccada və Əliyə necə atalıq edəcəyəm? Bəhmənin Sacisini necə dünyaya gətirəcəyəm? O məndən ata istəməyəcək?! Bu fikirlərlə pis oldum və öz-özümə dedim ki, sabah hər şey bitəcək. Bəhmənin boş tabutunu götürəcəklər, Bəhmənlə birgə həyatım başa çatacaq. Bəs mən harada yaşamalıyam? Nə vaxta qədər qayınanama, ona-buna yük olacağam?! Qorxmağa başladım.

Qohumlar yenidən toplaşdılar. Həyət qapısının önünə qara pərdə vuruldu. Bəy divarı düzəldib ortasına Bəhmənin şəklini qoydular. Maqnitofon və səsucaldan gətirdilər, Quran kaseti qoydular. Qonşular həyətdə ocaq qalayıb yemək bişirirdilər.

Səidlə Həmid Səccadla Əlini bazara aparıb onlara oyuncaq tüfəng aldılar.

Həyət qapısı səhərədək açıq qaldı. Müxtəlif şəhərlərdən qonaq gəlirdi. Səsucaldanla şəhərə xəbər verdilər, divarlara elan vurdular. Səhərə qədər heç birimizin gözünə yuxu getmədi.

Səhər çağı korpus və Bəsic uşaqlarından və Şirazın İmam Hüseyn (ə) qarnizonundan bir neçə avtobus bizə qoşuldu. Şəhid Cahanaranın, Şəhid Zeynəddinin və digər şəhidlərin ailələri də avtobuslarda idilər. Boş tabut İran bayrağına bükülmüşdü. Deyirdilər ki, içini güllə doldurublar. Tabutun üstünü də ağ qladiolus gülləri ilə örtmüşdülər. Camaat tabutun ətrafında sinə vurur, özlərini ona çatdırmağa, əllərini vurmağa, tabutu öpməyə çalışırdılar. Tabutun güllə dolu olduğuna görə sevinirdim. Ona yaxınlaşmaq kimi arzum yox idi. Fikirləşirdim ki, kaş indi Bəhmən gəlib bizə güləydi, bu matəm büsatı bayrama çevriləydi!

Dərzi Bəhmənin pasdar formasını Səccadla Əlinin əyninə kiçiltmişdi. Səhər tezdən özü gətirib kövrək halda uşaqlara geyindirdi. Deyirdi ki, onları ağlaya-ağlaya tikmişəm. Səccadla Əli Səidlə Həmidin aldığı tüfəngləri bellərinə bağladılar. Səhər qara ərəb çadrasına bürünmüşdü. Maşınlara minib məqbərəyə getdik. Sanki bütün qumlular Bəhmənin dəfninə gəlmişdilər. Sanki Bəhmən onların övladı, qohumu idi.

Tabutu ortaya qoydular, Mühafizəçilər korpusunun Hərbi Dəniz Qüvvələrinin orkestri İslam respublikasının himnini oxudu. Bəhmənin böyük bir şəklini çərçivəyə salmışdılar. Onu Əli ilə Səccada

verdilər. Hər ikisi tabutun önündə dayanıb şəkli tutdular. Səhərin alnına “Ya Rüqəyyə” yazılmış qara lent bağladılar. Uşaqlar öndə idilər. Orkestrin həzin musiqisindən sonra tabutu çiyinlərinə götürdülər. Mən onların arxasında idim, bizim arxamızda da izdiham vardı. Tabutu həzrət Məsumənin məzarı başına dolandırdılar, sonra maşınlara minib Şəhidlər gülzarı məzarlığına yola düşdük.

Bəhmən üçün bir qəbir hazırlamışdılar. Tabutu açıb gülləri hörmətlə qəbrə qoydular. Röya, Mitra və Rəna özlərini öldürürdülər. Mən ayaq tərəfində oturub boş qəbrə, ağ və çəhrayı güllərə baxırdım. Dodaqaltı Allaha şükür edirdim ki, Bəhmənin yerinə o güllər dəfn olunur. Onun dəfn olunmasına dözə bilməzdim. Həqiqətən, əgər oraya Bəhməni qoysaydılar, mən yaşaya bilərdimmi?! Axı ucaboy Bəhmən o kiçik və dar qəbrə necə sığardı?!"

Qayınanam yaxşı deyildi. Anam sinə vururdu. Qohumlarım xuzistanlıların adətincə növhə oxuyurdular. Mən sakit idim, Bəhmənin orada olmadığına sevinirdim. Beynimdən cürbəcür fikirlər keçirdi: atamın ölümü, Şəhriyarın şəhadəti, nişan günümüz, hovuzun yanında qabları yumağımıza kömək edən Şəhid Musəvi... Fikirləşdim ki, Bəhmən bizim yanımızdadır - mənim və uşaqların. Fikirləşdim ki, Bəhmən şəhid olmayıb, qayıdacaq. O məni çox sevirdi. Uşaqlığımızı xatırladım; həmişə saçımı dartır, məni motosikletinə minməyə qoymurdu. Ailə quranda mənə dedi ki, səni uşaqlıqdan sevirəm. Soruşdum ki, bəs nə üçün o qədər incidir, saçımı yolurdun? Gülüb dedi:

"Əgər yox idisə mənə öz meyli,
Nə üçün qabımı sındırdı Leyli?!"

Öz-özümə dedim: "Bəhmən, əminəm ki, indi də uşaqlığın kimi məni incidirsən. Bundan əziyyət çəkdiyimi bilib həzz alırsan. Yaxşı, qəbuldur, bir söz demirəm. Bilirəm ki, məni sevirsən. Yenə məni incit. Yenə qabımı sındır. Yenə qəlbimi qır. Artıq qəlbim sənin və uşaqlarınındır. Olsun! Hər şey qəbuldur, amma qayıt, gəl. Sənin üçün çox darıxmışıq; qara və qəşəng gözlərin üçün, güclü və enli çiyinlərin üçün, geyinəndə hər bir paltar yaraşan uca boyun üçün".

Ayağa qalxıb uşaqlarımı çadramın altına saldım. Səccad Bəhmənin şəkli ilə özünü yaxşı hiss edirdi. Əli deyirdi ki, ata bizə gül göndərib. Səhər də daha deyinmirdi. Məzar güllə dolu idi. Havaya Bəhmənin xoşladığı gözəl ətir yayılmışdı. Ürəyim rahat idi ki, Bəhmən orada uzanmayıb. Fikirləşdim ki, gərək eşitməyim, inanmayım, ümidlə Bəhmənin qayıdacağını gözləyim. Dedim ki, uşaqlar, gedək evimizə. Əli dedi: "Ana, Əhvaza?" Dedim ki, yox, başqa bir evə gedirik. Səccad dedi: "Atamın şəklini gətirim?" Dedim ki, hə, şəkli gətirin. Səhər dedi: "Ata əvvəlcə gülləri göndərib, sonra özü gələcək? Ana, atam nə vaxt gələcək?"

Ürəyimdə Bəhmənə dedim ki, hələ heç nə olmamış uşaqlar səni soruşurlar. Mən bir ömür bunları necə sakitləşdirəcəyəm? Saci ilə nə edəcəyəm? Məzarın yanından qayınanamın, Mitranın və Rənanın ağlamaq səsləri gəlirdi. Fikirləşdim ki, bu mühit necə ağır və acıdır! Orada bir an da qalmağa taqətim yox idi. Məhəmməd dayı bir ağacın altında dayanmışdı, başını

aşağı salıb ağlayırdı. Başdan-ayağa qara geyinmişdi. Ona dedim: "Məni evə aparırsan? Halım pisdir. Axşam yadımdan çıxıb, dərmanımı içməmişəm".

Məhəmməd dayı özünü itirdi, işarə ilə maşınını göstərib dedi: "Get min, mən də ananı tapım".

Anam harada idisə, tez özünü bizə çatdırdı. Səhəri qucağına götürüb Səccadın əlindən tutdu. Maşına mindik. Dönüb oradakı camaata bir də baxdım. Dedim: "Ana, olar ki, biz ev kirayə eləyənə qədər sizdə qalaq?" Anam o qədər ağlamışdı ki, əldən düşürdü. Çadrası toz-torpaqlı, üzü yorğun və kədərli idi. Dedi: "Sənin də, uşaqlarının da qədəmlərinə qurban!"

Fikirləşdim ki, kaş indi Bəhmənin harada olduğunu biləydim! Lakin bir andan sonra qəribə bir sevinc hissi bütün vücudumu bürüdü. Allaha şükür etdim ki, ən azı, məzarda deyil. O anlarda fikirləşmək istəyirdim ki, Bəhmənin cəsədi gəlmədiyinə görə, deməli, şəhid olmayıb.

Anam arxada oturdu, Səccadla Səhər başlarını onun dizləri üstə qoydular. Əli gözünü bayıra dikmişdi. Maşın sürətlə gedirdi. Quru və isti çöllüklər arxamızda qaldı. Şəhərin yaşıl ağacları göründü. Səccadla Səhər anamın dizləri üstə yatmışdılar. Anam "Ya Rüqəyyə" yazılmış lenti Səhərin alnından açıb Əliyə verdi. Əli şüşəni aşağı salıb lenti bayıra tutdu. Lent havada yellənməyə başladı.

Yandakı güzgüdən Əliyə baxırdım. Bir qədər sonra şüşəni qaldırıb irəli əyildi, lenti alnıma bağlayıb başımdan öpdü. Əlimi uzadıb oturacağın arxasından əlini tutdum. Əlimi möhkəm sıxıb ağlamağa başladı.

Anam qucağını açıb Əlini qucaqladı. Əli ona dedi: "Nənə, bizimlə qal, anam çox narahat olur".

Əyilib yenidən Əlinin əlini tutdum və irəli çəkdim. Çətinliklə onu dizlərim üstə oturdub öpdüm. Başını sinəmə qoyub dedi: "Ana, atam daha gəlməyəcək. Mən yuxuda gördüm".

Həzrət Məsumənin məqbərəsinə yaxınlaşırdıq. Əliyə hamilə olduğum günü xatırladım. Onda ürəyim ərik, ləbləbi və kişmiş istəmiş, amma pulumuz olmamışdı. Əlini sinəmə sıxıb dedim: "Məhəmməd, maşını saxlaya bilərsən, uşaqlara  ləbləbi və kişmiş alım?" Məhəmməd dayı maşını saxlayıb yolun o tərəfindəki mağazaya qaçdı. Uşaqlar oyanmışdılar. Səhərlə Səccadın səsi maşını götürdü:

- Məhəmməd dayı, şokolad... şokolad...

Bəhmənin sözü yadıma düşdü. Onda belə demişdi: "Mükafatın həzrət Zəhrada!"

Maşının qapısını açıb dedim: "Ana, gəl gedək, Əliyə turşu və quru ərik alaq".

Uşaqlar sevincək dondurma mağazasına qaçdılar. Səccad qaçanda belindəki tüfəng aşağı-yuxarı gedirdi. Qorxdum ki, Səhərin çadrası ayağına dolaşar. Əli bir əli ilə məndən möhkəm tutmuşdu, o biri əli ilə də gözlərinin yaşını silirdi. Dedim: "Əli, ağlama, atan bizi görüb narahat olur". Yenidən gözlərini silib dedi: "Ana, mən yuxuda gördüm ki, atam daha qayıtmayacaq".

Qərara gəlmişdim ki, nə eşidim, nə də inanım. Dedim: "Hər dəfə ata yadına düşəndə onun üçün bir salavat de. Onda o da bizi düşünəcək. Ata bizi az istəmir. O həmişə bizə görə narahat idi. İndi gedək,

sənə ləbləbi və kişmiş alaq". Gözlərini sildi, ətrafına baxıb dedi: "Kaş atam da burada olaydı! Atamsız bir şey yeyəndə məni ağlamaq tutur".

Özümü möhkəm saxlamışdım ki, ağlamayım. Dodaqaltı Bəhməni xatırlayıb salavat dedim.

Anamın uşaqlıq xatirələri yadıma düşdü. Anası həyatının son dəqiqələrində onu necə yaxşı sakitləşdiribmiş! Dedim: "Əli can, ata Sacinin yanına getdi ki, tək qalmasın, darıxmasın. Bizim kimi Saci də ata üçün darıxırdı".

Əli bir söz demədi. Mən rahatlaşdım. Dedim: "Ata Sacinin yanında, ana sizin yanınızda. Qəbuldur?" Əli mənə baxıb gülümsədi və dedi: "Qəbuldur".

Anamla gedib iri qədəhlərini çərəzlə doldurmuş bir mağazadan Əliyə ləbləbi, kişmiş, turşu və quru ərik aldıq. Uşaqlar bir qədər aralıdakı dondurmaçının metal stullarında oturmuş, bizə də yer saxlamışdılar. Səccad qışqırırdı: "Anam mənim yanımda otursun". Səhər qışqırırdı: "Xeyr, anam mənim yanımda oturacaq".

Boş stulların birində oturdum. Səccad bir tərəfimdə, Səhər də o biri tərəfimdə qaldı. Əli Bəhmənin şəkil çərçivəsini yandakı stulun üstünə qoydu. Tavan ventilyatorunun sərin küləyi üz-başımızı sığallayırdı. Məhəmməd dayı bir sini dondurma və faludə ilə bizə doğru gəlirdi. Anam uşaqların ciblərini çərəzlə, kişmiş və ləbləbi ilə doldururdu. Gözüm Əliyə sataşdı: dodaqaltı salavat deyirdi.